AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI

M.N.QULUZADƏ

# AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİ

## Dərslik

B a k ı - 2 0 1 5

**Tərtib edən:** **Quluzadə Musa Nizam oğlu**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrasının professoru, tarix üzrə elmlər doktoru, Əməkdar müəllim

**Elmi redaktor:** **Mahmudov Yaqub Mikayıl oğlu**
A.A.Bakıxanov adına AMEA-nın "Tarix" institutunun direktoru, MEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi

**Rəyçilər:** **Süleymanova Sevda Yunis qızı**
BDU-nun professoru, tarix üzrə elmlər doktoru

**Əhmədova Firdovsiyyə Firdovsi qızı**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent

***Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir.***

***Heydər Əliyev***

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**(Sözləri – Əhməd Cavadın**
**Musiqisi – Üzeyir Hacıbəylinin)**

**Azərbaycan, Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üç rəngli bayrağınla məsud yaşa!**

**Minlərlə can qurban oldu!**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər,**
**Hərə bir qəhrəman oldu!**

**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**

**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə gənclər müştaqdır!**
**Şanlı Vətən, Şanlı Vətən,**
**Azərbaycan, Azərbaycan!**

## DÖVLƏT BAYRAĞIMIZ

**Göy rəng – türklüyü bildirir**

**Qırmızı rəng – çağdaşlığın rəmzidir**

**Yaşıl rəng – islamın simvoludur**

**Aypara – hakimiyyət rəmzidir**

**Ulduz – parlaqlıq, yüksəliş simvoludur**

## DÖVLƏT QERBİMİZ

**Göy rəng – türklüyü bildirir**

**Qırmızı rəng – çağdaşlığın rəmzidir**

**Yaşıl rəng – islamın simvoludur**

**Alov – Azərbaycanın rəmzidir**

**Sünbül – bolluğun, rifahın rəmzidir**

**Palıd – sülhün simvoludur**

**Qalxan – qorunmağın rəmzidir**

# Giriş

Azərbaycan xalqının tarixi kimi onun dövlətçilik tarixi də çox qədimdir. Xalqımızın dövlətçilik tarixinin yaşı 5 min ildən çoxdur. Azərbaycan ərazisində meydana gəlmiş dövlət qurumları zaman keçdikcə inkişaf etmiş, ictimai-iqtisadi formasiyalar dəyişdikcə dövlətlərin də siyasi quruluşları, idarəçilik formaları dəyişmişdir. Belə ki, hər bir sinfi ictimai-iqtisadi formasiyaya dövlətin müəyyən tarixi tipi uyğun gəlir. Başqa sözlə, dövlət tarixin müəyyən inkişaf pilləsində cəmiyyətin məhsuludur.

Xalqımızın dövlətçilik tarixi göstərir ki, Azərbaycan xalqı bütün sahələrdə olduğu kimi dövlətçilik sahəsində də tarix boyu dünya sivilizasiyasından ayrı düşməmiş, öz dövlətçiliyini inkişaf etdirmiş, dövlət ənənələrini qoruyub saxlamış, təkmilləşdirmişdir.

Azərbaycan dövlətçilik tarixində də tarixi uyğunluluq, sadədən aliyə doğru bir harmoniya hökm sürür.

Bildiyimiz kimi, hər bir dövlətin yaranması tarixi kateqoriyadır. Dövlət əvvəlcə yaranır, inkişaf edir, mərhələdən-mərhələyə keçir, yüksəlir. Dövlət inkişaf etdikcə, yaşadıqca dövləti yaşadan, irəli aparan məhsuldar qüvvələr də inkişaf edir, yeni-yeni təcrübələr, idarəçilik formaları, istehsal qaydaları kəsb edir. Təbii ki, bu inkişaf son mərhələdə dövlətin bir formadan, digər formasına keçməsinə səbəb olur. Bu proses daimidir.

Azərbaycan xalqı öz tarixi ərzində Manna, Atropatena, Albaniya, Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Atabəylər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, xanlıqlar, Azərbaycan Xalq Cümhuriyyəti, Sovet hakimiyyəti kimi nə qədər dövlət nümunələri görüb. Ulu xalqımızın, Vətənimizin başı üzərində nə qədər rəngbərəng, müxtəlif biçimli dövlət bayraqları dalğalanıb. Bunlar tariximizin dünya dövlətçilik tarixinə yazdığı səhifələrdir. Hər bir xalqın öz dövlətinin olması xoşbəxtlikdir.

Bu vaxta kimi dövlətin bir çox tipi məlumdur: quldarlıq, feodalizm, kapitalizm, sosializm. Dünya praktikasına əsaslanaraq demək olar ki, bir-birini əvəz edən dövlət tipləri əsasən inqilablar yolu ilə baş vermişdir.

Azərbaycan dövlətçiliyi demək olar bütün tarixi dövlət tiplərini yaşamışdır. Bu özü də tarixi bir prosesdir, tarixi bir zərurətdən doğmuşdur.

Hər bir dövlət tipində o dövlətin ictimai-siyasi quruluşuna uyğun dövlət idarəçilik forması yaranır. Hər bir dövlətin inkişafı və çiçəklənməsində idarəçilik prinsiplərinin, idarəçilik məsələlərinin öz rolu olmuşdur. Dövlət varsa orda idarəçilik də olmuşdur. Uzun bir dövr dövlətçiliyimizdə idarəçilik məsələlərinin öyrənilməsi tariximizin bir hissəsi kimi olduqca əhəmiyyətlidir.

Bütün dövlətlərdə olduğu kimi Azərbaycan dövlətlərində də idarəetmə cəmiyyətin inkişafı ilə əlaqədar olaraq, ictimai-siyasi sistemlər dəyişdikcə təcrübə qazanmış və inkişaf etmişdir. Başqa sözlə, sadəcə, bir nəfərin hökmranlığından məqsədyönlü idarəetmə aparatının yaradılmasına doğru uzun bir yol keçmişdir. Bu cür idarəetmə cəmiyyətin və təbiətin obyektiv qanunlarını, sosial-iqtisadi inkişafın, dünya dövlətlərinin idarəçilik təcrübələrini nəzərə almaqla yaradılır.

Bu gün bizim müstəqil dövlətimiz vardır. Azərbaycan Respublikasında dövlət idarəçiliyi həm milli dövlətçilik ənənələrimizə, həm də sivil dünya dövlətlərinin idarəçilik forma və metodlarına söykənir.

Müstəqil Azərbaycan Respublikasının memarı Ümummilli lider Heydər Əliyev respublikada idarəçilik məsələləri ilə daim maraqlanır və onun inkişafı üçün daima səy göstərirdi.

Azərbaycan müstəqillik qazandıqdan sonra dövlətçilik tarixinin öyrənilməsi istiqamətində müəyyən addımlar atılmışdır. Tarix və hüquq sahələrində çalışan alimlərimiz müəyyən işlər görmüşlər. Bunlardan görkəmli tarixçi alim Y.Mahmudovun "Azərbaycan: qısa dövlətçilik tarixi" (Bakı, 2005); S.Səlimov və R.Ələkbərov "Azərbaycanın dövlət və hüquq tarixi" (Bakı, 2007) kitablarını göstərmək olar. Müəllif Rusiyada, Azərbaycanda nəşr olunmuş belə əsərlərdən yaradıcılıqla istifadə etmişdir.

Yeri gəlmişkən demək lazımdır ki, son dövrlərə kimi dövlət idarəçiliyi tarixi demək olar ki, öyrənilməmiş, diqqətdən kənarda qalmışdır. Ancaq min illər yaşamış, fəaliyyət göstərmiş Azərbaycanda dövlətin idarə olunması məsələlərini öyrənmək olduqca vacib və zəruridir. Təkcə Azərbaycanda deyil, keçmiş Sovet İttifaqında da dövlət idarəçiliyi tarixi barəsində tədqiqatlar və kitablar çox azdır. Bütün bunlar müəllif üçün çox böyük çətinliklər yaratmışdır. Buna baxmayaraq bu kitab inanırıq ki, dövlətçiliyimizin uzaq keçmişindən indiyidək dövlət idarəçilik tarixini öyrənənlər üçün hər halda əsas vəsait ola biləcəkdir.

## Azərbaycanın dövlətçilik tarixinin predmeti

Azərbaycanın dövlətçilik tarixi Azərbaycan tarix elminin tərkib hissəsidir. Bu elm Azərbaycan cəmiyyətinin keçib gəldiyi ictimai fikir tarixi və eləcə də məhsuldar qüvvələrin inkişaf tarixidir, mədəniyyət tarixidir və s. Azərbaycan dövlətçilik tarixinin predmeti müstəqil elm kimi dövlətin meydana gəlməsi, onun inkişaf qanunauyğunluqlarını, cəmiyyətin hər hansı tarixi pilləsində rolunu və yerini göstərməkdir.

Dövlətçilik tarixi dövlət nəzəriyyəsinə yaxındır. Belə ki, bunların hər ikisi dövlətin yaranması, onun inkişaf mərhələlərini öyrənir. Ancaq fərqli cəhətlər də vardır. Dövlət nəzəriyyəsi müxtəlif tipli dövlətlərin qanunauyğunluğunu aydınlaşdırırsa dövlətçilik tarixi təkcə qanunauyğunluğu öyrənmir, o həm də konkret dövlətin xüsusiyyətlərini öyrənir. Məsələn, vətənimizdə dövlətin yaranması, inkişaf mərhələləri ilə Azərbaycan tarixi də məşğul olur. Lakin Azərbaycan dövlətçilik tarixi bütövlükdə hadisələri deyil, yalnız dövlət və cəmiyyətin quruluşu ilə bağlı müddəaları araşdırır, təhlil edir.

Azərbaycanın dövlətçilik tarixi ta qədim zamanlardan bu günə kimi Azərbaycanın sərhəd hüdudlarında yaranmış və tərəqqi etmiş dövlətlərin tarixini öyrənir.

Azərbaycanın dövlətçilik tarixi qarşısında duran əsas vəzifələrdən biri xalqımızın tarixinə, dilinə, mədəniyyətinə xüsusən də dövlətçiliyimizə düşmənlərimiz tərəfindən hər zaman atılmış böhtanları, həqiqət güzgüsündə tarixi faktlarla qara ləkələrdən təmizləməkdir. Çox vaxt daxili biganəliyimiz üzündən bu boyalar, ləkələr daha da tündləşdirilmişdir. Nəticədə Qərbdə və Şərqdə bir çox saxtalaşdırıcılar dövlətçilik tariximizə “despotizm”, “özgə dövlətlərdən asılı” damğası vurmağa çalışaraq, hadisələrə qeyri elmi yanaşmışlar. Çox təəsüflər olsun ki, bu proses bu gün də davam edir.

Alimlərimizin elmi araşdırmaları sübut edir ki, Azərbaycan dövlətçiliyinin özünəməxsus yolu, idarəçilik təcrübəsi olmuşdur.

Hazırda Azərbaycan dövlətçilik tarixi ölkəmizdə inzibati idarəetmə ilə bağlı təhsildə əsas fənnlərdən biri kimi mühüm baza rolunu oynayır. Azərbaycan dövlətçilik tarixinin öyrənilməsi müstəqil, suveren respublikamızın əhəmiyyətinin qiymətləndirilməsinə və gələcək inkişafı üçün proqnozların verilməsinə imkanlar yaradacaqdır.

## Azərbaycanın dövlətçilik tarixinin metodu

Dövlət tarixinin metodu haqqında danışarkən dövlətçilik tarixi necə öyrənilir sualına aydınlıq gətirilməlidir.

Dövlətin meydana gəlməsi, onun əlaqələri, qarşılıqlı münasibətləri, arasıkəsilməz hərəkət və inkişafı dialektik qanunlar əsasında öyrənilir.

Azərbaycan dövlətçilik tarixini işıqlandırarkən biz bir həqiqətə söykənirik ki, cəmiyyətin tarixi ictimai-iqtisadi formasiyalarını qanuna uyğun şəkildə əvəzlənməsinin inkişaf tarixidir; əlbəttə, istehsal bacarığı ictimai inkişafın əsas müəyyənləşdirici amilidir. Biz iqtisadi bazisdən çıxış edərək və cəmiyyətin formalaşmasında qarşılıqlı hərəkətlərində tarixən sinfi mübarizənin rolunu, sosial inqilabların mahiyyətində xalq kütləsinin ictimai inkişafda aparıcı qüvvə olduğunu bir daha görürük.

Dünyanın hər yerində olduğu kimi vətənimizdə də dövlətçilik insan cəmiyyətinin ümumi qanunauyğunluğu əsasında meydana gəlmiş, inkişaf etmiş və inkişaf etməkdədir.

Dövlətin meydana gəlməsi və inkişafı cəmiyyətin istehsal üsulu ilə əlaqədə, ictimai-iqtisadi formasiyaların, antaqonist siniflər və onların mübarizəsi nəticəsində baş verir.

Dövlət nəzəriyyəçiləri çox haqlı olaraq göstərir ki, dövlətin inkişafı cəmiyyətdə antaqonist siniflərin mübarizəsi ilə sıx bağlıdır. Antoqonist siniflərin meydana gəlməsi, onların mübarizəsi dövlət həyatına həmişə bir yenilik gətirir. Azərbaycan dövlətçilik tarixini öyrənərkən bir şeyi nəzərə almaq lazımdır ki,

antaqonist siniflər arasında baş verən mübarizələr nəticəsində dövlətin daxilində istismarçı siniflərin tiplərinin burjuaziya, sahibkar, ağa, bəy və s. dəyişməsinə səbəb olmuşdur. Tarix göstərir ki, sinfi mübarizə, xalqın istismar olunan hissəsinin istismarçılara qarşı mübarizəsində siyasi yeniləşmə vardır ki, bu da son halda bütün bu kimi yeniləşmələrin taleyini həll edir.

Bu o deməkdir ki, xalq kütlələrinin Azərbaycan dövlətçiliyinin inkişafında böyük rolu vardır. Belə ki, tarixən xalq kütlələrinin çıxışları əsaslı surətdə Azərbaycanda feodal dövlətlərinin inkişaf və formalarına təsir etmişdir.

Azərbaycan xalqının çoxəsrlik tarixi işğalçılara və yadelli istismarçılara qarşı qəhrəmanlıq mübarizəsi ilə zəngindir.

Azərbaycan azadlıq mübarizəsinin parlaq səhifələrindən biri Ərəb Xilafətinə qarşı 60 ildən artıq davam etmiş Xürrəmilər hərəkatıdır. Xürrəmilər cəmiyyətdəki bütün ədalətsizliklərin kökünü sosial bərabərsizliklərdə görürdülər. Xürrəmilərin əsas şüarı torpağı və istehsal vasitələrini xalqın ixtiyarına vermək idi.

Xürrəmilər hərəkatının ən parlaq səhifəsi 20 il davam etmiş Babək hərəkatı olmuşdur. 816-836-cı illərdə azadlıq və sosial ədalət uğrunda aparılan mübarizənin təkcə Azərbaycan üçün deyil, qeyri ölkələr və xalqlar üçün də böyük əhəmiyyəti olmuşdur. Belə ki, Babək hərəkatı nəticəsində Xilafət əsaslı şəkildə laxladı. Azərbaycanda bir sıra müstəqil xırda feodal dövlətlər meydana gəldi.[1]

XVIII əsrin birinci yarısında Azərbaycandakı aramsız çıxışlar Azərbaycan da daxil olmaqla bütün İranda Nadir şah hakimiyyətinin süqutuna səbəb olmuşdur.

XX əsrin əvvəllərində Rusiya çarizmini lərzəyə salan əsas qüvvələrdən biri də Bakı başda olmaqla Azərbaycanın bir sıra yerlərindəki ümumxalq çıxışları idi.

1917-ci ildə Rusiyada Oktyabr çevrilişi Azərbaycanda milli hərəkatın yüksəlməsinə səbəb oldu. Nəticədə 1918-ci ilin mayında Şərqdə ilk Demokratik Cümhuriyyət - Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Bu, əsl xalq hakimiyyəti

[1] Azərbaycan tarixi. Bakı, 1994, səh. 269

idi. Cümhuriyyətdə ilk gündən xalqın dininə, dilinə, adət-ənənəsinə hörmət və diqqət yarandı.

Azərbaycan dövlətçilik tarixi tarixilik metodundan istifadə edərək dövləti zamanla dəyişən, inkişaf edən bir hadisə kimi araşdırır.

Son illər Azərbaycan dövlətçilik tarixinə maraq artmış, həm də vətənimizdə tarixən təşəkkül tapmış dövlətlərin tarixi yaxın Şərq və qonşu dövlətlərlə müqayisəli şəkildə öyrənilməyə cəhd edilmişdir.

## Dövlətçilik tariximizin mərhələləri

Azərbaycan dövlətçilik tarixi xronoloji ardıcıllıqla öyrənilir. Burada Azərbaycan dövlətçiliyi elmi əsasda mərhələlərlə araşdırılır. Həm də bu qanunauyğunluqla gedən inkişaf mərhələləri ilə izlənilir. Bu mərhələlərdə ictimai-iqtisadi formasiyalara uyğun dövlət tipləri əks olunur. Bununla əlaqədar olaraq vətənimizdə dövlət tipləri ayrılır: quldarlıq, feodalizm, kapitalizm və sosializm.

İbtidai icma cəmiyyətində siniflər olmadığına görə dövlət də olmamışdır. Hər bir tarixi dövlət tipinin özülünün yaranması, inkişafı və sıradan çıxması qanunauyğunluğu vardır. Yəni ictimai-iqtisadi formasiyanın dəyişməsi yeni formasiyaya uyğun dövlət tipi əmələ gətirir.

Dövlətdə siniflərin dəyişməsi həmişə sosial inqilabların nəticəsində baş verir və həmişə də hakimiyyətə yeni siniflər gəlir, dövlətin sinfi mahiyyəti dəyişir, yeni tipli dövlət yaranır. Dövlətin daxili tipi bütün sahələrdə yeni inkişaf mərhələsi əmələ gətirir.

Dövlətin başlıca əlamətləri özündə aşağıdakı xüsusiyyətləri əks etdirir:

1. Xüsusi orqanlar və idarə sisteminin mövcudluğu;
2. Hüquq, yəni dövlət tərəfindən müəyyən olunan, təsdiq edilən məcburi davranış qaydaları;
3. Müəyyən əraziyə malik olmaq.

Vətənimizin ərazisində ilk dövlət təbii ki, quldarlıq dövləti olmuşdur. Vətənimizin ərazisində ilk dövlət qurumları Azərbaycanın cənubunda təşəkkül tapmışdır. Bu onunla əlaqədar idi ki, Mesopotamiya – İkiçayarası deyilən ərazi bəşəriyyətin ilk məskənlərindən və sivilizasiyasından biri olan bu yerlər vətənimizin cənub ərazilərinə yaxın idi. Buna görə də İkiçay arasında yaranan mədəniyyət, iqtisadi və siyasi, hüquqi yeniliklər yaxın ərazilərdə yaşayan insan birliklərinin məişətinə daxil olurdu. Azərbaycanın cənub ərazilərində dövlətin meydana gəlməsi də həmin proseslərin məhsulu idi.

Beləliklə, sinifli cəmiyyətin yaranması prosesi Cənubi Azərbaycanda e.ə. IV minilliyin sonu III minilliyin əvvəlində başlamışdı. Cənubi Azərbaycanın qərb torpaqları İkiçayarasının quldar cəmiyyətinə yaxın olduğundan orada baş verən iqtisadi-ictimai dəyişikliklər buraya da təsir göstərmişdir. Tayfa birlikləri Aratta, Lullubi, Kuti, Su və Turukki olmuşdur.

İlk quldarlıq dövlət qurumları Azərbaycan ərazisində  Manna, Atropatena və Aldbaniya olub.

Dövlətin ikinci tarixi tipi feodal quruluşu olmuşdur. Azərbaycan feodal dövlətində idarəçilik forması mütləq monarxiya idi.

Uzun bir dövr Azərbaycan tarixinə, xüsusən də Azərbaycanın dövlətçilik tarixinə dövlət səviyyəsində laqeyd münasibət hökm sürmüşdür. Çox vaxt tariximizin öyrənilməsi məsələlərilə özgə xalqların nümayəndələri məşğul olmuşlar. Azərbaycan tarixi elmi baxımdan XIX əsrdən öyrənilməyə başlamışdır.

Azərbaycan dövlətçilik tarixi isə yalnız son dövrdə, yəni Azərbaycan müstəqillik qazandıqdan sonra tədqiqat obyekti olmuşdur.

Dövlətçilik tariximiz xronologiya əsasında dövrlər üzrə araşdırılır. Dərslikdə Azərbaycanın dövlətçilik tarixinin dövrləşdirilməsi ictimai-iqtisadi formasiyalar üzrə aparılır.

Azərbaycanda ilk mərkəzləşmiş quldar dövləti Manna olmuşdur.

Quldarlıq dövlətini əvəz etmiş feodalizm III əsrdən Azərbaycanda bərqərar olmuşdur. Quldarlıq quruluşuna nisbətən feodal istehsal üsulu cəmiyyətin

həyatında yeni və mütərəqqi idi. Dərslikdə Azərbaycan ərazisində meydana gəlmiş, bir-birini əvəz etmiş feodal dövlətləri haqqında geniş məlumat verilir.

IX-X əsrlərdə Azərbaycanın müxtəlif yerlərində Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Dərbənd Haşimi əmirliyi, Sünik və Arsax-Xaçın knyazlıqları, Şəki hakimliyi və s. dövlətləri ayrı-ayrılıqda fəaliyyət göstərirdilər. Onların dövlət quruluşları azacıq fərqlə, demək olar ki, VII-VIII əsrlərdə mövcud olmuş feodal dövlətlərin siyasi quruluşuna bənzəyirdi.

İnkişaf etmiş feodalizm dövründə Azərbaycanda "Atabəylər dövləti" yarandı, ölkə səlcuq sultanları, valilər, hərbi başçılar və əmirliklər arasında paylandı, "vəliəhd" elan edilən şahzadənin tərbiyəçisi mənasını daşıyan "atabəy" ləqəbi hökmdarın ali tituluna çevrildi.

Azərbaycanın dövlətçilik tarixində "Atabəylər dövləti"nin xüsusi yeri vardır.

Dərslikdə hər dövrə aid dövlətçiliyimizin quruluşunda, idarəçiliyində yeniliklər izlənilir.

XIII-XIV əsrlərdə Azərbaycanda monqol əsarəti hökm sürmüşdür: ölkədə Hülakülər, Çobanilər, Cəlairlər idarəçiliyi yaranmış, bununla belə müstəqil Şirvanşahlar dövləti və Arsak-Xaçın knyazlığı öz fəaliyyətlərini davam etdirmişlər.

Heç şübhəsiz, XV əsrin də dövlətçiliyimizdə öz yeri vardır. Belə ki, bu əsrdə Qaraqoyunlu (1410-1467) və Ağqoyunlu (1468-1501) kimi dövlətlər meydana gəlmiş, fəaliyyət göstərmiş. Şirvanşahlar dövləti isə (VI-XVI əsrlər) uzun bir dövr öz mütsəqilliyini qoruyub saxlamışdır.

Azərbaycan dövlətçilik tarixində I Şah İsmayılın qurduğu Səfəvilər dövlətinin müstəsna yeri vardır. Tarixdə ilk dəfə Azərbaycanın bütün ərazisi bir dövlətin tərkibində mərkəzləşdirildi.

Dərslikdə Səfəvilər dövləti vahid milli dövlətçiliyimiz, xanlıqlar dövrü isə - XVIII əsrdə Azərbaycan feodal pərakəndəliyi kimi xarakterizə olunur.

Sonrakı dövrdə Azərbaycan xanlıqları XIX əsrin ilk onilliklərində Rusiya-İran arasında savaş nəticəsində ləğv edildi və vətənimiz bu iki dövlət arasında iki yerə parçalandı. Bu hadisə nəticəsində təkcə torpağımız deyil, xalqımız da iki yerə

bölündü. Tarixdə görünməmiş belə amansız rəfdarın, haqsızlığın nəticəsində “Şimali və Cənubi Azərbaycan” məfhumu yaranmışdı.

XIX əsrin ikinci yarısında Rusiyanın müstəmləkəsi olan Şimali Azərbaycanda kapitalist münasibətləri inkişaf etməyə başlayır. Kapitalist istehsal üsulu feodal üsulunu həm şəhərdə, həm də kənddə sürətlə əvəz etməyə başlayır. Rusiyada feodal istehsal üsulunun kapitalist istehsal üsulu ilə əvəz olunması, Rusiya imperiyasının ucqarlarından biri olan Azərbaycanda da kapitalist iqtisadi münasibətlərinin yaranmasına səbəb oldu. Kapitalizm XX əsrin əvvəllərində özünün ən yüksək pilləsinə çatdı.

Rusiyada baş verən burjua-demokratik inqilablar (1905-ci il, fevral 1917-ci il) Rusiyada feodal dövlətinə son qoyur və feodal dövləti inqilablar nəticəsində burjua konstitusiyalı monarxiyasına doğru bir addım atır. Nəticədə Mütləqiyyət 1905-1907-ci illər inqilabının təzyiqi altında Manifest (17 oktyabr 1905-ci il) verməyə məcbur oldu. Qanunverici orqan kimi Dövlət Dumasını yaratdı. Rusiyanın Dövlət Dumasına Azərbaycandan da  az da olsa nümayəndə seçilmişdi.

1917-ci il Fevral burjua-demokratik inqilabı Rusiyada feodal tipli dövlətin varlığına son qoydu. Nəticədə, Fevral burjua-demokratik inqilabı Rusiyada 1917-ci il fevralın sonu martın əvvəlində tarixdə çox az təsadüf edilən ikihakimiyyətlik: Müvəqqəti hökumətin timsalında burjua hakimiyyəti və fəhlə, əskər və kəndli deputatları Sovetləri timsalında fəhlə-kəndli hakimiyyəti quruldu. Ancaq həmin ilin iyulunda ikihakimiyyətliyə son qoyuldu və burjuaziyanın diktaturası quruldu.

Analoji olaraq o vaxt Bakıda da fəhlə, əskər və kəndli Sovetləri yarandı.

1917-ci il Oktyabr çevrilişi Rusiyada, eləcə də Azərbaycanda burjua hakimiyyətinə son qoydu. Prinsipcə özünə qədərki bütün dövlət tiplərindən fərqlənən sosialist tipli dövlət yarandı. Hakimiyyətə başda V.İ.Lenin olmaqla bolşeviklər gəldilər. Bolşevik hökuməti 1917-ci ilin noyabrında Rusiyanın bütün xalqlarına öz müqəddəratını müəyyənləşdirmək hüququ verdi. Bu imkandan bəhrələnən Azərbaycanın o vaxtkı Duma üzvləri və vətənpərvər ziyalıları 1918-ci ilin may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətini yaratdılar. Cəmi 23 ay ömür sürmüş AXC Şərqdə ilk demokratik respublika idi.

Bolşeviklər heç vəchlə Bakını əldən vermək istəmirdilər. 1920-ci il aprelin 28-də Rusiyanın bolşevik ordusu tərəfindən şəhər işğal edildi. Azərbaycanda Sovet hakimiyyəti quruldu.

Azərbaycanın o dövrdəki dövlətçilik tarixini belə dövrləşdirmək olar: Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər); Azərbaycanda sovet hakimiyyətinin qurulması, Azərbaycan SSRİ tərkibində (1920-1930-cu illər); Azərbaycan dövləti Böyük Vətən müharibəsi dövründə (iyul 1941-1945-ci illər); Azərbaycan dövləti müharibədən sonrakı bərpa illərində (1945-50-ci illərin ortaları); Azərbaycan dövləti SSRİ-nin tərkibi kimi ictimai inkişafın ləngiməsi illərində ( ötən əsrin 60-cı-80-ci illərin ortaları); Azərbaycan dövləti SSRİ-də yenidənqurma və onun dağılması dövründə (1985-1991-ci illər); SSRİ-nin dağılması, Azərbaycanın Müstəqillik qazanması və Azərbaycan dövləti bazar iqtiadiyyatı dövründə (1991-hazırkı dövr).

## Dövlətin meydana gəlməsi.
## Dövlət nədir?

Dövlətin meydana gəlməsi barəsində hələ eradan çox öncə böyük fikir dühaları söz söyləmiş, dövlətin nə zaman və necə meydana gəlməsi məsələsinə öz münasibətlərini bildirmişlər. Onlar həm də dövlətin nə üçün, hansı məqsədlə yarandığı haqqında da fikir söyləmişlər.

Dövlətin meydana gəlməsi, onun mənşəi haqqında antik tarixdən tutmuş bu günə kimi müxtəlif fikir və mülahizələr olmuşdur. Hərə dövləti bir cür qiymətləndirmiş, ona öz düşüncəsi baxımından tərif vermişdir. Antik yunan filosofu Platon "Dövlət" əsərində dövlətin yaranmasını ictimai əmək bölgüsünün meydana gəlməsi ilə şərtləndirir. Platona görə ictimai əmək bölgüsü yaranmasaydı, yəni cəmiyyət üzvləri arasında mənafeləri toqquşan qruplar, təbəqələr yaranmasaydı, dövlət də meydana gəlməzdi.

"Siyasət", "Afina siyasəti", "Etika" əsərlərinin müəllifi Aristotelin fikrincə, dövlət təbii inkişafın məhsuludur, yəni tarixi kateqoriyadır.

Orta əsrlərdə yaşamış ərəb filosofu İbn Xaldun da Aristotelin dövlət haqqında fikrinə oxşar fikir söyləmişdir. İbn Xalduna görə dövlət "sivilizasiyanın göstəricisi, forması, meyarı və təzahürü"dür.

Dövlət haqqında deyilən bütün bu fikirləri ümumiləşdirib demək olar ki, dövlət müəyyən inkişaf mərhələsində cəmiyyətin məhsuludur. Bu da təbii ki, sinifli cəmiyyətin meydana gəlməsiylə, cəmiyyətdə əksliklərin mübarizəsinin qarşısını almaq, bu qarşıdurmadan xilas olmaq üçün görünür cəmiyyətdən yüksəkdə duran bir qüvvə lazım olmuşdur. F.Engelsin dediyi kimi, "cəmiyyətdən törəyən lakin özünü cəmiyyətdən yüksəkdə tutan, özünü cəmiyyətdən getdikcə daha çox dərəcədə ayıran həmin qüvvə dövlətdir".

Dövrünün görkəmli tarixçisi olan yunan Polibi (e.ə. 210-128) "Qırx kitabdan ibarət tarix" əsərində Aristotelin fikrinə yaxın olaraq dövlətin yaranması və dövlət

formalarının dəyişməsini təbii proses kimi qeyd edirdi. Polibi dövlətin 6 formasını göstərirdi: çarlıq, tiraniya, aristokratiya, oliqarxiya, demokratiya, oxlokratiya.

Qədim Romanın məşhur natiqi və dövlət xadimi Mark Siseron (e.ə. 106-43) “Dövlət haqqında”, “Qanunlar haqqında” adlı əsərlər yazmış və bu əsərlərdə o, dövləti xalqın işi və onun nailiyyəti kimi göstərir. Ona görə dövlətin yaranmasında insanların anadangəlmə birgə yaşayışına olan tələbat əsas rol oynamışdır.

Siseron idarəetmənin üç formasını: çar hakimiyyətini, ontimatların hakimiyyətini (aristokratiya) və xalq hakimiyyətini (demokratiyanı) göstərirdi. Hər üç idarəetmə formasında ayrı-ayrılıqda çatışmamazlıq görən alim bu çatışmamazlıqları aradan qaldırmaq üçün “qarışıq dövlət” formasını irəli sürürdü.

Sonralar orta əsrlərdə Şərqin daha bir çox görkəmli alim və siyasətçiləri dövlət haqqında, onun meydana gəlməsi, dövlətin fəaliyyəti məsələlərinə dair əsərlər yazmış, fikirlər söyləmişlər. Onlardan ərəb filosofu Əl Fərabi (870-950), İbn Xaldun (1332-1406) və b. göstərmək olar.

Orta əsr alimlərinin dövlət haqqındakı fikirlərinə diqqət etdikdə aydın görmək olur ki, hər bir alim öz dövrünə, yaşadığı mühütə görə dövlətə qiymət verir və mənalandırır.

İbn Xaldunun fikrincə, dövlət məcburetmə, zor və qorxu qüvvəsidir. Ancaq onunla bərabər, dövlətdə hökmdar “Hökmü mütləq” olsa da orada bütün insanların, yəni təbəqələrin də nəbzi vurur. Dövlət müəyyən zaman müddətinə mövcud olur və sonra forma və məzmunca dəyişilir. Bu, dövlətdə də dialektik qanunların mövcudluğunun olması deməkdir. Burada V əsrin II yarısında yaşamış faciə şairi Aqafonun dediyi sözlər yada düşür: “hökmdar 3 şeyi yadında saxlamalıdır: birincisi - o, insanları idarə edir, ikincisi – qanunlar ona allah tərəfindən verilib, üçüncüsü – hakimiyyət əbədi deyil”.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, sonralar da bir çox filosof və dövlətşünaslar dövlətin zor, güc aləti olduğunu göstərmişlər.

Xacə Nizamülmülk (1017/18-1092) də dünyada məşhur olan əsəri “Siyasətnamə”də XI əsrdə Səlcuqilər dövrünün ictimai-siyasi, dövlət quruluşu

haqqında təkcə qiymətli məlumat vermir, həm də dövlət haqqında, hökmranlıq və dövlətin idarəçiliyində yeni fikirlər irəli sürmüşdür.

Nəsrəddin Tusi (1201-1274) "Əxlaqi-Nasiri" əsərinin ikinci və üçüncü məqalələrində (bunlar əslində fəsil mahiyyəti daşıyır), "evdarlıq" (ailə quruluşu), "ölkədarlıq" (dövlət quruluşu) kimi son dərəcə mühüm məsələlərdən danışılır. Dövrünün dövlətçilik məsələlərinə dərindən bələd olan Nəsrəddin Tusi cəmiyyətdə ictimai əmək bölgüsünün zəruriliyini əsaslandırmağa çalışır. O yazır: "Dünyanın intizamı, məişətin nizamı əməklə hasilə gəldiyindən, insan növü ilə əməksiz yaşaya bilmədiyindən əməkköməksiz, kömək isə ictimasız ola bilməz. Deməli, insan növü öz təbiəti ilə ictimaya möhtacdır".

Dövlətin inkişafında Tusi fəlsəfəsinə görə "dörd ünsür" həlledici rol oynayır. Burada dörd ünsür özünü "dörd sinif", "dörd təbəqə" kimi anlanılır. Tusiyə görə dövlət yalnız ədalət əsasında uzun müddət yaşaya bilər. Ədalətin bir neçə şərti vardır. Birinci şərt odur ki, xalqın bu dörd təbəqəsi arasında uyğunluq yaradılsın.

Böyük alimə görə bu dörd sinif (təbəqə) "qələm əhli", "qılınc əhli", "müamilə əhli" və "ziraət əhli"dir.

Tusi qələm əhli deyərkən – ziyalıları, "qılınc əhli" deyərkən – hərbçiləri, "müamilə əhli" deyərkən – tacir, sənətkarlar, vergi toplayanları, "ziraət əhli" deyərkən - əkinçilər, bağbanlar, maldarlar və s. nəzərdə tuturdu. Maraqlı burasıdır ki, bu ictimai təbəqələri müəllif təbiətdəki dörd ünsürlə müqayisə edərək birinciləri, yəni "ziyalıları" – suya, ikinciləri, "hərbçiləri" – oda, üçüncüləri, yəni "müamilə ilə məşğul olanları" – havaya, dördüncüləri, yəni "kənd təsərrüfatı ilə məşğul olanları" – torpağa oxşadır və deyir: "Bu dörd dəstə birgə, əlbir ahəngdar fəaliyyət göstərdikdə mədəniyyət, fəzilət və səadət sistemi əmələ gəlir".

Dövlətin inkişafının dayanması səbəbini həmən bu şərtlərin yerinə yetirilməməsində görən Tusi, belə işlərin baisi olan hökmdarları tənqid edirdi. Belə hökmdarların gec-tez öz dövlətlərini məhvə apardıqlarını söyləyirdi.

Sonrakı dövrlərdə də dövlət haqqında, onun əmələ gəlməsi, fəaliyyəti, funksiyaları haqqında yeni-yeni fikirlər meydana gəldi. Bu fikirləri izlədikdə görürsən ki, yuxarıda deyildiyi kimi hər bir mütəfəkkir və filosofun dövlət

haqqında dediklərində yaşadıqları dövrün ab-havası, o dövrün ictimai-siyasi məziyyətləri öz əksini tapmışdır.

Orta əsrlərdə dövlət haqqında fikirlərin çoxluq balansı Avropa ölkələrindəki dövlətşünaslarının, alim və mütəfəkkirlərinin tərəfinə keçir. Bu ondan irəli gəlirdi ki, artıq bu dövrdə bütün sahələrdə baş vermiş intibah Avropada daha bariz şəkildə özünü göstərdi. Başqa sözlə, bütün elmlər sahəsində olduğu kimi dövlətçilik sahəsində də Avropada inkişaf daha güclü, daha geniş və öncül olmuşdur. Belə ki, artıq XIV əsrdən Avropa ölkələrində sabitlik yaranmış, sərhəd və ərazisi müəyyən olunmuş milli dövlətlər yaranmışdı. Bu ölkələrdə feodalizm özünün yüksək mərhələsinə çatmışdı və bəzi ölkələrdə artıq kapitalizm ruşeym halında yaranmışdı. Belə vaxtda gələcək, daha doğrusu cücərməkdə olan yeni ictimai-iqtisadi formasiyanın, yəni kapitalizmin ideoloqları da yaranırdı və onlar ictimai-siyasi fikir sahəsində öz sözlərini deyirdilər.

Orta əsrlərdə butun sahələrdə yüksəlişlər, sıçrayışlar baş verir. Elm, texnika yeni təfəkkür mövqeyindən yüksəlirdi.

Bu dövrün mütəfəkkir şəxsiyyətlərindən ingilis Tomos Hobs (1588-1679), Con Lokk (1632-1704), fransalı Şarl Lui Monteskye (1629-1775), D.Didro (1718-1784), Pol Anri Holbax (1723-1789), Klop Adrian Helvetsi (1715-1771) və başqaları yaşadıqları dövr və mühitdən çıxış edərək dövlət, onun yaranması, təkamülü haqqında fikirlər söyləmiş, əsərlər yazmışlar.

T.Hobbsa görə cəmiyyətin idarəsi üçün hökmən dövlətin olması labüddür. Onun fikrincə, dövlət olmasa insan insanın qənimi olar, canavarına çevrilər. O, dövləti idarə edən hökmdarın nəyə qadir olmağının, başqa sözlə, hökmdarın bacarıq və istedadının dövlətin idarə olunmasında əhəmiyyətini qeyd edirdi.

Dövlətin üç əsas forması – monarxiya, demokratiya və aristokratiya üzərində dayanan T.Hobbs göstərirdi ki, forma və tiplərindən asılı olmayaraq dövlətin vəzifəsi yalnız əzmək deyil, ölkənin təsərrüfatını inkişaf etdirmək, öz təbəələrinin azadlığına təminat verməkdir.

"Dövlətin idarəçiliyi haqqında iki traktat" əsərinin müəllifi C.Lokk dövlətin əmələ gəlməsinin, yaranmasının əsas səbəbini insanların birgə razılığının məhsulu

olmasında görürdü. Dövlət insanların təbii hüquqlarını qorumalı, onların azadlıq və bərabərliyini təmin etməlidir. Deməli, C.Lokk da dövlətin zorakılıq əsasında deyil, könüllülük, birlik prinsipi əsasında yarandığını qəbul edirdi. C.Lokk onu da deyirdi ki, sonralar bu nəcib niyyət zorakılıq alətinə çevrilsə də yaranışı humanist niyyətlərlə bağlıdır.

Şarl Lui Monteskye "Qanunların ruhu haqqında" yazdığı əsərində göstərir ki, dövlətin hər hansı formada yaranmasında coğrafi mühütün əhəmiyyəti vardır. Alimə görə coğrafi mühit həmin coğrafi ərazidə yaşayan insanların xarakter və təbiətlərinə təsir edir və bu da ictimai qanunların yaranmasında az rol oynamır.

Ş.Monteskye də Aristotel kimi dövlətdə üç idarəetmə formasını: respublika, monarxiya və despotik dövlət formasını qəbul edirdi. Onun fikrincə, kiçik əraziyə malik dövlətlər – respublika, orta səviyyə - monarxiya, böyük dövlətlər despotik dövlət olurlar.

D.Didro da öz sələflərinin fikir və mülahizələrini əsas götürərək, göstərirdi ki, dövlətin yaranmasında cəmiyyətin inkişafı və xüsusi mülkiyyətin yaranması əsas rol oynamışdır.

Didroya görə dövlət xalqın iradəsinə əsaslanır. Dövlətin vəzifəsi öz təbəqələrinin hüquqlarını qorumaq, onların səadəti üçün çalışmaqdır. Qanun hamı üçündür. Adi vətəndaşdan tutmuş hökmdara kimi hamı qanuna tabe olmalıdır. Dövlət başçısı əgər hər hansı qanunu pozursa o despot və tirandır. Dövlət başçısı öz vəzifəsini yerinə yetirmirsə, o, hakimiyyət pilləsini tərk etməlidir.

Pol Anri Holbax dövlətin yaranma səbəbini insanların öz mənafelərini təmin etmək istəyi ilə əlaqələndirirdi. Holbax dövlət forması kimi monarxiyaya üstünlük verir və deyirdi ki, əgər dövlət başçısı despotluq eləsə xalq onun hakimiyyətinə qarşı üsyan etməlidir.

Klop Adrian Helvetsi dövlətin yaranması, təkamülü prosesini qanunauyğun sayırdı. Onun fikrincə dövlət qanunları xüsusi mülkiyyəti qorumaq üçün zəruridir. Xüsusi mülkiyyətin yaranması ictimai bərabərsizliyi artırmış, ziddiyyətləri kəskinləşdirmişdir. Bu isə güclü dövlət hakimiyyətinin olmasını tələb edir.

Onun fikrincə, dövlət quruluşunda əsas məsələ hakimiyyətin formasında deyil məzmunundadır. Helvetsi demokratik respublikaya rəğbət bəsləyirdi.

Bu bir həqiqətdir ki, dövlət haqqında, onun əmələ gəlməsi, inkişafı, funksiyaları barədə daha çox XVIII-XIX əsrlərdə fikirlər söylənildi, nəzəriyyələr meydana gəldi.

Bu dövr Avropada kapitalizmin sürətlə yüksəlişi dövrü idi. Bu dövrdə elm, texnika tərəqqi edir, cəmiyyətdə proletar sinfinin günbə-gün sayı ilə bərabər şüuru da artır, sıraları möhkəmlənirdi. Artıq fəhlə sinfi Avropa dövlətlərində aparıcı sinfə çevrilirdi. Kapitalizm ictimai-siyasi quruluş kimi özündən əvvəlki ictimai-siyasi quruluşlardan həm mütərəqqi idi, həm də daha çox istismarçı. İndi feodalizmi darmadağın edərək, devirən və yeni burjuaziya quruluşu yaradan burjuaziya sinfi öz inqilabiliyini itirərək istismarçı sinfə çevrilmişdi. O, milyonlarla fəhlənin əməyinin bəhrəsini mənimsəyərək varlanır. Ancaq bir həqiqət də var idi ki, kapitalizm genişləndikcə, möhkəmləndikcə proletar sinfi də çoxalır və öz sözünü deyə biləcək sinfə çevrilirdi. İndi onun ideoloqları meydana çıxır, fəhlələrin maddi və mənəvi mənafeləri uğrunda mübarizə aparırdılar.

Proletar ideoloqları artıq bu qənaətə gəlmişdilər ki, kapitalizm proletar sinfini meydana gətirməklə öz qəbrqazanını yaratmışdır. Fəhlə sinfi "özü özünü azad edə bilər və azad etməlidir" (K.Marks, F.Engels. Seç. əsərl., I c., 1984, s.51) hökmünü irəli sürdülər.

Qeyd etmək lazımdır ki, XIX əsr dünyanın fikir tarixində K.Marks və F.Engels böyük rol oynamışlar.

Bu gün sivil ölkələrdə fəhlə sinfi ilə kapitalistlər arasında antoqonist ziddiyyətlərin o qədər də kəskin olmamasının səbəbkarları da heç şübhəsiz, K.Marks və F.Engelsin böyük nəzəri irsidir. Ona görə ki, kapitalistlər bu dahi fikir nəhənglərinin nəzəriyyələrini öyrənərək, mənimsəyərək, əmək fəaliyyətində bu nəzəriyyədən praktikada istifadə edərək fəhlə sinfinin mənafeyinə və əməyinə hörmətlə yanaşırlar.

Müasir təfəkkür baxımından demək olar ki, marksizmdə hər şey real həqiqət deyildir. Bunu təcrübə bir daha göstərdi.

Marksistlərə görə cəmiyyət siniflərdən ibarətdir, cəmiyyətin tarixi müharibələr tarixi, sinfi mübarizələr tarixidir. Təbii ki, bütün dövrlərdə dövlətlərdə siniflər olmuşdur. Sinfi mənafe uğrunda mübarizə də olmuşdur. Lakin bütün dövrlərdə, bütün dövlətlərdə sinfi mübarizə əlamətlərindən daha ciddi daxili mahiyyət daha önəmli rol oynamışdır.

Marksistlərin dövlət haqqındakı ideya və nəzəriyyələrinin əsasını ilkin şərt olaraq sinfi hökmranlıq məsələsi təşkil edirdi. Onlar iddia edirdilər ki, dövlət "ən qüdrətli, iqtisadi cəhətdən hakim sinfin" təşkilatıdır; bu sinif dövlətin köməyi ilə siyasi cəhətdən də hakim sinif olur və beləliklə məzlum sinfi əzmək və istismar etmək üçün yeni vasitələr əldə edir". "Dövlət hakim sinfin təşkilatı kimi meydana gəlir və onun mahiyyəti də bundan idarətdir".

Marksistlərə görə sinifsiz dövlət ola bilməz. Yəni, əgər sinfi mübarizə yoxdursa yeni dövlət forması də yarana bilməz. Çoxillik, xüsusən də 70 illik SSRİ-nin təcrübəsi göstərdi ki, dövlət təkcə sinfi mübarizənin məhsulu deyil, cəmiyyətin təbii ehtiyacının məhsuludur. Bu gün bir çox dövlətşünas alimlər göstərirlər ki, dövlətin tarixi siniflərin meydana gəlməsindən daha qədimdir. Bu o deməkdir ki, harda insan cəmiyyəti yaranıbsa, orda da həmin cəmiyyətin tələbləri, ehtiyacı səviyyəsində də dövlət rüşeyimləri yaranıb. Və yuxarıda deyildiyi kimi, cəmiyyət inkişaf etdikcə, dövlət də inkişaf edib, kamilləşib. Təbii ki, hər bir dövlətin ilk vaxtlar indiki anlamda idarəetmə aparatı, hüquq qanunları, ordu, cəza məkanları, məhkəmə və s. təsir vasitələri olmayıb. Lakin kiçik bir ərazidə yaşayan, çox vaxt qan qohumluğu ilə bir-birinə bağlı hər bir qəbilə və tayfanı idarə edən başçılar, ağsaqqallar, yol göstərən nüfuzlu adamlar, şəxslər olubdur.

Marksistlərin böyük davamçılarından olan V.İ.Lenin də dövlət haqqında öz nəzəriyyəsini vermişdir. O, ən əvvəl K.Marks və F.Engelsin dövlət, cəmiyyət və bunların bir-biri ilə münasibətlərinə dair fikirlərini onlardan sonra, yeni tarixi şəraitə uyğun inkişaf etdirmişdir. V.İ.Lenin də sələfləri kimi dövlətin əmələ gəlməsində əsas amil olaraq siniflərin yaranmasını götürürdü. Sonra bu barədə "Dövlət və inqilab" əsərini yazdı. Bu əsərdə də marksizmə sadiqliyini bir daha sübut etmişdir.

V.İ.Lenin də bu qənaətə gələrək göstərir ki, “Dövlət-sinfi ziddiyyətlərin barışmazlığı məhsuludur”. Sonra da fikrini belə deyirdi ki, “dövlət-bir sinfin digər sinif üzərində hökmranlığıdır”. Bu deyilənlərdən belə çıxır ki, dövlət cəmiyyətin deyil, siniflərin məhsuludur. Yəni nə qədər ki, sinif olmayıb, dövlət də olmayıbdır.

Yeri gəlmişkən demək lazımdır ki, burada V.İ.Lenin özünə klassik saydığı şəxslərdən müəyyən qədər ayrılır. Doğrudur, uzun bir müddət SSRİ-nin siyasi ədəbiyyatında dönə-dönə qeyd olunurdu ki, V.İ.Lenin K.Marks və F.Engelsin dövlət haqqında fikirlərini inkişaf etdirmişdir. Burada bir qədər tarixə qayıdaq; tarix göstərir ki, cəmiyyət siniflərə parçalanana qədər çox böyük inkişaf yolu keçmişdir və həmin inkişaf yolunda olduqca müxtəlif “həlledilməz ziddiyyət” və “barışmaz əksliklərlə” qarşılaşmışdır. Həmin dövrdə Engelsin dediyi ziddiyyətləri “həll edən”, əksikləri “barışmaz” toqquşmaları məhdudlaşdıran, onu “qayda-qanun” çərçivəsində saxlaya bilən qüvvə” məhz dövlət olmuşdur. İnsanlar onu “bir sinfin digər sinfə zülm etmək orqanı” kimi deyil, məhz Engelsin dediyi kimi, qayda-qanun yaradan, toqquşmaları məhdudlaşdıran, ziddiyyət və əkslikləri barışdıran, bunları tənzim edən və cəmiyyətə məxsus olan bu kimi “səmərəsiz mübarizədən yüksəkdə duran bir qüvvə” kimi yaranmışdır. Bunlar siniflər yaranmamışdan əvvəl bu və ya başqa şəkildə, az və ya çox dərəcədə cəmiyyətə xas olmuşdur. Buradan belə çıxır ki, dövlət siniflərin deyil, cəmiyyətin məhsuludur. Cəmiyyət isə siniflərə parçalanmazdan əvvəl insanlardan ibarət olmuşdur. Ona görə, bu günkü tarixi baxışdan çıxış edərək demək olar ki, “dövlət-sinfi hökmranlıq orqanıdır” fikrinə haqq qazandırmaq olmur.

Bu dövr üçün, zamana uyğun olaraq sinfi mübarizə nəzəriyyəsinə haqq qazandırmaq məqsədi ilə söylənilmişdir. Axı, dövlətin başlanğıcı da, zirvəsi də insandır.

K.Marks 1840-cı ildə “Hegelin hüquq fəlsəfəsinə dair giriş” adlı əsərində yazmışdı: “İnsan-insanın aləmidir, dövlətdir, cəmiyyətdir”. Bu fikrə istinad edərək deyə bilərik ki, insanla bağlı hər bir təsisat, qurum, birlik, cəmiyyət və s. yalnız insanın özü ilə, onun xarakteri və təbiəti ilə izah oluna bilər. Deməli, dövlət də insanın yaradıcılıq məhsuludur.

# Qədim Şərq dövlətləri

İbtidai-icma quruluşunun dağılması və sinifli cəmiyyətin meydana gəlməsi ilk öncə qədim Şərqdə baş vermişdir.

Dövlət də ilk dəfə qədim Şərqdə meydana gəlmişdir. Ən qədim Şərq dövlətləri Misirdə, Aralıq dənizinin şərqində, İkiçayarası (Mesopotamiya), İran, Hindistan, Çində meydana gəlmişdir. Dövlətlə birlikdə dövrün ideologiyasını təmsil edən dini “idarələr” – məbədlər də ilk olaraq məhz Şərqdə təşəkkül tapmışdır. Mədəniyyətin ilk izləri də Şərqə gedib çıxır.

Azərbaycanın cənub torpaqları ilə İkiçayarasının (Mesopotamiya) cənub torpaqları qonşu olduğundan ta qədimdən bu ərazilərin siyasi, mədəni və ticarət əlaqələri olmuşdur.

İkiçayarasının cənubunda qədim əhali şumerlər idi. Şumerlər e.ə. IV minilliyin əvvəllərində iki çay arasında məskunlaşmışdılar. Onlar burada böyük mədəniyyətin yaradıcıları kimi tarixdə məhşurdurlar. O vaxtlar İkiçayarasının cənub hissəsi Şumer, yaxud Şumer ölkəsi adlanırdı. İlk dövlət də burada meydana gəlmişdi.

Erkən Şumer dövlətləri şəhər və onun ətrafındakı kəndlərdən ibarət olmuşdu. Bu dövlətlərdə hələ istehsal və əmtəə mübadiləsi aşağı səviyyədə idi. Qulların sayı az olduğundan sinfi ziddiyyətlər də zəif olmuşdur. Ancaq getdikcə İkiçayarasında siyasi hegemonluq uğrunda mübarizə başlanır. Hökmdar hakimiyyətinin rolu artır. Bütün Şumeri siyasi və iqtisadi cəhətdən birləşdirmək cəhdi möhkəmləndi.

E.ə. III minillikdə Şumer və Akkad hökmdarlarının başlıca vəzifəsi suvarma sisteminin inkişaf etdirilməsi ilə bağlı olmuşdur.

İkiçayarasında icma idarəsi öz varlığını hələ saxlayırdı. Belə ki, icma üzvləri bütün təsərrüfat işlərində iştirak edirdi. Təsərrüfat həyatında getdikcə məbəd təsərrüfatı genişlənir və möhkəmlənirdi. Kahin təbəqəsi bir qədər sonra dövlətin

dayağına çevrildi. Onlar dövlət idarələrində, icma təşkilatlarında xidmət edir, məhkəmə işlərinin baxılmasında iştirak edirdilər.

İkiçayarasında Babil dövlətinin (e.ə. II minilliyin əvvəlində) yaranması dövlət baxımından irəliyə doğru inkişaf demək idi. Artıq bu dövrdə Şərqdə yeni-yeni şəhər dövlətləri yaranır, böyüyür, inkişaf edir və dövlətlər arasında ticarət əlaqələri yaranır.

Babil şəhəri tədricən böyük ticarət mərkəzinə çevrilir. O, həm də ətrafda olan dövlətlər üçün nümunə olacaq bir dövlət idi.

Ən iri həcmli qanunlar külliyatı qədim Babilistanda yaradılmışdır. Bu, məşhur Hammurapi qanunlarıdır. Qanunlar mixi yazı ilə qara bazalt daş üzərində yazılmışdır. Hammurapi qanunlarının xeyli hissəsi ailə, nigah və vərəsəlik hüquq qaydalarına həsr olunmuşdur. Bu qanunlarda hüquq və iqtisadi münasibətlərin qaydaya salınmasında formalar müəyyənləşdirilmişdir. Hammurapi qanunları Qədim Şərqin nadir ədəbi və tarixi abidələrindəndir.

Qədim İkiçayarası dövlətlərdə idarəçilik hökmdarın iradəsini ifadə edirdi. Hökmdar hakimiyyətinin sosial dayağı olan qulluq əyanları, məmurlar, kahinlər təbəqəsi formalaşır.

Erkən Şumer dövlətləri “en” (ağa, dini hakim) adlanan ali kahin tərəfindən idarə olunurdu. En dövlət və məbəd işlərinə, suvarma işlərinə, ölkənin təsərrüfat həyatına, hərbi işlərə rəhbərlik edirdi. Doğrudur, əvvəllər burada ibtidai demokratiya əlamətləri öz varlığını hələ saxlayırdı. Zaman keçdikcə tədricən Şumer dövlətlərində hökmdar hakimiyyəti meydana gəlir. Dövlətin başında “ensi” (tikinti zamanı xalqa rəhbərlik edən kahin), yaxud “luqal” (böyük adam, hökmdar) dayanırdı. Bu, vəzifə bölgüsü idi. Belə ki, hər başçının, vəzifə sahibinin görəcəyi, rəhbərlik edəcəyi sahəsi vardı və həmən adam da o sahəyə cavabdehlik daşıyırdı. Luqallar, hökmdar kimi, daha böyük şəhər dövlətlərinə başçılıq edirdi. Vahid Şumer dövləti meydana gəldikdən sonra luqal ancaq hökmdara, ensi ona, yəni luqala tabe olan canişinə, yaxud da ali kahinə tabe olurdu.

Erkən sülalələr dövründə ağsaqqallar şurası və xalq yığıncağı öz mövqeyini saxlayırdı. Mülki bərabərsizliyin inkişafı ilə əlaqədar olaraq xalq yığıncağı dövlət

idarə orqanı kimi öz əhəmiyyətini itirdi. Onun yerinə getdikcə hökmdar hakimiyyəti iqtisadi, siyasi və hərbi cəhətdən möhkəmləndi. Bunun də nəticəsində ağsaqqallar şurasının idarə orqanı kimi mahiyyəti azaldı. Bu da nəticədə hələ erkən, sülalələr dövründə müstəbid monarxiya hakimiyyətinin meydana gəlməsinə səbəb oldu. Artıq hər bir hökmdar qeyri-mövcud hakimiyyətə malik oldu. Hökmdar hakimiyyətinin güclənməsi ilə yanaşı onun dayağı olan ordu da meydana gəldi. Erkən sülalələr dövrünün sonunda artıq Şumerdə daimi ordu vardı.

Qədim Şərqdə ilk dövlət ilk öncə ikiçayarasında (Mesopotamiya) meydana gəlmişdir. Mesopotamiyanın qədim əhalisi sayılan şumerlər, samilər, subirlər və hurilər, kutilər və lullubilər, kassilər tarixi bir ardıcıllıqla yaşamış, hər xalq tarixə öz səhifəsini yazmışdır.

Mixi yazılar Qədim Şərq cəmiyyətinin müxtəlif sahələri barədə məlumat verir. Bu yazılarda Qədim Şərq cəmiyyətinin iqtisadiyyatı, təsərrüfat həyatı, hüquqi münasibətləri, diplomatik əlaqələr, siyasi hadisələr, insanların mənəvi və psixoloji aləmi və dini dünyagörüşü, mədəniyyətlərini öyrənmək olur. Qədim İkiçayarası şəhərlərinin qazıntısı zamanı minlərlə təsərrüfat sənədləri aşkar edilmişdir. Bu sənədlər İkiçayarasında mövcud olmuş Şumer, Akkad, Assuriya, Babilistan və s. dövlətlərinin ictimai-iqtisadi, idarəçilik və sosial münasibətlərini öyrənmək, bilmək üçün əvəzsiz nümunələrdir.

Mixi yazılı sənədlərdə qədim hüquq qaydaları və normaları də əks olunmuşdur. Sənədlər o dövrün məhkəmə prosesi və hökmləri barədə məlumatlar verir. Ən qədim qanunlar külliyatı III Ur sülaləsinin hökmdarı Urnammunun (e.ə. XXI əsr) dövründə tərtib olunmuşdur. Qanunları kitabələrdə yazırmışlar. Kitabə şumer dilindədir. Qanunların 40 maddəsi bu günə gəlib çatmışdır. Qanunlar hakim sinfin mənafeyini qoruyur, qulların hüquqları isə amansızcasına tapdanırdı.

İlk dövlətlərlə bərabər Qədim Şərqdə həm də mədəniyyətin və incəsənətin müxtəlif sahələri inkişaf edir. Əfsanəvi nağıllar, ədəbi, bədii fəlsəfi fikirlər yaranır. Məhz Qədim Şərq xalqlarının təfəkkürü sahəsində elm və elmi istiqamətlər yaranmışdır ki, bu da bəşəriyyətin gələcəkdə maddi və mənəvi malı olmuşdur. O

dövrün Babil, Misir, Hind, Fələstin ölkələrində yaranmış bu nümunələr bu günkü günümüzə gəlib çatmışdır.

İlk yazı növü sayılan piktoqrafiya (şəkli yazı) Qədim Şərqdə icad edilmişdir. Qədim şumerlər, elamlar, hindlər bu yazı sistemindən geniş istifadə etmişlər. E.ə. IV minilliyin sonunda piktoqrafiya artıq Şərqdə tətbiq olunurdu. E.ə. III minilliyin ortalarında piktoqrafiyanı mixi yazılar əvəz edir. Bu, irəliyə sıçrayış idi. Şərq xalqları zaman keçdikcə mixi yazılarını öz dillərinə uyğunlaşdıra bilirlər.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Qədim Şərq dövlətlərinin siyasi quruluşları haqqında dünya alimləri arasında müxtəlif fikirlər mövcuddur. Bəzi tarixçilər, məsələn Q.Rünter, Q.Şortun (Almaniya) Qədim Şərqdə tam quldar cəmiyyətinin olmadığını söyləyirlər. Onların fikrincə Şərq kilsəsində istehsalın əsasını azad kəndli əməyi təşkil edirdi. Ziddiyyətlər qul və quldarlar arasında yox, torpaq sahibləri və kəndlilər arasında meydana gəlirdi. Burada köləlik yüksək səviyyədə qalxmamış və qullar üsyanı da olmamışdır. Buna görə Qədim Şərq cəmiyyətini quldar cəmiyyət hesab etmək olmaz. Qədim Yunanıstan və Romada isə quldarlıq istehsal üsulu mövcud olmuşdur.

Keçmiş SSRİ tarixçilərindən A.S.Vasilyev, V.V.Struve də Qədim Şərqdə xüsusi "Asiya istehsal üsulu"nun olduğu qənaətinə gəlmişlər.

Bəs Asiya istehsal üsulu nə deməkdir? Bəzi alimlərin fikrincə, Asiya istehsal üsulu bir formasiya kimi sinifsiz cəmiyyətdən sinifli cəmiyyətə keçid zamanı bütün ölkələrdə mövcud olmuşdur. Asiya istehsal üsulunun digər istehsal üsullarından fərqli cəhəti onda götürülür ki, burada istehsal vasitələri və torpaq üzərində xüsusi mülkiyyət yox, icma torpaq sahibkarlığı mövcud olmuşdur. Belə şəraitdə isə istismarçı sinif ola bilməzdi. Lakin tamam istismarsızlığın olmamasını demək olmaz. Torpaqdan istifadə edən icmaçılar icmadan ayrılmış əyanlar tərəfindən istismar olunurdular. Eyni zamanda belə cəmiyyətdə artıq müstəbid dövlət hakimiyyəti yaranmışdı. Müstəbidliyə yol isə qəbilə başçılığından, ağsaqqal və ya məsləhətçidən başlayıb gəlirdi.

Ağıllı, tədbirli adam qəbiləyə başçı seçilmişdir. Könüllülük prinsipi əsasında seçilmiş başçının iradəsi və istəyi qəbilə və tayfa üzvləri üçün qanun

sayılmışdır. Sonralar belə fateh və hökmdarlar tabeçiliyində olanları öz bildiyi kimi xarakterinə uyğun idarə etmiş və lazım bildiyi adamları özünə köməkçi təyin etmişdir. İdarə olunanların sayı və idarə etdiyi ərazi dairəsi genişləndikcə, başçının yaxud hökmdarın köməkçilərinin və buyruqçularının da sayı artmışdır. Bu da dövlət və onun aparatının yaranması üçün əsas olmuşdur.

Dövlətlər meydana gəldikcə, onların sayı artdıqca dövlətlər kənardan yad tayfa və qəbilələrin hücumlarından qorunmaq üçün, habelə daxildə hər cür özbaşnalıq və hərci-mərcliyin qarşısını almaq məqsədilə özünün mütəşəkkil müdafiə orqanını, başqa sözlə zorakılığa qarşı zorakılıq alətini gözlənilən qorxuya qarşı müəyyən qorxu silahını yaratmağa məcbur olmuşdur.

Qədim Şərq dövlətlərində əhali onları qoruyan, müdafiə edən, yol göstərən öz hökmdarlarının şəxsiyyətini ilahiləşdirir, hətta onların göylərdən gəldiyinə inam bəsləyirdilər.

Qədim Şərqdə ilk dövlət quruluşlarının yaranması və inkişafı üçün münasib coğrafi mühit mövcud idi. Şərqdə təbii şəraitin mümkünlüyü əkinçilik, maldarlıq və sənətkarlığı inkişaf etdirməyə, cəmiyyəti qida, əmək alətləri və vasitələri ilə təmin etməyə imkan yaradırdı. Zaman keçdikcə təsərrüfatın müxtəlif sahələri inkişaf edirdi, bu da nəticədə məhsul artımına və ticarət əlaqələrinə şərait yaradırdı.

Dövlətin əmələ gəlməsi ilə Qədim Şərqdə dövrün ideologiyasını müəyyənləşdirən dini "idarələr" – məbədlər meydana gəlir və burada xidmət edən kahinlər təbəqəsi yaranır.

İlk dövlət Qədim Şərqdə yarandığına görə quldarlığın ilkin nümunələri də məhz ilk dəfə Qədim Şərqdə meydana gəlmişdi. Quldarlıq quruluşu Şərq cəmiyyətində güclənən iqtisadi və sosial bərabərsizliyin nəticəsi idi. Bu quruluş varlı və yoxsul, əzən və əzilən, istismar edən və istismar olunanlar, tam hüquqlu və hüquqsuzlar təbəqəsi yaratmışdı.

# I FƏSİL

# QƏDİM AZƏRBAYCANDA İLK DÖVLƏT QURUMLARI

Azərbaycanda dövlət idarəçiliyi bu ərazidə ilk dövlət qurumlarının yaranması ilə meydana gəlmişdir. Azərbaycan ərazisində ilk dövlət qurumları e.ə. III minillikdə Urmiya gölü (Cənubi Azərbaycanda) ətrafında yaranmağa başlamışdır. Belə dövlət qurumları eyni ərazidə yaşayan tayfa ittifaqlarının, tayfa birliklərinin bir mərkəzdə birləşməsinin nəticəsi idi. Bu əraziyə Azərbaycanın Araz çayından cənubda olan torpaqlar daxil idi. Urmiya gölünün ətraf regionları İkiçayarası ərazisi ilə demək olar ki, qonşu idilər. Buna görə də bu qonşu ərazilərdə olan dövlətlər arasında iqtisadi və siyasi əlaqələr var idi. Bu əlaqələr barədə o dövrün Şumer və Akkad mixi yazılarında məlumatlar verilir. Bu yazılarda o da görünür ki, Şumer və Akkad hökmdarları Urmiya gölü hövzəsi dövlətlərini öz maraq dairələrinə keçirtmək üçün cəhd edirdilər. Yazılarda o da hiss olunur ki, o zamankı Azərbaycan əraziləri öz sərvəti ilə qonşuları cəlb edirdi.

Azərbaycan ərazisində ilk dövlət qurumları kimi Aratta, Lullubi (Lullubum), Kuti (Kutium) adları gəlib bizə çatmışdır.

**Aratta dövlət qurumu.** Şumer dastanlarında bu ölkə İkiçayarasına yaxın və dağlıq ölkə kimi təsvir olunur. “Enmerkar və Aritta hökmdarı” dastanında bu ölkənin təsərrüfat həyatı, iqtisadi və mədəni əlaqələri barədə məlumatlar verilmişdir. Burada lacivərd istehsal olunur, sənətkarlar hər cür məmulatlar hazırlayırlar. Bundan başqa bu ölkə özünün tikinti ustaları ilə də məşhur olmuşdur. Hətta Şumerdən xüsusi elçilər gəlib məbəd tikintisi üçün ustaları ora dəvət edirdilər.

Şumer dastanlarından göründüyü kimi Şumerin Urun şəhərinin hökmdarı (e.ə. XXVII əsr) Enmerkar, Aratta hökmdarı ilə əlaqə saxlayır, onunla yazışırdı. Həmən dastanları tədqiq edəndə aydın görmək olur ki, Şumerlə Aratta arasındakı sıx əlaqələr özünü dövlət idarəçiliyində də göstərmişdir. Yəni Şumerdə olan idarəçilik təkcə formaca deyil, məzmunca da bəlkə də olduğu kimi Arattada da

mövcud olmuşdur. Yazılı məxəzlər Arattadakı siyasi və ideoloji məfhumları Şumer məhfumları ilə əks etdirmişdir.

Aratta ölkəsini ensi rütbəsini daşıyan hökmdar idarə edirdi. Şumerdə ensi ali kahin hökmdar sayılırdı. Bu rütbənin Aratta dilində müqabili qalmamışdır. Bəlkə də bu sözün heç müqabili olmamışdır. Şumerdə necə adlanırdısa Arattada da elə adlanırdı.

Aratta hökmdarı sarayda otururdu və buradan göstərişlər verirdi. Dövlət qulluqçuları maşmaş (kahin, vəzir), sukkal ("elçi" – kiçik hökmdar rütbəsi) adlanırdı. O, dövləti idarə edən ikinci şəxs idi, uqula ("rəis") və başqaları tərəfindən idarə olunurdu. Aratta dövlət qulluqçuları cərgəsinə mirzələr də daxil idi. Mirzələr ölkəyə gələn məktublara (kitabəyə) cavab yazırdılar. Buradan belə qənaətə gəlmək olar ki, Arattalılar mixi yazıları ilə tanış idilər. Çox güman ki, burada mixi yazı sistemi işlədilirdi. İki ölkə arasında əlaqə qasidlər vasitəsilə həyata keçirilirdi. Tarixi mənbələr onu da göstərir ki, artıq hardasa e.ə. XXVII-XXVIII əsrlərdə Arattada dövlətə məxsus olan idarə orqanları və dövlət vəzifəli şəxslər meydana gəlmişdi. Ölkədə o dövrdə çoxallahlıq mövcud olmuşdur.

E.ə. III minilliyin ikinci yarısında İkiçayarasında Akkad dövləti meydana gəldi. Parallel olaraq Aratta torpaqlarında ictimai-siyasi dəyişikliklər baş verdi. Bu torpaqlarda yeni dövlət birləşmələri yarandı. Bunlardan biri Lullubi (Lullubum) dövləti idi.

**Lullubi (Lullubum) dövlət qurumu.** Bu dövlət Urmiya gölünün cənubunda Arattanın ərazisində meydana gəlmişdi. Bu dövlət Cənubi Azərbaycan ərazisində yaranmış ikinci dövlət quruluşu olmuşdur. Bu zaman İkiçayarası dövləti Akkadla əvvəlki münasibətlər yox idi. Hər iki dövlət bir-birilə hərbi münaqişələrdə iştirak edirdi. Yazılı mənbələr bu dövlətin hökmdar İmmaşqunun (e.ə. təxminən 2200-2170-ci illər) hakimiyyəti dövründə xeyli inkişaf etdiyindən xəbər verir. Onu "padşahlar padşahı" adlandırırdılar. Görünür, bu ölkədə xırda hökmdarlar hakimiyyəti mövcud imiş. İmmaşqu bu hökmdarları bir mərkəzdə birləşdirir. Beləliklə, e.ə. XXIII əsrdə Lullubi dövləti güclü bir dövlət olur. Lullubi dövləti Aratta dövlətinin varisi kimi meydana gəlmişdi və deməli dövlətin yaşaması və

fəaliyyəti üçün lazım olan bütün vasitələr, o cümlədən dövlət idarəçiliyi də Arattadakı kimi olmuşdur.

E.ə. II minillikdə vahid Lullubi dövləti parçalandı, burada xırda hakimiyyətlər yarandı.

**Kuti (Kutium) dövlət qurumu.** E.ə. III minillikdə Urmiya gölünün qərb hissəsində kuti tayfa birləşmələri mövcud idi. Həmin minilliyin ikinci yarısında kutilər dövlət halında birləşdilər. Məxəzlər kutilərin Urmiya gölü ətrafından tez-tez İkiçayarası ərazilərinə keçmələrini, ordakı siyasi hadisələrə müdaxilə etməsini və tədricən oralarda məskunlaşmasını göstərirlər. İkiçayarasında kutilər şumerlərlə yaxşı münasibətdə idilər və onlar Akkadlara qarşı şumerlərin mübarizəsində onlarla həmrəy olublar. Kuti hökmdarı Elulumeş (e.ə. 2177-2171-ci illər) Akkad hakimiyyətini devirir və kutilər burada yüz il hakimiyyətdə olurlar.

Kutilər İkiçayarasında mövcud olan idarə sistemini dəyişmədilər. Ölkəni canişinlər vasitəsilə idarə edirdilər. Canişinlər və qeyri idarə orqanları hökmdara tabe idilər. Kutilər İkiçayarası allahlarını öz allahları kimi qəbul etmiş və o allahlara sitayiş etmişlər. Kuti ölkəsində hakimiyyətə gələn hökmdar eyni zamanda İkiçayarasını da idarə edirmiş.

E.ə. III minilliyin sonunda Kuti və eləcə də Lullubi dövlətləri süquta uğrayıb xırda hakimiyyətli vilayətlərə parçalandılar. Belə parçalanma isə e.ə. I minilliyin əvvəlinə kimi davam etdi.

Məlumatlar göstərir ki, Azərbaycan ərazisində qədim tayfalar: aratta, lullubi, kuti, turukkilər, subarlar və b. gah mərkəzləşmiş dövlət halında birləşmiş, gah da xırda idarəçi hökmdarlara parçalanmışlar. Onu da qeyd etmək lazımdır ki, tarixi, ictimai-siyasi vəziyyətdən asılı olaraq bəzi tayfaların bir, bəzi tayfaların isə bir neçə hökmdarı var idi. Bir sözlə, erkən vahid Azərbaycan dövlətləri e.ə. II minilliyin əvvəllərində artıq parçalanmış və ayrı-ayrı xırda hökmdarların hakimiyyəti bərqərar olmuşdu. Belə parçalanmaların çoxunun səbəbkarı qonşu ölkələrin aramsız təcavüzünün nəticəsində baş vermişdi. Onu da deyək ki, e.ə. II minilliyin sonu – I minilliyin əvvəlində Azərbaycanda yeni dövlət qurumları meydana gəlməyə başladı.

# II F Ə S İ L

# AZƏRBAYCAN ƏRAZİSİNDƏ QƏDİM DÖVLƏTLƏR

## MANNA DÖVLƏTİ

Azərbaycan ərazisində ilk dövlət Manna dövləti olmuşdur. Manna e.ə. IX əsrdə Cənubi Azərbaycan ərazisində, Urmiya gölünün ətrafında meydana gəlmişdi. Mannanın adı mixi yazıda ilk dəfə e.ə. 843-cü ildə Assuriya çarı III Salmanasarın kitabəsində ("Munna" formasında) çəkilmişdir. Aşşurlar Mannanı "Mannalılar (tayfasının) ölkəsi", urartular isə "Mana ölkəsi" adlandırırdılar.

Manna adı mənşəcə yerli idi. Guman etmək olar ki, bu ad əvvəlcə Urmiyaboyu tayfalardan birinə məxsus olmuş, sonralar isə o yerlərdə yaşayanların ümumi adına çevrilmişdir. Mannada çoxlu tayfalar, məsələn, subilər, taurlalılar, dalilər və b. yaşayırdılar.

Manna uzun illər yadellilərə, xüsusən Assuriya və Urartu qoşunlarının hücumlarına məruz qalmış bəzən tamam dağılmaq həddinə gəlib çatmış, ancaq yaranmış təhlükədən Manna tayfalarının siyasi cəhətdən birləşməsi ölkəni qoruya bilmişdir. Belə mürəkkəb şəraitdə Manna dövləti inkişaf edərək Yaxın Şərqin sayılan dövlətlərindən birinə çevrilə bilmişdi. Lakin Mannada müstəqil siyasət aparan vilayətlər mövcud idi. Zamua-lullubilər ölkəsi Mannanın mərkəzi vilayəti sayılırdı. Tarixi mənbələrə istinadən demək olar ki, müstəqil vilayətlərin başçıları bəzən mərkəzdənqaçma siyasəti aparırdılar. Assuriyalıların və Urartu dövlətinin aramsız hərbi müdaxilələri Manna hökmdarlarını ölkəni vahid mərkəzdə birləşdirməyə vadar edirdi. Uzun bir dövr Manna özünün sərhədlərini müdafiəyə məcbur olmuşdu. Bununla belə, Manna nəinki öz bütövlüyünü qoruya bilmiş, hətta qonşu ölkələrin torpaqları hesabına öz torpaqlarını genişləndirə də bilmişdi. Onun sərhədləri şimalda Araz çayına, cənubda Zəncana qədər uzanırdı.

Manna dövləti özünün ən böyük yüksəliş dövrünə hökmdar İranzunun (e.ə. 740-719-cu illər) hakimiyyəti illərində çatmışdı. İranzu olduqca uzaqgörən, tədbirli, ağıllı dövlət başçısı olmuşdur. O, Mannanı mərkəzləşdirilmiş dövlətə

çevirərək, bütün əyalətlərin mərkəzə tabe olmasına nail olmuşdu. Onun dövründə ölkədə iqtisadiyyat yüksəlmiş, mədəniyyət inkişaf etmişdi.

İranzunun hakimiyyəti dövründə Mannanın Qədim Şərqdə güclənməsi bəzi yarımmüstəqil ucqar vilayətlərin başçılarını və Urartu dövlətini narahat etməyə bilməzdi. Artıq Urartu Mannanın öhdəsindən gələ bilmədiyindən ona meyl edən vilayətləri İranzuya qarşı qaldırmağa cəhd edirdi. Belə hadisələr İranzunun ölkədəki mövqeyinin zəifləməsinə səbəb olurdu.

E.ə. VIII əsrin 20-ci illərinə yaxın Mannanın vəziyyəti ağırlaşır. Xüsusən də İranzunun vəfatından sonra onun oğulları arasında hakimiyyət uğrunda mübarizə başlandı. Manna vilayətləri – Zikirtu, Uişdiş, Messi, Andia və b. bir-bir ayrılma siyasəti yeridirdilər. Ölkənin daxilində siyasi hərc-mərclik nəticəsində Manna taxt-tacına sahib olan Aza da, atası İranzu kimi Assuriyaya meyl edir, onun siyasi ağalığını qəbul edir və ona xərac verirdi. Sonralar da Manna Assuriyaya təkcə tabe olmamış, həm də ona sadiq qalmışdı. Belə ki, 616-cı ildə Assuriya Midiya və Babilistan ilə mübarizədə təklənəndə Manna özünün hərbi qüvvələri ilə ona köməyə gəlmişdi. E.ə. 590-cı ildə Manna güclü Midiya dövlətinə qatılmış və tarix səhnəsindən getmişdir.

Manna dövləti Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələ olmuşdur.

***Mannanın ictimai quruluşu.*** Manna quldarlıq dövləti olduğundan burada cəmiyyət əsasən iki silkə - hakim quldar və qullar təbəqəsinə bölünürdü. Başqa quldar dövlətlərdə olduğu kimi burada da köləliyin əsas mənbəyi hərbi əsirlər idi. Lakin borca görə qula çevrilənlər də olurdu. Qullar ağaları tərəfindən alınıb-satıla bilirdilər.

İerarxiya nərdivanının yuxarı təbəqəsinə çar, daim onun əhatəsində olan əyanlar, xüsusi xidmətçilər və kahinlər (dini başçılar) daxil idilər. Manna çarları böyük saraylarda yaşayırdılar. Çar ailəsinə xidmət edənlər sarayda xüsusi otaqlarda qalırdılar. Sarayda taxıl anbarları və şərab saxlanan xüsusi qablar, müxtəlif avadanlıqlar, geyim əşyaları mövcud olmuşdur. Təsərrüfatın bütün sahələrində qul əməyindən geniş istifadə olunurdu.

Mannada əkinçilik və maldarlıq inkişaf etmişdi. Ölkədə qaramal, at, davar, dəvə saxlanması mixi yazılarda öz əksini tapmışdır. Burada həmçinin köçəri maldarlıq da xüsusi yer tuturdu. Manna vilayətlərində atçılığa böyük əhəmiyyət verilirdi. Atlardan həm iqtisadiyyatda, həm də hərbi işlərdə geniş istifadə olunurdu. Əkinçilikdə suvarma kanallarından istifadə olunması bu ölkədə təsərrüfat mədəniyyətinin yüksək olmasını göstərir.

Mannada sənətkarlıq da mühüm sahələrdən biri olmuşdur. Əhali metal hasil etməyi və ondan əşyalar qayırmağı çox yaxşı bacarırdılar. Şəhərlərdə müxtəlif sahələr üzrə sənətkarlıq emalatxanaları fəaliyyət göstərirdi.

Azərbaycan ərazisində Skif şahlığı dövründə Manna bütün regionda baş verən hərbi-siyasi hadisələrdə mühüm rol oynayırdı. Manna torpaqlarını ələ keçirməyə çalışan güclü qonşularına – Aşşur və Urartu dövlətlərinə qarşı mübarizə aparırdı. Aşşur və Urartu təcavüzünə qarşı mübarizədə o zaman Manna ərazisində məskunlaşmış iskitlər (skiflər) və kimmerlər də fəal iştirak edirdilər.

Mannanın yaxın ərazilərində saklar yaşayırdılar. Onlar öz vilayətlərini Sakasena adlandırmışlar (Strabon). Bu ad skiflərin məskunlaşdığı Kür çayından cənubdakı, bu günkü Gəncə-Qazax bölgəsinə uyğundur.

Azərbaycanın şimal-qərb ərazilərində kimmer tayfaları da məskunlaşmışdı.

Herodotun (e.ə. təqr.490/480-425) məlumatına görə, e.ə. VIII əsrin sonunda skiflər köçəri kimmerləri ön Asiyaya tərəf sıxışdırdılar. Onlar e.ə. 674-cü ildə Mannadan şimalda Azərbaycan torpaqlarında Skif şahlığı yaratdılar. Yazılı mənbələrdə e.ə. VII əsrin 40-20-ci illərində Skif şahlığı ərazisindən skiflərin atlı dəstələrinin Urartuya, Suriyaya, Fələstinə və hətta Misirə yürüşləri haqqında məlumatlar vardır. Mada da skiflər tərəfindən məğlub edilmiş və üzərinə bac qoyulmuşdu. Herodotun məlumatına görə, skiflər Asiyada 28 il hökmranlıq etmişlər.

***Mannanın dövlət quruluşu.*** Dövrünə uyğun olaraq Manna dövləti quldar dövləti idi. Manna inkişaf etmiş bir cəmiyyət olsa da, hər halda ilkin sinifli cəmiyyət idi. Mənbələrdə “ölkənin adamları” adlandırılan geniş xalq kütlələri ölkənin siyasi həyatında fəal rol oynayırdılar. Manna dövlətində dövlətin başçısı

çar sayılırdı. Manna çarları ölkəni tam hakimi-mütləq idarə etmirdi. Çar hakimiyyətini məhdudlaşdıran ağsaqqallar şurası mövcud olmuşdur. Mənbələrdən bəlli olur ki, çarlar müstəqil hökmranlığa can atırdılar. E.ə.VIII əsrin ikinci yarısında Mannada hakimiyyət irsi xarakter almışdı. Çar dövləti təkbaşına idarə edir, yəni qeyri-məhdud hakimiyyətə malik idi.

Mannanın paytaxtı İzirtu (Zirta) şəhəri idi. İzirtu qala divarları ilə əhatə olunmuşdu. Bu şəhər uzun müddət Manna çarlarının paytaxtı olaraq qalmışdı. Ancaq Manna ölkəsində "çar şəhəri"adlanan başqa şəhərlər də var idi.

Manna çarlığı "mahallara" bölünürdü, onları çar "canişinləri" idarə edirdilər. Tayfaların, yaxud qəbilə və ərazi icmasının başçıları olan "məskən (yerli) hakimləri" Mannanın inzibati həyatında əsas simalar idilər.

Mannada torpaqlar dövlətin ümumi mülkiyyəti idi. Çar dövlət torpaqlarının əsas mülkiyyətçisi sayılırdı. Ölkədə icma və şəxsi torpaqlar da mövcud idi.

Mannada Şərqin quldarlıq dövlətlərində olduğu kimi xüsusi mülkiyyət zəif inkişaf etmişdi. Dövlətin mərkəzində maliyyə sistemi yaxşı təşkil edilmişdi. Ölkədə taxıl ehtiyatı üçün anbarlar inşa edilirdi.

Mannada nəsli əyanlar, hərbi və xidmətçi əyanlar təbəqəsi güclü idi.

***Massaget şahlığı*** qədim Azərbaycan ərazisində meydana gəlmiş, yüksəlmişdi. O dövrdə Əhəməni hökmdarı II Kir Yaxın və Orta Şərqdə geniş işğallar həyata keçirmişdi. O, Azərbaycanın cənub torpaqlarını zəbt etdikdən sonra ölkəmizin şimalını da ələ keçirməyə cəhd göstərmiş və bu məqsədlə Massaget hökmdarının dul qadını Tomrisə izdivac təklif etmişdi. Lakin sədaqətli qadın, öz vətənini ürəkdən sevən Tomris II Kirin hiyləsini başa düşərək İran hökmdarının təklifini rədd etmişdi. Bu cavabdan hiddətlənən II Kir Massaget ölkəsinə hücuma keçdi. Ancaq düşmənə hədsiz nifrət bəsləyən Tomrisin cəsur ordusu e.ə. 530-cu ildə "Məğlubedilməz" Kirin qoşunlarını darmadağın etdi. Bu savaşda II Kir də öldürüldü. II Kir üzərində bu qələbə Azərbaycan dövlətçiliyi tarixinin ən şanlı səhifələrindən biridir.

İskit şahlığı dövründə Azərbaycan mədəniyyəti ilə Azərbaycanın çox geniş ərazilərinə yayılmış iskit mədəniyyəti arasında qarşılıqlı əlaqə yaranmışdı.

Nəticədə qədim Azərbaycan mədəniyyəti daha da inkişaf etdi, zənginləşdi. Arxeoloji qazıntılar zamanı aşkar olunmuş madddi mədəniyyət nümunələri, habelə Azərbaycan ərazisində iskit-sak-massaket dövründən qalmış çoxlu yer adları buna parlaq sübutdur.

Tarixi həqiqətdir ki, bəhs edilən dövrdə Yaxın və Orta Şərqdə mürəkkəb hərbi-siyasi hadisələrin cərəyan etməsinə, qonşu dövlətlərin zəngin Azərbaycan torpaqlarını ələ keçirtmək cəhdlərinə baxmayaraq, dövlətçilik ənənələrimiz davam etməkdə və zənginləşməkdə idi.

# MİDİYA DÖVLƏTİ

***Mada (Midiya) çarlığının yaranması.*** Madalılar (midiyalılar) tarix səhnəsinə e.ə. I minilliyin əvvəlində çıxmışlar. Onların adları Aşşur salnaməsində IX əsrin 30-cu illərində çəkilmişdir. III Salmanasar (e.ə. 860-825) onların ölkəsini Amadai adlandırır.

Tarixi mənbələr Mada tayfa ittifaqının əsasən Cənubi Azərbaycandan şərqdə və cənub şərqdə olan vilayətlərdə təşəkkül tapdığını göstərir.

Yunan tarixçisi Herodota görə madalılar kənd-kənd yaşayırdılar. Onlar maldarlıq, əkinçilik və müxtəlif sənətlərlə məşğul olurdular.

Herodota görə Midiya dövlətinin əsasını e.ə. 700-cü ildən 647-ci islədək Madanı idarə etmiş Deyok adlı şəxs qoymuşdur.

E.ə. VII əsrin ortalarında Mada çarlığı böyük qüvvə kimi meydana çıxdı. Bir müddət (e.ə. 653-625-ci illər) Midiya skiflərin hakimiyyəti altına düşmüşdür. Skif hökmranlığından azad olan Mada çox keçmir Ön Asiyanın ən qüdrətli dövlətinə çevrilə bildi.

Çox çətin şəraitdə hakimiyyətə gəlmiş Uvaxşatranın (Kiaksarın, 625-584-cü illər) zamanında Midiya hərtərəfli inkişaf etdi. Kiaksar ağıllı və qabiliyyətli hökmdar olmuşdur. O, Midiyada skif ağalığına son qoydu. Ölkə ərazisində pərakəndəliyi aradan qaldıraraq mərkəz hakimiyyətini yaratdı. Babilistan dövləti ilə birlikdə Assuriyalıların ərazilərini zəbt etdilər, e.ə. 605-ci ildə Assuriyanın varlığına son qoydular, ərazisini isə Midiya və Babilistan arasında bölüşdürdülər.

Tarixi mənbələr göstərir ki, Kiaksarın dövründə Midiya ərazisi Şərqdə Orta Asiyadan Qərbdə Halis çayına kimi uzanırdı. Guman edilir ki, Şimali Azərbaycanın bəzi bölgələri də Mada dövlətinin tərkibinə daxil idi.

Kiaksarın vəfatından sonra hakimiyyətə onun oğlu Astiaq (e.ə. 585-550-ci illər) gəlir. Bu dövrdə Mada çarlığında vəziyyət mürəkkəbləşir. Ölkədə daxili ziddiyyətlər kəskinləşir və nəticədə əhəməni sülaləsindən olan II Kir (Kuruş) Midiyanı ələ keçirir. Beləliklə Midiya ərazisi ilə birlikdə Azərbaycan torpaqları da Əhəmənilər imperiyasının tərkibinə qatılır.

***İctimai quruluş.*** Midiya quldar dövləti idi. Cəmiyyətdə patriarxal münasibətlər güclü olmuşdur. Əhali əsasən azad adamlara və qullara bölünürdü. Quldarlıq əsasən patriarxal və quldarlığ səciyyəsi daşıyırdı. Midiya cəmiyyətində artıq dünyəvi və dini zadəganlar silki də formalaşmışdı: ölkədə icma torpaqları və xüsusi torpaqlar əsasən icma üzvü olan azad kəndlilərin ixtiyarında idi. Ordu kəndlilərin əsasında formalaşdırılırdı. Yəni, kənd əhalisi orduya əskər verməyə borclu idilər. Ölkədə aparılan böyük tikililərdə qul əməyindən geniş istifadə olunurdu.

Midiyada mədəniyyət, incəsənət xeyli inkişaf etmişdi. Yerli əhalinin geyimi qonşu ölkələrdən özünün estetik və görünüşü etibarı ilə fərqlənirdi. Demək olar ki, midiyalıların geyimləri sonralar bu yerlərə gəlmiş tayfalar tərəfindən qəbul edilmişdir.

Midiya tayfaları dini baxışları etibarı ilə yekcins deyildi. Şübhəsiz ki, Midiyada zərdüştlik dini geniş yayılmışdı. Avesta ənənələri, təlimləri o vaxt Azərbaycanın, İranın, Orta Asiyanın əyalətlərində geniş yayılmışdı. Avesta zərdüştlüyün təlimlər toplusudur. Avesta iki hissəyə - "Qatik" (böyük) və "Kiçik Avestaya" bölünür. Alimlər Zərdüştün fəaliyyətini müxtəlif dövrlərə - e.ə. VII-VI minilliklərdən başlamış e.ə. VII-VI əsrlərədək olan zamanlara aid edirlər.

***Midiyanın dövlət quruluşu.*** Bibliyada və Qədim Şərq mənbələrində "Mada çarı" və "onun köməkçiləri olan "çarlardan" danışılır. Midiyanın sərhədləri çox geniş (Şərqdə Orta Asiyadan Qərbdə Halis çayınadək) olduğundan "hökmdarlar hökmdarı", "çar", "satrap" və b. titullar da var idi. Herodot yazır ki, midiyalıların hökmranlığı zamanında bir xalq başqa xalq üzərində, midiyalılar isə hamı... üzərində ağalıq edirdi.

Midiya inzibati cəhətdən satraplığa (vilayətlərə) bölünürdü. Vilayətlərə çarlar başçılıq edirdi. Mərkəzləşdirilmiş dövlət yaradıldıqdan sonra isə vilayətləri mərkəzdən göndərilmiş canişin idarə edirdi. Vilayətlərdə aparılan işlərə, canişinlərin hərəkətlərinə nəzarət etmək üçün çarın "gözləri və qulaqları" adlandırılan xüsusi adamlar fəaliyyət göstərirdilər.

Midiyada orduya xüsusi diqqət verilirdi. Kiaksarın dövründə Midiya ordusu Şərqin ən qüdrətli və nizam-intizamlı ordusu olmuşdur. Ordu əsasən iki-piyada və süvari dəstələrindən ibarət idi. Mənbələrdə göstərilir ki, midiyalılar ordu quruculuğunda Skif ənənələrindən və təcrübələrindən bir çox şeylər əxz etmişlər.

# ATROPATENA DÖVLƏTİ

Eradan əvvəl IV əsrdə indiki Cənubi Azərbaycan ərazisində yeni bir dövlət – Atropatena dövləti meydana gəldi. Bu dövlətin banisi Atropat sayılır.

Manna dövləti zəifləyib tarix səhifəsindən çıxdıqdan sonra Azərbaycan əvvəlcə Midiya dövlətinin, e.ə. 550-ci ildən isə Əhəmənilər dövlətinin tərkibinə qatılmışdı. II Kirin yaratdığı dövlət tarixçilər tərəfindən Əhəmənilər dövləti adlandırılır. Kirin və I-II-III Daranın dövründə İran Əhəmənilər dövləti yüksələn xətt üzərində inkişaf etmişdir. Şərqin yaxın-uzaq bir çox dövlətləri ya Əhəmənilər imperiyasının tərkibinə qatılmış, ya da ondan asılı vəziyyətə salınmışdılar.

E.ə. IV əsrin ortalarında Yunanıstanda şəhər dövlətlər yüksəlməyə başlayır. E.ə. 338-ci ildən sonra Makedoniya çarı Filipp bütün Yunanıstanı tabe etdi. E.ə. 336-cı ildə Filipp öldükdən sonra onun oğlu Aleksandr (Şərqdə İskəndər) hakimiyyətə gəldi. Aleksandr cavan olmasına baxmayaraq çox keçmədən özünü olduqca müdrik dövlət xadimi və parlaq istedada malik bir sərkərdə kimi göstərdi. Gənc sərkərdə ətrafına çox görkəmli sərkərdələri - Antipatr, Ptolemey, Filota, Perdikka və başqalarını toplaya bildi. Makedoniyalı Aleksandrın e.ə. 334-cü ildə Şərqə başlayan hərbi yürüşləri tarixdə görünməmiş yürüşlər oldu. Bir neçə ilin ərzində Kiçik Asiya, Fələstin, Mesopotamiya Yunan-Makedoniya qoşunları tərəfindən fəth edildi. İran şahı III Daranın qoşunları dəfələrlə darmadağın edildi. Farsların iki paytaxtının ikisi də - Pasarqad və Persepol tutuldu. III Dara Madanın paytaxtı Ekbatana qaçdı.

Tarixi mənbələr göstərir ki, Atropat Əhəməni şahı III Daranın dövründə Madanın satrapı olmuşdur. Atropat Makedoniyalı Aleksandra qarşı Qavqamela vuruşmasında (e.ə. 331-ci il) madalılara, kadusilərə, albanlara və sakasenlərə başçılıq etmişdi. III Dara tamamilə məğlub edildikdən və Əhəmənilər dövləti süqut etdikdən sonra Atropat Aleksandrın yanına gələrək ona mötədillik göstərmişdi. E.ə. 328-ci ildə Makedoniyalı Aleksandr Atropatı Kiçik Midiyanın satrapı təyin etmişdi. Bu barədə sonralar Strabon özünün "Coğrafiya" əsərində yazırdı: "Midiya 2 hissəyə bölünür. Onun bir hissəsini... Böyük Midiya adlandırırlar... İkinci hissəsi

isə Atropatın Midiyası. O, öz adını Böyük Midiyanın bir hissəsi kimi... Atropatın adından götürmüşdü..."

Beləliklə, Manna dövlətinin süqutundan iki əsr yarımdan çox keçdikdən sonra Azərbaycan ərazisində yenidən müstəqil dövlət yarandı. Bu dövlətin yaranmasının böyük əhəmiyyəti olmuşdur.

Bu dövlətin meydana gəlməsinin əsas səbəblərindən biri bu regionun iqtisadi, sosial, mədəni və siyasi inkişafı olmuşdur. Atropatın şəxsi keyfiyyətləri də, şübhəsiz böyük rol oynamışdır. Atropat olduqca tədbirli, uzaqgörən diplomat, ağıllı dövlət xadimi olmuşdur.

Atropatilər sülaləsi təqribən üç əsr yarıma yaxın bir dövr ərzində ölkəni idarə etdi. Belə hesab edilir ki, Azərbaycan adı Atropatena dövlətinin adından meydana gəlmişdir.

Atropatenanın ərazisində bir çox tayfalar – anariaklar, kadusilər, kaspilər, kirtilər, mardlar, matiyenlər, müklər, saklar, parikanilər, parsilər, utilər və s. yaşayırdılar. O dövrün mənbələrində Cənubi Azərbaycan ərazisi ümumi şəkildə "madalılar" və ya "atropatenalılar" kimi adlanırdı. Deməli, o zaman Azərbaycanın əhalisi türk və İran ləhcələrində danışan etnoslardan ibarət olmuşdur.

E.ə. 2-ci əsrin ortalarında Şərqdə Parfiya çarlığı çox gücləndi. Hər iki dövlətin sakinlərinin dini eyni – zərdüştlük olduğundan Parfiya ilə Atropatena arasında yaxınlaşma yarandı. Bir qədər sonra Parfiya ilə Roma arasında Yaxın Şərqdə ağalıq uğrunda mübarizə başladı. Atropatenada. Albaniyada, eləcə də Ermənistanda parfiyalıların mövqeyi möhkəmləndi. Nəticədə, Atropatena tədricən Parfiya tərkibində bir çox hallarda özünü idarə edən vilayətlərdən birinə çevrildi.

***İctimai quruluş.*** Atropatena quldarlıq dövləti idi. Təsərrüfat həyatının bütün sahələrində qul əməyindən istifadə olunurdu. Antik müəlliflərin məlumatına görə, hökmdar ailəsindən sonra maqlar Atropatenada ən bərəkətli torpaqların sahibləri idilər.

Atropatenada təsərrüfat həyatı mürəkkəb xarakterli olmuşdur. Əhalinin əksəriyyəti əkinçiliklə məşğul idi. Ölkədə əkinçilik üçün məhsuldar torpaqla yanaşı, yaxşı, mülayim iqlim vardı. Burada üzümçülük, şərabçılıq inkişaf etmişdi.

Məşhur coğrafiyaçı Strabon yazır ki, burada üzüm, əncir, habelə buğda bitir. "Mada otu"nun (qarayonca) bitdiyi geniş sahələr Atropatenada köçəri maldarlığın inkişafına şərait yaradırdı. Ölkədə atçılıq da inkişaf etmişdi. Burada "Nisa" atları bəslənilirdi. Ölkə faydalı qazıntılarla – metal filizlər və neftlə zəngin idi. Antiq dövrdə neftdən hərbi işdə istifadə olunurdu. Beləliklə "Midiya yağı" həm hərbdə, həm də təsərrüfatda və tibbdə kara gəlirdi.

Ölkədə balıqçılıqla da məşğul olurdular. Əhali, xüsusən kaspilər tutduqları balıqları duzlayıb, qurudur, onların içalatını bişirib, möhkəm yapışqan hazırlayırdılar. Atropatenada tikinti işləri aparılırdı. Tikintidə daş, ağac və bişmiş kərpicdən istifadə olunurdu.

***Dövlət quruluşu.*** Atropatenada hakimiyyətə hökmdar (şah) rəhbərlik edirdi. İlk hökmdar Atropatın dövründə ölkə həm iqtisadi və siyasi cəhətdən inkişaf etdi. Burada hakimiyyət irsi idi.

Atropatena ərazisi inzibati cəhətdən satraplıqlara bölünürdü. Satraplıqlar mərkəzdən padşah tərəfindən təyin olunan canişinlər tərəfindən idarə olunurdular. Təbii ki, canişinlər hakim sülalənin içərisindən olmalıydı. Ölkənin mərkəz şəhəri Qazaka şəhəriydi. Tranzit ticarət yolunun qala divarları ilə əhatə olunmuş paytaxtda hökmdar yaşayırdı. Qazaka həm də dini mərkəz sayılırdı. Burada Zərdüştlüyə aid məbədlər var idi. Böyük od məbədi də burdaydı. Bu məbədin kahinləri 10 minə qədər adamın çalışdığı torpaq sahələrinə malik idilər.

Qazaka şəhərində həm də mərkəzi dövlət idarələri yerləşirdi. Hökmdar dövlətin iqtisadi, siyasi və hüquqi rəhbəri sayılırdı. Vilayətlərdə məhkəmə işlərinə, vergilərin toplanmasına, təsərrüfatın idarə olunmasına, mükəlləfiyyətlərin yerinə yetirilməsinə, satraplıqların sərhədlərinin qorunmasına, daxili təhlükəsizlik məsələlərinə və s. canişinlər rəhbərlik edirdilər. Hər bir canişinlikdə hərbi qarnizonlar da mövcud olmuşdur.

# ANTİK QAFQAZ ALBANİYASI

Albaniya dövlətinin (latınca Albaniya Caucasensis) Şimali Azərbaycan ərazisində e.ə. IV-III əsrlərdə formalaşdığı ehtimal olunur. Albaniya dövləti şimalda Qafqaz dağları, şərqdə Xəzər dənizi, qərbdə İberiya, cənub-qərbdə Ermənistan, cənubda isə Atropatena ilə həmsərhəd idi. Beləliklə, Qədim Albaniyanın ərazisi müasir Azərbaycan Respublikasını, indiki Ermənistan Respublikasının böyük hissəsini, Dağıstan Respublikasının (Rusiya Federasiyası) cənub hissəsini və Gürcüstanın Alazan və İori (Qabirri) çaylarının vadisini əhatə edirdi.

Antik mənbələrin məlumatına görə, Albaniyada 26 tayfa yaşayırdı. Bunlar: albanlar, anariaklar, aynianlar, çilblər, kaspilər, qardmanlar, qarqarlar, leqlər, maskutlar (massagetlər), müklər, parsilər, sakasenlər, utilər və b. tayfalar idi.

Mənbələrdə albanların adı ilk dəfə Qavqamela vuruşması (e.ə. 331-ci il) ilə əlaqədar çəkilir. Antik dövrün müəllifləri albanları gözəl, ucaboylu, sarışın saçlı, alagöz insanlar kimi təsvir edirlər. Alban tayfası sayca əhalisi ən çox olan tayfa olduğundan ölkə "Albaniya" adlanırdı.

Albaniya ərazisində Sakasena vilayəti vardı. Burada çox güman ki, vaxtı ilə bura gəlmiş saklar yaşayırdılar. Eramızın 1-ci əsrində Xəzəryanı ərazidə Maskut çarlığı yaranmışdı.

E.ə. 3-cü əsrdə Albaniyada pul sikkələri zərb olunurdu. Albaniyada əkinçilik, maldarlıq, balıqçılıq, sənətkarlıq və ticarət inkişaf etmişdi. Albaniyanın münbit torpaqları və suvarma sistemləri – kəhriz, su kanalları mövcud olmuşdu. Sənətkarlıq, metalişləmə, toxuculuq inkişaf etmişdi.

Albaniyanın paytaxtı Kabalaka (Qəbələ) şəhəri idi. Bu şəhərin e.ə. 3-cü əsrdə salındığı guman edilir. Antik dövr müəllifi Plini Kabalakanı "Albaniyada üstün olan şəhər" adlandırmışdı. Kabalaka eramızın 6-cı əsrinə kimi Albaniyanın paytaxtı olmuşdur.

***İctimai quruluş.*** Qonşu Əhəmənilər dövlətində mövcud olan quldarlıq ictimai-iqtisadi münasibətləri təbii ki, Albaniyaya də təsir edirdi. Albaniyada əhali

əsasən əkinçilik, maldarlıqla məşğul olurdu. Albaniyada bir tərəfdə çar və onun əsabələrinin, o biri tərəfdə isə məbəd torpaqları əkilib-becərilirdi. Beləliklə, alban cəmiyyətində bir qütbdə çarlıq, o dövrün məmurları, yerli əyanlar, digər qütbdə isə icmaçılar, əkinçi-maldar əhalinin əsas kütləsi və sənətkarlar dayanırdı. Burada məbəd təsərrüfatı ilə məşğul olanlar və nəhayət qullar da əməkçi əhali kateqoriyasına daxil idilər. İcmaçı kəndlilər, sıravi maldar əhali və sənətkarlar cəmiyyətin məhsuldar qüvvələrini inkişaf etdirən özəyi təşkil edirdilər: qul əməyi üstün rol oynayırdı.

Oturaq əkinçi əhali ilə daha mütəhərrik maldar əhalinin qarşılıqlı surətdə bir-birinə nüfuz etməsi qədim Qafqaz Albaniyasının məhsuldar qüvvələrinə güclü təsir göstərirdi.

***Dövlət quruluşu.*** Qafqaz Albaniyasının öz çarları vardı. Hakimiyyət irsi idi. Dövlətə idarəçiliyi sahəsində bir çox məmurlar da çalışırdılar. Albaniyada çardan başqa hegemonlar və prefektlər də var idi. Antik müəlliflərə görə hegemonlar başçı, rəhbər, canişin, habelə hərbi sərkərdə deməkdir. Şəhərin ərzaq təminatı rəisi, donanma komandanı, suvari dəstəsinin başçısı da prefekt adlandırılırdı. Albaniyada hökmdardan sonra ən hörmətli adam baş kahin idi.

Tarixi mənbələr qeyd edir ki, çarlar və kaspilərin ən varlıları və ən adlı-sanlıları dəvə yunundan paltar geyirdilər.

Albaniyada zərdüştlik dini geniş yayılmışdı. Başqa dini məbədlər də var idi. Strabona görə albanlarda ilahiyə insan qurbanları verilirmiş. Albaniyanın öz dövrünə görə sayılan, seçilən qoşunu olmuşdur. Belə ki, alban qoşunu Strabona görə 82 min (60 min piyada, 22 min süvari), Plutarxa görə 72 min (60 min piyada, 12 min süvari) olmuşdur.

Alban tarixçisi Musa (Moisey) Kalankatuklunun qeyd etdiyinə görə, eramızın 1-ci əsrində Albaniya hökmdar Aran tərəfindən idarə olunurdu. Bu zaman Albaniyanın ərazisi Araz çayından İberiyayadək çatırdı.

## Praktiki məşğələ

## Plan:

1. Erkən dövlət qurumları.
2. Manna dövləti.
3. Atropatena dövləti.
4. Qədim Albaniya dövləti.

## Ədəbiyyat


1. Azərbaycan tarixi üzrə qaynaqlar. B., 2007
2. Алиев И. Очерки истории Атропатены. Б., 1989
3. Cəfərov H. Azərbaycan e.ə. IV minilliyin axırı - I minilliyin əvvəllərində. B., 2000
4. Əliyev K., Əliyeva F. Azərbaycan antik dövrdə. B., 1997
5. Fazili A. Atropatena e.ə. IV - e. VII əsrlərində. B., 1992
6. Qaşqay S. Manna dövləti. B., 1993
7. Moisey Kalankatlı. Albaniya tarixi. B., 1993

# III F Ə S İ L
# ERKƏN ORTA ƏSRLƏR DÖVRÜNDƏ AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ (III-VIII ƏSRLƏR)

## ***Atropatena və Albaniyada feodal münasibətlərinin təşəkkülü.Alban dövləti***

III-V əsrlərdə Azərbaycanda (Albaniya və Atropatenada) feodal torpaq sahibliyinin yaranması başlanmışdı. Albaniya feodal torpaq münasibətlərinin çox erkən yarandığı Qafqaz ölkələrindən biri idi. Erkən feodalizmin yarandığı dövrdə quldarlıq quruluşunun bəzi xüsusiyyətlərinin qalmasına baxmayaraq tədricən feodal münasibətləri inkişaf etməkdə idi. Burada cəmiyyət, əsasən, feodal əyanlarından ibarət azatlar və maddi nemətlərin əsas istehsalçısı olan şinakanlardan (azad kəndlilərdən) formalaşmışdı. Feodalizmin erkən mərhələsində kəndlilərin istismarının əsas forması dövlətin xeyrinə vergilər və mükəlləfiyyətlər, sonralar isə dünyəvi və kilsə feodallarının xeyrinə çoxsaylı natural vergilər, eləcə də yardarlıq icarəsi idi. Albaniya feodal iyerarxiyası "Təyinat fərmanı"nda – "Qaxnamaq"da əksini tapmışdı. "Təyinat fərmanı" feodal-azat iyerarxiyasını nizama salır, ölkənin ictimai-siyasi həyatında hər bir azat patronimiyasının (nəsl) yerini müəyyənləşdirirdi.

III əsrdə Sasanilər Azərbaycanı işğal etdikdən sonra azatlar Albaniya və Sasani hökmdarlarının vassalları idilər və ruhanilərlə yanaşı adambaşına vergi verməkdən azad edilmişdilər. Onlar hərbi xidmətə görə torpaq payı da alırdılar. Ölkədə torpaq sahibliyinin iki forması var idi: dastakert adlandırılan irsi feodal torpaq sahibliyi; xvastak (xostak) adlandırılan şərti torpaq sahibliyi (dövlət tərəfindən vassal xidmətinə görə azatlara müvəqqəti istifadə üçün verilirdi). Xvastak tam mülkiyyətə-dastakertə çevrilə bilərdi. Axı xvastakların sahibləri hərbi xidmətdə olan əyanlar, həmçinin ruhanilər idilər.

Tarixən Albaniya ərazisi əlverişli iqlimə, zəngin təbiətə, məhsuldar torpağa, meşələrə, sulu çaylara malik idi. Albanlar ta qədimdən əkinçiliklə, maldarlıqla, sənətkarlıqla məşğul olurdular. Ölkədə üzüm və meyvə bağları, bostançılıq geniş

yayılmışdı. Şərabçılıq inkişaf etmişdi. Qaynaqlarda Beyləqan ətrafında pambıq becərilməsi, qızıl boyaqdan istifadə olunması yazılır. Albaniyanın təsərrüfat həyatında balıqçılıq da böyük rol oynayırdı.

Erkən orta əsrlərdə Albaniyada şəhər həyatı canlanır, yeni şəhərlər (Bərdə, Beyləqan və s.) salınır, köhnə şəhərlər – Naxçıvan, Qəbələ, Dərbənd daha da genişləndirilirdi. Qonşu Ermənistan dövlətçiliyinin ləğvi ilə əlaqədar baş verən tənəzzül müqabilində Alban şəhərlərinin tərəqqisi bu dövrün özünəməxsus xüsusiyyətlərindən idi.

Şəhərlərdə ticarət-sənətkarlıq həyatın qaynarlığını artırırdı. Məhz buna görə də, erkən orta əsr alban şəhərləri alban Arşakilərinin, sonralar isə alban Mihranilərinin dayağı idilər.

Albaniya şəhərləri əsasən ticarət yollarının üzərində, sənətkarlığın və ticarətin inkişafı üçün əlverişli yerlərdə təşəkkül tapırdı. Qaynaqlarda Bərdə, Dərbənd, Qəbələ, Çola, Beyləqan şəhərləri "əzəmətli" və "şan-şöhrətli" şəhərlər adlandırılırdı. Şəki, Şəmkir, Girdman, Naxçıvan və b. əsas ticarət yollarından aralı yerlərdə salınmış sənətkarlıq və ticarət mərkəzləri idilər.

Albaniya təbii ehtiyatlarına və coğrafi şəraitinə görə bir-birindən fərqlənən vilayətlərdən ibarət idi. Ölkənin təbii ehtiyatları başqa ölkələrin nəzərini cəlb edirdi. Arxeoloji qazıntılar ölkənin beynəlxalq əlaqəsindən xəbər verir. Çindən gətirilmiş ipək parça qalıqları, şüşə və gümüş qablar, çoxsaylı sikkələr və s. bunu deməyə əsas verir. Parfiya və Roma sikkələri Sasani sikkələrinə nisbətən daha çoxluq təşkil edir.

Albaniyada xristianlıq eramızın 1-ci əsrində yayılmağa başlanmışdı. "Alban tarixi" əsərində göstərilir ki. yunan təqviminin 43-cü ilində albanlar xristianlığı qəbul etmişdir. Tarixi bir həqiqətdir ki, ermənilər xristianlığı albanlardan 270 il sonra qəbul etmişlər.

Albaniyada xristian dini yalnız IV əsrdə möhkəmlənə bildi. Belə ki, 314-cü ildə Urnayr xristianlığı qəbul edərək, onu Albaniya çarlığının dövlət dininə çevirdi. Onun zamanında alban kilsələri tikilmiş və onlara zərdüşti məbədlərinin torpaq

payları verilmişdi. Ancaq bununla belə əhalinin bir hissəsi köhnə inanclarına – bütpərəstliyə, zərdüştlüyə, tanrıçılığa sadiq qalırdılar.

Albaniyada xristianlığın yayılması və qərarlaşmasında alban əlifbasının və alban yazısının yaranması, məktəblərin təşkil edilməsi, İncilin və başqa dini ədəbiyyatın süryani və yunan dillərindən alban dilinə tərcüməsi böyük rol oynadı.

IV əsrin sonuna yaxın Albaniyada özünəməxsus müəyyən subordinasiyası olan lazımi kilsə iyerarxiyası artıq təşəkkül tapır. Alban kilsəsinin faktiki vəziyyəti 451-ci ildə Xalkedonda çağırılmış IV Ümumdünya kilsə məclisindən sonra hüquqi cəhətdən qanuniləşdirildi.

***İctimai quruluş.*** III-VIII əsrlərdə Albaniyada feodal münasibətləri əsasən formalaşmışdı. Burada feodal torpaq sahibliyi torpaq üzərində dövlət və xüsusi mülkiyyət formalarının meydana gəlməsi şəraitində təşəkkül tapmışdı. Burada feodal cəmiyyətinin sosial əsasını iki antoqanist sinif sinif-zümrə, feodallar (azatlar) və kəndlilər (şinakanlar) təşkil edirdi. Alban dini Aquen məclisinin qanunlarında dindarlar da iki kateqoriyaya, əyanlara-azatlara və şinakanlara bölünürdülər. Ölkənin əsas istehsalçıları azad kəndlilər, icmaçılar və feodaldan asılı kəndlilər idilər. Albaniyada üç kateqoriya kəndli vardı: varlılar, kasıblar, torpaqsızlar. Torpaqsız kəndlilər son mərhələdə feodal yanında muzdura çevrilirdilər.

Yerlərdə kəndxuda – icma başçısı vergi yığır, suyu bölüşdürür, torpaqdan istifadə məsələlərinə məsul idi. “Alban tarixi”ndə V əsrdə Albaniyada olan qullar haqqında məlumat verilir.

Albaniyada V-VI əsrlərdə feodal sinfinin formalaşması başa çatdı. Kəndlilərə - şinakanlara müqabil olan “azat”, “naharar” terminləri yarandı. “Azat” (farsca “nəcib”, hərfən “qəbilə daxilində doğulmuş”) termini mənaca çox genişdir. Yəni, azatlar bütün hakim feodal sinfini təmsil edirdilər.

Fəaliyyət dairəsinin və mənasının genişliyinə görə “azat”dan ikinci yerdə “naharlar” termini gəlirdi. Bu ad Parfiya dilində “əzəl sahib olan”, “ilkin sahib” demək idi. Azat termini kimi bu termin də bütövlükdə feodal zümrəsini, feodal patronimiyasının bütün üzvlərini bildirirdi.

Naharlar xanədanları torpağa, suya malik olan ölkəni qoşun, hərbi qüvvə ilə təchiz edirdilər. Əsas vəzifələri isə hökmdara hərbi xidmət idi. Kənd icmaları tədricən naharlar rəhbərliyinin altına keçir, əhali asılı adamlara çevrilirdilər. Naharlar zümrəsi bütün vilayətlərə və ya nahiyələrə hökmranlıq edirdilər.

Erkən feodalizm dövründə Albaniyada aşağıdakı torpaq sahibliyi mövcud idi: 1) torpaq üzərində dövlət mülkiyyəti; 2) atadan qalma (arnatik); 3) hökmdar domeni; 4) xüsusi feodal torpaq mülkiyyəti; 5) kilsə torpaq mülkiyyəti; 6) kəndli və icma torpaq mülkiyyəti

Albaniyada III-VIII əsrlərdə torpaq mülkiyyətində dövlət (hökmdarın şəxsində) forması üstünlük təşkil edirdisə, sonralar ordunun dövlət aparatının, yerli idarəçiliyin saxlanmasında divan torpaqlarının əhəmiyyəti artmışdı.

Xüsusi feodal torpaq mülkiyyəti iki yolla formalaşırdı: 1) Feodalın şəxsi mülkü olan torpaq üzərində irsi mülkiyyət ("dastakert"). Torpaq mülkiyyətinin bu forması torpaq üzərində icma mülkiyyətinin pozulması, torpaqların hakim sinfin nümayəndələrinə malikanə hüququ əsasında mülk kimi bağışlanması yolu ilə; 2) Şərti torpaq mülkiyyəti ("xostak"). Xostak hərbi xidmət, ya da məmurluq xidməti müqabilində dövlət tərəfindən müvəqqəti istifadə üçün verilən torpaq mülkiyyət forması idi. Qaynaqlardan bəlli olur ki, şərti torpaq sahibliyinin sonralar irsi torpaq sahibliyinə - dastakertə çevrilməsi ənənəsi olmuşdur.

Şərtsiz mülkiyyət sahibləri – hökmdarın, çarın, knyazın saray məmurları (patronomiya), feodallaşan zadəgan nəsilləri (azatlar, naxaretlər, azqaretlər), yeni yaranmış feodal əsilzadələr (mülkədarlar – nahararlar, işxanlar), hökmdar və knyaz sarayında qulluq etməklə irəli çəkilmiş varlı kəndli təbəqəsinin bir hissəsi idi. Ölkədə hərbçilər, kiçik vəzifəli zadəganlar və kilsə xadimləri şərti mülkiyyət sahibləri sayılırdılar.

Albaniyada əsas vergi verən əhali feodaldan asılı kəndlilər idi. Burada dini-kilsə vergiləri – can vergisi-has kilsə gəlirlərinin ondan biri – tasanord, məhsul vergisi – ptix, ölənin ruhunun rahatlanması üçün yığılan vergi – pohetsatur var idi.

***Dövlət quruluşu.*** Alban cəmiyyətinin siyasi strukturunu I-VI əsrlərdə alban Arşakiləri sülaləsindən olan hökmdarların, VII əsrdən Mihranilər sülaləsindən olan

böyük knyazların başçılıq etdiyi mərkəzləşdirilmiş feodal dövlət kimi səciyyənləndirmək olar. VIII əsr alban müəllifi Musa Kalankatuklu on Arşaki hökmdarının – Cəsur I Vaçaqan, I Vaçe, Urnayr, II Vaçaqan, Merhavan, Satey, Asey, Yesuaqen, II Vaçe və Mömin III Vaçaqanın adını çəkir.

VI əsrin sonu - VII əsrin əvvəllərində Girdiman vilayətinin hakimləri olan Mihranilərin feodal nəsli Albaniyada yüksəlməyə başladı. Kalankatukluya görə Mihranilər İran ərazisindən Albaniyaya gəlmişdilər. Daha doğrusu onlar II Xosrov Pərvizin (591-628) hiddətindən gizlənmişdilər. Sonralar Xosrov Mehranı bağışlayır və o sülaləyə Albaniyada öz arxası kimi baxır. Ancaq sasanilərin istəyinə zidd olaraq Mihranilər müstəqil siyasət yeritməyə başlayırlar.

Albaniyada hökmdar ölkənin qanunvericisi və ali hakimi idi. Dünyəvi və dini hakimiyyətin qanunverici və məşvərətçi orqanlarının, ölkənin bütün silahlılarının baş komandanı idi. Kilsə məclislərini də o çağırırdı.

Azərbaycan dövlətçiliyi tarixində Albaniya hökmdarı Cavanşirin öz yeri vardır. Mihranilər sülaləsindən (knyaz Varaz Qriqorun oğlu) olan Cavanşir gəncliyində sərkərdə kimi məşhur olmuşdu. O, Albaniya qoşunlarının başçısı kimi Sasanilər tərəfindən ərəblərə qarşı vuruşmuşdu. Kalankatlı qeyd edir ki, "yeddi il ərzində cəsur Cavanşir bu ağır müharibələrdə iştirak etdi". 642-ci ildə ərəblərin Sasanilər üzərində qələbəsindən sonra Cavanşir "iranlılarla vidalaşıb" öz ölkəsinə - Girdimana gəlir. Bir neçə ildən sonra bütün Albaniyanın hökmdarı olan Cavanşir ölkəni ələ keçirməyə çalışan Bizans, Sasani, Xilafət və Xəzər imperiyaları kimi qüdrətli qoşunlara qarşı müdrik, uzaqgörən və çevik xarici siyasət yeritmiş, özünün sərkərdəlik məharəti və döyüş sücaəti ilə ölkənin müstəqilliyini qoruyub saxlaya bilmişdi.

Tarixi mənbələrə istinadən demək olar ki, Albaniyada yüksək dərəcəli məmurlar hazarapet, hramanatar və sparapet adlanırdı.

Hazarapet fars dilindən gəlməydi, hərfən "minbaşı" mənasını verirdi. Bu ad çox qədim zamanlardan İranda işlədilirdi. Parfiya və sonra da Sasanilər dövründə də bu vəzifə hərbi, həm də mülki sahədə var idi. Albaniya ölkəsində hazarapet ən yüksək dövlət vəzifələrindən biri sayılırdı. Tarixi mənbələrdən məlum olur ki,

hökmdar III Vaçaqanın dövründə Albaniyada yalnız hazarapet və hramanatar vəzifələri var idi. Albaniyada hramanatarın baş vəzir kimi dövlət işlərinə nəzarət etdiyi ehtimal olunur.

Hazarapet Albaniyada guman edilir ki, bütün maliyyə və vergilər idarəsinə başçılıq edirmiş. Tarixi mənbələrə istinadən o da guman edilir ki, VI əsrdə burada hazarapet vəzifəsi aradan çıxır və maliyyə işləri bilavasitə canişinlərə - mərzibanlara həvalə olunur.

Sparapet (fars istilahı) Albaniyada bütün hərbi qüvvələrin baş komandanı idi. Alban tarixində böyük knyaz Cavanşir Albaniya sparapeti kimi təqdim edilir.

Orta əsrlərdə Albaniya ölkəsi inzibati-ərazi baxımından, qavarlara və nəhənglərə bölünürdü. Bu istilahlar bu günkü mənada vilayət və mahallar kimi başa düşülməlidir. Vilayətlərin hər biri də yaşayış sahələrinə - kənd-kilsə inzibati vahidinə bölünürdü.

İlkin orta əsrlərdə Albaniyada şəhərlərin artması müşahidə edilir. Həmin dövrdə köhnə şəhərlərin (Qəbələ, Naxçıvan, Dərbənd) inkişafı ilə yanaşı, yeni şəhərlər (Bərdə, Beyləqan və s.) salınması ilə ölkədə şəhər həyatının canlanması prosesi gedirdi.

Albaniya şəhərlərində sənətkar-tacir təbəqəsi yaranırdı ki, bunlar da ətraf ərazilərdə də fəaliyyət göstərirdi. Albaniya üçün beynəlxalq yolların üstündə yaranmış şəhərlər xarakterik idi. Bu şəhərlər Moisey Kalankatlının qeyd etdiyinə görə “nəhəng” və “şöhrətli” şəhərlər adlandırmışlar.

Albaniyanın paytaxtı Bərdə (Partav) idi. O, İran, Mərkəzi Asiya, Cənubi Azərbaycan, Ermənistan, Gürcüstan, ərəb ölkələri, Bizans və Şimali Qafqazın karvan yollarının qovşağında yerləşdiyindən Yaxın və Orta Şərqin ticarət mərkəzlərindən biri idi.

Bu dövrdə Albaniyada Şəki, Şamaxı, Şəmkir, Şabran, Xalxal və s. şəhərlər də yüksəlməkdə idi.

Albaniya şəhərlərini əhali tərəfindən seçilmiş hakimlər – qordzakallar idarə edirdilər.

## Azərbaycan dövlətçiliyi III – VIII əsrlərdə

### § 1. Adurbadaqan Sasanilər dövlətinin tərkibində

Cənubi Azərbaycanın (Adurbadaqanın) III-VI əsrlər dövlətçilik tarixi İran Sasani dövlətinin tarixindən ayrı nəzərdən keçirilə bilməz. 226-cı ildə Sasanilər dövlətinin banisi I Ərdəşir Babakan özünü şahənşah elan edərək 651-ci ilə qədər mövcud olmuş İran Sasanilər dövlətinin əsasını qoydu. IV əsrin sonlarında bütün Cənubi Qafqaz Bizans və Sasanilər dövləti arasında bölündü. Ermənistanın böyük bir hissəsi, Albaniya və İberiya Sasanilər dövlətinə birləşdirildi. Adurbadaqan isə bu imperiyanın dastakertinə - vilayətinə çevrildi. Mənbələrin verdiyi məlumata görə Adurbadaqan torpaqlarının münbütlüyünə və təbii sərvətlərinə (neft, duz) görə Sasanilər dövlətində çox mühüm rol oynayırdı. Adurbadaqan həm də zərdüştlüyün mərkəzi sayılırdı.

IV-VI əsrlərdə Bizans və Sasani müharibələri Adurbadaqanın inkişafına heç şübhəsiz olduqca mənfi təsir göstərmişdi.

VI əsrin sonlarında xəzərlər Azərbaycana soxuldular. Xəzərlər türklər idi. 589-cu ildə türk xaqanının qoşunları şərq sərhədlərinə yaxınlaşdılar. Sasanilər türk xaqanını məğlub etsə də son mərhələdə sülh bağlandı.

Xəzərlər 627-ci ildə etdikləri yürüş zamanı Azərbaycanın cənublu-şimallı bir çox vilayətlərini tutdular.

### § 2. Adurbadaqanın ictimai quruluşu

Yuxarıda deyildiyi kimi Adurbadaqan Sasani şahlığının 27 şəhrindən şərhindən (vilayət deməkdir) biri idi. Ancaq bu ölkə Sasani imperiyasının tərkibində olsa da 27 vilayətin içində "İran olmayan" Adurbadaqanda da ictimai-iqtisadi münasibətlər olmuşdur. Beləliklə, bütün Sasani dövlətində olduğu kimi əhali sinfi baxımdan 4 zümrəyə bölünürdü: 1) kahinlər, 2) döyüşçülər,

3) mirzələr, 4) vergi verənlər. Dördüncü silk əkinçilərdən, maldarlardan, sənətkarlardan və ticarətlə məşğul olanlardan ibarət idi. Burada əməkçi əhalinin əksəriyyətini icmalarda birləşmiş azad kəndlilər təşkil edirdi.

Döyüşçülər yekcins deyildi. Onun ali təbəqəsini zadəganlar (şahzadələr), şəhriyarlar və buzurqlar (əyanlar) təşkil edirdi.

Mirzələr zümrəsinə təkcə xidmət idarələrinin katibləri, dəftərxana mirzələri, salnaməçilər deyil, həm də bu silkə həkimlər, münəccimlər, musiqiçilər və bəzi orqan məmurları da daxil idi.

Qaynaqlarda o dövrün bir çox sənət növlərinin adı çəkilir. Qızıl və gümüşdən müxtəlif şeylər, qadınlar üçün bəzək əşyaları düzəldən zərgərlər var idi.

Sənətkarlar əsasən şəhərlərdə məhəllə-məhəllə yerləşir, onların yaşadığı yerlər peşələrinə görə adlanırdı. Məsələn, zərgərlər məhəlləsi, palançı, dəmirçi, dərzi və s. və s. məhəllələri deyə adlanırdılar.

Ölkədə qullar heç bir silkə, zümrəyə aid deyildilər. Onlar uklad şəklində mövcüd olmuşlar. Qullar əsasən kənd təsərrüfatında, mədənlərdə, məbəd təsərrüfatında çalışırdılar.

III-V əsrlərdə borc köləliyi geniş yayılmışdı.Köləliyin bu forması can vergisi əvəzinə özünü satmaqdan, ya da borcunu ödəyə bilmədiyi halda torpaq sahibləri tərəfindən zorla köləyə çevrilirdilər. II Şapur (309-379) dövründə belə hallar çox olmuşdur.

Sasanilər dövründə sahibkarın onlar istədiyi qulu azad etmək hüququ vardı.

## § 3. Torpaq mülkiyyət formaları

Adurbadaqanın təsərrüfat həyatında qul əməyindən geniş istifadə olunsa da, əməkçi əhalinin əsas hissəsini icmalarda birləşmiş azad kəndlilər təşkil edirdilər.

İranda şahənşahın torpaq sahələri olduqca geniş idi. Bundan başqa adlı-sanlı kübar nəsilləri də geniş torpaq sahələrinə sahibkarlıq edirdilər. Nizamülmülkün məlumatına görə, I Xosrovun dövründə Azərbaycan hakiminin Xorasanda, Farsda və Azərbaycanda çoxlu malikanə və torpaq sahələri olmuşdur.

Torpaq mülkiyyəti: icma torpaqları, hökmdarın bəxşiş verdiyi sahibkar torpaqları, vilayətlərin irsi sahibləri olan feodal torpaqları, məbəd və şəhər torpaqları.

Xüsusi feodal torpaq mülkiyyəti iki formada idi: dəstgird və xvastaq. Dəstgird irsi torpaq mülkləri, xvastak isə şərti torpaq mülkləri idi.

Torpaq icarəsinin şərtləri və formaları müxtəlif idi. İcarənin elə növü vardı ki, burada rentanın qədəri icarəçinin gəlirindən deyil yalnız məhsuldan asılı olurdu. İcarə müqaviləsi yazılı aparılırdı.

İcarənin yardarlıq növü də var idi. Yardarlıqda torpaq sahibi verdiyi sahədən məhsulun ⅓-dən ¾-ə qədərini ala bilərdi.

Əkinçilikdə süni suvarmadan istifadə olunurdu.

## § 4. Vergi və mükəlləfiyyətlər

Adurbadaqanda orta əsrlərdə vergi və mükəlləfiyyətlər içərisində ən çox yayılanı qazidaf, xaraq və xarq idi. Bu terminlərin heç biri İran mənşəli olmasa da, sonralar bu terminlər İran dilinin qanunlarına uyğunlaşmışlar. I Xosrovun vergi islahatlarında qazidaf termini "can vergisi", "xaraq" termini isə torpaq vergisi mahiyyətində işlənib.

Sasani "Qanunnamə"sində xaraq terminində iranmənşəli bar termin ilə birgə təsadüf edilir. Bu da "mükəlləfiyyət, biyar" və "vergi" mənasındaydı. Ət-Təbərinin məlumatlarına görə, I Xosrovun dövründə torpaq vergisi vaxtlı-vaxtında yığılırdı.
I Xosrovun hakimiyyəti dövründə 20-50 yaşlı kişilərdən 12, 8, 6 və 4 darhma can vergisi ödəyirdi. Kubar nəsillər, əyanlar, döyüşçülər, mirzələr, kahin və məmurlar can vergisindən azad idilər.

Əhalidən başqa vergilər də alınırdı. Məsələn, yol çəkilişi, şəhərlərdə təmir üçün, mühafizəçilər üçün silah alınması və s.

Vergini verə bilməyən torpaq sahibləri müflisləşir, borca düşür, sonda isə muzdlu işçiyə çevrilirdilər.

## § 5. Maniçilik və məzdəkilər hərəkatı

III əsrdə Sasanilər imperiyasının hər yerində Maniçilik hərəkatı baş verdi. Mani tarixi şəxsiyyətdir. Kubar ailəsində doğulmuş və mükəmməl təhsil görmüşdü. Maninin təlimində bütün dinləri vahid bir dində birləşdirmək meyli vardı. Mani öz təlimi ilə əzilən, istismar olunan insanların müdafiəsinə qalxmışdı. Onun ölkənin ayrı-ayrı bölgələrində çoxlu ardıcılları vardı. Maniçilər tərki dünyalığı və nigahsızlığı geniş təbliğ edirdilər.

Maniçilik bir çox cəhətlərinə görə özünəqədərki məzhəb və hərəkatlardan seçilirdi. Belə ki, bu hərəkat bərabərliyə tərəfdar və feodal istismarına qarşı idi.

V əsrin sonlarında meydana çıxmış Məzdəkilər hərəkatını da Maniçiliyin davamçısı adlandırmaq olar. Məzdəkilər də hər cür istismarı rədd edir, cəmiyyətdə bərabərliyi təbliğ edirdilər. Hərəkatın başlanğıcında Sasani şahənşahı I Kavad (488-531) iri feodalları tabe etməklə hərəkatdan istifadə etdi. Ancaq məzdəkilərin yüksələn qüdrəti hakimiyyəti qorxuya saldığından, VI əsrin əvvəllərində hərəkata qarşı mübarizə başlandı. Nəticədə, təqiblərdən yaxa qurtaranlar Azərbaycanın, Təbəristanın və s. dağlıq yerlərində sığınacaq tapdılar.

## § 6. Azərbaycanda din

Azərbaycan çox qədimlərdən atəşpərəstliyin mərkəzlərindən biri olmuşdur. Atəşpərəstliyin müqəddəs od məbədi də Azərbaycanda idi. Zərdüştliyin təbliğatının da buradan başlanması guman edilir.Sasanilər dövründə onlar işğal etdikləri ərazilərdə atəşpərəstliyi qılınc gücünə yayırmışlar.

Zərdüştün vətəninin Azərbaycanla bağlı olmasını dünya tarixçiləri qətiyyətlə qeyd edirlər. Adurbadaqan kahinlərinin geniş nüfuz sahibləri olduqları o dövrün salnamələrində öz əksini tapmışdır.

Məbəddə od gecə-gündüz yanırdı. Şərqdə üç ən möhtəşəm məbəddən biri – Adurquşnasp Azərbaycanda, indiki Taxtı Süleyman şəhərinin yerində olan Şizdə

yerləşirdi. Sasani hökmdarları taxta çıxdıqda, yaxud da hərbi yürüşləri zamanı məbədə gəlib, oranı ziyarət edirdilər.

## § 7. Adurbadaqanda xristianlıq

Ən əvvəl Suriyada və Kiçik Asiyada yayılan xristianlıq Azərbaycanın cənubunda – Adurbadaqanda da yayılmışdır. Mənbələr göstərir ki, İsa peyğəmbərin şagirdlərindən biri olan həvari Matvey ( o həm də İncilin müəlliflərindən hesab olunur) Ekbatan (Həmədan), Rey və Damağanda təbliğat aparmışdır.

Adurbadaqanda xristian icmaları təkcə incil təbliğatı ilə deyil, həm də Parfiya və Sasani dövlətlərinin ərazisində çoxdan yaşayan xristian – suriyalılara görə yaranmışdı.

Qədim Babilistan imperiyanın əsas vilayəti idi. Katolikos Ktesifon (Mədain) şəhərində otururdu. Mənbələrdə başqa yerlərlə bərabər Azərbaycan yepiskopunun adı çəkilir.

Azərbaycanda xristianlıq haqqında ən erkən məlumat V əsrə aiddir.

Mənbələr həmçinin V-VII əsrlərdə Adurbadaqanda yepiskopluq etmiş bir neçə kilsə xadiminin adını çəkir. Bunlardan "Qanzakın və Adurbadaqanın" yepiskopu Osiy (Yelisey) 486-cı ildə patriarx Akak tərəfindən çağrılmış kilsə məclisində iştirak etmişdir.

Mənbələrdə həmçinin Muğan, Paytakaran əhalisinin xristianlığı qəbul etmələri barədə danışılır.

**Praktiki məşğələ**

**Plan:**

1. Erkən orta əsrlərdə Azərbaycanın siyasi-inzibati vahidləri. Yeni ictimai münasibətlərin yaranması.
2. Azərbaycan Sasani dövlətinin tərkibində.
3. Alban feodal dövləti. Girdiman çarlığı
4. Adurbadaqan dövləti

**Ədəbiyyat**


1. Azərbaycan tarixi. Uzaq keçmişimizdən XIX yüzilliyin 70-ci illərinədək. B., 1996, 200 s.
2. Azərbaycan tarixi. 7 cildlik, I c. 1998
3. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklirinədək) Bakı, 2014.
4. Kalankatlı M. Alban tarixi. B. 1991
5. Azərbaycan tarixi üzrə qaynaqlar. B., 2007
6. Bakıxanov A. Gülüstani-İrəm. B., 2000
7. Касумова С.Ю. Азербайджан в III-VIII вв. Б., 1993
8. Мамедов Т.М. Кавказская Албания в IV-VII вв. Б., 1993
9. Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. B., 2006
10. Məmmədova F.S. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. B., 1993

# IV F Ə S İ L
# AZƏRBAYCANDA DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN BƏRPASI. IX-XI ƏSRLƏR MÜSTƏQİL FEODAL DÖVLƏTLƏRİ

## Azərbaycan ərəb xilafətinin hakimiyyəti altında

VII əsrin başlanğıcında Ərəbistan yarımadasında yeni bir din – İslam dini meydana gəldi. Bu dinin yaradıcısı Məkkə əhli Məhəmməd (s.ə.s.) peyğəmbər idi.

Yeni dinlə bərabər həmən əsrin 30-cu illərində ilk dəfə olaraq Ərəb dövləti (Ərəb xilafəti) yarandı. Ərəblər az bir vaxtda güclü ordu yaratdılar və xilafət ordusu, demək olar ki, bütün istiqamətlərdə işğalçılıq yürüşlərinə başladı. Bu yürüşlər İspaniyadan Çin hüdudlarınadək geniş ərazilərdə yaşayan müxtəlif xalqların, o cümlədən azərbaycanlıların həyatında əsaslı dəyişikliklər yaratdı.

Çox qısa müddətdə Sasani imperiyasının bütün ərazisi, Bizans imperiyasının isə çox hissəsi Ərəb xilafətinin tərkibinə qatıldı.

Ərəblərin Azərbaycana ilk hücumu 639-cu ildə başladı. Nəhavənd və Həmədan döyüşlərindən (642) sonra isə fəth olundu.

Xilafət ordularının Qafqaza hücumu zamanı Azərbaycanda siyasi vəziyyət olduqca mürəkkəb idi. Ölkə Sasani hakimiyyəti altında olmaqla, Albaniyada hökmranlığı Mihranilər sülaləsi aparırdı.

Mehranilər sülaləsinin ən qüdrətli nümayəndəsi Cavanşir (642-681-ci illər) olmuşdur. Cavanşir Albaniyanın çarı olduğu vaxt vətəninin müstəqilliyinə çalışmışdır. Uzaqgörən diplomat, yenilməz sərkərdə olan Cavanşir həm də böyük siyasətçi olmuşdur. Onun düzgün siyasəti nəticəsində şimaldan xəzərlərin, cənubdan isə xilafət yürüşlərinin qarşısı alınmışdı. Cavanşir öldürüldükdən sonra (681) ərəblərin Qafqaza hücumları genişləndi.

705-ci ildə ərəblər Albaniyada Mehranilər sülaləsinin hakimiyyətinə son qoydular. Azərbaycan əhalisi uzun illər idi ki, Bizans-Sasani müharibəsindən, habelə şimaldan xəzərlərin hücumundan çox əziyyət çəkmişdi. Ona görə də İslam dininə və ərəblərin onlara vəd etdikləri əmin-amanlığa inam və ümidləri böyük idi.

Mənbələr qeyd edir ki, xilafət qoşunları yürüş etdikləri ölkələrə bir əlində Quran, bir əlində islam bayrağı ilə gedirdilər. Buna görə də ilk çağlar islamı ən əvvəl ərəblərə arxa kimi baxan əyanlar qəbul edirdilər. Akademik Z.Bünyadov bu mənada qeyd edir ki, kəndlilərə nisbətən şəhərlilər yeni dini daha əvvəl qəbul etmişlər. Görünür buna görə də xəlifə I Ömərin fərmanına görə, islamı qəbul etmiş kəndliyə, xəzinədən mükafat da verilirdi.

İlk vaxtlar ərəblər işğal etdikləri ərazilərdə yerli əhali ilə müqavilələr bağlayır, vergi və töycüləri insanların imkanları nəzərə alınmaqla alırdılar. Digər tərəfdən "əl-kitab" (kitab əhli, tək allahlığı qəbul etmiş – xristian və yəhudilər) olan insanları zorla islamlaşdırmağa çox da meyilli deyildilər. Ərəblər yeni və mütərəqqi olan islam dinini ən əvvəl bütpərəstlər, atəşpərəstlər, həmçinin mənəviyyat və əxlaqa zidd olan, ibtidai icma dövründən qalma qrup nigahı və yaxın qohumlar arasında nigah formalarını hələ saxlamaqda olan tayfalar arasında yaymağa daha çox səy göstərirdilər.

Xilafət Azərbaycanda, Qafqazda və b. ərazilərdə möhkəmləndikcə və xilafət orduları yeni-yeni ərazilər işğal etdikcə ərəb dövlətinin daha çox vəsaitə ehtiyacı yaranırdı. Xilafət bu ehtiyacları ona tabe olan xalqların hesabına ödəmək istəyirdi. Nəticədə vergilər, töycülər artırılır, insanlar ac-yalavac hala düşürdülər. Bundan başqa ərəblər çox sürətlə köçürmə siyasəti aparmağa başladılar. Belə ki, Kufədən, Bəsrədən, Şam və b. yerlərdən çoxlu ərəb ailələrini Azərbaycanın ən münbit torpaqlarına köçürür, burada onları məskunlaşdırırdılar.

Ərəblərin Azərbaycana köçürmə siyasəti IX əsrə qədər davam etdi. Bütün bunlar yerlərdə xilafətə qarşı üsyanlara səbəb oldu. Xilafət əleyhinə ən böyük hərəkat Xürrəmilər hərəkatı idi. Bu hərəkat VIII əsrin sonu IX əsrin əvvəllərində daha geniş vüsət aldı. 816-cı ildən hərəkata Babək başçılıq etmişdir. İyirmi ildən artıq Babək ərəblərə qarşı inamla mübarizə aparmışdır.

Xürrəmilərin sosial təlimi işığın qüdrəti ilə yer üzündə ədalətli cəmiyyət yaratmağın mümkünlüyünə əsaslanırdı.

Onların sosial ədalət ideyasını torpaq və əmlak üzərində xüsusi mülkiyyəti ləğv etmək cəhdləri təşkil edirdi.

Babək hərəkatı 837-ci ildə yatırıldısa da bu hərəkatın gələcəkdəki bütün ictimai-siyasi hərəkatlara çox böyük təsiri olmuşdur.

***İctimai quruluş.*** Ərəblər Azərbaycanı işğal etdikdən sonra da əhalinin sinfi bölgüsündə elə bir dəyişiklik baş vermədi. VII-X əsrlərdə əhali əsasən iki təbəqəyə: torpaq sahibi olan feodallara və feodaldan asılı olan kəndlilərə bölünürdü. Kəndli yenə də feodaldan asılı idi. Bununla yanaşı, hər bir kəndli şəxsi təsərrüfata (evi, mal-qarası, bağı-bağçası, əmək alətləri) malik idi. Kəndlinin əsas gəliri icarəyə götürdüyü feodal torpağından gəlirdi.

Əhalinin xüsusi bir təbəqəsini təşkil edən sənətkarlar da mövcud olmuşdur. Sənətkarlar əsasən şəhərlərdə yaşayırdılar. Ayrı-ayrı peşədən olan sənətkarlar ayrı-ayrı küçə və ya məhəllədə (nalbənd məhəlləsi, dəmirçi məhəlləsi, qalayçı məhəlləsi, dərzilər məhəlləsi və s.) yerləşirdilər. Cəmiyyət həyatında tacirlərin öz yeri vardı. Onlar da şəhərlərdə yaşayırdılar. Ancaq kəndlərlə də əlaqələri var idi.

Sosial nərdivanın ən aşağı pilləsində heç bir mülkiyyəti və hüququ olmayan qullar dayanırdı. Qulların sayı müharibələrdən çox asılı idi. Orta əsrlərdə bütün Şərq ölkələrində olduğu kimi Azərbaycanda da böyük qul bazarları fəaliyyət göstərirdi. Qul bazarlarına hər yerdən qullar gətirilirdi. Ölkəyə gətirilən hər bir əşya, əmtəə kimi qul gətirilməsindən də xəzinəyə rüsum toplanırdı.

VII-X əsrlərdə Azərbaycanın iqtisadi həyatında əkinçilik və maldarlıq əsas sahələr idi. Tarixi bir həqiqətdir ki, əkinçilik vətənimizdə daima tərəqqi etmişdi. Torpağın keyfiyyətli şumlanmasının və becərilməsinin məhsuldarlıq üçün böyük əhəmiyyətini kəndli yaxşı bilirdi. Ona görə də əkinçilik mədəniyyəti daima təkmilləşmişdi. X əsrə yaxın ağac kotanını ağır və yaxud qara kotanın (metal) əvəz etməsi əsl hadisə olmuşdur.

Azərbaycanda əkilən taxıl bitkiləri arasında buğda, darı, çəltik və arpa üstünlük təşkil edirdi.

Moisey Kalankatlı Kür çayı boyunca çoxlu taxıl bitkilərinin becərildiyini yazır. Ölkədə ipəkçilik və bağçılıq, eləcə də maldarlıq da inkişaf etmişdi. Maldarlığın oturaq və köçəri formaları vardı. IX-X əsr ərəb müəllifləri Azərbaycanda qıvraq və dözümlü at cinslərinin olduğunu qeyd edirlər.

X əsr ərəb coğrafiyaçı-səyyahları Əl-İstəxri və İbn Havqəl Kür və Araz çaylarında çox dadlı (şahmalı) balıqların bolluğunu qeyd edirlər. Ölkədə ticarət də inkişaf etmişdi.

Azərbaycana yeni ictimai münasibətlər gətirə bilməyən bədəvi ərəblər buna görə də məhsuldar qüvvələri məhv etməməyə; mövcud təsərrüfat sistemini, o cümlədən şəhər təsərrüfatının qorunub saxlanmasına çalışır.

Ərəblərin işğalı dövründə Azərbaycan şəhərləri də çox müsibətlər gördü. İşğal dövründə Ərdəbil, Muğan, Naxçıvan, Bərdə, Beyləqan, Qəbələ, Şabran, Şamaxı, Qazaka və b. şəhərlərin adları çəkilir.

Mənbələr yazır ki, Azərbaycan şəhərləri özlərinə xas olan cəhətləri ilə fərqlənirdilər. Məsələn Şirvanda neft, duz çıxarılırdı, Şəki və Şamaxı ipəkçilik, Qəbələ qızıl, gümüş sənətkarları ilə məşhur idi.

Akademik V.V.Bartolda görə Bərdə təkcə Arranın yox, bütün Qafqazın əsas ticarət mərkəzi olmuşdur.

Abbasilərin hakimiyyət başına gəlməsi (750) ilə Bərdənin inzibati və siyasi mərkəz kimi əhəmiyyəti daha da artır.

Ərəb işğalı dövründə Azərbaycanın baş şəhəri Ərdəbil sayılırdı. X əsrdən Təbriz “Azərbaycanın ən məşhur şəhəri”nə çevrildi.

Dərbənd və Şamaxı, Gəncə də durmadan inkişaf edən şəhərlərdən idi. Mərkəzi şəhərlərdə pul kəsilirdi. Abbasilər dövründə çox vaxt pul kəsilən yerin konkret adı deyil, zərbxananın yerləşdiyi vilayətin (Azərbaycanın, Arranın və ya Ərməniyyənin) adı göstərilirdi. Pul tədavülünün artması təbii olaraq ticarət münasibətlərinin canlanmasına səbəb olurdu.

## Xilafətin torpaq və vergi siyasəti

Ərəblər Azərbaycanı tam işğal edib, öz inzibati idarəsinə çevirdikdən sonra becərilən bütün torpaqlar müsəlman icmasının mülkiyyəti elan edildi. Sasanilər dövründə hökmdara, onun qohumlarına, saray əyanlarına, habelə knyaz və dehqanların torpaq və malikanələri xəlifənin ixtiyarına keçdi.

Beləliklə, tabe olunmuş əhalinin torpaqlarına sahib olan istilaçılar torpaq sahiblərinə, yerli kəndlilər isə bu torpaq sahiblərinin icarəçilərinə çevrilirdilər.

Əməvilər, sonra da Abbasilərin dövründə Azərbaycanda aşağıdakı torpaq kateqoriyaları mövcud olmuşdur:

1. Əməvilərdən Abbasilərə keçmiş *xəlifə* və ya *sultan* torpaqları;

2. *İqta* (sözün ilkin mənası – paylaşdırma, kəsilib ayrılma, pay) torpaqları becərilən torpaqların əksəriyyətini təşkil edən bu kateqoriya torpaqlar Abbasilər dövründə daha geniş yayılmışdı. Sahiblik hüququndan asılı olaraq iqta torpaqları nəzəri cəhətdən iki kateqoriyaya bölünürdü: bağışlanan iqta *(təmlik)* şəxsin tam mülkiyyətinə keçir və irsən ötürülürdü. İkinci kateqoriya irsən keçməyən icarə iqtası idi. Belə torpaq payları adətən hərbçilərə verilirdi.

3. *Mülk* torpaqları – Azərbaycanda yerli feodal əyanlarının irsi ixtiyarında olan və mülk adlanan xüsusi torpaq sahələri vardı. Mülk kateqoriyası Xilafətin yarandığı ilk gündən mövcud idi. Mülk torpaqlarını alıb-satmaq, özgəyə bağışlamaq, irsən vermək olardı.

4. *Vəqf* torpaqları – torpaq mülkiyyətinin əsas növlərindən biridir. Vəqf dini təsisatların ixtiyarına verilən torpaq mülkləridir. Bu torpaq müqəddəs yerlər (Məkkə və Mədinə), qazilər ("din uğrunda mübarizlər"), məscid və qalaların tikilməsi, habelə digər ehtiyaclar üçün ayrılırdı.

5. *İcma* torpaqları dövlət torpaqları kateqoriyasına daxil idi; kənd sakinlərinə məxsus olan bu torpaqlar otlaqları, örüş yerlərini, yanacaq toplanan yerləri, qəbirstanlıqları və s. əhatə edirdi.

Torpaq vergisi – xəracdan və can vergisi – cizyədən əlavə aşağıdakı vergilər alınırdı: *xüms* – mülkiyyətdən və əmlakdan alınan gəlirin 1/5-inə bərabər olan vergi; *zəkat* – yoxsulların xeyrinə varlı müsəlmanların əmlakından tutulan vergi; *zəkat əl-fitr* – orucluğun başa çatması münasibəti ilə verilən pay - fitrə; *sədəqə* - yoxsullara verilən ianə; *uşr* - məhsulun 1/10-nə bərabər vergi.

*Cizyə* vergisi qeyri-müsəlmanlardan, *zəkat* ancaq müsəlmanlardan, qalan vergi növləri isə müxtəlif miqdarlarda həm müsəlmanlardan, həm də özgə dinlərə itaət edənlərdən alınırdı.

***Xüms*** – pul və ya natura şəklində dinc yolla ələ keçirilmiş əmlakdan, əmək haqqından, mədən və dəfinələrdən, kafir və ya zimminin müsəlmandan satın aldığı torpaqdan əsirlər də daxil olmaqla hərbi qənimətlərdən alınırdı.

***Zəkat*** – ildə bir dəfə alınırdı; bu vergi dənli bitkilər (düyü və lobyadan başqa), giləmeyvələr, daş-qaş və ev heyvanları üzərinə qoyulurdu.

***Uşr*** – hər il əkinçilik, heyvandarlıq, balıqçılıq məhsullarından satış üçün nəzərdə tutulan və qiyməti 200 dirhəmdən artıq olan başqa məhsullardan natura ilə alınan onda bir vergisi idi.

Şirvanda (Bakıda) bunlardan başqa neft və duz mənbələri üzərinə də vergi qoyulmuşdu.

***Dövlət quruluşu.*** İspaniyadan Hindistanadək bir çox ölkə və xalqları tabe etmiş ərəblər, işğal etdikləri yerlərdə özlərinə məxsus idarə sistemi qura bilmədilər. Bu onunla əlaqədar idi ki, ərəblərin dövlət idarəçilik təcrübələri yox idi.Ona görə də onlar işğal etdikləri ölkələrdə, o cümlədən Azərbaycanda da əvvəlki idarə sistemini saxladılar.

Xilafətin ilk illərində beş vilayət var idi. Azərbaycan dördüncü vilayətin tərkibinə salınmışdı. Sonralar Azərbaycan üçüncü əmirliyin tərkibinə salınır.

Abbasilər dövründə Xilafət 83 quradan (əyalətdən) ibarət olan 14 vilayətə bölünürdü. Bunlar da daha kiçik inzibati vahidlərə - nahiyələrə (mahallara) bölünürdü. Öz növbəsində nahiyə 12 rustaka (rayona), hər rayon da 12 kəndə bölünürdü.

Ərəb tarixçisi İstəxri göstərir ki, biz Ermənistan, Arran və Azərbaycanı bir xəritədə birləşdiririk. İbn Hövqəl də onun fikrini təsdiq edərək, Azərbaycan, Arran və Ermənistanın xəritəsini yaratmış və onu “Azərbaycan xəritəsi” adlandırmışdır. O vaxt Ərməniyə Van gölünün şimal şərqində kiçik bir ərazidə yerləşirdi. İbn Hövqəl öz xəritəsində Xəzər dənizinin sahillərinin Dərbəndə qədər olan hissəsini də Azərbaycan adlandırır. Ərəblərin işğalınadək Azərbaycanın paytaxtı Ərdəbil olmuşdur. Ərəblər paytaxtı Marağaya köçürtdü.

Vilayətlərə xəlifə tərəfindən təyin edilmiş əmir başçılıq edirdi. Əmir həm də qoşun rəhbəri idi. İnzibati idarə divan adlanırdı. Əmir vilayətdə bütün məmurların

rəhbəri idi. Hər məmurun öz idarə sahəsi vardı. Məsələn, amil – “vergiyə nəzarət edən”, vali – “canişin”, qazı – “hakim” (dini məhkəmə). Qazılar yerlərdə vəqf işlərinə nəzarət edir, amilin hərəkətlərindən narazı olanların şikayətlərinə baxırdı.

Böyük ərazilərə sahib olan ərəb dövlətinin çoxlu vilayətləri arasında əlaqə yaratmaq üçün **bərid** adlanan poçt yaradılmışdı. Xilafət xəbərləri, əmir və göstərişləri **bəridlər** vasitəsilə həyata keçirilirdi. Bəridlər arasında hər dörd fərsəxdən (28 kilometr) bir stansiya yaradılmışdı. Stansiyalarda, bəridlərdə işləyən məmurlar valilərin yanında olan poçt direktorlarına tabe idilər. Xilafət paytaxtında yerlərdəki hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət edən, yəni göz qoyan adamlar da çalışırdılar. Bunun üçüq xüsusi olaraq gizli polis var idi. Bu da, müstəbid üsul-idarə üçün ən vacib sahələrdən sayılırdı.

Əmirliklərdə canişinlik mərkəzindən başqa, inzibati və hər bir ayrıca vilayət və mahallarda şöbələri fəaliyyət göstərirdi. İlk vaxtlar bu idarələrdə ərəb mənşəli işçilər azlıq etdiyindən yerli adamlardan da istifadə edilirdi. Kargüzarlıq ərəb dilində aparılırdı.

Çox böyük ərazilərə sahib olmuş Ərəb xilafəti IX əsrdən zəifləməyə başladı. Buna səbəb Xilafət əsarətində olan ölkələrdə azadlıq hərəkatlarının başlanması idi. Mərkəzi hakimiyyətdən ilk olaraq Mərakeş, Əlcəzair, Tunis və Liviya ayrıldı.

Azərbaycanda Babək üsyanının 20 ildən artıq davam etməsi, Xilafətə çox ağır zərbə vurdu. Babək hərəkatı çətinliklə yatırılsa da Abbasilər imperiyasının dağılmasını sürətləndirdi.

Beləliklə, mərkəzdənqaçma Azərbaycan ərazisində də baş verdi, yeni feodal dövlətləri yarandı. Belə dövlətlər sayca çox idi. Onlardan daha nüfuzluları Şirvanşahlar, Şəddadilər, Sacilər, Salarilər və Rəvvadilər idi. Sonuncu üç dövlət müxtəlif dövrlərdə müvafiq olaraq bir-birini əvəz etmişdir.

***Şirvanşahlar dövləti.*** Azərbaycan ərazisində ən qədim və uzunömürlü dövlətlərdən biri Şirvanşahlar dövlətidir. VI əsrin əvvəllərində Şirvan torpaqlarını “Şirvanşah” titullu hakimlər idarə etmişlər. Mənbələr göstərir ki, I Xosrov Ənuşiravan (531-579) geniş əraziləri idarə edən hökmdarlara “şah” titulu verirmiş.

Orta əsr ərəb müəllifləri “şah” titulu almış həmin hakimlər arasında Şirvanşahın (Şiryanşahın) da adını çəkmişlər.

Şirvanşahlar dövlətinin yaradıcısı Heysəm ibn Xalid olmuşdur. O, Şirvanın Xilafət tərəfindən birinci təyin edilmiş məliki Yezid ibn Məzyədin nəvələrindən idi. Ona görə də sülalə Məzyədilər (861-1027) adlanır. Məzyəd ərəb mənşəli Şeybani qəbiləsinə mənsub olub. Xilafət tərəfindən Ərməniyə və Azərbaycana vali təyin olunmuşdu. O, uzun illər Bərdədə yaşamış və orada da vəfat etmişdi.

861-ci ildə Heysəm ibn Xalid Xilafətdə başlanmış ixtişaşlardan istifadə edərək özünü Şirvanın müstəqil şahı elan edib mərkəzlə əlaqəsini kəsdi. Beləliklə, Şirvanın müstəqilliyi bərpa edildi.

Məzyədilər dövründə Şirvanşahların sərhədləri cənubda Kür çayı, şimalda Dərbənd və Samur çayı, qərbdə Göyçay və Şəki, şərqdə Xəzər dənizi ilə əhatə edilirdi. Mənbələr göstərir ki, sərhəd sabit deyildi, siyasi hadisələrdən asılı olaraq Şirvanşahların ərazisi dəyişirdi. Dövlətin paytaxtı əvvəlcə Şirvan, X əsrdən isə Yəzidiyyə (Şamaxı) şəhəri olmuşdur.

Şirvanşahların hakimiyyəti mütləq monarxiya idi və şahın hakimiyyəti varislik əsasında irsən keçirdi.

Ölkə əyalətlərə bölünmüşdü. Bir qayda olaraq əyalətləri şahzadələr idarə edirdi. İnzibati və maliyə işlərinə vəzir baxırdı. Dövlətdə vəzir titulu şahdan sonra əsas şəxs sayılırdı. Vəzir həm də Şirvanşahların baş məsləhətçisi sayılırdı. Vaxt olurdu ki, vəzirlik də irsən keçirdi.

Saraydakı mühüm vəzifələrdən biri də haciblik sayılırdı. Hacib sarayda bütün işlərin tənzimçisi idi.

Bir sıra ölkələrdə olduğu kimi, Şirvanşahlarda da iki növ qoşun vardı. Şahın xüsusi qvardiyası əsas sayılırdı. İri feodalların və vilayət hakimlərinin öz qoşun dəstələri olurdu.Qoşunun əsas hissəsini süvarilər təşkil edirdi. Bunun üçün şahın ilxısında 40 mindən artıq at saxlanılırdı. Silahlar yerli sənətkarlar tərəfindən hazırlanırdı. Ümumi qoşun yalnız müharibə zamanı şahın göstərişi ilə bir yerə toplanırdı. Döyüşlərdə orduya komandanlığı ya şahın özü, ya da vəliəhdi edirdi.

***Sacilər dövləti.*** IX əsrdə Xilafətin zəifləməsi nəticəsində Azərbaycanda meydana gələn feodal dövlətlərdən biri də paytaxtı Ərdəbil olan Sacilər dövləti (889-942) idi. Dövlətin banisi mənşəcə türk olan Əbu Sac Divdad olmuşdur. Əbu Sac Divdad və onun varisləri Məhəmməd və Yusif Xilafətin əyalət hakimləri olmuş, öz fəaliyyətləri ilə Abbasilər hakimiyyətinin rəğbətini qazanmışdılar.

Sacilər dövləti Əbu Sac Divdadın ölümündən sonra oğlanları Məhəmməd və Yusif dövründə yaranmışdır. 889-cu ildə Məhəmməd Azərbaycanın hakimi təyin olunur. Təbərinin yazdığına görə, o, "Azərbaycana gəldikdən dərhal sonra özünü müstəqil elan edib, Xilafətə tabe olmaqdan boyun qaçırtdı".

901-ci ildə Məhəmməd Bərdədə taun xəstəliyindən vəfat etdi. Hakimiyyətə onun oğlu Divdad keçdi. Onun hakimiyyəti cəmi bir neçə ay (mart-avqust) çəkdi. Hakimiyyəti onun əmisi, Məhəmmədin qardaşı Yusif ələ keçirtdi. Yusif az zaman içərisində Azərbaycanda və Ərməniyədə öz hakimiyyətini möhkəmləndirdi. Beləliklə, Sacilər dövlətinin ərazisi qərbdə Ani və Dəbil şəhərinə, şərqdə Xəzər dənizinə qədər, cənubda Zəncan, şimalda Dərbəndə qədər uzanırdı.

Yusif istedadlı dövlət başçısı idi. O, 24 il Sacilər dövlətini idarə etmişdir. Yusifin dövründə Sacilər dövləti mərkəzləşmiş dövlət olmuşdur. Bunun sayəsində ölkədə təsərrüfat həyatı canlanmış, ticarət və mədəniyyət inkişaf etmişdir.

Yusifin ölümündən sonra hakimiyyət əldən-ələ keçdi. Nəticədə 942-ci ildə Sacilər sülaləsinin hakimiyyətini Salarilər əvəz etdi.

***Salarilər dövləti.*** Salarilər sülaləsi Gilan vilayətində hökmranlıq edirdilər. Sacilər dövründə Salarilər onlardan asılı idilər.

Dövlətin yaradıcısı Mərzban ibn Məhəmməd olmuşdur. O, 942-ci ildə Sacilər hakimi Deysəmi məğlub edərək Azərbaycanı tutdu. 942-981-ci illərdə Salarilər dövlətinin də paytaxtı Ərdəbil idi.

Salari hakimi Mərzban ibn Məhəmməd çətin mübarizə şəraitində Sacilər dövlətinin hakimiyyəti altında olan Azərbaycan torpaqlarını qoruyub saxlaya bildi. Ancaq Rus adlanan tayfaların Bərdəyə hücumları Salarilər üçün böyük çətinliklər yaratdı.

Mərzban vilayətlərdən alınan vergiləri qaydaya saldı. Maliyyə işlərinə diqqət verildi. Onun dövründə iki çür vergi yığılırdı: torpaq və əmlak vergisi.

Ölkədə yaranmış sabitlik təsərrüfatın, sənətkarlığın və mədəniyyətin inkişafı üçün zəmin yaratdı.

Mərzban ibn Məhəmmədin ölümündən sonra (957) sonra oğlanları və qardaşı Vəhsudan arasında mübarizə kəskinləşdi. 981-ci ildə Salarilər səltənəti zəiflədi və nəticədə yeni bir dövlətin yaranması baş verdi.

40 il yaşamış Salarilər dövləti Azərbaycanın, Qafqazın və eləcə də Ön Asiyanın ən qüdrətli dövlətlərindən biri olmuşdur.

***Rəvvadilər dövləti.*** Bu dövlətin yaradıcısı Rəvvadilər sülaləsindən olan Əbülheyca Rəvvadi olmuşdur.

Rəvvadilər (mənşəcə ərəb idilər) X əsrin ortalarında və ikinci yarısında Əhər (Qaradağ) hakimi idilər. Salarilər dövlətinə tabe idilər, onlara xərac verirdilər. 981-ci ildə Əbülheyca Salari hakimi İbrahimə tabe olmaqdaq boyun qaçırtdı, onunla mübarizəyə başladı, qalib gəldi. Vaxtı ilə Salarilər dövlətinin tərkibində olan Azərbaycan və Ərməniyə torpaqları Rəvvadilər hakimiyyətinin altına keçdi. Beləliklə, Əbülheyca Rəvvadi (981-1059) Rəvvadilər dövlətinin əsasını qoydu. Dövlətin paytaxtı Ərdəbildən Təbrizə köçürüldü.

Rəvvadilər dövləti Əbu Mənsur Vəhsudanın hakimiyyəti (1020-1059-cu illər) dövründə xeyli gücləndi, ərazisi genişləndi.

Ərəb tarixçisi İbn Əl-Əsirin yazdığına görə, "səlcuq sərkərdəsi Toğrul bəy bir sıra qələbələrdən sonra 1054-cü ildə Təbrizə gəldiyi zaman Rəvvadi hakimi Vəhsudan siyasi hakimiyyəti əlində saxlamaq məqsədilə səlcuqların vassallığını qəbul etməyə məcbur oldu".

Səlcuq sultanı Alp Arslan (1063-1072) Rəvvadilərin daxili müstəqilliyinə son qoydu və 1065-ci ildə Təbrizə səlcuq əmiri təyin etdi. Bununla da Rəvvadilər dövləti səlcuqların hakimiyyəti altına keçdi. Bir əsrə qədər mövcud olmuş Rəvvadilər dövləti Azərbaycan dövlətçiliyi tarixində özünə məxsus yer tutur.

***Şəddadilər dövləti.*** X əsrin ikinci yarısında Azərbaycanda meydana gəlmiş feodal dövlətlərdən biri də paytaxtı Gəncə olan Şəddadilər dövləti idi. Şəddadilər

sülaləsi Divində hökmranlıq edirdi. Bu sülalə 971-ci ildə Gəncəni Salarilərdən alaraq 1088-ci ilə qədər ömür etmiş öz dövlətlərini qurdular. Şəddadilər dövlətinin ərazisi əsasən Kür və Araz çayları arasındakı torpaqları əhatə edirdi. Şəddadilər kürd mənşəli idilər. Bu dövlət Şəddadi Fəzlin (985-1030) və Şavurun (1050-1067) dövründə gücləndi və inkişaf etdi. Bu dövrdə Gəncə ictimai-siyasi və mədəni cəhətdən xeyli inkişaf edərək, Şərqin tanınan şəhərlərindən birinə çevrildi. 1063-cü ildə dəmirçi İbrahim dövrünə görə çox məşhur olan Gəncənin qapılarını düzəltdi. 1088-ci ildə Səlcuq sultanı Məlikşah öz sərkərdəsi Buğanı Gəncəyə göndərdi. Buğa Şəddadilər dövlətinin axırıncı hakimi III Fəzlunu əsir götürərək Bağdada göndərdi. O, 1091-ci ildə Bağdadda əsirlikdə öldü. Bununla da Şəddadilər dövlətinin tarixi sona çatdı. Məlikşah Gəncəyə öz əmirini göndərdi.

IX-XI əsrlərdə Azərbaycanda meydana gəlmiş və ayrı-ayrılıqda fəaliyyət göstərmiş feodal dövlətlərdən Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər dövlətlərini yaradan sülalələr mənşəcə müxtəlif olsalar da, ancaq bu dövlətlər Azərbaycan ərazisini əhatə edirdi.

Azərbaycanda qeyd olunan əsrlərdə müstəqil dövlətlərin yaranması müstəsna əhəmiyyəti olan hadisə sayıla bilər. Ona görə ki, bu dövlətlər Azərbaycan torpaqlarında milli zəmində təşəkkül tapırdılar.

## Praktiki məşğələ

### Plan:

1. Şirvanşahlar dövləti.
2. Sacilərin müstəqil dövlət idarəçiliyi uğrunda mübarizəsi.
3. Salarilər dövləti
4. Şəddadilər dövlətində idarə sistemi.
5. Rəvvadilər dövləti.

## Ədəbiyyat


1. Aşurbəyli S. Şirvanşahlar dövləti. B., 1997
2. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. B.,1989
3. Əliyev R. Azərbaycan VII-XIV əsrlərdə. B., 1981
4. Mirzəyeva E.Q. Azərbaycanın şəhər idarəçiliyi (XI-XIII əsrlər). B., 2002
5. Muradov V. Orta əsr Azərbaycan şəhərləri. B., 1983

6. Şərifli M. IX əsrin II yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri. B., 1978

## Azərbaycan Atabəylər dövləti
## (1136-1225)

XI əsrin əvvəllərində Ərəb xilafətindən sonra Qərbi Asiyada Səlcuq imperiyası meydana gəldi. Oğuz türklərindən olan Səlcuqlar Azərbaycanın tarixi taleyində mühüm rol oynamışlar. 1018-21-ci illərdə Səlcuqlar Araz çayını adlayaraq Rəvvadilərin tabeliyində olan cənub torpaqlarından Arrana soxularaq Naxçıvan və Dəbil şəhərlərini tutdular. 1054-cü ildə Səlcuqlar bütün İranı tabe edərək, sonra da Azərbaycanın Rəvvadi əmirlərini özlərinin vassalına çevirdilər, 1055-ci ildə böyük Səlcuq sultanı Toğrul Bağdada gedərək, xəlifənin öz əlindən sultanlıq taxt-tacını qəbul etdi.

1063-cü ildə Toğrul bəyin ölümündən sonra hakimiyyətə gələn yeni Səlcuq sultanı Alp Arslan (1063-1072) Azərbaycandakı feodal mülklərin bütünlüklə Səlcuqilərin əlində birləşdirmək üçün Cənubi Qafqaza yürüşə başladı. Nəticədə böyük Səlcuq sultanları Mərkəzi Asiyadan Aralıq dənizinədək, Cənubi Qafqazdan İran körfəzinədək geniş torpaqların sahiblərinə çevrildilər.

Alp Arslandan sonra hakimiyyətə onun oğlu Məlikşah (1072-1092) gəldi. Onun dövründə Səlcuq-Oğuz imperiyasının hərbi-siyasi qüdrəti ən yüksək zirvəyə çatdı.

Tarixdə çox imperiyalar yaranmış, inkişaf etmiş, ancaq zaman gəlmiş dünyaya meydan oxuyan imperiyalar dağılmış, yerlə-yeksan olmuşlar. Belə aqibət Səlcuqlar imperiyasına da gəlib çatdı. Belə ki, böyük Səlcuq sultanlarının Məlikşahdan sonrakı hakimiyyətləri dövründə (1092-1157) Səlcuq imperiyasının tənəzzülü baş verdi. Parçalanma nəticəsində imperiya biri digərindən asılı olmayan dövlətlərə ayrıldı. Bu dövlətlərin yaradıcıları Səlcuq sultanlarının sabiq kölələri (məmlüklər) idilər. Həmin adamlar, adətən Səlcuq şahzadələrinin “atabəy” titullu tərbiyəçiləri olurdular. Zaman keçdikcə atabəylər gücləndilər və qəyyumluq etdikləri şəxslərin yalnız adda başçılıq etdikləri dövlətlərin taleyini müəyyənləşdirən faktiki hökmdarlara çevrildilər.

1136-cı ildə Azərbaycan Atabəylər dövlətinin yaradıcısı Şəmsəddin Eldəniz də beləlvalərindənidi. Sultan Mahmudun dövründə Dərbənd bazarından alınmış qıpçaq qullarından olan Eldəniz, sultanlığın paytaxtı Həmədana gətirilmiş, sultanın vəziri Sumayramiyə satılmışdı. 1122-ci ildə vəzir sui-qəsd nəticəsində öldürüldü. Vəzirin bütün əmlakı, var-dövləti sultanın ixtiyarına keçdi. Eldəniz də sultanın qullarına qatıldı. Az bir vaxtda o, özünün fərasəti, ağlı ilə yoldaşlarından seçilməyə başladı. Bir müddət sonra onu sultan mətbəxinin başçısı təyin etdilər. 1132-ci ildə sultan Mahmud vəfat etdikdən sonra, onun yerinə gələn II Toğrul Eldənizi şəxsi məmlükləri sırasına keçirdir. O, həm də sultanın arvadı Möminə xatunun xüsusi hörmətini qazandı. Məhz bu zaman o, II Toğrulun azyaşlı oğlu Arslanın atabəyi təyin olunur. 1135-ci ildə sultan II Toğrul da ölür. Hakimiyyət başına keçən sultan Məsud, Şəmsəddin Eldənizi qardaşı II Toğrulun dul qadını Möminə xatunla evləndirdi. Arranı-Şimali Azərbaycanı da ona iqta verdi.

Atabəy Şəmsəddin Eldəniz Bərdəyə gəlir. Tezliklə Arranın bütün nüfuzlu əmirlərini öz ətrafında birləşdirir.

1160-cı ildə Məsuddan sonra hakimiyyətə gəlmiş sultan Süleyman taxtdan salınıb öldürülür. Qəsdçilər nüfuzlu Səlcuq əmirləri idilər. Onlar Eldənizə məktub yazıb xahiş edirlər ki, oğulluğu, taxt-tacın varisi Arslan şahı Həmədana gətirsin. O vaxtdan da özünü diarxiyanın (ikili hakimiyyət) yaradıcısına çevrilən Azərbaycan atabəyləri dövlətin başçısı kimi fəaliyyət göstərmişlər. Eldənizin daşıdığı “məlik” titulu atabəy hakimiyyətinin irsi olduğunu bildirirdi.

Tarixçi əl-Hüseyn yazırdı: “Atabəy Eldəniz əsl hökmdar idi, əmrləri o verir, torpaqları paylayır, dövlət xəzinəsinə nəzarət edirdi. Sultan Arslan şah ibn Toğrulun isə ancaq adı hökmdar idi”.

O dövrdə Səlcuq dövlətinin iki əsas rəqibi vardı. Bunlardan biri Gürcüstan çarlığı, o birisi isə Xarəzmşah dövləti idi. Gürcüstanla Atabəy dövləti arasında dörd böyük döyüş olub və bu döyüşlərin hamısı Atabəyin qələbəsi ilə başa çatmışdı.

Yüz ilə yaxın mövcud olan Azərbaycan Atabəylər dövləti tarixdə öz yeri olan dövlətlərimizdən biridir.

1175-ci ildə Şəmsəddin Eldəniz vəfat etdi. Onun vəfatından sonra oğlu Məhəmməd Cahan Pəhləvan (1175-1186) Azərbaycan atabəylər dövlətinin atabəyi oldu. Cahan Pəhləvan da atası kimi Səlcuq sultanlığının faktiki hakimi olmuşdu. Cahan Pəhləvan qardaşı Qızıl Arslanı (1186-1191) Azərbaycan və Arrana canişin təyin etmişdi. Qızıl Arslan Naxçıvanda, Cahan Pəhləvan isə Həmədanda qalırdı. Cahan Pəhləvan dövründə də Atabəylər dövləti xeyli tərəqqi etmişdi.

1186-cı ildə Cahan Pəhləvan öldükdən sonra onun hakimiyyətini kəskin mübarizələr şəraitində olsa da Qızıl Arslan davam etdirmişdir. 1191-ci ildən sonra Azərbaycanı Cahan Pəhləvanın böyük oğlu Əbu Bəkr (1191-1210), sonra isə qardaşı Özbək (1210-1225) idarə etmişdir. Özbəyin dövründə Azərbaycan Atabəylər dövləti tənəzzül edir. Monqolların hücumları zamanı 1225-ci ildə Eldənizlər sülaləsinə son qoyuldu.

***İctimai quruluş.*** X-XI əsrlərdə Azərbaycanda xarici yürüşlər ölkənin təsərrüfat həyatına xeyli zərər yetirsə də, ümumi iqtisadi həyat inkişaf etməkdəydi. Tarixi tərəqqi, tarixi yüksəliş Azərbaycandan heç bir vaxt yan keçməmişdir.

Xilafətin zəiflədiyi illərdə yerli feodal dövlətlərinin təşəkkül tapması, Səlcuq yürüşləri dövründə köçəri oğuz tayfalarının Azərbaycana öz mal-qara, qoyun sürüləri ilə gəlməsi şəhərləri maldarlıq məhsulları ilə təmin edirdi. Bu dövrdə ölkədə köçəri təsərrüfatın payı artsa da, əhalinin xeyli hissəsi əkinçiliklə məşğul olurdu. Kəndlilər iki təbəqədən ibarət idi. Bunlar: ulus adlanan asılı kəndlilər və azad kəndlilər. Kənd camaatı dövlətə və feodallara məxsus torpaqlarda çalışırdılar. Torpaqsız, heç bir istehsal alətləri olmayan kəndlilər torpaq sahiblərinin torpağında işləyirdilər. Belə kəndlilər əkər adlanırdı.

Sənətkarlıq əsasən şəhərlərdə cəmləşmişdi. Şəhərlərdə bir çox məhəllələr sənət növünün adı ilə tanınırdı: dəmirçilər, nalbənd, dulusçu, toxucular, dabbaqlar və s. Demək olar ki, bütün sənətkarlar feodal və divandan asılı idilər. Onların istehsal etdikləri məlumatlar, sənət nümunələri, əmtəələr ən əvvəl yuxarı siniflərin tələbatı üçün idi.

XI-XII əsrlərdə müxtəlif sənətkarlar bir təşkilatda – həmkarlarda (bir peşə sahəsində çalışan adamlar) birləşirdilər. Həmkarlar şəhərin ictimai-siyasi

həyatında, onun müdafiəsində, vergilərin bölüşdürülməsində və toplanmasında böyük rol oynayırdı. XII əsrdə Azərbaycanda sənətkar birlikləri əxilər (qardaşlar) adlanırdı. Mənbələrin dediyinə görə böyük Nizami Gəncəvi də əxilər təşkilatının üzvü olmuşdur.

Həmkarların öz nizamnaməsi vardı. Nizamnamədə işçilər dərəcələrinə görə (şagird, usta) qiymətləndirilirdi.

Atabəylər dövlətində tacirlərin də geniş mövqeləri vardı. Onlar sənətkarlarla alıcılar arasında əlaqələndirici rolu oynayırdılar. Tacirlər təkcə daxili bazarı tənzimləmirdilər, həm də ölkələr arasında iqtisadi əlaqələr yaradırdılar. Tacirlik, sövdəgərlik də peşə idi, həm də sayılan, seçilən peşə idi. Ticarətlə bərabər Atabəylər öz adlarına pul da kəsdirirdilər.

Müstəqil bir dövlət kimi Atabəylər dövlətində torpaq üzərində müxtəlif mülkiyyət formaları mövcud olmuşdur. Sultan, hökmdar ailəsinə və sülalə üzvlərinə mənsub torpaqlar xass adlanırdı. Dövlətə məxsus torpaqlar isə divan torpağı, mülkü deyilirdi. Bundan başqa sultanın və atabəyin tam ixtiyarında olan seçilmiş çox məhsuldar tac torpaqları da var idi. Tac torpaqlarından yalnız hakim dairənin əshabələri istifadə edə bilərdilər, iqta kimi də yalnız onlara pay verilə bilərdi. Azərbaycan Atabəylər dövlətində Şəmsəddin Eldənizin daimi yaşayış yeri olan Naxçıvan vilayətinin torpaqları tac (xass) torpağı idi. Atabəyin bu torpaqlarına əmlak, əl-xass (xüsusi) deyilirdi.

Yerli hakim sülalələrin qadınlarına və qızlarına evlənməklə də xass torpaqları əldə etmək olurdu. Bu şərtlə ki, ərə gedən qadınlar bu barədə razılıq verməliydi. Yalnız belə olduqda bu qadınların kəbinli ərləri tac (xass) torpağa sahib olurdular.

Atabəylər dövlətində bir çox mülkiyyət formaları mövcud olmuşdur.

**İqta torpaq mülkiyyəti.** İqta sözünün mənası **"paylanmış"**, **"bölünmüş"**, **"ayrılmış"**, **"kəsik"**, **"pay"** adlanmaqla ərazilərin ayrı-ayrı idarə altına verilməsi demək idi. Səlcuqlar dövründə qoşun başçılarına - əmirlərə hərbi xidmətlərinə görə haqq, ödənc kimi iqta torpağı verildiyindən, iqta buyuruq şəklində çox geniş yayılmışdı.

Hər hansı bir əmir iqta alıb iqtadar olanda ona yazılı tapşırıq verilirdi. Bu tapşırıqlarda göstərilirdi: "Onlara həvalə edilmiş vergiləri rəiyyətdən xoşluqla alsınlar, onların canları, malları, arvad-uşaqları əmin-amanlıqda olmalıdır.Ev-eşiklərinə dəyilməməlidir. İqtadarlar onların yolu üzərində maneə olmamalıdırlar.

Atabəy Qızıl Arslanın iqta mülklərinin xidmət haqqı kimi əmirlərə verilməsi haqqında bir sıra fərmanları (mənşur) məlumdur. Lazım gələndə iqta torpaqlarını geri almaq səlahiyyətini dövlət özündə saxlayırdı.

X-XII əsrlərdə geniş yayılmış xüsusi torpaq mülkiyyətini qeyd etmək lazımdır. Belə mülkiyyət növlərinə əmlak, əsbab, müstəqallat və daiət anlayışları aid edilir.

**Xüsusi torpaq mülkiyyətinin** sahibi (məlik) iqta torpaqlarından fərqli olaraq onu sata, bağışlaya, dəyişdirə, girov qoya və ianəyə verə bilərdi.

**Vəqf mülkiyyəti** də xüsusi əhəmiyyət kəsb edirdi. Dini müəssisələrin xeyrinə verilən ianələr vəqf adlanırdı.

**Vergilər.** Vilayətlərdən alınan vergilər xüsusi dəftərlər (dəfatir) üzrə həyata keçirilirdi. Bu dəftərlərdə vilayətin varının hesabatını aparmaq, onun gəlir və çıxarını qismən aydınlaşdırmaq olurdu.

XII əsrdə və XIII əsrin başlanğıcında **xərac** əsas vergi kimi öz əhəmiyyətini saxlayırdı. Onu pul və ya natura şəklində alırdılar.

**Cizyə (can vergisi).** Əvvəllər olduğu kimi müsəlman olmayan əhalidən cizyə vergisi alınırdı. Verginin miqdarı müqavilə ilə müəyyən olunurdu. Qadınlar, uşaqlar, qocalar və qullar bu vergidən azad idi.

Şəriətdə birdəfəlik alınan iki vergini göstərmək lazımdır. Bunlardan biri faydalı qazıntılardan, dəfinələrdən və sairədən alınan **xüms** (beşdə bir) vergisi və ölən adamın kişi cinsindən yaxın qohum-əqrəbası olmadığı halda onun mirasının bir payına dövlət xəzinəsinin hüququndan ibarət olan **adi vergi** idi.

**Uşr (onda bir).** Bu vergi xass torpaqlarından və iqta sahiblərindən alınırdı.

**Haqq** (cəm halında – **hüquq)** – divanın xeyrinə yığılan dövlət rüsumu və ya vergisidir. Əsasən köçərilərdən (elatlardan) otlaqlardan istifadəyə görə yığılan **(hüquqi marai)** vergilər də mövcud idi.

**Aləf** (ulufə - ərəbcə hərfi tərcümədə “qida”, “yem”, “aləf”) qarovulda duran dəstəni və ya rəsmi şəxsi təmin etmək üçün qida və başqa təbii rüsumlar vergisi idi.

**Nüzl** (cəm halda – nüzul, əksər halda ənzal formasında) – mənzil pulunun növü. Təbəələr hakimiyyətin hər cür nümayəndəsini atları və nökərləri ilə birlikdə yerləşdirib, qeyri-müəyyən müddətə saxlamağı öz üzərlərinə götürməli idilər. Bu əhali üçün ən ağır mükəlləfiyyətlərdən biri idi.

**Məunə** qanunsuz vergilərdən biri idi. Aləf kimi bir növ “yaşayış yardımı” idi.

**İnam** xeyirxahlıq ifadə edir. Hökmdarın göstərişi əsasında təbəələrdən haqla birlikdə yığılan ödənc növlərindən biri idi.

**Mənəl – “**qazanc”. İqta sahibinin xeyrinə yığılan qeyri-müəyyən xüsusi bir vergi.

**Marafiq** “əmlak”. Təbəələr bu vergini iqta sahibinə ödənc şəklində verirdilər.

**Avariz –** fövqəladə vergi. İqta sahibi bunu təbəələrdən müəyyən hadisələr baş verdikdə yığırdı.

**Qismət** – (cəm halda qisəm) – “qism”, “hissə”, “bölmə” iqta sahibinin öz xeyrinə yığdığı xüsusi vergi növü idi.

**Təyyarət** – “uçağan”, “şəhər qapılarında alınan fövqəladə gömrük vergisi növlərindən biri”.

**Təhəkküman** – (“təhəkküm”ün cəm şəkli – “mühakimə”,”nəzarət”). Dini müəssisələr və mülklər bu vergini ödəməkdən azad idilər. Gömrük (bac) və gözlətmə haqqı (bədraka) da bu vergilərə aid idi.

**Dəraib** (ərəbcə - “gömrük”, “bac”, “təzminat”) - şəhərlərdən alınan xüsusi vergilər. Bu vergilər bütün Azərbaycan ərazisindən toplanırdı.

Beləliklə, qeyd etmək lazımdır ki, göstərilən bu vergilər daimi olmamış, hakimiyyət dəyişdikdə başqa bir hakim tərəfindən ləğv edilmiş və yeni müxtəlif növ vergilər tətbiq edilmişdir.

***Dövlət quruluşu.*** Dövlətin başçısı Atabəy sayılırdı. Azərbaycan atabəylər dövlətinin başçısı qoşunlara özü rəhbərlik edir, dövlət vəsaitləri üzərində nəzarəti

öz əlində saxlayırdı. Dövlət işlərində həlledici səs Eldənizə məxsus idi. Daşıdığı "Məlik" titulu atabəy hakimiyyətinin irsi olduğunu birldirirdi. Azərbaycan atabəyləri dövlətinin başçısı öz adına pul kəsilməsi, xəlifə və sultandan sonra adının xütbələrdə çəkilməsi haqqını da əldə edə bilmişdilər.

Azərbaycan Atabəylər dövlətinin paytaxtı əsasən Naxçıvan olmuşdur. Sultanlığın paytaxtı Həmədana köçəndən sonra Şəmsəddin Eldənizin iqamətgahı əsasən burada olsa da Eldənizin həyat yoldaşı Möminə xatun ömrünün sonunadək Naxçıvanda yaşamışdır.

Azərbaycan Atabəylərinin dövlət aparatında atabəydən sonra ikinci **şəxs vəzir** sayılırdı. Bütün bürokratik aparatın rəhbəri sayılan vəzir dövlət başçısının birinci müşaviri – məsləhətçisi idi. Vəzir yalnız hökmdar qarşısında məsuliyyət daşıyırdı. Atabəylərin vəzirləri də səlcuq sultanlarının vəziri kimi bir qayda olaraq milliyyətcə türk deyil, ərəb-fars mənşəli olurdular. İnzibati-maliyyə aparatındakı məmurlar da əsasən qeyri-türklər idilər. Vəzir daim öz hökmdarının yanında olur, onu səfər və yürüşlərdə müşayiət edirdi. Dövlətdə böyük hörmətə malik olan vəzirlər **sadr, dəstur, xocayi-bozorq** titullarını daşıyırdılar. Mürəkkəbqabı (dəvat) və xüsusi mahuddan hazırlanmış çalma onların vəzifə əlamətləri idi.

Atabəylər dövlətində dövlət əhəmiyyətli üçüncü vəzifə **"böyük"** və ya **"ulu hacib"** vəzifəsi idi. Bu vəzifəni icra edən şəxs **əmir əlhacib əl-kəbir**, yaxud **hacib əl-xass əl-həzrət** rütbəsini daşıyırdı. Hacib dövlət başçısına aid olan işlər haqqında ona məlumat verir, onun təlabatları qayğısına qalır, saray mərasimlərini müəyyənləşdirirdi. Hökmdarın göstərişlərini icra olunmaq üçün şifahi surətdə vəzirə çatdırır, hökmdarla əyanlar arasında əlaqə yaradırdı.

Bəzən haciblər qoşuna və hərbi əməliyyatlara da rəhbərlik edirdi.

Atabəylər hökmdarının bütün əmlakını **divan əl-xass** (şəxsi divan) idarə edirdi. Divan mülkiyyətin müxtəlif kateqoriyaları (məs. torpaq mülkləri, malikanələr və s.) ilə bağlı maliyyə haqq-hesabını aparır, onların gəlirini hesablayırdı.

Taxt-tac əmlakı hökmdarın şəxsi malı idi. O, bu əmlakdan istədiyi şəxsə iqta və mülk kimi verə bilərdi.

Səlcuq hökmdarlarında olduğu kimi, atabəylərin də xəzinəsi (**xizanət əl-xass)** bilavasitə taxt-taca bağlı müəssisə idi. Xəzinə atabəyin özü olan yerdə yerləşdirilirdi. Baş xəzinə Naxçıvan yaxınlığındakı Əlincə qalasında saxlanılırdı.

Dövlətin həyatında şahzadələr (məliklər) xüsusi yer tuturdular. Vilayətlərin canişinləri təyin edilən bu şahzadələrin öz sarayları olurdu. Cahan Pəhləvanın dövründə onun qardaşı Qızıl Arslan Azərbaycan və Arran canişini təyin edilmişdi.

Cahan Pəhləvan dövründən başlayaraq, Azərbaycan atabəyləri dövlətini idarə etmək məqsədilə başında vəzir olmaqla **ali idarə (divan əl-idarə)** yaradılmışdı. Bu idarənin nəzdində dövlət dəftərxanası (divan əl-inşa və ya divan əl-tuqra) maliyyə və xəzinədarlıq (divan əl-istifa) var idi. Dövlət dəftərxanası həm daxili, həm də xarici yazışmaları aparırdı. Dəftərxananın başçısı "**münşi**" və ya "tuğrayi" adlanırdı. Bu vəzifə də irsi olmuşdur.

Dövlətin əsas idarələrindən olan hərbi idarəyə (**divan əl-ceyş və ya divan əl-ərz)** sahib divan **əl-ərz** (yaxud ariz) başçılıq edirdi. O, hərbi iqtalara nəzarət edir, hərbi qulluqçuların maaş və xərclərinin ödənilməsi işlərinə baxırdı.

Atabəylər dövlətində poçt idarəsi də mövcud idi. Azərbaycan Atabəylər dövləti inzibati cəhətdən vilayət və əyalətlərə bölünürdü. İri vilayətlər öz növbəsində mahallara ayrılırdı. Ancaq bu ərazilərin dəqiq müəyyənləşdirilmiş sərhədləri yox idi. Azərbaycan, Arran (Naxçıvan), Fars, İraq, Rey və Həmədan vilayətləri həmişə bu dövlətin tərkibində olmuşlar.

Hər bir vilayətə **vali** başçılıq edirdi. Valilər həmişə türk olmuş, bu vəzifəni tutmazdan əvvəl qoşun əmirləri kimi fəaliyyət göstərmişlər. Onlar islami dəyərlərə hörmətlə yanaşmalı, qayda-qanuna nəzarət etməliydilər. Dini hakimlər–qazilər valinin tabeliyində idilər. Qazilər də əsasən irsi olurdu.

Vilayətdə valinin vəziri olurdu. Şəhərləri rəislər idarə edirdilər. Bu vəzifə də irsi idi. Rəislər şəhər və kənd camaatının qayda-qanuna riayət etməsi üçün hökmdar qarşısında cavabdeh idi.

Qeyd olunmalıdır ki, Azərbaycan Atabəylər dövlətində inzibati idarəçilik sistemi İraq səlcuq sultanlığında olduğu kimi qalmışdı.

**Praktiki məşğələ**

**Plan:**

1. Azərbaycanda dövlətçilik ənənələrinin dirçəlişi. IX-XI əsrlərdə Azərbaycanda müstəqil feodal dövlətlər.
2. Atabəylər dövləti.

**Ədəbiyyat**


1. Aşurbəyli S. Şirvanşahlar dövləti. B., 1997
2. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. B., 1989
3. Bünyadov Z.M.Azərbaycan Atabəylər dövləti. B., 1993
4. Əliyev R. Azərbaycan VII-XIV əsrlərdə. B., 1981
5. Mirzəyeva E.Q. Azərbaycanın şəhər idarəçiliyi (XI-XIII əsrlər). B., 2002
6. Şərifli M. IX əsrin II yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri. B. 1978

# V F Ə S İ L

# XIII-XV ƏSRLƏRDƏ AZƏRBAYCANDA MONQOL İDARƏÇİLİYİ

***Azərbaycanın monqollar tərəfindən işğalı. Hülakülər dövləti.*** XIII əsrin əvvəllərində Mərkəzi Asiyada güclü hərbi qüdrətə malik Monqol dövləti yüksəldi. Monqollar çox sürətlə ətrafda olan dövlətləri işğal etdikdən sonra 1220-ci ildə Azərbaycana yürüş etdilər. Bu vaxt Azərbaycanın daxili və xarici vəziyyəti olduqca gərgin idi. Belə ki, Azərbaycan ərazisində vahid dövlət yox idi. Ölkədə Atabəylər və Şirvanşahlar dövləti mövcud idi. Marağada isə Rəvvadilər nəslindən olan Ağsunqurilər (1108-1227) sülaləsi hakimiyyət sürürdü.

Çingiz xanın monqol sərkərdələri Cəbə və Subutay Azərbaycanın Zəncan, Ərdəbil, Sərab və b. şəhərlərini talan edib Təbrizə yaxınlaşdılar. Eldəniz Özbək böyük xərac verməklə Təbrizi dağıntılardan qoruya bildi.

1222-ci ildə monqollar Gəncəni və Şamaxını viran edərək şimala yönəldilər. Monqolların Azərbaycana birinci yürüşü başa çatdı.

1225-ci ildə Azərbaycan Orta Asiyada monqol hücumları nəticəsində hakimiyyətdən məhrum edilmiş və İranda sığınacaq tapmış Xarəzmşah Calaləddinin hücumlarına məruz qaldı. Eldənizlər dövləti süqut etdi. Özbək Gəncəyə, sonra da Əlincə qalasına qaçdı və orada da vəfat etdi.

1231-ci ildə monqollar ikincə dəfə Azərbaycana soxuldular. Beləliklə, monqol xaqanı Münkenin qardaşı Hülakü xan 1256-1257-ci illərdə Azərbaycanı özünə tabe etdi. 1258-ci ildə Bağdad istila edildi. Abbasilər sülaləsinə son qoyuldu. Bununla da böyük Hülakülər dövləti yaradıldı. Azərbaycan dövlətin mərkəzi, Təbriz isə Abaqa xanın zamanından başlayaraq dövlətin paytaxtı oldu.

***İctimai quruluş.*** Hülakülər dövlətinin yaranması və köçəri monqol-türk tayfalarının Azərbaycanda məskunlaşması ölkənin ictimai-iqtisadi və siyasi həyatında böyük dəyişikliklər yaratdı. Monqol sərkərdələri təkcə feodal və icma torpaqları deyil, vəqf torpaqlarını da zəbt etdilər. Bütpərəst monqollar bu torpaqları incu və divan torpaqlarına çevirdilər.

Köçəri feodallardan olan noyonların imtiyazları çox geniş idi. Belə ki, Ön Qafqaz ərazisi 110 monqol noyonunun arasında bölüşdürüldü. Elxanilər sülaləsinə məxsus torpaqlar "incuyxass" adlanırdı. Divan torpaqlarından gələn gəlirlər divanın saxlanmasına sərf edilirdi.

Hakim feodallar sinfinə məxsus ikinci qrupa kələntər, darğa, şəhnə və ruhanilər – sədr, şeyxülislam, qazı, nəqib, möhtəsib daxil idi. Feodallar əsasən yerlilərdən ibarət olan xalq kütlələrini istismar edirdilər.

Hülakülər dövlətində tacirlər öz mövqelərinə görə hakim sinfin təbəqəsinə daxil idilər. Tacirlərin "şərik tacirlər" adlanan hissəsi hökmdara, vəzirə daha yaxın idilər. Onlar həmçinin dövlət tərəfindən himayə olunurdular. Bu qisimdən olan tacirlər vergi və mükəlləfiyyətlərdən azad idilər və onların adlarının qabağına **şeyx, xacə** ləqəbləri artırılırdı. Tacir rəislərinə "məlikültüccar" deyilirdi.

Əhalinin əksəriyyətini təşkil edən kəndlilər və sənətkarlar üç təbəqəyə ayrılırdı: varlılar, orta təbəqə və yoxsullar. Sənətkarlar, kəndlilər, xırda tacirlər və müxtəlif peşə sahibləri dövlət məmurlarının özbaşnalığından və vergilərin ağırlığından əziyyət çəkirdilər. Əhalinin əksər hissəsi yoxsullardan ibarət idi. Bunu nəzərə alaraq Hülakülər dövlətinin paytaxtında onlar üçün "Yoxsullar evi" açılmışdı. Burada şəhər yoxsullarına pulsuz xörək paylayırdılar.

Hülakü dövlətinin ən hüquqsuz təbəqəsi qullar idilər. Qul əməyindən geniş istifadə olunurdu. Ancaq qulların ailələri və evləri var idi. Qul uşaqlarına müxtəlif sənətlər öyrədilirdi. Ağa öz qulunu sata və bağışlaya bilərdi.

***Vergilər və mükəlləfiyyətlər.*** Monqollar dövründə əhalidən 40-dan artıq müxtəlif vergilər alınırdı. 1254-cü ildə Azərbaycanda 10 yaşından 60 yaşınadək bütün kişilər siyahıya alınmışdı. Bundan əsas məqsəd gəlir mənbələrini müəyyənləşdirmək, istismarı daha da dərinləşdirmək idi.

Dövlətə ən çox gəlir gətirən vergi qopçur (can vergisi) və tamğa (sənətkar və tacirlərdən alınan vergi) idi. Divan rəiyyətdən ildə 10, bəzi yerlərdə 20 və ya 30 qopçur alırdı. Bundan başqa **mühümmat, ülufə, ixracat, mültəmisat, təəhhüd** və s. adlı vergilər də toplanırdı. Hülakü əmiri Arqun dövründə Təbrizdə "bəqayayi-

mal" (qalmış vergilər) adı altında əhalidən xeyli vergi yığılmışdı. Vergilər əhalini müflis halına salırdı.

Şəhərdə satılmaq üçün gətirilən mallardan şəhər darvazasında tamğa vergisi alınırdı. Şəhərin ərazisindən keçən mallara görə də vergi alınırdı. Bu, rahdarı vergisi adlanırdı.

Elxani hökmdarları xarici tacirlərə xoş münasibət bəsləyirdilər. Onlar yollarda incidilmir, lazım gələndə onları qoruyur, mühafizə edirdilər. 1340-cı ildə bütün Azərbaycandan toplanılan 209 tümən gəlirin 115 töməni Təbriz və onun ətraf nahiyələrin hesabına idi. 87,5 tümən ancaq Təbrizdə toplanmışdı.

Ordunun saxlanması üçün əhalidən tağar alınırdı.

Hülakülər dövründə əhalidən alınan ağır bir rüsum tərh idi. Tərh o demək idi ki, əhalidən istehlak şeyləri bazar qiymətindən uçuz alınır, tacirləri dövlətdən bazar qiymətindən yuxarı qiymətə məhsul almağa məcbur edirdilər. Deməli, dövlət özü alver edirdi.

Əhalidən bağ-şümarə - meyvə bağlarından alınan vergi, xanei-şümarə - ev vergisi, monqol xanları, xatunları, məmurları və b. üçün ixracat və rüsum da alınırdı.

Monqol xanı Qazan xanın (1295-1304) dövründə ona yaxın adamlara çoxlu iqta torpaqları verildi ki, bu da iri torpaq sahiblərinin artmasına səbəb oldu. Mənbələrə istinadən demək olar ki, XIII əsrin son rübündə Hülakülər dövlətində iqtisadi və siyasi böhranın artmasına səbəb köçəri feodalların vergiləri artıraraq, əhalini qarət etməyə başlaması olmuşdur.

***Dövlət quruluşu.*** Hülakülər dövləti tipik feodal dövləti idi. Dövlətə sahibi mütləq olan **"elxan"**, **"sultan"** və ya **"padşah"** adlanan hökmdar başçılıq edirdi.

Azərbaycanda iki dövlət quruluşunun – yerlilərə və köçərilərə məxsus dövlət quruluşunun çulğalalaşması və qarşılıqlı təsiri nəticəsində yeni, nisbətən inkişaf etmiş, təkmilləşmiş dövlət quruluşu və idarə sistemi yarandı. Yeni idarə sistemi hər iki dövlət quruluşunda olan ən yaxşı müsbət cəhətləri cəmləşdirirdi.

Hülakülər səltənətinə Hülakü xanın nəslindən olan şahzadələr yiyələnə bilərdilər. İlk vaxtlarda şahzadələr, Çingiz xanın yasasına əsasən qurultayda seçilir

və Ali monqol xaqanlığı tərəfindən təsdiq olunurdular. Lakin bu proses XIII əsrin axırlarında formal xarakter aldı və tədricən aradan çıxdı. XIV əsrin II rübündən Hülakülər səltənətinə feodal ara müharibələrində qələbə çalan feodalların irəli çəkdiyi şahzadələr sahib oldular.

Hülakülər dövlətində hərbi sahəyə, təsərrüfata nisbətən üstünlük verilirdi. Dövlətin hərbi qüvvələrinə baş əmir rəhbərlik edirdi. Baş əmir dövlətin 4 yüksək rütbəli əmiri arasında seçilirdi və elxan tərəfindən təsdiq olunurdu. Qalan üç əmir "qol əmirləri" adlanırdı. Dövlət fərmanlarında hökmdardan sonra bu 4 əmirin adı, sonra isə vəzirin adı yazılırdı. Vaxt da olub ki, baş əmirlər dövlətin faktiki hakimi kimi fəaliyyət göstərmişlər.

Dövlətin hərbi və inzibati idarələri **"Əmarət"** (əmirlik) adlı təşkilatda cəmləşmişdi. Qoşun tümənlərə (onminliklərə), minliklərə, yüzlüklərə və onluqlara bölünmüşdü. Orduda **inaq, bukaul, yasavul, yurdcu, bəlarğuçi, bəxşi** və digər məmurlar var idi. İnaqlar hərbi məsləhətçi idilər. Bukaullar ixracatı və yürüşlərdən əldə olunan gəlirləri hərbi hissələr arasında bölmək, ordu hissələrinin təminatı ilə məşğul olurdular. Yasavullar qoşun hissələrini döyüş meydanlarına aparıb onları döyüşə hazır vəziyyətdə saxlayırdılar. Yurdçular padşahın və hərbi hissələrin yerləşəcək məskənləri-yurdları salırdılar.

Təsərrüfatın idarəsi "Divan sistemi" üzrə təşkil edilmişdi. Mərkəzi dövlət aparatına vəzir və onun naibi başçılıq edirdi. Buraya 20-dən artıq sahə üzrə divanlar tabe idi. Maliyyə sisteminə **mustofi** baxırdı. Mühasibat işləri 7 dəftər əsasında aparılırdı. Təbrizə aid dəftər başqa şəhərlər üçün ölçü (qiyas) rolunu oynayırdı.

Hülakülər dövlətinin ərazisi vilayətlərə, onlar isə **"tümən"lərə** bölünmüşdü. **"Tümən"** hərbi və inzibati bölgü baxımından eyni ərazini əhatə edirdi. Azərbaycan, müstəqil vilayət kimi, 9 tümənə bölünmüşdü və onların hər biri Azərbaycanın iri şəhərlərindən birinin adı ilə (məsələn, Təbriz tüməni, Ərdəbil tüməni və s.) adlanırdı. Vilayətlər iki nəfər tərəfindən idarə olunurdu. Vilayət hakimlərinin vəzifəsinə mərkəzi hökumətin mənafeyini müdafiə etmək və

göstərişləri yerinə yetirmək, sərhədləri qorumaq, təsərrüfatı idarə etmək, xalq hərəkatını və sinfi mübarizəni boğmaq daxil idi.

Hülakülərin ədliyyə sistemi iki hissəyə ayrılırdı. Şahzadələrə, köçəri feodallara, hərbi hissələrə aid mübahisələr Çingiz xanın yasasına əsaslanan yarğı məhkəmələrində, yerlərdə qəza məhkəmələrində şəriət qanunları əsasında aparılırdı. Yarğının şəriət məhkəmələrinin işinə müdaxilə etməsi qanunla qadağan edilmişdi.

Dini işlərin idarəsinə baş qazı baxırdı. Onun sərəncamında "qazılar dördlüyü", vilayət və şəhər qazıları işləyirdilər. Baş qazı şəriət qanunları əsasında mühakimələr aparır, dini baxışların genişlənməsi, gəlirlərin artırılması, xəzinənin (beyt ül-malın) və vəqf əmlakının mühafizəsi ilə məşğul olurdu. İctimai-iqtisadi və mədəni həyatın bir çox sahələri - zəkat və cizyə toplanması, əhali arasında nizam-intizamın qorunması, məscid, mədrəsə və tibb sahələrinin idarəsi dini idarələrin öhdəsinə düşürdü.

Monqollar Azərbaycana bütpərəst kimi gəlmişdilər. İlk elxanlar islama qarşı mənfi münasibət bəsləyirdilər. Qazan xan (1295-1304) özü islamı qəbul etdi, Mahmud adını götürdü. İslamı qəbul etməyənlərin ölkədən çıxması haqqında sərəncam verdi.

XIV əsrin sonu – XV əsrin əvvəllərində Yaxın və Orta Şərqdə olduğu kimi Azərbaycanın siyasi həyatında bir sıra amillər rol oynadı. Bunlardan ən başlıcası Azərbaycanın və qonşu ölkələrin Əmir Teymurun dağıdıcı basqınlarına məruz qalması idi.

Bu dövrdə Azərbaycanın şimalında Şirvanşahlar dövləti I İbrahimin (1382-1417) hakimiyyəti altında müəyyən iqtisadi-siyasi tərəqqiyə nail ola bilmişdi.
I İbrahimin ağıllı və uzaq görən siyasəti nəticəsində Şirvan torpağı öz müstəqilliyini qoruyub saxladı, xarici işğalçıların zülmünə məruz qalmadı. Doğrudur, Şirvan Teymurun vassalına çevrilsə də öz müstəqilliyini qoruya bildi.

Bununla da, XV əsrin başlanğıcında Şirvan və Şəki istisna olmaqla Azərbaycanın demək olar ki, bütün ərazisi Teymirilər dövlətinin tərkibinə daxil edilmişdi.

Azərbaycanın zəngin təbii sərvətləri və münbüt torpaqları Qızıl Orda xanlarının da diqqətini cəlb edirdi. Toxtamışın Azərbaycanı ələ keçirtmək cəhdləri Teymurun və Şirvan şahlarının müqaviməti nəticəsində boşa çıxdı.

Təbrizdə, Qarabağda, Şəkidə, Marağada və b. yerlərdə xalq ixtişaşları baş vermişdi. Bu dövrdə I İbrahim Şirvanın istiqlaliyyətinə nail olmuşdu.

# VI F Ə S İ L
# AZƏRBAYCANDA XV ƏSR FEODAL DÖVLƏTLƏR - ŞİRVANŞAHLAR, QARAQOYUNLU VƏ AĞQOYUNLU DÖVLƏTLƏRİ

**Şirvanşahlar dövləti.** XIV əsrin 60-70-ci illərində Şirvanşah Kəsranilər dövləti Cəlairilərdən asılı vəziyyətə düşmüşdü. Kəsranilərin son nümayəndəsi Hüşəngin yeritdiyi siyasət xalq kütlələrinin, həm də feodalların xeyli hissəsinin narazılığına alət olmuşdu. 1382-ci ildə Şirvanda xırda feodallar və kəndlilər üsyan qaldıraraq Hüşəngi öldürdülər. Bununla Kəsranilər sülaləsinə son qoyuldu.

Şirvan feodalları I İbrahimi (1382-1417-ci illər) taxta oturtdular. O, əslən Şəki vilayətindən idi. Onun atası vaxtilə Dərbəndin hakimi olduğuna görə sülaləsi Dərbəndilər adlanırdı. Bu sülalə 1538-ci ilə kimi Şirvanda hakim olmuşdu. I İbrahim görkəmli dövlət xadimi və mahir diplomat idi. I İbrahim də feodalların mənafeyini müdafiə edirdi.

I İbrahim hakimiyyətinin ilk dövründə Şirvanı ciddi təhlükə gözləyirdi. Əmir Teymur Şirvana hücum etməyə hazırlaşırdı. I İbrahim Əmir Teymurun görüşünə gedib danışıqlar apardı. Teymur I İbrahimə etimad göstərərək Şirvan idarəçiliyini ona tapşırdı. Hətta Dərbənd keçidinin müdafiəsini onun qoşunlarına həvalə etmişdi, 1395-ci ildə Teymurun Toxtamışa qarşı müharibəsində Şirvan qoşunları da iştirak etmişdi. Şirvan qoşunları və I İbrahimin öz himayəsinə aldığı Şəki hakimi Seyid Əlinin oğlu Seyid Əhmədin dəstələri Əmir Teymurun 1402-ci ildə Osmanlı sultanı I Bəyazidə qarşı apardığı döyüşlərdə iştirak etmişdilər.

Teymuri dövlətində baş verən iğtişaşlardan istifadə edən I İbrahim Gəncəni və Qarabağın çox hissəsini tutmuşdu. Gürçü çarı Şirvanşahla ittifaq bağlamışdı. Bir çox digər feodallar da I İbrahimin müttəfiqi olmuşdular.

Şirvanşah I İbrahim Kür çayı sahilində Miranşahın oğlu Ömər Mirzənin qoşunlarını darmadağın etmişdi. Ömərin qoşunları Təbrizə çəkilmişdi. 1406-cı ildə Ömərdən narazı olan şəhər əhalisi üsyan etdi. Üsyançılar Ömərin vergi yığanlarını tutub öldürdülər. Şeyx Əli Qəssab və qazı İmadəddin şəhərin başçısı seçildilər. Həmin ilin yayında Ömərin böyük qardaşı Əbubəkr Əli Qəssabın dəstələrini

darmadağın etdi. Əbubəkrin adamları şəhər əhalisindən 100 min qızıl alaraq çıxıb gedəcəklərini vəd etsələr də verdikləri sözü tutmadılar və Təbrizə girərək onu talan etdilər. Şəhər əhalisi kömək üçün I İbrahimə müraciət etdi. 1406-cı ilin mayında I İbrahim Arazı keçərək Təbrizə gəldi, əhali onu öz hakimi kimi qarşıladı.

Beləliklə, qısa müddətə də olsa I İbrahim Azərbaycanın böyük bir hissəsini öz hakimiyyəti altında birləşdirmiş oldu. Lakin o, Təbrizdə möhkəmlənə bilmədi. Cəlairi Sultan Əhmədin Təbrizə doğru irəlilədiyini eşidən I İbrahim bunu qanuni hökmdarın qayıdışı kimi qiymətləndirdi və şəhəri tərk etməyə məcbur oldu.

**Qaraqoyunlu dövləti.** 1406-cı ilin yayında sultan Əhməd Calairinin qoşunları İraqdan Azərbaycana soxuldular. Əhməd Cəlairi bayrağında qara qoyun olan Qaraqoyunlu tayfa birləşməsinin başçısı Qara Yusiflə əlbir hərəkət edirdi.

Qaraqoyunlu və ağqoyunlu adlanan köçəri tayfa birlikləri XIII əsrdən başlayaraq Vanda, Diyarbəkirdə, Azərbaycanda və qismən İraqda yaşayırdılar. Onlar oğuz-türkmən tayfalarından törəmişdilər.

Qaraqoyunlu sülaləsinin başçısı Bayram Xoca sultan Üveys Cəlairinin əmirlərindən olmuşdu.

Sultan Üveys öldükdən sonra o, qaraqoyunlu tayfalarını öz ətrafına toplamağa başlamışdı. Bayram Xocanın oğullarından biri Qara Məhəmməd Mərkəzi Van şəhəri olan qaraqoyunlu feodal hakimliyinin əsasını qoymuşdu. Qara Məhəmməd 1387-ci ildə Çapaqacur (Çuburçur) dairəsində Teymuriləri məğlub etdi və 1388-ci ildə Təbrizi ələ keçirdi. Lakin 1389-cu ilin aprelində Qara Pirhəsən adlı digər qaraqoyunlu əmiri ilə döyüşdə oğlu Bayramla birlikdə öldürüldü. 1392-ci ildə Qara Pirhəsən Qara Yusif tərəfindən məğlub edildi. 1394-cü ildə qara Yusif və Cəlairilərin qüvvələri Bağdad yaxınlığındakı döyüşdə Teymurilər tərəfindən məğlub edildilər. Qara Yusif və Sultan Əhməd Misirə qaçmağa məcbur olurlar.

Onlar məhbusda olarkən və Azərbaycanı aralarında bölüşdürmək razılığına gəlirlər. Qara Yusif Təbrizə, Sultan Əhməd Cəlairi isə Bağdada böyük qoşun göndərir. 1406-cı ilin iyun ayında Bağdadı tutur, sonra Təbrizə yürüş edir. I İbrahim Təbrizdən məcburən çəkildikdən sonra Təbriz Qara Yusif və Cəlairi

qoşunları tərəfindən tutulur. 1408-ci ilin aprelində Qara Yusif Miranşahın və Şahruhun qoşunlarını məğlubiyyətə düçar edir. Miranşah öldürülür.

Bundan sonra Cəlairilərlə qaraqoyunlu feodalları arasında Azərbaycanda hakimiyyət uğrunda şiddətli mübarizə başlayır. I İbrahim nisbətən təhlükəsiz rəqib hesab etdiyi Cəlairilərin tərəfinə keçir. 1410-cu ilin avqustunda Təbriz yaxınlığında Şənbi-Qazan döyüşündə Qara Yusif Əhməd Cəlairinin qoşunlarını əzdi və Əhmədi öldürdü.

Beləliklə, 1410-cu ildə Baharlı tayfaları olan Barani sülaləsinin qaraqoyunlular dövləti yarandı. Bu dövlət 1468-ci ilədək yaşamışdı. Kürdən cənuba doğru uzanan Azərbaycan torpaqları, Ermənistan, Gürcüstan və Ərəb İraqı bu dövlətin tərkibinə daxil idi. Dövlətin paytaxtı Təbriz idi.

Qara Yusif Şirvanı da özünə tabe etməyə çalışırdı. Bu zaman Şirvanşah İbrahim Kaxetiya çarı Konstantin və Şəki hakimi Sidi Əhmədlə dostlaşmışdı. Qara Yusifə qarşı onlar birgə çıxış edirdilər. 1412-ci ildə Kür sahilindəki döyüşdə Qara Yusif qələbə çalır. O, Şirvanşah İbrahimi, onun yeddi oğlunu, qardaşı Bəhlulu, Kaxetiya çarı Konstantini əsir alır. Təbriz tacirləri və sənətkar ağsaqqalları 1200 İraq tüməni verərək İbrahimi azad edirlər. O, Qara Yusifdən asılı olmağa razılıq verir. Qara Yusif 1420-cı ilin noyabrında döyüşlərin birində yaralandı və həmin yaradan öldü.

Qara Yusifin ölümündən sonra (1420-ci il) I İbrahimin xələfi I Xəlilüllah (1417-1462) qaraqoyunlulardan asılılığı ləğv etməyə çalışırdı. O, Teymuri Şahruhla ittifaq şəraitində 45 il padşahlıq etmişdi. Qara Yusifin oğlu İsgəndər (1422-1429) üç dəfə (1427, 1430 və 1434-cü illər) Şirvanı işğal etməyə çalışmış, lakin müvəffəqiyyət qazanmamışdı.

1428-ci ildə Teymuri Şahruhun qoşunları qaraqoyunlu İsgəndəri məğlubiyyətə uğradır. 1429-cu ildə Şahruh Qara Yusifin oğlu Əbu-Səidi hakimiyyətə gətirir və 1430-cu ildə Azərbaycanı tərk edir. 1431-ci ildə Qara Yusifin oğlu İsgəndər yenidən Əbu-Səidi öldürüb hakimiyyətə gəlir (1431-1438). 1435-ci ildə şirvanlıların və Teymuri Şahruhun birləşmiş qüvvələri tərəfindən məğlub edildi. İsgəndər Kiçik Asiyaya qaçmalı oldu. Elə həmin ili Şahruh Təbrizə gəldi. Yusifin

kiçik oğlu Cahanşah onu təntənə ilə qarşıladı. Şahruh ölkənin idarəçiliyini Cahanşaha tapşırdı. 1436-cı ildə İsgəndər yenidən Azərbaycana hücum etdi. 1437-ci ildə oğlu Qubad Mirzə tərəfindən öldürüldü, 1438-ci ildən hakimiyyət Cahanşaha keçdi (1438-1467). O, bacarıqlı dövlət xadimi idi. 1459-cu ildə Bağdadda üsyan qaldırmış oğlu Pirbudağı təslim etdikdən sonra ölkədə sakitlik yarandı.

1437-ci ildə hakimiyyətə gəlmiş qaraqoyunlu Cahanşah Şirvanla dostluq münasibətləri yaratmağa çalışırdı.

Nəhayət XV əsrin 60-cı illərinin axırlarında (1468) Qaraqoyunlu dövləti süqut etdi.

**Ağqoyunlu dövləti**. Ağqoyunlular sülaləsinin banisi Bayandur tayfasından olan Pəhləvan bəy (1370-1388) idi. Ağqoyunlular Qara Yuluq Osman bəy(1403 – 1435) və Uzun Həsən (1453-1478-ci il) dövründə daha da qüvvətlənmişdi.

1467-ci ildə Uzun Həsən Muş düzü yaxınlığında Cahanşahın qoşunlarını əzir, sonra isə Çubuqçurda isə onun oğlanları Məhəmməd və Həsənəlini məğlub edərək öldürür.. Qaraqoyunlu dövləti tamamilə süqut edir. Paytaxt Təbriz olan Ağqoyunlu dövləti yaranır. O, böyük bir ərazini – Kürdən cənuba olan Azərbaycan vilayətlərini, Ermənistanı, Diyarbəkiri, Gürcüstanı, Ərəb İraqı, Gilandan, Mazandarandan və Xorasandan başqa İranın qalan vilayətlərini əhatə edirdi.

Uzun Həsən qaraqoyunluların son tərəfdarlarına qarşı mübarizə apararkən Heratın Teymuri hökmdarı Əbu Səid 1468-ci ilin payızında Azərbaycana hücum etdi. Uzun Həsən ona qarşı mübarizə etmək üçün Şirvanşah Fərrux Yasarla (1462-1501) və Səfəvilər sülaləsindən olan Ərbədil hakimi Şeyx Heydərlə ittifaq bağlayır. Uzun Həsən Əbu Səidə qalib gəlir. 1477-ci ildə Uzun Həsən Gürcüstanı viran etmiş, 65000 əsir götürmüşdü.

Uzun Həsən daxildə feodal hakimiyyətini möhkəmlətmək siyasəti yürütməklə yanaşı xarici əlaqələri genişləndirdi. Ağqoyunlu dövləti Avropa və Asiyanın bir çox dövlətləri ilə, o cümlədən Rusiya, Venesiya, Macarıstan, Avsrtiya, Polşa və b. dövlətlərlə əlaqə yaratmışdı. Dövlətin xarici siyasətində Uzun Həsənin anası Sara Xatun mühüm rol oynayırdı.

Ağqoyunlu dövlətinin ehtiyat etdiyi qüvvə Osmanlı türkləri idi. Xırda Osmanlı türk feodal dövləti XIV əsrdə təşəkkül tapmışdı. XV əsrin ortalarından başlayaraq Osmanlı türkləri Azərbaycan və Şərqin digər ölkələrinə hücumlar təşkil edirdilər. 1453-cü ildə onlar Bizansın paytaxtı Konstantinopolu zəbt edərək Osmanlı imperiyasının yaratdılar. 1461-ci ildə türk sultanı Uzun Həsənlə ittifaqda olan (Uzun Həsən Trabzon hakiminin qızını almışdı) Trabzon imperiyasının torpaqlarını işğal etdi.

Osmanlıların hücumlarından ehtiyat edən Venesiya, Macarıstan, Polşa, Avstriya və b. Avropa ölkələri Ağqoyunlu dövləti ilə yaxınlaşmağa səy göstərirdilər. Çünki onlar Ağqoyunlu dövlətini osmanlılara qarşı dura bilən etibarlı müttəfiq hesab edirdilər. Lakin bu ittifaq baş tutmadı.

1472-ci ildə Türkiyə ilə Ağqoyunlu dövləti arasında Kiçik Asiyada döyüşlər başlandı. 1473-cü ildə Fərat çayı sahilində olan Malatiya yaxınlığındakı döyüşdə Uzun Həsən qələbə əldə etdi. Lakin 10 gün sonra toplarının çox olmasından istifadə edən osmanlı türkləri Tərcan yaxınlığındakı (Otluqbeli) vuruşmada Uzun Həsəni məğlubiyyətə uğratdılar.

Uzun Həsənin oğlu Yaqub padşahın hökmranlığı zamanı (1478-1490) Süleyman bəy Bicanoğlunun komandanlığı altında Ağqoyunlular 1480-cı ildə osmanlıları məğlub etdi. Türk sultanı II Bəyazid (1481-1512) sülh istəməyə məcbur oldu.

Bu dövrdə Azərbaycanın, xüsusilə Şirvanşahların Rusiya ilə də əlaqəsi vardı. 1465-ci ildə Şirvanşah Fərrux Yasar III İvanın sarayına elçi olaraq Həsən bəyi göndərmişdi.

Ağqoyunlu hakimləri də Rus dövləti ilə əlaqə yaratmışdı. 1475-ci ildə onlar arasında danışıqlar aparılmışdı.

O biri feodal dövlətlər kimi Ağqoyunlu dövləti də möhkəm deyildi. Dövlətin daxilində böyük narazılıqlar var idi. 1473-cü ildə Təbrizdə iğtişaşlar baş verdi. Şəhər əhalisi qoşun saxlamaq üçün vergi verməkdən imtina etmişdi.

Ağqoyunlu hakimlərinin öz yaxın adamlarına və vassallarına səxavətlə torpaqlar - soyurqallar paylamaları feodal pərakəndəliyini dərinləşdirirdi. Artıq

bəzi feodallar mərkəzi hökumətə tabe olmaqdan imtina edirdilər. Bunlar mərkəzi hakimiyyəti sarsıdırdı 1497-ci ildən gedən daxili çəkişmələr (XV əsrin 90-cı illərində 8 nəfər şahzadə padşah olmaq iddiasında idi) nəticəsində Ağqoyunlu dövləti iki yerə parçalandı. 1500-cü ildə Təbriz yaxınlığında Əbhər adlı yerdə Baba Xeyrullanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistanın bir sıra vilayətləri Əlvənd Mirzəyə, İraq və Fars vilayətləri Muradşahın hökmranlığına verildi.

***İctimai quruluş.*** XV əsr Azərbaycan dövlətlərində monqol hökmdarlığı dövründə formalaşmış feodal üsul-idarəsi mövcud olmuşdur. Hakim feodal sinfi əsasən dörd qrupa ayrılırdı. Bunlar: **məliklər** (yerli oturaq əyanlar); **əmirlər** (koçəri tayfaların hərbi əyanları); **məmurlar** (ali mülkü bürokratiyanın nümayəndələri) və Ali müsəlman **ruhaniləri** (sədrlər, qazilər, seyidlər, ülamələr, şeyxlər və s.)

Mənbələrdən məlum olur ki, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində hərbi-köçəri əyanlar siyasi rəhbər rolu oynayırdılar.

Bu dövrdə Azərbaycanın şimalında – Şirvanda iqtisadiyyat cənuba nisbətən daha yüksək olmuşdur. Bunu 1475-ci ildə Şirvanda olmuş Venetsiyalı səyyah Kontarini də qeyd etmişdir. O, yazır: “Bu ölkə (Şirvan) başlıca olaraq gözəl, məhsuldar düzənliklərdən ibarətdir və Uzun Həsənin mülklərindən daha yaxşı, daha məhsuldardır”.

Dərbəndlilər sülaləsindən olan ilk üç şirvanşahın (I İbrahim, I Xəlilullah və Fərrux Yasar) hakimiyyəti illərində Şirvan iqtisadi yüksəliş mərhələsində olmuşdur.

Azərbaycanın cənub vilayətlərində viranedici müharibələr və feodal çəkişmələri davam edirdi. Bu hadisələr kənd təsərrüfatının inkişafına əngəl törədirdi. Teymuri hökmdarlarının yerli əhali hesabına hərbi hissələri təchiz etmək sahəsindəki soyğunçu tədbirləri, Cəlairi və Qaraqoyunlular arasında baş verən hərbi toqquşmalar geniş əhali kütlələrini müflisləşdirirdi.

Ağqoyunluların hakimiyyətə gəlməsi ilə ölkənin iqtisadi vəziyyətində müəyyən dirçəliş baş verdi. Azərbaycan feodal dövlətlərində monqol hökmdarlığı dövründə formalaşmış torpaq mülkiyyəti növləri mövcud idi ***(divani, xassə, mülk,***

***vəqf)***. Müsəlman və xristian dini idarələrinə məxsus olan vəqf mülkləri ***vəqfi-xeyri*** adlanırdı. Seyidlərə, dərviş şeyxlərinə, müqəddəs hesab olunan şəxslərə məxsus vəqflər isə ***vəqfi-əhli*** adı ilə tanınırdı.

Əvvəllər mövcud olmuş ***iqta*** institutunu ***soyurqal*** əvəz etməkdə idi (monqol mənşəli soyurqamışi istilahındandır və bəxşişi mənasını verir). Azərbaycanda soyurqallara dair ilkin məlumatlar XIV əsrin ikinci yarısına, Cəlairilərin hakimiyyəti dövrünə təsadüf edir. Soyurqal feodallara sultan tərəfindən bağışlanırdı. Hərbi və mülki xidmət müqabilində bağışlanmış bu mülklər feodalların irsi istifadəsində olurdu. İqtaya nisbətən soyurqal sahibinin hüquqları daha geniş idi. Soyurqal sahibi vergi tədbirlərində və məhkəmə-inzibati fəaliyyətində müstəqil olmuşdur.

Soyurqal institutunun geniş yayılması mərkəzi hakimiyyətin maddi əsasını məhdudlaşdırır, onun gəlirlərini xeyli dərəcədə azaldırdı. Soyurqalın irsiliyi soyurqal sahibini mərkəzi hakimiyyət üçün təhlükəli ünsürə çevirməkdə idi. İri soyurqal sahibləri artıq özlərindən asılı olan şəxslərə xırda soyurqallar bağışlamağa başlamışdılar. XV əsrin ikinci yarısından mərkəzi hökumət soyurqal sistemini sarsıtmaq üçün mübarizəyə başladı. Əgər XV əsrin birinci yarısında (Qaraqoyunlu hakimiyyəti illərində) soyurqallar əsasən hərbi-köçəri əyanların nümayəndələrinə verilirdisə, Ağqoyunlu hakimiyyəti dövründə bu mülklər başlıca olaraq ruhanilərə və mülki bürokratiya nümayəndələrinə bağışlanırdı. Ağqoyunlu Yaqub və Əhməd güclənmiş soyurqal sahiblərinə qarşı qəti mübarizəyə başlamağa cəhd etdilər. Lakin mərkəzi hökumətin bu əməli feodal qiyamlarına səbəb oldu və XV əsrin sonlarında Ağqoyunlu dövlətinin süqutu ilə nəticələndi.

XV əsrin rəsmi sənədlərindən məlum olur ki, bu dövrdə otuzdan çox adda vergi və mükəlləfiyyət mövcud idi və bu ağır vergi sistemi əhalini əzirdi. ***Malcəhət*** (və yaxud bəhrə) əsas vergi olmuşdur. Uzun Həsənin "Qanunnamə"sinə əsasən **bəhrə** əldə edilən məhsulun 1/5 hissəsini təşkil etmişdir. Kəndlilər istifadə olunmuş suyun müqabilində də **bəhrə** vergisi ödəyirdilər. Hərbçilərin, mülki və ruhani vəzifələr tutan şəxslərin xeyrinə toplanan vergilərin məcmusu ***ixracat*** adı ilə tanınmışdı. Qeyri-qanuni surətdə, özbaşına şəkildə toplanan vergilər ***şiltaqat***

adlanırdı. Kəndlilər feodal ziyafətlərinin təşkilinin ağırlığını da çəkməli olurdular (***şilənbəha, süfrəbəha*** və başqa mükəlləfiyyətlər). Yerli inzibati-polis məmurunun (*dəruğəki*), vergiyığan məmurların (***mümayizane*)**, ruhani başçıların (***rəsm əl-vüzarə***) xeyrinə toplanan vergilər mövcud idi. Feodallar müxtəlif təyinatlı tələbatlarını ödəmək üçün mürəkkəb vergi sistemi yaratmışdılar. Maldarlardan ***çobanbəyi*** vergisi alınırdı.

Azərbaycan feodalları, adətən, şəhərlərdə yaşayır, vergiləri xüsusi məmurlar vasitəsilə toplayır, əldə olunan nemətləri israfçılıqla istehlak edirdilər. Bir çox hallarda feodallar vergilərin toplanması hüququnu icarəyə verirdilər (***müqatiə***). İcarədarlar mülkiyyət sahibinin mənimsəyəcəyi vergilərin bütün məbləğini əvvəlcədən ödəyir, kəndlilərin dilənçi halına düşməsi, müflisləşməsi prosesini sürətləndirirdilər.

***Şəhərlər. Sənətkarlıq və ticarət. Pul dövriyyəsi.*** XIV əsrin 70-ci illərindən XV əsrin 30-cu illərinədək Azərbaycanda şəhər həyatının, ticarətin və xüsusilə sənətkarlığın tədricən tənəzzül etməsi prosesi baş vermişdir. Bu dövrdə Şirvan daha əlverişli sosial-iqtisadi və siyasi şəraitdə inkişaf edirdi.

XV əsrin 30-80-ci illəri ölkənin nisbətən sabit siyasi şəraitdə inkişaf etməsi ilə əlamətdardır. Cahanşah Qaraqoyunlunun, Uzun Həsən Ağqoyunlunun və Sultan Yaqubun hakimiyyətləri dövründə şəhər həyatı daha yüksək inkişaf səviyyəsində olmuşdur. Uzun Həsənin islahatı (vergi və mükəlləfiyyətlərin qeydə alınması) şəhərlərin yüksəlişini təmin edən rəsmi tədbir idi. Şirvan, xüsusilə onun paytaxtı Şamaxı şəhər təsərrüfatının inkişaf prosesində yeni mərhələyə daxil oldu.

Bakı XV əsrin ikinci yarısında Xəzərdə başlıca limana çevrilmişdi. Şəhər Həştərxanı, Orta Asiyanı, Moskva dövlətini ticarət əlaqələri ilə bağlayan mühüm mərkəz olmuşdu. Burada neft hasil olunur, sənətkarlıq və ticarət inkişaf edirdi. Bakıda sikkəxana fəaliyyət göstərirdi. Şəhər daşdan tikilmiş ikiqat qala divarları ilə əhatə olunmuşdu. XV əsrdə Bakı şəhəri Şirvanşahlar dövlətinin siyasi, iqtisadi mərkəzi olmuş, bu gerçəklik isə öz ifadəsini Şirvanşahlar sarayının gözəl memarlıq ansamblında tapmışdır.

Şamaxı bu dövrdə də Azərbaycanın mühüm şəhərlərindən biri olmuşdur. Barbaronun verdiyi məlumatlara əsasən belə nəticəyə gəlmək olar ki, XV əsrdə Şamaxıda 30-60 min nəfər yaşamışdır. Kontarini Təbriz və Şamaxını müqayisə edərək belə qənaətə gəlmişdi ki, Şamaxı həyat üçün əlverişli məhsulların çoxluğu baxımından Təbrizdən üstün olmuşdur.

Marağa, Ərdəbil, Gəncə və Xoy şəhərləri XV əsrdə də iri ticarət-sənətkarlıq mərkəzləri idi. Klavixo qeyd edir ki, "Xoy ətrafında xeyli bağ və bostan vardı. Şəhərə çoxlu kəhriz çəkilmişdi".

XV əsrin əvvəllərində Teymurilər Beyləqan şəhərinin bərpa olunmasına başladılar. Əbdürrəzaq Səmərqəndinin məlumatlarından aydın olur ki, "Əmir Teymur Beyləqanı abadlaşdırmış, orada hamam, ibtidai ruhani məktəb (dəbistan) tikdirmiş, Beyləqanın kəhriz şəbəkəsinin bərpa olunmasına sərəncam vermişdi".

XV əsrdə Təbriz, Gəncə, Ərdəbil və Şirvan şəhərləri (ilk növbədə Şamaxı) Azərbaycanın mühüm toxuculuq mərkəzləri sayılırdı. Görkəmli alim Bakuvi qeyd edirdi ki, Gəncə sakinləri ipək qurdunun yetişdirilməsində və ipəyin hazırlanmasında mahir idi.

XV əsr Azərbaycanda xalçaçılığın inkişafında mühüm mərhələdir. Bu dövrdə Azərbaycan xalçalarına böyük tələbat vardı. Azərbaycan xalçaları beynəlxalq bazara müdaxilə edirdi. Asiya və Avropa ölkələrində Təbriz və Şirvan xalçaları xüsusi şöhrətə malik idi.

Azərbaycanda dulusçuluğun ən böyük mərkəzi Təbriz idi. Təbriz ustaları Azərbaycanda, İranda, Kiçik Asiyada, Misirdə və Şərqin digər ölkələrində saray, dini və mülki tikililəri bəzəyən göy, mavi, ağ və füruzəyi rəngli tikinti materialı yaradırdılar.

Metal emalının ən böyük mərkəzləri Təbriz, Ərdəbil, Gəncə və Şamaxı sayılırdı.

Teymurun Hindistan təcrübəsindən əxz etdiyi yeni pul vahidi **(təngə)** tezliklə əvvəlki pul vahidini (Ərəb xilafəti dövründə yeddi əsrdən artıq Şərq dövlətlərində pul vahidi kimi istifadə olunan gümüş dirhəmi) dövriyyədən sıxışdırıb çıxardı.

Şamaxıda zərbli mis sikkələr var idi: "Əlahəzrət sultan, Şirvanşah Fərrux Yəsar". Sikkənin arxa tərəfində isə tarix. Məzhəbin adi simvolu və dörd xəlifənin adı həkk edilmişdir. Fərrux Yəsarın sikkələrində şirvanşah titulu da qeyd edilmişdi.

XV əsrdə əsas sikkəxana Təbrizdə idi. Lakin sikkələr başqa şəhərlərdə də (Ərdəbildə, Urmiyada, Marağada, Bağdadda, Mosulda, Nisibində, Ərzincanda, Qəzvində, Kaşanda və s.) buraxılırdı.

***Uzun Həsən və onun islahatları.*** Qaynaqlarda Uzun Həsənin islahatçılıq fəaliyyəti haqqında müfəssəl məlumat verilməmişdir. Onun tərtib etdiyi "Qanunnamə"nin mətni bizə gəlib çatmamışdırsa da, islahatlar haqqında salnaməçilərin "Həsən padşah qanunları" və ya "Dəsturi-Həsən bəy" adlandırdıqları qanunlar barədəki cüzi məlumatlarına əsasən mühakimə yürütmək mümkündür.

Uzun Həsən feodal özbaşınalığını məhdudlaşdırmaq və vergilərin yığılması zamanı sui-istifadə hallarını aradan qaldırmaqla iqtisadiyyatın inkişafına təkan vermək və xəzinənin zənginliyini təmin etmək istəyirdi. O, bu siyasəti həyata keçirərkən mərkəzi dövlət aparatının möhkəmləndirilməsində maraqlı olan ruhanilərə və mülki bürokratiyaya da arxalanırdı.

***Maarif. Elm.*** Azərbaycan hətta monqol işğalı dövründə də Şərqin ən mühüm mədəniyyət mərkəzlərindən biri olaraq qalırdı. Maarif sahəsində xeyli inkişaf nəzərə çarpırdı. Yeni məktəblər, mədrəsələr və ali təhsil müəssisələri təsis edilirdi.

İbtidai təhsil müəssisəsi "məktəb", orta təhsil müəssisəsi isə "mədrəsə" adlanırdı. Şagirdlər 15 yaşına çatanadək ilk təhsili məktəbdə alır, sonra isə mədrəsəyə qəbul olunurdular.

Artıq XIII-XV əsrlərdə Təbrizdə "Qazaniyyə", "Fələkiyyə", "Şeyx Kəmaləddin Xocəndi", "Dəməşqiyyə", "Qazi Şeyx Əli", "Məqsudiyyə", "Müzəffəriyyə", "Nəsriyyə" mədrəsələri məşhur idi. Şənbi-Qazandakı "Şəfeiyyə" və "Hənəfiyyə" mədrəsələri, Bakıda Şirvanşahlar sarayının "Şah məscidi" yanındakı mədrəsə, Seyid Yəhya mədrəsəsi, Ərdəbildə Şeyx Səfi məqbərəsi nəzdindəki "Darül-irşad", Dərbənd məhəllə məscidi yanındakı mədrəsə, Rəbi-

Rəşididə 500 nəfərə qədər ustadın çalışdığı ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Mədrəsələrdə Azərbaycanın məşhur münəccimi, riyaziyyatçısı, tarixçisi Xacə Nəsirəddin Məhəmməd Tusinin "Ədəb əl-mütəllimin və l-mühəssilin" ("Müəllimlər və tələbələr üçün ədəb qaydaları") adlı əsərində sadə və ümumi tərzdə şərh edilmiş qaydalara riayət edilməsi qarşıya qoyulurdu.

Bağdadın "Nizamiyyə" mədrəsəsindən sonra XIV əsrin əvvəllərində Təbrizin şimal-şərqində yerləşən Rəbi-Rəşididə təsis edilmiş Darülfünün Yaxın və Orta Şərqin ən böyük ali təhsil müəssisəsi sayılırdı.

Çindən, Hindistandan, Misirdən və Suriyadan Darülfünuna cəlb edilmiş 50 görkəmli alim tədris işi ilə məşğul olur, həmçinin xəstələri müalicə edirdi.

Məktəb və mədrəsələrdə ərəb və fars dilləri ilə yanaşı Azərbaycan dili də səslənirdi. Təsadüfi deyildir ki, XIII-XV əsrlərdə Azərbaycan dilində bir sıra əsərlər yazılmış və onlardan bəzisi fars dilindən Azərbaycan dilinə tərcümə edilmişdir.

Yaxın və Orta Şərqin ən məşhur rəsədxanası Azərbaycan alimi Xacə Nəsirəddin Məhəmməd Tusinin (1201-1274) göstərişi və iştirakı ilə 1259-cu ildə Marağa ətrafındakı, yüksək bir yerdə təsis edilmişdi. Onun nücum elminə dair "Zici-Elxani" ("Elxani cədvəlləri") əsəri səyyarələrin (planetlərin) və digər səma cisimlərinin öyrənilməsinə həsr olunmuşdu. Marağa rəsədxanası böyük elm və tədris ocağı idi. 50 ilə yaxın fəaliyyət göstərmiş bu rəsədxanada Yaxın və Orta Şərq ölkələrindən, Çindən gəlmiş tədqiqatçılar elmi axtarışlar aparırdılar.

## Praktiki məşğələ

## Plan:

1. Şirvanşahlar dövlətinin idarəçilik sistemində Dərbəndilər mərhələsi.
2. Qaraqoyunlu dövləti.
3. Ağqoyunlu dövləti.

## Ədəbiyyat


1. Aşurbəyli S. Şirvanşahlar dövləti. B., 1997
2. Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). B., 1998
3. Fərzəlibəyli Ş.F. XV əsr Azərbaycan dövlətlərinin quruluşu. B., 2003
4. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. B., 1996
5. Onullahi S.M. XV əsrdə Azərbaycanda dövlət quruluşu. Az.SSR EA xəbərləri T.F.H. ser. 1966. № 4

# VII F Ə S İ L

# AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ (1501-1736)

Azərbaycan Səfəvilər dövlətinin meydana gəldiyi dövr, yəni XVI əsr ümumdünya tarixinin yeni mərhələsinin başlanması dövrü kimi əlamətdardır. Bu, Avropanın bir sıra inkişaf etmiş ölkələrində feodal münasibətlərinin dağılması, yeni ictimai-siyasi formasiyanın – kapitalist istehsalının meydana gəlməsi, milli və çoxmillətli dövlətlərin yaranması dövrü idi. Qərbi Avropa ölkələrinin əksəriyyətində milli ərazilərin siyasi cəhətdən birləşməsi başa çatmaqdaydı.

Asiya ölkələrində isə feodal pərakəndəliyi hələ də davam edir, onlar daxili sabitlikdən məhrum idilər.

Asiya ölkələrində siyasi qurumların səciyyəvi xüsusiyyətlərindən biri ondan ibarət idi ki, xarici istilalar nəticəsində onlar sürətlə bir ölkə çərçivəsindən çıxaraq, geniş regionları öz sərhədləri hüdudlarında birləşdirirdilər.

Belə dövlətlərdən XVI əsrin əvvəllərində yaranmış Osmanlı imperiyası və Böyük Moğollar dövləti ilə yanaşı, o dövrün ən böyük Asiya dövlətlərindən biri də Səfəvilər dövləti idi.

Səfəvilər dövlətinin yaranması Azərbaycan ərazisində feodalizm cəmiyyətinin təkamülündə mühüm mərhələ oldu.

Azərbaycan Səfəvilər dövlətinin banisi I Şah İsmayıl olmuşdur.

Şah İsmayılın ata nəsli uzun əsrlər Ərdəbilin həm dini, həm də hüquqi başçıları olmuş Səfəvi şeyxlərindən, ana tərəfi isə Ağqoyunlular dövlətinin hökmdarı olmuş Uzun Həsənə bağlıdır. I Şah İsmayıl Uzun Həsənin qız nəvəsi idi.

Səfəvilərin adı Şeyx Səfiəddin İshak əl-Musəvi-əl-Ərdəbilinin (1252-1334) adı ilə bağlıdır.

Görkəmli tarixçi İ. Petruşevski Səfəvilərin tarixini dörd dövrə bölür. Birinci dövr – XIII əsrdən 1447-ci ilə qədər olan dövrdür. Bu dövrdə Səfəvilərin hakimiyyəti yalnız Ərdəbil mahalı ilə kifayətlənirdi.

İkinci dövr – 1447-1501-ci illər. Bu dövrdə Səfəvilər öz ərazilərini genişləndirməyə cəhdlər göstərirlər.

Üçüncü dövr – 1501-1587-ci illər. Səfəvilərin hakimiyyəti yaranır, möhkəmlənir və bu dövlət Azərbaycanın dövlətçilik tarixində özünə məxsus yer tutur.

Dördüncü dövr isə 1587-1736-cı illəri əhatə edir. Bu dövrdə Səfəvilər dövlətinin mərkəzi Qəzvindən İsfahana köçürülür. Bu bölgüyə əsasən belə nəticəyə gəlmək olar ki, Səfəvilərin hakimiyyət dövrü Ərdəbil dövründən başlanır. Səfəvilər dövlətinin yaranması zamanın tələbi kimi də başa düşülə bilər. Ona görə ki, artıq XV əsrin sonunda Azərbaycanda feodal pərakəndəliyi ölkənin ayrı-ayrı hissələri arasında təsərrüfat əlaqələrini zəiflədir, məhsuldar qüvvələrin inkişafını ləngidirdi. Ağqoyunlu şahzadələri arasında baş verən aramsız müharibələr feodal özbaşınalığının artmasına səbəb olurdu. Nəticədə kənd təsərrüfatının, ticarətin, sənətkarlığın tənəzzülünə səbəb olurdu. Karvan yollarında quldurlar soyğunçuluq edirdilər. Bütün bunlara görə xalq sabit, nizam-intizamlı bir dövlət arzulayırdı. Ölkəyə ədalətli qaydalar lazım idi. Zaman yeni tipli dövlət xadimi, qətiyyətli şəxsiyyət tələb edirdi. Bu böyük missiyanı Ərdəbil şeyxlərinin varisi I Şah İsmayıl həyata keçirtdi.

1499-cu ildə 14 yaşlı İsmayıl öz mürüdlərilə Ərdəbildən Ərzincana gəlir. Hər yerdə onu xalq kütləleri böyük məhəbbətlə, qeyri-adi inancla qarşılayırlar. Gənc İsmayıl başa düşürdü ki, Təbrizə hücum etməzdən əvvəl üç düşmənlə - Ağqoyunlu Əlvənd Mirzə və Muradla, habelə onları müdafiə edən Şirvanşah Fərrux Yasarla toqquşmalı idi.

Ərzincandan 7 min nəfər qazisi - şamlu, ustaclı, rumlu, təkəli, zülqədər, əfşar, qacar, vasaq, həmçinin Qaradağ sufiləri ilə birlikdə Şirvana yürüş etdi. Şirvanşah Fərrux Yasarı məğlub etdi. Şirvanşahlardan sonra İsmayıl 1501-ci ilin yazında Bakını tutdu. Bakı IX əsrdən Şirvanşahların tərkibində idi.

Şirvandakı qələbədən sonra İsmayılın şöhrəti çox sürətlə artdı. Əlvənd Mirzə 30 minlik qoşunla Naxçıvanın Şərur adlanan yerində İsmayılın yolunu kəsdi. Çox ağır döyüş oldu. 7 minlik qoşunla İsmayıl Əlvənd Mirzənin 30 minlik qoşununu darmadağın etdi. Həmin qələbədən dərhal sonra 1501-ci ilin payızında İsmayıl (1501-1524) təntənə ilə Təbrizə daxil oldu və özünü şah elan etdi.

Səfəvilər dövlətinin yaranması Azərbaycan tarixində mühüm hadisə idi. Az vaxt ərzində ölkədə təsərrüfat həyatı yüksəldi.

I Şah İsmayıl Ağqoyunlu Muradla da aralarındakı münasibətə aydınlıq gətirməliydi. Doğrudur, qohumluq əlaqələrini nəzərə alan Şah İsmayıl Murada xəbər göndərib bildirdi ki, İraqi-Əcəmin bir hissəsini ona güzəştə getməyə hazırdır. Bunu qəbul etməyən Murad 70 min nəfərlik qoşun topladı.

1503-cü il iyunun 21-də Həmədan yaxınlığında Şah İsmayılın 12 minlik qoşunu  Muradın 70 minlik qoşunu ilə döyüşə girdi. Bu döyüşdə Şah İsmayıl döyüşçüləri parlaq qələbə çaldı.

Əgər Əlvənd Mirzə üzərində qələbə Şah İsmayılı Azərbaycanın sahibi etmişdisə, Murad üzərində qələbə isə Farsın və İraqi-Əcəmin böyük hissəsinin qızılbaşların əlinə keçməsinə gətirib çıxardı.

I Şah İsmayıl şah elan edildiyi ilk gündən şiəlik təriqəti dövlət dini elan edildi.

Azərbaycan Səfəvilər dövlətinin yaranması və onun həm siyasi, həm də hərbi cəhətdən güclənməsi bir çox qonşu dövlətləri, o cümlədən Osmanlı sultanlığını da narahat edirdi. 1504-cü ildə osmanlı sultanı II Bəyazid tarix səhnəsinə yenicə çıxmış Səfəvilər dövlətini rəsmən tanıdı. Lakin Sultan Səlim Yavuzun dövründə (1512-1520) Səfəvilərə qarşı münasibət dəyişdi. Sultan Səlim Səfəvilərlə savaşa geniş hazırlıq gördü, xaricdən xeyli müasir silah, o cümlədən toplar aldı. Sultan Şərqi Anadoluda yaşayan şiə əhalisini qırdırdı. Bundan sonra o, 23 avqust 1514-cü ildə gənc Səfəvilər dövlətinə qarşı hücuma keçdi. Tarixə “Çaldıran savaşı” kimi daxil olmuş amansız döyüşdə  osmanlıların çoxsaylı toplarının sayəsində Şah İsmayılın ordusu məğlub oldu. Şərqi Anadolu Osmanlı sultanlarının nəzarəti altına keçdi.

İki güdrətli türk dövlətinin bir-birinə qarşı müharibə aparması təəssüf doğurmaya bilməz. Bu isə Şərqi öz əlinə keçirməyə çalışan Avropa dövlətlərinin xeyrinə idi.

Azərbaycan dövlətçiliyi və mədəniyyəti tarixində I Şah İsmayılın müstəsna rolu olmuşdur. Onun dövründə Azərbaycan Səfəvilər dövləti Şərqin hegemon

dövlətlərindən biri olmuşdur. İlk Səfəvi şahı ölkədə kənd təsərrüfatının, sənətkarlığın, ticarətin inkişafı üçün önəmli işlər gördü. Mərkəzi hakimiyyət möhkəmləndi. Xarici ölkələrlə iqtisadi və mədəni əlaqələr yaradıldı. Şah İsmayıl ölkə ərazisində yaşayan müxtəlif xalqları vahid ideologiya ətrafında birləşdirərək Səfəvilər dövlətinin daxili möhkəmliyini təmin etdi. Şah İsmayılın ən böyük arzusu və istəyi Azərbaycan torpaqlarını bir mərkəz halında birləşdirmək olmuşdur.

I Şah İsmayıl təkcə dövlət başçısı, dövlət xadimi deyil, həm də görkəmli şair olmuşdur. Ana dilimizdə **"Xətai"** təxəllüsü ilə zəngin ədəbi irs qoymuşdur. Onun **"Dəhnamə"** (on məktub) poeması, əxlaqi, fəlsəfi **"Nəsihətnamə"** məsnəvisi Azərbaycan ədəbiyyatının ən gözəl nümunələrindəndir. Şah İsmayıl Xətai anadilli ədəbiyyatın inkişafına şərait yaratmış, bu dildə yazan şairləri himayə etmişdir. Onun əsərləri bütün Şərq dünyasında geniş yayılmışdır. Onun yaratdığı şeir-sənət məclisləri uzun illər davam etmiş, nəsillərdən-nəsillərə ötürülmüşdür.

I Şah İsmayıl 1524-cü il mayın 23-də Şəki ərazisində qəflətən vəfat etmişdir.

I Şah İsmayılın vəfatından sonra onun 10 yaşlı oğlu I Təhmasib (1524-1576) şah elan olundu. I Təhmasib 18 yaşına çatana kimi dövləti Qızılbaş əmrləri idarə etmişdir. Özünü tam dərk etdikdən sonra I Təhmasib hakimiyyəti özü idarə etməyə başlayaraq, bir-birilə çəkişmələr aparan əmirləri hakimiyyətdən uzaqlaşdırdı.

I Təhmasibin şahlığı dövründə Osmanlı sultanı I Süleyman Qanuni (1520-1566) Azərbaycana dəfələrlə hücumlar təşkil etdi. Səfəvi ordusunun qətiyyəti nəticəsində 1555-ci ildə iki dövlət arasında Amasiya sülh müqaviləsi bağlandı.

I Təhmasib görkəmli dövlət xadimi, Şərqin qüdrətli şahlarından biri olmuşdur. O, ölkəni nəinki Osmanlı sultanlarının və Şeybanilərin təcavüzündən qorudu, daxildə asayiş və sabitlik yaratdı, hətta yeni ərazilər də fəth etdi.

I Təhmasibin vəfatından (1576) sonra hakimiyyət uğrunda onun oğlanları arasında qanlı mübarizə başladı. Məhəmməd Xudabəndənin (1578-1587) dövründə Səfəvi dövləti tam olaraq tənəzzülə uğradı, mərkəzi hakimiyyət zəiflədi. Bundan istifadə edən Osmanlılar və Şeybanilər Səfəvilər dövlətinin xeyli ərazisini ələ keçirtdilər. Ölkənin belə vəziyyətində qızılbaş əmirləri Məhəmməd Xudabəndənin oğlu I Şah Abbası (1587-1629) hakimiyyətə gətirdilər.

I Şah Abbasın dövründə Səfəvilər dövləti dirçəldi, mərkəzi hakimiyyət möhkəmləndirildi. İtirilmiş torpaqlar qaytarıldı. I Şah Abbas qətiyyətli, bacarıqlı dövlət başçısı kimi tarixə düşmüşdür. Lakin onun dövründə dahi babasının yaratdığı Azərbaycan Səfəvilər dövlətinin xüsusiyyətləri dəyişilməyə başladı. Belə ki, dövlətin paytaxtı Azərbaycan şəhərlərindən İsfahana köçürüldü, mərkəzin və əyalətlərin idarəçiliyində fars əsilli oturaq əyanların sayı sürətlə artdı. Bununla da Səfəvilər dövləti sistemində Azərbaycanın uzun bir dövr aparıcı mövqe və rolunu itirməsi ölkənin iqtisadi və mədəni həyatına ağır zərbə vurdu.

***İctimai quruluş.*** Səfəvilər dövlətində hakim feodal sinfi beş qrupdan ibarət idi: 1) Səfəvi şahları və sülalənin üzvləri; 2) Şah qvardiyasından olan qızılbaş tayfalarının hərbi əyanları; 3) İri torpaq sahələri və vəqf mülkiyyəti olan ali şiə ruhaniləri; 4) Mərkəzi və yerli bürokratiyanın yuxarı təbəqəsi; 5) Oturaq əyanlar.

Feodal nərdivanının ən yuxarı pilləsini təşkil edən Səfəvi şahları ən iri torpaq mülkiyyətçiləri idilər. Şah və onun sülaləsinin üzvləri ən məhsuldar və gəlirli torpaqların sahibləri olmaqla, Səfəvilərin əski zamanlardan Ərdəbildə və onun ətrafında iri torpaq mülklərinə malik olmuşdular. Əkinçilik və ticarətlə məşğul olan Səfəvi sülaləsi qədim oturaq feodal əyanlarına mənsub idilər.

Şah nəslindən sonra dövlətdə siyasi və hərbi hakimiyyətdə mühüm mövqeyi Azərbaycan qızılbaş tayfalarının əyanları tuturdu. İlk Səfəvilər dövlətində ordunun əsas hissəsini onlar təşkil edirdilər. Ordunun yüksək ali rütbələrinə onları təyin edirdilər. Bundan əlavə, əyanların yuxarı təbəqələri hakim sülalənin üzvləri və şahın özü ilə qohumluq münasibətlərində olurdular. Qızılbaş tayfaları və onların əyanları öz xidmətlərinə görə şahdan oturaq kəndlilərin sakin olduğu geniş torpaq sahələri alırdılar. Bu torpaqlara şah hökuməti dövlət mülkiyyəti kimi yanaşırdı. Qızılbaş tayfalarına əmirlər başçılıq edirdilər. Divan dəftərlərində 114 qızılbaş əmirin adı çəkilirdi. Bu əmirlər arasında böyük əmirlər **(ümərayi əzəm),** yüksək vəzifəli xanlar **(xəvanini vəlaməkan)**, kiçik **(xurud)** və böyük **(kəlan)** sultanlar fərqlənirdilər. Böyük əmirlər təbil, bayraq, qoşun və məiyyət sahibləri idilər.

Qızılbaş əmirlərinin tabeliyində olan vassallar və xidmətçilərin (mülazim) sayı barədə məlumat verən qaynaqlar göstərirdi ki, şah sarayında 6 min böyük

yüzbaşı (yüzbaşıyan-i əzəm), vəzifəli şəxs, qurçi və s. müalizman vardı. Onların arasında seçmə **yasavullar** və **qurçilər**, eşikağaları, cəbbəxana və divan yasavulbaşçıları (yasavulbayişan-i kur və divan), **mirşikarlar** və **topçubaşılar** var idi. Bundan başqa hər bir tayfa və zümrənin içərisində əmirlik dərəcəsinə yaxınlaşan şəxslər var idi.

Feodallar sinfinin üçüncü qrupunu təşkil edən ali müsəlman şiə ruhanilərin də dövlətdə mövqeləri möhkəm idi. Buraya şeyxülislamlar, qazilər, cümə məscidlərinin imamları, vaiz və s. daxil idilər. Şiə ruhanilərin başçısı – **sədr** dövlətdə şahdan sonra ikinci şəxs sayılırdı. O, şahın şəriət işləri müavini **(navvab)** olaraq ictimai-siyasi həyatda əhəmiyyətli rol oynayırdı.

Hakim feodal sinfinin dördüncü qrupunu mərkəzi və yerli dövlət aparatının nümayəndələri təşkil edirdi. Hərbi rəislər (şah qulamları) arasında təyin edilən mülki bürokratik aparat dövlət siyasətinin həyata keçirilməsində həlledici rol oynayırdı. Mülki aparatda maliyyə idarəsi və maliyyə işçiləri mühüm əhəmiyyət kəsb edirdi.

Feodal sinfi beşinci qrupunu təşkil edən oturaq əyanlar sırasında məliklər fərqlənirdilər. Səfəvilər dövründə məlik sözü iki mənada işlədilirdi: birincisi əski zamanlardan torpaq mülkiyyəti olan məliklər, ikincisi isə kənd icmalarının başçıları olan məliklər. Lakin belə məliklər o zaman mülklərini saxlaya bilirdilər ki, onlara aid mülkiyyət hüququ şah tərəfindən təsdiq edilsin.

Səfəvilər dövlətində demək olar ki, o dövrə qədər formalaşmış torpaq mülkiyyəti kiçik dəyişikliklərlə olduğu kimi qalmaqda idi: 1) dövlət xəzinəsinə malik torpaqlar (əraziyi divani); 2) Şah və onun sülaləsinə məxsus mülklər (əraziyi xassə); 3) hərbi və ya mülki xidmət müqabilində verilən torpaqlar (soyurqal, tiyul); 4) xüsusi mülkiyyətdə olan torpaqlar (mülklər); 5) dini idarələrin mülkiyyəti (vəqf torpaqları); 6)kənd icmalarının mülkiyyətində olan torpaqlar (camaatideh).

Səfəvilər dövləti mərkəzləşmiş feodal dövləti olduğundan onun dövlət torpaq mülkiyyəti fondu xeyli böyük idi. Şirvan və Şəki torpaqları da dövlətin mülkiyyətinə qatılmışdı. Xəzinə torpaqlarından gələn gəlir dövlət xərclərinin ödənilməsinə sərf edilirdi. Xassə torpaqlarından şəxsən şahın adına olan

mülkiyyətin gəliri də xəzinəyə daxil olurdu və şahın sərəncamı ilə sülalənin üzvlərinə verilirdi. Şah ölkənin ən münbit torpaqlarını divan və xassə mülkiyyətinə qatmışdı. Üçüncü kateqoriyaya daxil olan torpaqlar dövlət fondundan hərbi və mülki bürokratiya üçün ayrılırdı. Torpaq sahiblərinə mülkiyyət hüququ müvəqqəti, həmişəlik və vərəsəlik əsasında verilirdi. Şəraitdən asılı olaraq belə torpaqlar soyurqal, tiyul və bəzən də iqta adlanırdı.

İlk Səfəvilər dövründə şərti torpaq mülkiyyətinin daha bir formasının – **tiyulun** meydana gəlməsi və XVI-XVII əsrlərdə geniş yayılması feodal torpaq sahibliynin inkişafında əhəmiyyətli rol oynayırdı. Soyurqal Azərbaycanda XV əsrdə mövcud olduğu şəkildə irsi mülk sayılırdı və vergi, inzibati-məhkəmə toxunulmazlığını nəzərdə tuturdu. Yeni yaradılmış tiyul torpaq sahibliyi isə soyurqalı əvəz etməklə mərkəzləşdirmə siyasətinin mənafeyinə xidmət edirdi.

Tiyulun ilkin iqtaya da uyğunluğu bildirilirdi. Belə ki, Səfəvilər dövründə tiyulun inkişafı onların dövlət torpaq sahiblərinə və bu torpaqlarda işləyən kəndlilərin dövlət aparatının köməyi ilə istismar olunması sisteminə yardım etmək siyasəti ilə bağlı idi. Bu sistem yeni idarəetmə sistemi əsasında qurulsa da, əvvəlki əsrlərdə mövcud olmuş iqta torpaq sahibliyinin ilkin inkişaf pilləsinə yaxın idi. Tiyul sahibi (tiyuldar) ilk dövrlərdə idarəetmə işinə qarışmayıb torpaqdan alınan vergilərin hesabına yaşayıb, dövlət siyasətinə uyğun hərəkət edirdisə, sonralar tiyuldar mərkəzləşmə siyasətini heç də həmişə aparmırdı. Belə ki, Azərbaycanın cənub hissəsinin əmir əl-ümərası Şah I Təhmasibə xəyanət etdi və tayfanın böyük hissəsi ilə birlikdə türk sultanına xidmət etməyə başladı. Lakin peşman olub şahın yanına qayıdan Qazi xan başda olmaqla təkəli tayfası xeyirxahlıqla qarşılandı və I Təhmasib Salyan və Mahmudabadı tiyul kimi Qazi xana bağışladı.

Səfəvilər dövlətində bəylərbəylik inzibati ərazi quruluşu yarandıqdan sonra bəylərbəylərə də geniş səlahiyyət verilmişdi. Belə ki, bəylərbəylər hətta tiyul bağışlamaq səlahiyyətinə malik idilər ki, bu da son olaraq mərkəzləşdirmə siyasətinə mənfi təsir göstərirdi. Şirvan bəylərbəyi Xosrov xanın hökmü ilə Kiş, Nuxu və Şəkərənd kəndləri tiyul torpaq sahibliyi kimi Şəki mahalının məliyinə verilirdi.

Tiyulların bölüşdürülməsi çox vaxt yeni şah taxta çıxdıqdan sonra dövlət vəzifələrinə yeni təyinatlarla eyni vaxtda aparılırdı. Bəzən tiyuldarlar öz tiyullarının bir daha şah tərəfindən təsdiq edilməsinə çalışırdılar.

XVI əsrin ortalarından başlayaraq tiyul paylanması o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Belə ki, böyük tiyullarla yanaşı, kiçik bir kəndin də tiyula verilməsi bəxşiş hüququna verilməsi kimi idi. Həm də yeni bağışlamalar həmin ərazidən yığılan vergi məbləğinin müvəqqəti mənimsənilməsini bildirirdi.

Torpaq sahibliyi və mülkiyyət əsasında formalaşmış mülk (mülk hüququ), daşınmaz əmlaklar üzərində, məsələn, bağlar, üzümlüklər, həyatyanı sahələr, dəyirmanlar, suvarma kanalları və s. üzərində sahibliyi bildirirdi. Bu mülkiyyət sahibləri mülkdən istifadəyə görə dövlət xidmətində olmağa məcbur edilə bilməzdilər. Mülk sahibinə (malik və yaxud mülkədara) əmlakdan istifadəyə görə kəndlilər tərəfindən renta ödənilirdi. Tiyul və soyurqaldan fərqli olaraq mülk əmlakı sərbəst satıla, bağışlana və başqasına varislik əsasında verilə bilərdi. Mülkədar torpaqlarından yığılan məhsulun renta vergisi 10 faizdən 20 faizə qədər təşkil edirdi. Mülk, qeyd edildiyi kimi, torpaq deyil suvarma sistemləri də ola bilərdi. Fiziki şəxs feodal tərəfindən çəkilmiş kanaldan istifadəyə görə mülk sahibinə mülkiyyətdən istifadəyə görə renta verməli idi.

Səfəvilər dövlətində **vəqf torpaq** sahibliyi və **vəqf mülkiyyəti** çox geniş yayılmış feodal-ruhani mülkiyyəti forması idi. Səfəvilər sülaləsi hakimiyyətə gəlməmişdən əvvəl onların Ərdəbil, Marağa, Muğan və Talış ərazilərində iri vəqf mülkləri mövcud olmuşdur. Əmir Teymur vəfat etməmişdən əvvəl Səfəvilər nəslinə vəqf olaraq müəyyən əmlak və torpaq vəsiyyət etmişdi. Vəqf təsisatı Səfəvilər hakimiyyətə gəldikdən sonra xüsusi olaraq geniş yayıldı. Şiəliyi dövlət dini elan edən Səfəvilər sülaləsindən olan şahlar onun hər yerdə genişləndirilməsində maraqlı idilər. Buna görə də Səfəvilər ruhaniləri öz tərəflərinə çəkməyi zəruri sayır, şiə müəssisələrinin rifahına yardım göstərir, onlara əməli olaraq ruhanilərin sərəncam verdikləri vəqflər bağışlayırdılar.

Vəqflər, adətən, vergi və inzibati toxunulmazlıq hüququndan istifadə edir, çox nadir hallarda müsadirəyə məruz qalırdılar. Bəzən feodallar bu yolla öz

mülkiyyətlərini şiə ruhanilərinin etibarlı mühafizəsi altına keçirir və öz soyadının ardınca mütəvəlli (7 vəqf işləri müdiri) vəzifəsini yazdırmaqla xəzinəyə ödəyəcəyi vergilərdən yayınırdılar.

XVI əsrdə vəqfin **sünnəti** və **vacibi** növləri var idi. "Sünnəti" vəqflərinin himayəçisi şahın özü idi və vəqfin gəlirləri onun göstərişi ilə xərclənirdi. Bu zaman o, hamı tərəfindən qəbul olunmuş normaları rəhbər tuturdu, çünki bu vəqfləri vəsiyyət edənlər "bir qayda olaraq, daxil olan gəlirlərin konkret olaraq haraya xərclənməsini göstərmirdilər. əldə olunan gəlirlərin konkret olaraq haraya və vəsiyyət edənlərin tələbinə uyğun olaraq xərcləndiyi vəqflər isə "vacibi" adlanırdı.

Vəqfə əmlak verilməsi nəinki müsəlmanın öz əmlakından başqalarına yardım etməklə savaba çatmasıdır, həm də vəfat etdikdən sonra da özünün yaşaması, yaxşı əməllərinin davam etməsidir. Vəqfə verilmiş əmlakı satmaq, bağışlamaq, dəyişdirmək olmaz. Vəqf əmlakı məscidlərə, mədrəsələrə, üləmalara, yoxsullara və digər zəruri ehtiyacı olan müsəlmanlara sərf olunmalıdır. Vəqfdən zimmilərin istifadə etmələrinə yol verilə bilərdi.

Vəqfə verilmiş əmlak mülkiyyətçinin sərəncamından çıxdığına görə vəqf əmlakı gələcəkdə onun özü üçün sərf olunmasını şərtləndirməyə yol verilmir.

Kənd icmasının – camaatın istifadə etdiyi torpaq **camaat torpağı** adlanırdı. İcmanın başçısı ağsaqqal hesab olunurdu.

O, vergiləri bölüşdürür, toplayır, əvəzində məhsulun müəyyən hissəsini alırdı. İcmada əkinçiliklə yanaşı, sənətkarlıq da müəyyən yer tuturdu. XVI əsrdə natural təsərrüfatın hökm sürdüyü şəraitdə icma kəndlilərin ehtiyaclarını pulsuz ödəmək üçün sənətkarları icma kollektivi hesabına saxlayırdı. İcma kənd təsərrüfatında əmək alətlərinin geriliyinə səbəb olur, daha da mütərəqqi ictimai münasibətlərin inkişafına əngəl törədirdi.

XVI-XVII əsrlərdə Azərbaycan əhalisinin əsas məşğuliyyəti, feodallardan və digər torpaq mülkiyyətçilərindən ağır şərtlərlə icarəyə götürdükləri torpaqlarda yaşayıb onu becərmək idi. Yalnız torpaqlar deyil, suvarma kanalları və su ehtiyatları da feodalların mülkiyyəti sayılırdı.

Kəndlilərin bir neçə kateqoriyası mövcud idi. Birinci kateqoriyaya varlı kəndliləri aid etmək olar. Əvvəllər icma üzvləri olan bu təbəqə tədricən varlanaraq kiçik torpaq mülkiyyətçisinə çevrilmişdi. Həmçinin, kəndlə şəhər arasında kənd təsərrüfatı məhsulları ilə ticarət edən, sələmçiliklə məşğul olan, kənddə kiçik inzibati vəzifələr tutan və öz həmkəndlilərini istismar edən kəndliləri bu kateqoriyaya daxil etmək olar.

Kəndlilərin ikinci kateqoriyasını icma üzvü olan azad kəndlilər təşkil edirdi. İri feodallardan asılı olan azad kəndlilər torpaq rentası və xəzinəyə vergj ödəyirdilər. Lakin birinci və ikinci kateqoriyaya aid kəndlilərin sayı Səfəvilər dövründə xeyli azalmışdı.

Kənd əhalisinin əsas hissəsini isə yarıdar kəndlilər təşkil edirdi. Onlar feodal torpaqlarında çoxsaylı mükəlləfiyyətlər yerinə yetirirdilər. Yarıdarlar kateqoriyası aztorpaqlı və torpaqsız kəndlilərdən ibarət idi. XVI-XVII əsrlərdə bu kateqoriyadan olan kəndlilər "rəiyyət" adlanırdılar.

Yarıdar kəndlilər öz növbəsində müxtəlif təbəqələrə ayrılırdılar. Əkinçilik texnikası və iş heyvanları olan və özünəməxsus əmək alətləri ilə feodalın verdiyi torpaq payını əkib-becərən kəndlilər hampa adlanırdı. Hampanın ən azı cüt adlanan iki öküzə və avadanlığa malik olması vacib idi. Cütlərinin sayından asılı olaraq hampalar böyük və kiçik təbəqələrə ayrılırdılar.

Yarıdar kəndlilərin ikinci kateqoriyasını əmək alətləri olmayan və yalnız feodalın verdiyi avadanlıqla torpağı becərən, əvəzində isə cüzi miqdarda məhsul payı olan kəndliləri rəncbərlər adlandırırdılar.

Yoxsul kəndlilərin digər kateqoriyasını (qarovulçular, çobanlar, bağbanlar, qulluqçular) yardımçı kənd təsərrüfatı işləri ilə məşğul olan və qara, bekar, qərib, xoşnişin adlanan kəndlilər təşkil edirdi. Bəzən ümumi əkər adı ilə tanınan bu kateqoriyadan olan yoxsullar məhsulun yalnız 30 faizini ala bilərdilər.

Səfəvilər dövründə kəndlilərin torpağa təhkim edilməsi barədə qaynaqlarda yalnız bir sənəd mövcuddur. 1612-ci ildə I Şah Abbasın ramazan ayında (7 noyabr-7 dekabr) verdiyi fərmanda qeyd edilirdi ki, bundan sonra kəndlilər 12 il müddətində torpağa təhkim edilə bilərlər.

Azərbaycanda kənd əhalisinin daha bir kateqoriyasını yarımköçəri həyat keçirən maldar elatlar təşkil edirdilər. Elatlar şah ordusuna hərbi xidmətə çağırılırdılar. Hərbi yürüşlər zamanı isə hər bir elat tayfası müəyyən edilmiş sayda qüvvələr çıxarmalı idi. Lakin oturaq əhaliyə nisbətən elatdan vergi və mükəlləfiyyətlər çox az miqdarda alınırdı.

Səfəvilər dövründə müsəlman şiə ruhaniləri xüsusi ictimai təbəqə təşkil edirdilər. İctimai-iqtisadi vəziyyətinə görə şiə ruhaniləri iki kateqoriyaya bölünürdü: **1) ali dərəcəli ruhanilər; 2) aşağı təbəqəyə məxsus din xadimləri.** Ali təbəqəyə mənsub olan müsəlman şiə ruhaniləri Səfəvi dövlətinin əsas dini istinadgahı olmaqla yanaşı, həmin dövlətə arxalanırdılar. Səfəvi şahları həm din, həm də dövlət başçıları olduğundan, onlar ali təbəqəyə mənsub olan şiə ruhanilərini maddi və mənəvi cəhətdən müdafiə edirdilər. Seyid nəslindən olanlar şəhərdə yaşayır, çoxlu var-dövlətə, əmlaka malik olmaqla, bütün vergi və mükəlləfiyyətlərdən azad idilər. Seyidlərin yuxarı təbəqəsinin nümayəndələri yüksək vəzifələr tuturdular. Ali ruhanilər vergilərdən azad olmaqla yanaşı, vəqf əmlakına mütəvəlli təyin edirdilər və seyidlərə mülkiyyət bağışlanırdı.

Mütəvəlli vəqf əmlakından gələn mədaxili toplayır və onun xərclənməsinə şəxsən nəzarət edirdi. Bir çox mahallarda mütəvəlli eyni vaxtda həm də şəhərin kələntəri vəzifəsini aparırdı.

Şiə ruhanilərinin aşağı təbəqəsinə dərvişlər, rovzəxanlar, azançılar, hafizlər (Quranı əzbərdən oxuyanlar), seyidlərin aşağı təbəqəsi, dəfn mərasimini keçirən mollalar daxil idilər.

***XVI-XVII əsrlərdə sənətkar təşkilatları.*** Səfəvilərin hakimiyyəti dövründə sənətkarlıq daha da inkişaf etmiş, monqolların dövründə sənətkarlıqda tətbiq edilən qul əməyi aradan qalxmış, azad sənətkarların rolu daha da artmışdı. Ayrı-ayrı sənət növləri sahəsində müəyyən texniki inkişaf az da olsa, nəzərə çarpırdı. Bir sıra yeni sənət növləri, o cümlədən, tüfəngqayırma sənəti meydana gəlir, topqayırma sahəsində texnologiya təkmilləşir. Fərdi işləyən ustalarla yanaşı emalatxanalarda kollektiv işləyən sənətkarların sayı artırdı. Sənətkarlıq məhsullarının keyfiyyətində də müsbət dəyişiklik əmələ gəlmişdi.

Sənətkarların öz sənət və peşəsinə uyğun ayrıca təşkilatları var idi. Onlar öz aralarından inanılmış və mötəbər bir adamı təyin edirdilər. Hər hansı bir sənət sahəsinə şah tərəfindən təyin olunmuş xüsusi rəis başçılıq edirdi. Sənətkarlıq təşkilatının rəisi hər ilin ilk üç ayının əvvəlində nəqibin yanına gedir, başçılıq etdiyi sənətkarların boniçəsinin (vergilərinin) miqdarını müəyyənləşdirirdi. Möhtəsib isə hər ay bir sinfin ağsaqqalı ilə birlikdə satılmalı malların qiymətini qanun əsasında müəyyənləşdirir, ondan bu barədə yazılı intizam alırdı.

Sənətkarlar təşkilatı başçısı dövlət və ya şəhər inzibati və mülki işçiləri ilə sənətkarlar arasında vasitəçi rolu oynayırdı. Saray sənətkarları birləşmələrinin başçıları isə bilavasitə şah tərəfindən təyin olunub, məvacibi dövlətdən alırdılar. Azad sənətkarlar təşkilatı başçısı təyin olunduğu sənətkarların mənafeyini müdafiə etməyə borclu olduğu halda, əksinə, saray sənətkarı birləşmələri başçıları əlləri altında işləyən sənətkarları amansızcasına istismar edirdilər.

Sənətkarlar sənət növü və ərazi prinsipinə uyğun olaraq birləşirdilər. Bu birləşmə öz hüquqları uğrunda mübarizə aparmaqda sənətkarlara şərait yaradırdısa, digər tərəfdən, dövlət üçün də əhəmiyyətli idi. Belə ki, dövlət təcili xəbərləri carçıları vasitəsilə sənətkarlara vaxtında çatdıra bilərdi; hər ilin ilk üç ayı ərzində ayrı-ayrı sənətkarlar üzərində qoyulacaq verginin miqdarının müəyyənləşdirilməsini və həmin vergilərin vaxtında toplanmasını asanlaşdırır və sürətləndirirdi; sənətkarlıq məhsullarına dövlət tərəfindən qiymət qoyulması və onun müəyyən edilmiş qiymət əsasında satılmasına nəzarəti asanlaşdırırdı; bayram günlərində müəyyən şənliklər zamanı sənətkarların bir yerə toplanmasını asanlaşdırırdı.

Sənətkarlıq təşkilatlarının yazılı nizamnaməsi olmamışdır. Bu təşkilatlar işlərini, adətən, müxtəlif dini adətlər və şəriət əsasında tənzimləyirdilər. Təcrübəli ağsaqqal ustalar təşkilatlara rəhbərlik edirdilər. Sənətkarlıq təşkilatı şurası sənətkarlıq təşkilatının daxili işlərinin həllində mühüm rol oynayırdılar. Vergini təyin etmək, vaxtında toplamaq, usta ilə şagird və ya ayrı-ayrı sənətkarlar arasında baş verən ixtilafları həll etmək sənətkarlıq təşkilatı şurasının öhdəsində idi. Sənətkarlıq təşkilatı rəisi şeyx və ya məlik adlanırdı. Peşələr üzrə də kiçik

təşkilatlar mövcud idi. Məsələn, musiqi aləti hazırlayan sənətkarların, çörəkçilərin və s. peşə sahiblərinin təşkilatı olmuşdur.

Müəyyən sənəti öyrənmək məqsədilə usta yanına şagird qoyduqda ilk günlərdə ona müəyyən qədər muzd verirdilər. Usta ilə şagird arasında razılaşmaya əsasən gündəlik işin həcmi, şagirdin yaşı, onun sənətə yiyələnmək dərəcəsi və qabiliyyətini nəzərə alaraq ona müəyyən məbləğdə pul verilirdi. Lakin bu razılığın müddəti göstərilmirdi. Usta istədiyi vaxt şagirdi qova bilər, şagird də istədiyi vaxt ustanın yanından gedə bilərdi. Usta sənətin incəliklərini şagirdə öyrətməklə yanaşı, onu daha artıq istismar etməyə, işlətməyə cəhd göstərirdi.

Sənətkarlar özləri də dörd kateqoriyaya bölünürdü. Hər kateqoriyadan olan sənətkarlar iqtisadi və ictimai vəziyyətlərinə görə bir-birindən xeyli fərqlənirdilər. Birinci kateqoriyaya daxil olan sənətkarlar tək və ya bir nəfər şagirdi ilə işləyən, emalatxana, yaxud dükan açmağa imkanı olmayanlar idilər. Bunlar əksəriyyət təşkil edirdilər. Bu kimi azad sənətkarlar çox vaxt öz oğlanlarından və ya yaxın qohumlardan birini şagird işlətməklə dolandırırdılar. Onların çoxu səyyar sənətkar idi. İkinci kateqoriyaya daxil sənətkarlar xırdı dükanları və emalatxanaları olanlar idilər. Bunlar əsnaf adlanan sənətkarlıq təşkilatına daxil idilər. Üçüncü kateqoriyaya daxil olanlar iri emalatxanalara (xüsusi, şah və ya iri feodalların emalatxanası) malik olub, özü işləmədiyi halda bir neçə usta və şagirdi işlədən sənətkarlar idilər. Dördüncü kateqoriyanı qeyri-azad sənətkarlar təşkil edirdi. Onlar dövlət karxanalarında işləyir və istehsal etdikləri malları şah və ya onun məmurlarına təhvil verirdilər.

XVI-XVII əsrlərdə ictimai vəziyyətinə görə iri və xırda tacirlər xüsusi zümrə təşkil edirdilər. İri tacirlər şəhərin daxili və xarici ticarətini öz əllərində cəmləşdirmişdilər. Tacirlər “çələbi” və ya “xacə” ləqəbi daşıyırdılar. İri tacirlərin başçısı məlik-üt-tüccar (tacirlərin başçısı) adlanırdı. Məlik-üt-tüccar həm də şahın ticarət işlərinin məsləhətçisi idi. Tacirlər dövlət xəzinəsinə çoxlu gəlir verirdilər. İri tacirlər ticarətdən vergiləri iltizamçı kimi icarəyə götürmək, sələmə pul vermək, ucuz alıb baha satmaq yolu ilə çoxlu var-dövlət qazanırdılar.

***Vergilər.*** XVI-XVII əsrlərdə vergi verən əhali ağır feodal istismarına məruz qalırdı. Vergi və mükəlləfiyyətlərin sayı 50-ə çatırdı. Feodallar vergiləri məhsulla almaqla kifayətlənməyib pulla da ödənilməsini tələb edirdilər. Vergi və mükəlləfiyyətlər birlikdə qarışıq xarakter daşıyan feodal rentasını təşkil edirdi. Üstünlük təşkil edən isə məhsul rentası idi.

Səfəvilər dövlətində alınan vergilərə dair I Şah İsmayılın Dizmar (Qaradağ, Cənubi Azərbaycan) vilayətində ruhanilərin vergilərdən azad edilməsi haqda hökmündə əhəmiyyətli məlumatlar vardır. 1502-ci ilin yanvar ayında verilmiş fərmanda vilayətin divan işlərinin vəzifəli şəxsləri olan əmirlər, hakimlər, darğalar, amitllər və mübaşirlərinə hökm edilirdi ki, ruhanilərin (seyidlərin) bir qrupu bütünlüklə vergilərdən azad edilir. Hökmə müvafiq surətdə rəftar edərək malucəhat, ixracat, xariciyyət, hökmlü və hökmsüz əvarizat adı ilə ələfə, ulufə, qonılqa, ilağ, ulam, bikar, şikar, tərh, dəstəndaz, eydi, novruzi, zərrareyi pişkəş, savari, çerik, ona yarım, məlikanə, mühəssilanə, yüzə dörd, sədrlik haqqı, vəzirlik haqqı, amillərin çalışma haqqı, darğalıq haqları, yetişdirilmiş məhsulun qiymətini müəyyənləşdirmək və torpaq sahəsini müəyyən etmək haqqı, verilmiş vədi yerinə yetirmək haqqı, qala və keişkcixana ixracatı, yüzə bir, yüzə iki və maluxaricə aid oluna biləsi digər divan mükəlləfiyyətləri, şahlıq tələbatından hər hansı ad və qayda ilə olursa-olsun əziyyət verməsinlər (xalqa) və təcavüz etməsinlər. İstər azacıq, istərsə də çoxlu tamah və təvəqqe etməsinlər. Hökmü dəyişmək və əvəz etmək niyyətindən mühafizə olunan və qorunan hesab etsinlər.

Ümumiyyətlə, Səfəvilər dövründə verilmiş fərmanlarda adı göstərilən vergi və mükəlləfiyyətlərdən başqa, şübhəsiz ki, bizə məlum olmayan sənəd və normativ mənbələrdə olan vergi və mükəlləfiyyətlər hesabına siyahı xeyli genişlənə bilər. Belə ki, Səfəvilər dövründə hər evdən beşdə bir icarə haqqı adlanan vergi alınırdı. Xristianlar isə xane-somari adı altında hər evdən 5-8 dukat pul verməli idilər. 40 baş qoyunu olan adamdan 15 bisti, hər baş öküz üçün ildə 2 dukat vergi alınırdı. Bağların suvarılması üçün 9 abbası, bazarda bir at və ya qatır satıldıqda yarım abbası vergi alınırdı. 15 yaşına çatmış qeyri-müsəlmanlar səranə olaraq hər biri 7 livr, 20 yaşına çatmış cavanlar isə 15 livr verməli idi. Mal-qara başı kəsildikdə hər

baş heyvan üçün 2 sel, 6 deynə, hər bir 100 batmanlıq ticarət yükündən 15 denyə vergi alınırdı. Gömrük məmurları ticarət mallarını açıb yoxlamadan hər yük üçün 5 sel alırdılar. Bazarda satılan hər bir qoyun üçün bir kazbeki alınırdı. Hamam işçilərindən dəllək, güzgü tutan, hacəmət salan, xətənə edən, paltar saxlayan, kisə çəkən, su tökən və digər xidmətçilərdən ələfə, ülufə, qonalğa, alam, biyar, şikari, tərh, dəstəndaz, pişkeş, salamı, eydi, novruzi, tüfəngçi pulu, quş pulu alınırdı. Həmin vergilər I Şah Abbasın hakimiyyətinin sonuna qədər davam etmişdir. Yalnız 1629-cu ilin avqust ayında I Şah Abbasın fərmanı ilə bəzi vergilər ləğv olundu.

Səfəvilər dövlətinin ilk paytaxtı Təbriz şəhərinin iqtisadi inkişafı yarımaqrar xarakter daşıyırdı. Orada sənətkarlıq və ticarətlə yanaşı kənd təsərrüfatı məhsulları də becərilirdi. Təbriz şəhərinə aid vergi və mükəlləfiyyətlər əsasən aşağıdakılardan ibarət idi: 1)tamğa; 2) bac; 3) boniçə; 4) təyin; 5) rəsmemohdes; 6) rəsme-daruçəki; 7) rəme-kələntəri; 8) təfavüt; 9) rəsme-ərusi; 10) rəsme-nigah; 11) rəsme-şəhnəgi; 12) rəsme-sədarə; 13) rəsme-möhtəsib; 14) rəsme-əsasiyyə; 15) qapıçılıq; 16) bigari; 17) şikari; 18) ələfə; 19) ülufə; 20) ulam; 21) ixracat; 22) siyursat; 23) çərik; 24) həvai; 25) qəlan; 26) qonalğa; 27) ulağ; 28) xanəşomari; 29) sərşomari; 30) səvarü; 31) pişkeş; 32) eydi; 33) novruzi; 34) male bağ; 35)rəsme-qapan; 36) rəsme-dəllaliyyə; 37) irtifai; 38) üşr; 39) salami; 40) tüfəngçi pulu; 41) çobanbəyi. Bunlardan əlavə, qumarxanalardan içki hazırlanan və satılan yerlərdən, musiqiçi və rəqqasələrdən, xoruz döyüşdürən və quşbazlardan, sallaqxanalardan müəyyən miqdar vergi alınırdı ki, Təbrizdə 1534-1535-ci illərdə bu verginin ümumi məbləği on iki min tümənə çatırdı.

Torpaq və gəlir vergisi olan **malcəhət** natura ilə ödənilirdi. Malcəhət ümumi verginin natura ilə üçdə biri və ya beşdə biri həcmində ödənilirdi. Malcəhət torpaq sahibilə (mülkədar) və dövlət arasında bölünürdü. Adətən, mülkədara məhsulun onda biri, bəzən 4/30, dövlətə isə 2/10 və yaxud 6/30 çatırdı. Xərac və bəhrə vergisi də çox vaxt malcəhətlə eyniləşdirilirdi.

**Bağbaşı** vergisi, bag sahiblərindən məhsulun onda biri həcmində alınırdı. Bəzi mənbələrə görə vergi ağacların sayına, növünə və becərilmə şəraitindən asılı

olaraq təyin edilirdi. Məsələn, üzüm tənəklərindən suvarılan sahələrdən 6 dinar, suvarılmayan sahələrdən isə 5 dinar alınırdı. Alma, armud, ərik və bu növ ağaclardan 30 dinar vergi tutulurdu.

**Çobanbəyi** vergisi örüşdə heyvanları otarmaq üçün alınırdı. Elxanilər dövründə otlaqlardan istifadəyə görə alınan vergi qopçur, Ağqoyunluların hakimiyyəti zamanı məvaiş və mərai (“otlaq və dördayaqlı”), Azərbaycan xanlıqları dövründə isə çöpbaşı adlanırdı.

**Dəhyek** (onda bir) vergisi Azərbaycanda və qonşu ölkələrdə geniş yayılmışdı. Ərəblər dövründə müsəlmanların mülkiyyətindən üşr vergisinə bərabər idi. Dəhyek iri feodalların torpaqlarından alınırdı. Mülkiyyətçi onda bir vergini dövlətə ödəməklə, özü kəndlilərdən daha yüksək vergi toplayırdı.

**Cüftbaşı** – torpağı əkib becərmək üçün bir cüt qoşqu vasitəsi olanlardan alınırdı. Kənd təsərrüfatı işlərində istifalə edilən, iş heyvanları (öküz, at və s.) sahibləri cütlərin sayına uyğun olaraq vergi ödəməli idilər.

**Dəzgahbaşı** – hər bir toxucu dəzgahı üçün alınırdı. Yalnız əkinçilik və maldarlıqla deyil, həmçinin sənətkarlıq peşələri ilə - darama, toxuma, çarıq materialı biçimi və s. ilə məşğul olan kəndlilərdən alınırdı. Dəzgahbaşı bu baxımdan kustar sənət peşələrindən toplanan vergi idi.

**İxracat** – XVI əsrdə ümumi və müxtəlif vergi mükəlləfiyyətlərin cəmi mənasında işlənirdi. Dövlət canişinlərinin, hərbi xidmətdə olanların və məmurların tələbatını ödəmək üçün toplanırdı.

**Alafa və ulafa** – adətən, hər iki vergi bir yerdə alınırdı. Alafa yük heyvanları və atlar üçün alınırdı. Ulafa bir nəfər üçün alınan ərzaq vergisi idi. Sonralar Azərbaycanda “alafa” vergisi “at arpası” adlanırdı.

**Konalqa** – məmurlara kəndlinin evində düşərgə salmaq hüququ verirdi. Kəndli məmuru, onu müşayiət edənləri yedirtməli, yataqla təmin etməli və atlarını yemləməli idi. Konalqa o dövrün ən ağır mükəlləfiyyətlərindən idi.

**Təyin** – şəhər və kəndlərdən xarici dövlətlərin səfirlərinə və qonaqlara xidmət göstərmək məqsədilə pulla alınan vergi idi. Xüsusi qasid vasitəsilə ölkənin

mehmandarı qonaqların növbəti dayanacaq yerinə xəbər göndərirdi. Məhz həmin şəhər və yaxud kənd təyin olunmuş yer kimi vergi ödəməli idilər.

**Ulaq** ya **ulam** – hər iki mükəlləfiyyət çapar xidməti ilə bağlıdır. Kəndli şah qasidlərinin ixtiyarına minik, yük, qoşqu atları verirdi. Ulam mükəlləfiyyəti də dövlət poçt xidmətilə əlaqədar idi.

**Əvariz** – daimi olmayan vergi idi. Əvariz feodal və ya hakimiyyət orqanlarına natura, pul və məcburi əmək fəaliyyəti ilə ödənilən vergi idi. Əvariz və ya ixracat adlanan bu vergi özündə bir çox töycü və mükəlləfiyyətləri: alafa, ulafa, konalqa, biyar, ulaq, peşkəş, dast, salami, şiltaqat və başqa vergiləri birləşdirirdi. Vergi və mükəlləfiyyətlərin iki qrupunun birləşdirilməsi, daimi reyestrə daxil edilən, daimi olmayan, fövqəladə və ya rəsmi qeydiyyatda olan töycülərin alınması orta əsrlər feodal dövlətlərinin xarakterik cəhətlərindən biridir.

**Rüsum** – rəiyyətlərdən dövlət məmurları və ruhanilərin xeyrinə çox vaxt natura ilə alınan vergi idi. Buraya rəsm-ül-vəzir (vəzir üçün alınan vergi), rəsm-ül-sədr (sədr üçün alınan vergi), rəsmül-nəzirə (nəzir üçün toplanan vergi), rəsm-ül-məsafə (torpaqları ölçənin xeyrinə toplanan vergi) və başqa vergilər daxil idi.

XVII əsrdə rüsum toplanması çox geniş yayılır. Rüsumlar dövlət bürokartik aparatı məmurlarının təmin edilməsi üçün əsas gəlir mənbəyinə çevrilir. Hətta xidmət müqabilində hərbçilərə verilmiş torpaqlar üçün dövlət məmurlarına rüsum ödənilmədikdə onlara pay ayrılmırdı.

**Səvari -** əhalinin hakim sülalənin üzvlərinə, sərkərdəyə, yeni fəth edilmiş yerlərə gələn tanınmış adamlara hədiyyə idi.

**Tərh** – dövlətə və feodala məxsus olan malın bazar qiymətindən yuxarı zorla kəndliyə satılması və yaxud dövlətə və feodala lazım olan malın bazar qiymətindən aşağı qiymətlə alınması idi.

**Dəstəndaz** – dövlət icraedici şəxslərinə aşağı dərəcəsinə xidmətinə görə verilirdi.

**Başpulu** – yetkinlik yaşına çatmış vergi verən kişilərdən alınırdı. Azərbaycan xanlıqları dövründə də əhalidən bu vergi toplanırdı.

XVI-XVII əsrlərdə yazılı mənbələrdə ilk dəfə qeyd edilən vergilərə də rast gəlinir. “Rəsmi müxdisə”nin (ixdasa) I Şah İsmayılın 1503-cü ilə aid fərmanında adı çəkilir. Bu terminə (vergiyə) şah Məhəmməd Xudabəndənin 1581-ci il tarixli toxunulmazlıq fərmanında da rast gəlinir. Ağqoyunlu Əlvənd Mirzənin də fərmanında ixdas vergisi işlənir. Bəzən bu termin “polis zabiti” kimi mənalandırılır.

Şəriətə görə adam öldürmək, göz çıxarmaq, baş yarmaq, namusa toxunmaq cinayətin dörd əsas növü hesab olunurdu. Ona “ehdase ərbəə” (dörd hadisə) deyilirdi. Rəmse-mohdes və ya ehdas əsasən göstərilən dörd cinayət növündən biri törəndikdə cinayətkardan alınırdı. Sonra bu vergi qanunla qadağan olunmuş bir sıra hərəkətləri edən (oğurluq, sərxoşluq, qumarbazlıq, musiqi çalmaq, quşbazlıq, xoruz və camış döyüşdürmək və s.) şəxslərdən də alınırdı.

**Rəsm əl-möhür** – (möhür haqqı”) I Şah Təhmasibin tarixi göstərilməyən fərmanında verilmişdir. Bu adla rəiyyətdən möhür vurulması ilə bağlı olan sənədlərin rəsmiləşdirilməsi üçün toplanan rüsum nəzərdə tutulurdu. Çox güman ki, bu məbləğ möhrdarın (“möhr mühafizəçi”) xeyrinə olaraq toplanırdı.

**Rüsüm-i darğaki və kələntəri** – darğanın (polis rəisinin) və kələntərin (şəhər rəisinin) xeyrinə yığılan vergilər.

**Mirabi** – vergi növü kimi I Təhmasibin tarixi göstərilməyən fərmanında verilir. “Mirab” - ərəb fars sözlərinin birləşməsi “əmir-i ab”ın qısaldılmış forması olub hərfən “əmir, su rəisi”, yeni suvarma sistemləri rəisini bildirir.Suvarma üçün suyun düzgün bölüşdürülməsinə nəzarət edən məmur belə adlanırdı.

**Xırman bəhrə -** I Şah Təhmasibin İsfahana aid olan, tarixi göstərilməyən fərmanında təsadüf edilir. “Xırman bəhrə” hərfən “biçin, taxıldöymə bəhrəsi” deməkdir. Məlum olduğu kimi taxılın döyülməsi dairə boyu sürülən və taxılı tapdalayan öküzlərin köməyi ilə edilirdi. Güman etmək olar ki, rəiyyət öz taxılını döymək üçün torpaq sahibinin iş heyvanlarından istifadə edirdi və bundan ötrü də “xırman bəhrə” verməli idi.

**“Xərc-i xurcun”** və **“çuvallıq”** – kəndlilər tərəfindən icra edilən mülkiyyət idi. Əhməd Ağqoyunlunun 1497-ci il tarixli fərmanında “xurcunun dəyəri” mənasında göstərilir.

**“Çuvallıq”** mükəlləfiyyəti I Şah İsmayılın 1505-ci il fərmanında rast gəlinir. Ehtimal etmək olar ki, istər qoşunlarda, istərsə də divan vergi idarələrində mühüm əşya olan cuvalların tədarükü üzrə xüsusi mükəlləfiyyət idi.

**Qalle-i ibtiya-i** iki ərəb mənşəli sözdən, yəni “taxil” və ərəbcə “almaq”, “alqı” sözlərindən ibarətdir. Söz birləşməsi “taxılın satın alınması, alqısı” kimi tərcümə edilməlidir. İstilaha Yaqub (1479-cu il) və Əlvənd (1490-cı il) Ağqoyunluların fərmanlarında, habelə I Şah İsmayılın (1512-ci il) və I şah Təhmasibin tarixi göstərilməyən fərmanlarında təsadüf edilir. Əlvənd Ağqoyunlunun digər tarixli başqa bir fərmanında buna bənzər “qalle-tərx” vardır. Sonralar Qacarlar dövründə İranda kəndliləri bazar qiymətlərindən yuxarı qiymətlərlə taxıl almağa məcbur edən adət var idi. Buna qalle-tərx deyirdilər. Sonuncu fərmanda “qalle-tərx” istilahından sonra bilavasitə “ibtiya” adı çəkilir. Rəiyyət vergi və mükəlləfiyyətləri arasında “qalle-i ibtiyai”yə rast gələnin yuxarıda göstərilən dörd fərmandan ikisində bu mükəlləfiyyət tərx istilahı ilə yanaşı işlədilir. **“Bəhay-i morq”** (hərfən “quşun qiyməti, dəyəri”) şah Məhəmməd Xudabəndənin 1581-ci il tarixli fərmanında işlədilir. Feodalların tələbi ilə rəiyyətin quş tədarük etməsini bildirən “morq” islahatına Əlvənd Ağqoyunlunun 1498-1499-cu il tarixli və I Təhmasibin tarixi göstərilməyən fərmanlarında rast gəlinir. Sonralar həmin mükəlləfiyyət pul alınması ilə əvəz edilmişdir.

**“Ximə”, “kah”** (hərfən “odun”, “ot”) I Şah Təhmasibin və Məhəmməd Xudabəndənin fərmanlarında rəiyyət mükəlləfiyyətləri sırasında işlədilir. Rəiyyətin ağac doğraması və feodalları odunla (yanacaqla) və otla təmin edilməsinə müvafiq olan mükəlləfiyyət idi.

**Kəndəlik –** (“divarda bürc ucaltmaq”) kimi şərh edilir. Qala bürclərinin tikintisi üzrə rəiyyətin icra etdiyi mükəlləfiyyətlərdən biri idi.

***Dövlət quruluşu.*** Səfəvilər dövlətinin quruluşu tipik feodal monarxiyası formasında idi. Dövlətə qeyri-məhdud hakimiyyətə malik olan və eyni zamanda

“Səfəviyyə” ordeninin irsi şeyxi sayılan şah başçılıq edirdi. Səfəvi hökmdarları dövlət işlərini təkbaşına həll edirdilər. Lakin şahın həmiyəsində məşvərətçi hüququnda olan Ali Məclis (məclisi əla) toplanırdı. Onun 12 nəfər üzvdən (sultanlardan) ibarət nümayəndələri dövlət işlərində təcrübəsi olan şəxslər idilər. Ali Məclisin iclaslarına şah özü rəhbərlik edirdi. Mənbələr iclasların gedişini təsvir edərək qeyd edirdilər ki, şah yerdən çox da hündür olmayan taxtda oturur və arxasında oğulları əyləşirdilər. Şahın dörd müşaviri onunla üzbəüz əyləşirdi. Şah suallar qoyur, onların barəsində danışır, sultanların fikrini soruşur və onların hər biri söz söyləyərkən ayağa durur, şaha yaxınlaşaraq məclis üzvlərinin onu eşidə bilməsi üçün ucadan danışırdı. Əgər müzakirə zamanı şah maraqlı bir fikir eşidirdisə, bu onün göstərişi ilə yüksək müşavirlər tərəfindən qeydə alınırdı. O, çox vaxt bunu şəxsən qeyd edirdi. Beləliklə, hər kəs növbə üzrə, şahın xahişi ilə öz fikrini söyləyir. Məsələnin mahiyyətinə şahın şübhəsi qalmırdısa, həmin məsələ ilk Şurada həll edilirdi. Əks halda Şuranın fikrini dinləyərək məsələni şəxsən nəzərdən keçirir və həll edirdi.

Səfəvilər dövlətinin ərazisi iki hissəyə bölünürdü: divan və xassə vilayətlərinə. Bu bölgüyə uyğun olaraq iki ayrı-ayrı idarəedici orqan (divan) fəaliyyət göstərirdi: divani-məmalik “dövlət vilayətləri divanı” və divani-xassə “şah vilayətləri divanı”. Bu idarəetmə orqanları Səfəvilər dövlətinin əsas maliyyə idarələri idi. Divani-xassəyə aid olan vilayətlər şəxsən şaha və Səfəvilər sülaləsinin digər nümayəndələrinə məxsus idi. Bu vilayətlər şahın müvəkkilləri – vəzirlər tərəfindən idarə olunurdu.

İlk Səfəvilər dövründə idarəetmə aparatında mühüm əhəmiyyət kəsb edən aşağıdakı vəzifələr var idi: vəkil, əmir əl-ümara, (“əmirlər əmiri”), qorçubaşı, vəzir, sədr.

**Vəkil** şahdan sonra ikinci şəxs sayılırdı. O, istər dünyəvi, istərsə də dini işlərdə Səfəvi şahlarının müavini kimi tam səlahiyyətli idi. Vəkil siyasi və dini tədbirlərin həyata keçirilməsində qayda yaradılması üçün şahın qarşısında məsuliyyət daşıyırdı. Şahın ən etibarlı adamları bu vəzifəyə təyin olunurdular. Bu vəzifəni tutan ilk şəxs məhz İsmayılın tərbiyəçisi (ləsi) – Hüseyn bəy Şamlı

olmuşdur. O, İsmayılın Gilanda olduğu 4-5 il ərzində "Səfəviyyə" ordeninin bütün işlərini idarə etmiş "yaxın şəxslərdən" biri idi. İsmayıl Təbrizi ələ keçirdikdən sonra Hüseyn bəy Lələ "vəkalət-i nəfs-i hümayun", yəni "Əlahəzrətin şəxsi müavini" vəzifəsinə təyin olunmuşdu.

**Əmir əl-üməra** Səfəvi qoşununun baş komandanı vəzifəsi idi. Səfəvilərin hakimiyyətinin ilk dövrlərində nizami ordu mövcud olmamış, yalnız müharibələr aparıldığı dövrdə iri feodal qoşunu toplanırdı. Hərbi vəzifələr tamamilə Azərbaycan feodallarının əlində olduğuna görə əmir əl-üməra qızılbaş tayfa əyanlarının inhisarında olan imtiyaz sayılırdı. Bu vəzifəni tutanlar arasında eyni vaxtda həm də vəkil olmuş Hüseyn bəy Şamlını, 1509-1523-cü illərdə əmir əl-ümərа olmuş Məhəmməd bəy Süfrəçi Ustaclını, onun oğlu Bəyazid Soltanı göstərmək olar.

**Qurçibaşı** "qurçilərin rəisi" – qızılbaş tayfalarının döyüşçülərdən ibarət olan şah qvardiyasının başçısı idi. Mənbələr yazırdı ki, I Şah İsmayılın atası Heydərin ölümündə iştirak edənləri axtarıb tapmağı və təhqiq etməyi qurçibaşı Əbdül bəy Dədəyə tapşırmışdır. Əbdül bəy Dədə Ərdəbil təriqətinin işlərini aparmış məhdud şəxslər idarəsinin – "əhli ixtisas"ın üzvü olmuşdu. Məhz buna görə də qurçibaşı vəzifəsi dövlət əhəmiyyətli vəzifələrdən biri olmuşdur. Lakin sonralar qurçibaşı vəzifəsini siyasi həyatda az nəzərə çarpan adamlar tuturlar. Qurçibaşların əksəriyyəti qızılbaş əfşar tayfasından çıxmışdı. Onlar şah qvardiyasının rəisi vəzifəsini yerinə yetirirdi.

**Vəzir** mülki bürokratiyanın başçısı idi. I Şah İsmayılın dövründə vəkil və əmir əl-ümərа dövlət idarəçiliyi işlərində vəzirin vəzifəsini sıxışdırıb, hakim mövqeyə malik olduqlarından, onun rolu əhəmiyyətsiz idi. Ağqoyunlu hökmdarlarının vəziri olmuş Şəmsəddin Zəkəriyyə I Şah İsmayıl tərəfindən "vəzarət-i divani əla" vəzifəsinə təyin edilmişdi. I Şah Abbasa qədər vəzir vəzifəsi sırf mülki vəzifə olmuşdur. O, divanın gəlirlərinə, habelə bütün əyalətlərdən xəzinəyə daxil olan məbləğlərə və digər "büyutat" nəzarət edirdi.

**Sədr** dini müəssisələrə rəhbərlik edirdi. Onların səlahiyyətləri barəsində deyilirdi ki, sədrlər seyidlərə və əmmaməlilərə himayə göstərməli və onların

işlərində nümayəndələr kimi fəaliyyət göstərməli, vəqf idarə etməli və şəriət məqsədləri (məarif) üçün pul verməlidirlər. Şiəliyin yerlərdə möhkəmlənməsinə də sədrlər məsuliyyət daşıyırdılar.

Şəki ölkəsinin sədrliyi vəzifəsi haqqında I Şah Təhmasibin 1550-ci ilin sentyabr ayında vermiş olduğu fərmanda göstərilirdi ki, ağalıq və nəqibliyin pənahı, sədarət busatlı, seyidlik, nəqiblik və etihadda mükəmməl olan Mir Sultan adı ilə şöhrət tapmış Əbdürrazzağın tam şiəliyi və dindarlığına etibar və etimad bəslədiyimizə görə, Şirvan ölkələrinin sədrliyini bütünlüklə ona həvalə etmişik. Şəki və Şirvan vilayətinin qaziləri, möhtəsibləri və şəriət işlərinə baxanları bütünlüklə ona tabe olur və itaət göstərirlər. Şirvan bəylərbəyi Abdulla xan yeni sədrə təriqət qaydalarını yaymaqda, şəriət işlərinin iräliləyişində qayğı göstərməli idi. Fərmanın sonunda deyilirdi ki, əmirlər, hakimlər, darğalar, vəzirlər və vəkillərdən, habelə onların mülazimlərindən bir nəfərin belə onun işlərinə qarışmaq hüququ yoxdur.

Sədr vəzifəsi və onun səlahiyyətləri Səfəvilər dövlətindən əvvəl meydana gəlmişdi. Belə ki, Teymurilər dövründə, Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hakimiyyəti zamanı da sədrlik mövcud olmuşdur.

**Mustoufi əl-məmalik** – "vilayətlərin xəzinədarı". Baş maliyyə idarəsi idi. Mülki idarə aparatının başçısı olan vəzirin nəzarəti altında işləyirdi. Vergi işlərinin qaydaya salınmasına, dövlət büdcəsinin tərtib edilməsinə, mükəlləfiyyətlər siyahısının tərtibinə, bəylərbəyilərə, tiyul və kələntərlərin rüsumuna nəzarət edirdi. Onun təsdiqi və möhürü olmadan mülki və hərbi vəzifəli şəxslərə məvacib verilmirdi.

**Nazir-i büyutat** – (ərəbcə beyt-ev, bina təsərrüfatı sözünün cəm halı) hər birinə "sahib-i cəm" başçılıq edən 33 karxanadan (emalatxanadan) ibarət idi. Büyutatlardan bir çoxu: mətbəx, qab-qacaq yuyulması üçün bina, müxtəlif anbarlar, kitabxana , tövlə və s. sadəcə olaraq ev təsərrüfatı və məişət ləvazimatı idi. Bununla yanaşı dövlət manufakturası tipli büyutatlar (toxuma emalatxanası, dərzi sexləri, sikkəxana, cəbbəxana, habelə zərgər, dəmirçi, bədii emalatxana və s.) var idi.

**Büyutatşah şah** və onun ailəsinin, həmçinin saray əyanlarının yeməyə, paltara, bəzək əşyalarına və s. olan tələbatının ödənilməsinə xidmət edirdi. Səfəvi hökmdarları, saray əyanları, feodallar məişətlərində zərli ipək və məxmər parçalar, qəşəng və yaraşıqlı xalılar, qumaş və s. toxunma malları işlədirdilər.

**Eşikağasıbaşı** saray məclislərində təsrifatı və mərasim qaydalarına baxan məmur idi. Onun vəzifəsi öz tabeliyində böyük xidmətçilər ştatı – yavərlər, təşrifat məmurları, hərəmağaları, qapıçılar, yasovullar, carçılar olmaqla saray toplantılarında və təntənələrində baş təşrifat məmuru kimi fəaliyyət göstərməkdən ibarət idi.

**Möhrdar**, yaxud möhrdar-i humayun – "Əlahəzrət möhürünün mühafizəçisi". İlk dövrlərdə möhrdar böyük hörmət sahibi sayılırdı. O, vəzirlərin, mustoufilərin, kələntərlərin təyinatları barədə fərmanlara, həmçinin də əmirlərə, hakimlərə və digər bağışlanan soyurqallara, tiyullara aid olan sənədlərə "əlahəzrətin möhürünü basırdı". Möhrdar vəzifəsi tutanların böyük nüfuzu olmuşdur. Belə ki, II şah İsmayıl taxta çıxdıqdan sonra İbrahim Mirzənin vəzifəsini yüksəldərək eşikağasıbaşı vəzifəsindən şah möhrdarı vəzifəsinə qaldırmışdı.

**Mirşikarbaşı** şahın ov tədbirlərinin başçısı idi. Ovçubəylər, şahin saxlayanlar (quşçuyan) və başqaları mirşikarlara tabe idilər. Ov yalnız əyləncə üçün keçirilmir, həm də bir növ rəqib üzərinə hücum xarakteri daşıyırdı. Şahdan və onun əhatə etdiyi əyanlardan başqa minlərlə döyüşçünün, heyvanları qovan kəndlilərin iştirak etdiyi, geniş əraziləri əhatə edən böyük sürək ovları əslində hərbi manevrləri xatırladırdı.

**Xəlifət əl-xülafə** ("xəliflər xəlifəsi") – qızılbaş tayfalarının imtiyazlı təbəqəsi içərisindən təyin edilir və bir qayda olaraq, türk (azərbaycanlı) olurdu. Səfəvi sülaləsinin şahları onların köməyi ilə yalnız özlərinin arxalandıqları, onları hakimiyyət başına gətirmiş qüvvələrə deyil, həm də öz ardıcıllarının geniş şəbəkəsinə nəzarət edirdilər. Xəlifət əl-xüləfalar böyük səlahiyyətə malik olub "mürşid-i kamilin" (yəni, şahın) təriqət işləri üzrə müavinləri sayılırdılar. I Şah Abbasın ölümündən sonra da şahın öz ardıcıllarının "mürşid-i kamili" olması ideyası onun nazirləri tərəfindən tanınmışdı. Lakin sonralar xəlifə əl-xülafə

vəzifəsi siyasi hakimiyyətdən uzaqlaşdırıldı və sadəcə olaraq “sufilərin işlərinə dair katibliyə” çevrildi.

**Münşi əl-məmalik** – “dövlət katibi”. Şah şurasının sərəncamında xeyli mirzə ştatı olduğuna görə münşi əl-məmalik nüfuzlu əyan idi. O, **vaqiyə-nəvislə** yanaşı şahın yazışmasının bir hissəsini idarə edirdi. Bu iki vəzifə demək olar ki, bir-birini tamamlayırdı. Vaqiyənəvis dövlət şurası (məclis-i əla) iclaslarını sənədləşdirir, arxivi nizama salırdı. O, sarayın tarixşünası, şahın şəxsi katibi idi, şahın yerli hakimlər və xarici dövlətlərlə yazışmasını təşkil edirdi. Münşi əl-məmalik və onun mirzələri şahın bütün məktublarında (pərvənəcət), fərmanlarda və digər rəsmi sənədlərdə müəyyən olunmuş tuğraları yerinə yetirirdilər.

**Müəyyər əl-məmalik** – “dövlətin əyar vuranı” dövlət miqyasında pul işinə rəhbərlik edirdi. Zərbxana müdiri – “zərrabaşı” ona tabe idi. Zərbxana müdiri sikkə kəsmək hüququ üçün şaha müəyyən məbləğdə pul verirdi. Sikkə kəsmək hüququ üçün vergi “vacibi” adlanırdı. Şahın xeyrinə alınan “vacibi” vergisinin miqdarı bir misqal qızıl üçün 30 dinar, bir misqal gümüş üçün isə 2 dinar idi. Daha çox gəlir götürmək məqsədi ilə pul dövriyyəsinin artırılmasına çalışırdı. Lakin pulun dəyərinin azalması ticarətin pozulmasına və hətta iğtişaşlara səbəb ola bilərdi.

**Mühtəsib-əl məmalik** – “dövlət mühtəsibi” – şəhər bazarlarına nəzarət qoyan, əmtəələrə qiyməti təsdiq edən mərkəzi aparat məmuru. Onun başlıca vəzifəsi ticarətin düzgün aparılmasına, ölçü və çəkilərə əməl olunmasına, fırıldağa yol verilməməsinə nəzarət etmək idi. Şəhər bazarlarında gözətçilər əsasən əsəslərdən ibarət idi. Hər axşam günbatan çağı kəranay, təbil və zurna səsi eşidilirdi. Bu dükandarlara mağazaları bağlamaq vaxtının çatdığını xəbər verirdi. Sonra gecə gözətçiləri - **əsəslər** bazara daxil olurdular. Gecədən bir qədər keçdikdən sonra təbil çalan küçə və bazarda gəzirdi. Qadağan saatından sonra fənərsiz və çıraqsız bazarda görünən adamı gözətçi tutub zindana salırdı. Səhərə yaxın təbil çalınandan sonra gecə cözətçiləri bazar və dükanların qorunmasına məsuliyyət daşımırdı. Mühtəsibin bir neçə müavini var idi. Hər həftənin birinci günü (şənbə) carçı vasitəsilə malların qiymətləri elan edilirdi. Mühtəsib həftə

ərzində bu və ya digər malın qiymətini azaldıb-artırmaq barədə öz adamları ilə məşvərət edirdi. Müəyyən olunmuş qiymətdən baha satanları cəzalandırırdılar.

**Yasavul** mənşəcə monqol "yasa" – "qanun, qayda" sözündəndir. Yasavullar mühafizə işlərinə, şahın olduğu yerdə qayda-qanun yaradılmasına məsul idilər. Yasavullar ən hörmətli və möhtərəm əmirlərin oğlanları arasından təyin olunurdular. Onların sayı 10 nəfərə qədər olurdu. Şah yığıncaqlarında (məclis-i xass) yasavullar eşikağasıbaşının yerinə xidmət edirdilər. Açıq yığıncaqlarda isə şahın qarşısında dayanırdılar. Yasavullar onların məvacibini və qulluq yerini təsdiq edən yüksək divan eşikağasıbaşının tabeliyində idilər. Şah yavərlərinin hazırlanması mənəviyyat və möminlik hamilələrinin daimi nəzarəti altında olurdu.

**Ləşkərnəvis – "qoşun kargüzarı".** I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində əmirlər və qoşun arasında böyük nüfuza və hörmətə malik idi. Belə ki, hətta onun "vəzir vəzifəsinin astanasında" durduğunu güman edirdilər. **Mustoufey-i mal** ("zabitanəvis", "müfradənəvis"lə eynidir). Mustoufi əl-məmalikin başçılığı altında xidmət edirdi. Zabitanəvis anlamı "vergiləri yığan" deməkdir. "Avarcanəvis" idarəsindən fərqli olaraq mustoufiyi – malın şatında olan mirzələr divana daxil olan pul mənbələrini (vücuhat) qeydə alırdılar. Zabitanəvis idarəsinə yığılmalı olan məbləğlər – yol vergiləri (vücuh-i rahdarı), tütün ticarəti üçün vergilər, çobanbəyi (mal-qara üçün vergi) və s. idi.

**Avaracanəvis.** Ona müvafiq olaraq, fərdi vergi verənlərdən ödəmələr alınır və növbəti ödəmələr elə qaydada yazılırdı ki, ora əlavələr etmək mümkün olsun. Avaracanəvis də mustoufi əl-məmalikin nəzarəti altında fəaliyyət göstərir və maliyyə idarəsinə aid edilirdi.

Avaracanəvisin aşağıdakı vəzifələri müəyyən edilmişdi. Birinci vəzifə kimi vergi verənlərin adları kitabda qeydiyyatdan keçirilirdi. İkincisi, onlar divan qulluqçularından daxil olan sənədlərin üzərində müxtəlif qeydər edirdilər. Üçüncüsü, onlar tiyula, həme saleyə və s. aid olan sənədləri (pərvanəcanə) qəbul edir və yola salırdılar. Dördüncüsü, vergi toplanmasını idarə edən vilayət hakimiyyət orqanlarına gönlərilən rəqəm və sənədlərin qeydə alınması, yoxlanması onların vəzifəsinə daxil idi.

Sahib-i təücih (təücih "yollamaq, ünvana göndərmək" deməkdir). "Təücih" ödəniş idarəsi idi və tədiyələrin əksəriyyəti alıcılara torpaq üçün verilən pullar və digər gəlir mənbələri təxsisatlarla ödənildiyindən sahib-i təcühə "təxsisatlar sahibi" kimi baxmaq olar. Sahib-i təücihin mirzələr ştatı var idi. O, "şahın sərəncamları" ilə müxtəlif, təsadüfi vergilərin miqdarını müəyyən etmək və vergilərin özbaşına artırılmasına yol verməmək vəzifəsini yerinə yetirən mustoufi əl-məmalikə tabe idi.

**Mustoufi ərbab-i təhavil** ("ərbab-i təhavil təhvildarən"lə eyni mənadadır) – büyutat mustofilərinə həvalə olunmuş sikkə zərb edilməsi, əmtəə və xammal işlərinə nəzarət edən məmur. O, şah sarayının müxtəlif büyutatları arasında bölüşdürülmüş mülkiyyətin məsul nəzarətçisi idi. Aşağıdakı məsul nəzarətçilər var idi: şah xəzinəsinin **müşrifi (müşrif-i Xəzinəyi amere); tövlə müşrifi (müşrif-i tövlə);** şahın paltarlarının saxlandığı yerin və **dərzixananın müşrifi (müşrif-i rəkabxana və qayçaçixana);** dəvələrin saxlandığı binanı **müşrifi (müşrif-i şotorxan).**

**Vəzir-i qurçiyan-i əzəm, mustoufi qurçiyan-i əzəm** ("Böyük qurçilərin vəziri", "böyük qurçilərin mustoufisi"). Güman edilir ki, bu halda şah qvardiyaçılarının, qurçilərin hərbi dəstələrinin vəziri və mustoufisi nəzərdə tutular. Onlar qvardiyaçılar dəstəsinin rəisi olan qurçibaşının yanında xidmət edir, qurçibaşı üçün dəftərxana və mühasibat işlərini yerinə yetirirdilər. Bu vəzifədə vəzir katib maliyyə nəzarətçisi səlahiyyətlərinə malik idi. Yəni, təyinatlar üzrə sənədlər hazırlayır, əmrlərə, vəsiqələrə, hesabatlara və s. möhür basır, tapşırıq qeydləri aparırdı.

Mərkəzi idarəetmə aparatının yuxarıda göstərilən vəzifələrindən başqa saray daxilində digər vəzifə ştatları da olmuşdur ki, bunlardan da ən əhəmiyyətliləri **miraxurbaşı** – mehtərlərin rəisi, **mehmandarbaşı** – xarici səfirlərin və hörmətli qonaqların qəbul işlərinə baxan müdir, **süfrəçibaşı** – süfrəyə qulluq edənlərin rəisi, **halvaçıbaşı** – saray şirniyyat ustalarının rəisi, **şərabçıbaşı** – saqilərin rəisi, **münəccimbaşı** – saray münəccimlərinin başçısı və b. qeyd etmək olar.

Səfəvilər dövlətinin mərkəzi və yerli idarəetmə aparatı məmurlarının maddi təminatı və mükafatlandırılması sistemi çox mürəkkəb idi. Əsasən, məmurların və xidməti qulluqçuların məvacibinin ödənilməsi müəyyən yerdən vergilərin hamısını, yaxud bir hissəsini almaq üçün verilmiş xüsusi sənədlər (borat, həvalə) vasitəsilə həyata keçirilirdi. Bu mükafatlandırma forması Səfəvilər dövlətində geniş tətbiq edilirdi və tiyul adlanırdı. XVI əsrin ikinci yarısından etibarən tiyulun iki növü fərqləndirilirdi: **"tiyul"**un özü və **"həmesale"** (yəni, **"hər il", "bütün ili"**). **"Həme sale"** dövlət qulluqçusuna "bütün illər üçün", əgər şəxsi xidmətə görə verilmiş qulluqdan getmirsə, əməli olaraq ömürlük verilən "məvacib" idi. **"Həme sale", "yek saledən"** yəni, birillik məvacibdən" fərqlənirdi.

Dövlət əyanları vəzifələrinə əlavə olunmuş daimi yığım hüququ ilə təmin edilmişdilər. I Şah Təhmasibin şəxsi mühafizəçiləri kimi fəaliyyət göstərən qurçilər adlanan beş min nəfər əsgərin məvacibi həmişə pulla ödənilmirdi. Mükafatlandırmanın bir hissəsi natura ilə ödənilirdi. Onlara, həmçinin geyim və at verirdilər.

Vəzifəli məmurların mükafatlandırılmasında toplanan "bəxşiş"lərdən (rüsum) də istifadə edilirdi. Rüsum yığımları vassallardan və vilayətlərdən icbari qaydada, istər natura ilə, istərsə də pulla çoxlu hədiyyələrdən (peşkəş) tutulan faizlər şəklində mövcud idi. Peşkəş – nəvis xüsusi məmur tərəfindən ayrıca kitabda qeydə alınır və qiymət müəyyən edilirdi. Şaha hər hansı hədiyyə (peşkəş) verən şəxs şaha (yaxud xəzinəyə) əlavə olaraq öz hədiyyəsinin dəyərinin müəyyən faizini də pulla ödəməli idi. Bu yolla toplanmış pullar mərkəzi aparatın müxtəlif məmurları arasında bölüşdürülürdü.

***Yerli idarəçilik.*** Azərbaycan Səfəvilər dövləti inzibati cəhətdən dörd bəylərbəylikdə birləşmişdi. Bəylərbəylik inzibati ərazi vahidi öz növbəsində əyalətlərdən və mahallardan ibarət idi. Təbriz bəylərbəyliyini Talış, Astara, Qaradağ, Sərab, Meşkin, Muğan və s. mahalları əhatə edirdi. Çuxursəəd bəylərbəyliyinin ərazisinə isə Naxçıvan, Araz çayından şimaldakı ərazilər, Araz çayının sağ sahil əraziləri, Maku mahalı daxil idi. Üçüncü bəylərbəylik mərkəzi Gəncə şəhəri olmaqla Qarabağ bəylərbəyliyi idi. Buraya Bərdə, Ağstafa, Kür boyu

ərazilər, Kürdən cənubda yerləşən Cavanşir mahalı daxil idi. Dördüncü isə mərkəzi Şamaxı şəhəri olmaqla Şirvan bəylərbəyliyi idi. Bakı, Quba, Dərbənd, Salyan, Şəki, Ərəş mahalları Şirvan bəylərbəyliyinin ərazisini əhatə edirdi.

Bəylərbəyliklər daxili idarəetmədə mərkəzi hakimiyyətdən müstəqil idilər. Bəylərbəyi toplanmış verginin müəyyən hissəsini mərkəzi hakimiyyətə verirdi. Onların silahlı qüvvələri (mülazim və çərik) şahın əmri ilə hərbi yürüşlərdə, yaxud üsyanların yatırlmasında iştirak edirdilər. Bəylərbəyilər bəzən o qədər qüdrətli idilər ki, hətta öz saraylarının zənginliyinə görə şahla rəqabət aparırdılar. İlk Səfəvilər dövründə əmir əl-üməraların, yaxud bəylərbəyilərin təyin olunması Azərbaycan tayfa əyanlarının – qızılbaş feodallarının müstəsna imtiyazı idi. Onların hər birinin şah sarayına bənzəyən imarəti olmuşdur.

XVII əsrdə bəylərbəyilər 13 əyaləti idarə edirdilər: Şirvan, Qarabağ, Gəncə, indiki Cənubi Azərbaycan, Çuxursəəd, Qəzvin, Həmədan, Fars, Kirman, Astrabad, Məşhəd, Herat, Qəndəhar.

Vilayət inzibati idarə sistemi bir çox cəhətdən mərkəzi dövlət aparatındakı kimi idi. Qızılbaş əyanları vilayətləri irsi olaraq idarə edirdilər. Lakin şah yeni təyinatları təsdiq etməli idi. İlk Səfəvilər dövründə bəylərbəyilər əsasən hərbi sərkərdələrdən təyin olunurdular. Tədricən sülh şəraitinin yaranması ilə mülki şəxslərdən də bu vəzifəyə təyinatlar aparılırdı. Əyalətlərə isə, bəylərbəyliyə tabe olan qolbəyləri başçılıq edirdi. Daha kiçik inzibati vahid olan mahallara sultan adlanan naiblər rəhbərlik edirdilər. Sultanlar müvafiq əyalətlərin qolbəyilərinə, bəzən isə birbaşa bəylərbəyinin özünə tabe idilər. XVII əsrdən başlayaraq ən ali hərbi-inzibati rütbə xan, sonra isə sultan və bəy hesab edilirdi.

Bəylərbəyliklərdə maliyyə işləri idarəsinə vəzir başçılıq edirdi. O, həm də bəylərbəyinin müavini idi. Vilayətdə maliyyə işlərinin vəziyyəti barədə vəzir mərkəzi hökumət qarşısında məsul idi. Kəndlərdə dövlətin səlahiyyətli nümayəndəsi kəndxuda idi. O, icmada torpaqdan istifadə işlərinə, suvarma sisteminə, vergilərin bölünməsinə və yığılmasına və s. işlərə rəhbərlik edirdi.

Səfəvilər dövlətində çoxsaylı iri və kiçik şəhərlər dövlətin sosial-iqtisadi və ticarət münasibətlərinin inkişafında mühüm əhəmiyyət kəsb edirdi. Şəhərlərdə ən

yüksək vəzifəli şəxslərdən biri də kələntər adlanırdı. O, maliyyə işlərinə, o cümlədən vergilərin toplanmasına başçılıq edirdi. Bəzi böyük şəhərlərdə isə kələntər bəylərbəyilərə deyil, bilavasitə şahın özünə tabe idi və onun tərəfindən təyin olunurdu.

Şah fərmanı ilə yerli feodal əyanlarından təyin olunan kələntər hətta bu vəzifəyə keçmək üçün şaha rüşvət verməli idi. Onlar verdikləri rüşvəti qısa bir zamanda şəhər əhalisindən toplayıb daha da varlanırdılar. Kələntər şəhərin vergilərini vergi verməli olan əhali arasında bölüşdürürdü. O, şəhərdə cinayət işlərinə də baxır, müqəssirlərdən cərimələr alırdı. Kələntər şəhər hakimi qarşısında məsuliyyət daşıyırdı.

Şəhərlərin idarə edilməsində tam ixtiyar sahiblərindən biri də darğa idi. Şəhərdə hakim olmadıqda onun işləri bilavasitə darğaya tapşırılırdı. O, intizamı qorumaqla yanaşı, cinayət işlərinə də baxırdı. Lazım gəldikdə müqəssirləri cərimə edir və ya həbs edərək zindana saldırırdı. Hətta darğa öz istədiyi kimi hər hansı bir şəxsi edam etdirə bilərdi. Darğa divandan məvacib almaqla, şəhərdən əldə edilən gəlirin bir hissəsini mənimsəyirdi.

Şəhərlərdə hər bir məhəllənin kəndxudaları var idi. Məhəllə sakinləri öz aralarından bir nəfər kəndxuda seçib, nəqib və şəhər kələntərinin təsdiqinə verirdi. Məhəllə kəndxudalarının da böyük nüfuzu var idi. Belə ki, şəhərdə ətin qiyməti bir qədər bahalaşdıqda, yaxud hər hansı narazılıq olduqda məhəllə başçıları ilə şəhər dövlət məmurları arasında ixtilaf baş verir və kəndxudalar öz maraqlarını qorumağa çalışırdılar.

Şəhər bazarlarında kəndxudaları feodal əyanları öz aralarından təyin edirdilər. Onlar nəqib tərəfindən təsdiq olunduqdan sonra kələntər tərəfindən təyin edilirdilər. Kələntər istədiyi vaxt məhəllə və bazar kəndxudalarını tutduqları vəzifəlrindən çıxara bilərdi.

***Hərbi quruluş.*** Səfəvilər dövlətində vahid nizami ordu yox idi. Ordu müharibə zamanı əyalət hakimlərinin, bəylərbəyilərin ayrı-ayrı qeyri-nizami feodal dəstələrindən (çərik) təşkil edilirdi. Hər tayfanın əmiri qoşunu özü gətirir və döyüşdə də iştirakını təşkil edirdi. Həmin qoşunların döyüşçüləri (mülaziman,

nukəran) tayfa başçıları hesabına saxlanılır və təchiz olunurdular. Səfəvilərin hərbi qüvvələri Ağqoyunlu qoşunlarında mövcud olmuş tayfa prinsipləri üzrə qurulmuşdu.

Ordunun ali baş komandanı şah hesab olunurdu. Şah yürüşdə iştirak etmədiyi hallarda, orduya Azərbaycan tayfalarının nüfuzlu əmirlərindən biri başçılıq edirdi.

Səfəvi ordusunun sayı, hərbi əməliyyatlar dövründə 120-150 min nəfərə çatırdı. Döyüşdə suvarilərin sayı 60 min təşkil edirdi. Feodal yığma qoşunlarından (çərik) əlavə sayı 4500 nəfərə çatan qurçilərin qvardiya dəstəsi şahın yanında əlahiddə xidmətdə olurdu. Bundan başqa, şahın yanında yasavulbaşının başçılıq etdiyi 700 nəfərlik yasavul dəstəsi də xidmət edirdi.

Bununla belə, qoşunların lazım olan vaxtda və təyin edilmiş yerdə cəmləşdirilməsi heç də asan iş deyildi. Çox zaman əmirlər təkəbbür və ara çəkişmələri üzündən şah qərargahına gecikdiklərinə, yaxud ümumiyyətlə, gəlmədiklərinə görə döyüşlər Səfəvilərin məğlubiyyəti ilə başa çatırdı. Zəif intizam və döyüşün ən həlledici anında tayfa düşmənçiliyinin çoşması qızılbaş ordusunun dəfələrlə darmadağın edilməsinə gətirib çıxarmışdı. Ordu əsasən süvarilərdən ibarət olduğundan piyadaların rolu əhəmiyyətsiz idi. Qoşun özünün böyük mütəhərrikliyi, manevr qabiliyyəti ilə fərqlənirdi.

Ordunun silahlanmasında qalxan, qılınc və s. silahlarla yanaşı, odlu silah növündən də istifadə edilirdi. Nazik poladdan nizə, oxqabı və hərbi geyim hazırlarındı.

Odlu silah kimi tire-çərxdən istifadə edilirdi. Tire-çərx atanlara çərxəndazan (çərx atanlar) deyilirdi.Hava oxuna oxşayan tire-çərx dəmirdən düzəldilirdi. İçərisini barıtla doldurub od vururdular.

Odlu silah növlərindən biri də mancanaq idi. Onunla daş, od, torpaq atırdılar. Zərbzən və firəngi odlu silahları XVI-XVII əsrlərdə işlədilmişdir. Zərbzən nisbətən kiçik daş atan odlu silah idi.

I Şah İsmayılın hakimiyyətinin ilk illərində belə, onun ordusunda topxana var idi. 1501-ci ildə I Şah İsmayılın qoşunu Bakı qalasını mühasirə edərkən şahın

əmrilə top və tüfəngdən istifadə edilmişdi. Bakı qalası divarlarına toplardan daş tullanmışdı.

I Şah Təhmasibin hakimiyyəti illərində top-tüfəng istehsalına xüsusi diqqət yetirilirdi. Hətta Səfəvi ordusunda topçu və tüfəngçi dəstələri təşkil olunmuşdu. 1529-cu ildə I Şah Təhmasib orduya baxış keçirmişdi. Həmin vaxt arabalara yüklənmiş top, tüfəngi, 100 zərbzən və badlic, 5 min tüfəng var idi.

XVI əsrin sonlarından artıq topların bir yerdən başqa yerə aparılması texnikası təkmilləşir. Topların çarxları olmasa da, onlar arabalar vasitəsi ilə daşınırdı. 1585-ci ildə 15 batman ağırlığında daş atan "Kəlləquş" adlı topu Gögərcinli (Marağa yaxınlıgındadır) qalasından Təbrizə gətirirlər. Bu top hələ I Şah Təhmasibin dövründə həmin qalada hazırlanmışdı. "Şahi" adlanan top da olmuşdur ki, on cüt öküz belə onu çəkməkdə aciz idi. 1607-ci il martın 22-də I Şah Abbasın əmrilə Gəncədən Şamaxıya dörd top gətirilmişdi. Bu toplar 30 batmanlıq daş ata bilirdi. Vaxtilə Xoyda tökülmüş "Yoldaş" adlı bir top və İsfahandan bir neçə top 1635-ci ildə İrəvana gətirilmişdi. 1604-cü ildə Təbrizdə 40 batman ağırlığında daş güllə atan "Fəth" və "Nüsrət" adlı iki top, 1610-cu ildə Dümdümə qalasında iki böyük top və bir balmız hazırlanmışdı.

Topları, adətən, dəmirdən deyil, misdən tökürdülər. Təbrizdə barıt da hazırlanırdı. 1571-ci ilə aid olan sənəddə qeyd edilirdi ki, Səfəvi döyüşçüləri **"arkebuz"**, yəni **"dayandoldurum"** tüfəngindən istifadə edirdilər. Bu silahların lülələrinin uzunluğu 6 qarış (9 düymə) idi və onların çəkisi 3 unsidən (unsi – 28 qr) bir qədər az olan qumbaralar atırdılar. Döyüşçülər odlu silahı arxada gəzdirir, onları elə asanlıqla idarə edirdilər ki, bu nə yay tutmağa, nə də əgər şərait tələb edərsə, yəhərlərinə bərkitdikləri qılıncdan istifadə etməyə mane olmurdu.

1585-ci ildə Təbrizdə qızılbaşların 20 min nəfərdən ibarət tüfəngçi və piyada döyüşçüsü toplanmışdı. Bu qədər silahı Avropa dövlətlərindən almaq mümkün deyildi. Bu tüfənglər məhz Azərbaycan sənətkarları tərəfindən hazırlanırdı. Hazırlanan silahın yaxşı keyfiyyətdə olduğu göstərilir və digər ordulardakından heç də geri qalmırdı.

XVI əsrdə Səfəvilər dövləti tərəfindən Azərbaycan torpaqlarının mərkəzləşmiş vahid dövlət tərkibində birləşməsi, məhsuldar qüvvələrin yüksəlişi, şəhərlərin sənətkarlıq və beynəlxalq ticarət mərkəzlərinə çevrilməsi obyektiv olaraq Azərbaycan mədəniyyətinin inkişafı üçün şərait yaratmışdı.

Bu dövrdə Şah İsmayıl Xətai, Məhəmməd Füzuli kimi nəhəng filosof, söz bahadırları, həmçinin Azərbaycan ədəbiyyatını zənginləşdirən şairlər arasında Həbibi, Məhəmməd Əmani, Saib Təbrizi, Qovsi Təbrizi, Tərzi Əfşar Məsihi və b. şöhrəti çox geniş yayılmışdı. Bu dövrdə "Şah İsmayıl", "Əsli və Kərəm", "Aşıq Qərib", "Abbas və Gülgəz", "Koroğlu" kimi dastanlar da yaradıldı. Aşıq sənətinin Aşıq Qurbani, Aşıq Abbas Tufarqanlı, Sarı Aşıq və b. bu kimi simaları yetişdi.

Təbriz miniatür məktəbinin ən yüksək inkişafı da XVI əsrə təsadüf edir. Sultan Məhəmməd, Kəmaləddin Behzad, Sadiq bəy Əfşar bu məktəbin görkəmli nümayəndələri olmuşlar. Azərbaycanın o dövr miniatür sənətkarlarının əsərləri bu gün dünyanın məşhur muzeylərində nümayiş etdirilir.

Azərbaycan tarixçiləri Həsən bəy Rumlu və İskəndər bəy Münşi Səfəvilər dövlətinin tarixini işıqlandıran qiymətli əsərlər yazmışlar. "İranlı Don Juan" adı ilə Avropada məşhur olmuş Oruc bəy Bayatın tarixi-coğrafi əsəri 1604-cü ildə İspaniyada ispan dilində çap edilmişdir.

Beləliklə, XVI-XVII əsrlər Azərbaycan mədəniyyətinin yüksəliş mərhələsi kimi tarixə daxil olmuşdur.

## Praktiki məşğələ

## Plan:

1. Azərbaycanda Səfəvilər dövlətinin yaranması. Şah İsmayıl Xətai.
2. Səfəvilər dövlətinin siyasi, inzibati və ictimai quruluşu.
3. I Şah Təhmasib dövründə siyasi idarəçilik sistemi.
4. I Şah Abbasın inzibati idarə sistemini yenidən qurmaq və dövlətçiliyin möhkəmləndirilməsi sahəsində fəaliyyəti.

## Ədəbiyyat


1. Azərbaycan tarixi 7 cilddə. B., 1998-2003
2. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. B., 1996, 200 s.
3. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk inilliklərinədək) B., 2014
4. Azərbaycan tarixi üzrə qaynaqlar. B., 2007
5. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. B., 1993
6. Cəfərli N.M. Səfəvilər dövləti: hakimiyyət və idarə orqanları. B., 2000
7. Dadaşova R.İ. Səfəvilərin son dövrü. B., 2003
8. Fərzəliyev Ş.F. Azərbaycan XV-XVI əsrlərdə. B, 1983
9. İbrahimov C. Səfəvilərin Ərdəbil hakimiyyəti. B., 1990
10. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. B., 1996
11. Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. B., 2006

# VIII F Ə S İ L
# AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNDƏ XANLIQLAR DÖVRÜ

## § 1. Azərbaycan XVIII əsrin birinci yarısında. Səfəvilər dövlətinin tənəzzülü. Azərbaycanın Xəzərsahili ərazilərinin Rusiya tərəfindən işğalı.

Azərbaycan Səfəvi dövləti XVII əsrin sonlarından başlayaraq dərin iqtisadi və siyasi tənəzzül dövrü keçirirdi. Şah, saray əyanları və dövlət məmurları boşalmış dövlət xəzinəsini doldurmağın yeganə yolunu vergi və mükəlləfiyyətlərin say və həcminin artırılmasında görürdülər. Şah Hüseyn 1699-cu ildə vergi sistemini "qaydaya" salmaq məqsədilə 15 yaşına çatmış hər bir kişinin siyahıya alınması barədə əmr vermişdi. Əhalinin var-dövləti və bütün əmlakı siyahıya alınırdı. Bu iş çox çətinliklər yaratmışdı. Belə ki, əhali acgöz şah məmurlarının təqibindən qaçaraq əlçatmaz yerlərdə gizlənirdilər.

Ağır feodal istismarı kəndli təsərrüfatının dağılması və iqtisadi böhranın dərinləşməsilə nəticələndi. Səfəvi dövlətinin bir çox yerlərində olduğu kimi, Azərbaycanda da şah üsuli-idarəsinə və yerli feodallara qarşı üsyanlar baş verdi.

Səfəvi dövlətinin süquta doğru getməsi Yaxın və Orta Şərqdə maraqları olan rus çarı I Pyotrda böyük ümidlər yaratdı. O, şah Huseynlə ticarət müqaviləsi bağlamaq, əslində isə kəşfiyyat məqsədilə A.P.Volınskini Qafqaza və İrana elçi göndərdi. A.R.Volınski 1716-cı il iyulun 13-də Həştərxana gəldi. Sonra isə oradan Şamaxıya gələn rus elçisi üç ay Şamaxıda qaldı. Bu üç ay ərzində dövlətini maraqlandıran məlumatları topladı. Şamaxıdan İsfahana yola düşən A.P.Volınski 1717-ci il martın 14-də ora çatır. Şah Hüseynin yanında rəsmi qəbulda olan A.P.Volınski şah hökumətilə ticarət müqaviləsi bağladıqdan sonra Rusiyaya qayıtmağı qərara alır. Elçi İsfahanda da xeyli məlumatlar toplamışdı. A.P.Volınski həmin ilin dekabrın 17-də yenidən Şamaxıya gəlməli olur. Şamaxıda 8 ay qalan rus səfiri burada olduğu müddətdə I Pyotrun göstərişinə əsasən Cənubi Qafqazın xristian nümayəndələri ilə görüşdü. Daha sonra rus elçisi erməni tacirləri ilə də

söhbətlər apardı. Erməni tacirləri A.P.Volınskiyə gizlicə Dərbənd qalasının planını da gətirmişdilər. Bu isə I Pyotra bu bölgəyə yürüşü üçün çox lazım idi.

Azərbaycan torpağını 1718-ci il iyulun 25-də tərk edən A.P.Volınski müşahidələri əsasında qeyd edirdi ki, Səfəvi dövlətində şahın yalnız adı var, hakimiyyət isə yerli hakim feodalların əlindədir.

Bu zaman Səfəvi dövlətini xalq azadlıq hərəkatı bürümüşdü. Azərbaycanda azadlıq hərəkatına Qubanın Müşkür mahalının Dədəli sakini Hacı Davud başçılıq edirdi. Hacı Davudun məqsədi Şirvanda İran hakimiyyətini devirmək və burada müstəqil dövlət yaratmaq idi. Bu işdə Hacı Davud Qazıqumuxlu Surxay xanı özünə müttəfiq etmişdi. 1721-ci ildə Hacı Davud Şirvanın vahid hakimi oldu. Hacı Davud özünə arxa yaratmaq üçün Azərbaycan ərazilərində gözü olan gah Rusiyaya, gah da Türkiyəyə meyl edirdi.

İstanbulda Hacı Davudla Türkiyə sultanı Sultan Əhməd arasında aparılan danışıqlardan narahat olan Rusiya çarı I Pyotr tələsik Xəzər sahillərinə yürüş etdi.

I Pyotr Azərbaycan və Səfəvi dövlətinin bir sıra ərazilərini ələ keçirməyə fürsət gəzirdi. Rus imperatorunun Şərq siyasətində Şimal-Şərqi Azərbaycan mühüm yer tuturdu və bu yürüş sənədlərdə “Şamaxı ekspedisiyası” adlanırdı. Rus çarı üçün Şamaxıda rus tacirlərinin qətl-qarətə məruz qalması əlverişli bəhanə oldu.

Yürüş ərəfəsində Xəzər sahili xalqlarına “Manifest” qəbul edildi. “Manifest” Azərbaycan dilində də tərtib olunmuşdu. “Manifest”də qeyd olunurdu ki, yürüşün əsas səbəbi Rusiyanın dostu olan İran şahına qarşı qalxan üsyançılara, xüsusilə də Hacı Davuda və Surxay xana cəza verməkdən ibarətdir.

1722-ci il avqustun 23-də rus qoşunları heç bir müqavimət görmədən Dərbəndə daxil oldular. Bundan sonra Bakı, Salyan və Rəşt Xəzəryanı ərazilər işğal olundu. Bununla da Xəzər sahili vilayətlərin Rusiyaya birləşdirilməsinin birinci mərhələsi başa çatdı.

Azərbaycan ərazisi iki imperiyanın – Rusiya və Osmanlı arasında rəqabət meydanına çevrilmişdi.

1724-cü il iyulun 12-də İstanbulda Osmanlı dövləti ilə Rusiya arasında müqavilə imzalandı. Bu müqaviləyə əsasən Rusiyanın işğal etdiyi Xəzərsahili vilayətlər Rusiyaya “güzəşt” edildi. Qərbi Qafqazın və Cənubi Azərbaycanın osmanlılar tərəfindən işğalına Rusiyanın etiraz etməyəcəyi bildirildi.

Bakıda artıq bu vaxt, 1723-cü ildən komendant üsul-idarəsi yaradılmışdı. Xəzərsahili vilayətlərdə çarizm möhkəmləndikcə bu yerlərdə məskunlaşmağa can atan ermənilərə istədikləri qədər torpaq verilməsinə başlandı. I Pyotr ermənilərin yalvarışını, müraciətini nəzərə alaraq öz zabitlərinə əmr etmişdi ki, “erməni xalqı bəyəndiyi yerdə yaşamaq istərsə, ona kömək edib, ləyaqətlə qoruyun...”

Osmanlılar da zəifləmiş Səfəvi dövlətinin – Azərbaycan ərazisində əyalətlər, sancaqlar yaradırdılar.

Yerli əhali istər ruslara, istərsə də osmanlılara qarşı üsyan edirdi. Belə ki, 1724-cü ilin yayında  Salyanda ruslara qarşı çıxışlar baş verdi. Podpolkovnik Zimbulatov başda olmaqla Salyandakı bütün zabitlər öldürüldü. Təbrizdə, Xoyda, Ərdəbildə və başqa yerlərdə osmanlılara qarşı kütləvi çıxışlar baş verdi.

XVIII əsrin 30-cu illərində Azərbaycanda vəziyyət sürətlə dəyişdi. Azərbaycan ərazisi Türkiyə ilə İran arasında müharibə meydanına çevrildi. Həmin dövrdə İranda zəifləmiş mərkəzi hökumət Əfşar tayfasından olan  sərkərdə Nadirin dövlət işlərinə qarışması sayəsində tədricən dirçəlməyə başladı. Nadir ilk növbədə əfqan işğalçılarını İrandan qovdu. Osmanlılara və ruslara qarşı aparılan mübarizə uğurlu alındı. 1732-ci ildə Osmanlılarla Kirmanşah müqaviləsi imzalandı. Bu müqaviləyə görə İranın bir çox əraziləri, o cümlədən Təbriz, Ərdəbil, Kirman, Həmədan Səfəvilərə qaytarıldı.

Rusiya osmanlıların Cənubi Qafqazdan sıxışdırıldığını görüb, yeni tutduğu Xəzəryanı əraziləri tərk etmək qərarına gəldi. 1732-ci ilin yanvarında bağlanan Rəşt müqaviləsinə görə Kürdən cənubdakı Xəzəryanı bölgələr Səfəvilərə qaytarıldı.

1732-ci ilin avqustunda Nadir hərbi-feodal əyanların köməyi ilə II Təhmasibi taxtdan salıb, onun 8 aylıq oğlu Abbas Mirzəni III şah Abbas adı ilə şah, özünü isə onun qəyyumu elan etdi. Beləliklə, Nadir dövlətin faktiki hökmdarı

oldu. O, II Təhmasibin Osmanlı dövləti ilə bağladığı müqaviləni ləğv etdi: və osmanlılara qarşı müharibəyə başladı. 1733-cü ilin yanvarında Osmanlı ordusunu Bağdad ətrafında darmadağın etdikdən sonra, bu üstünlükdən istifadə edən Nadir Rusiyadan zəbt etdiyi Xəzərsahili ərazilərdən çıxmağı tələb etdi. 1735-ci ilin mart ayında Gəncə müqaviləsinə əsasən Rusiya Terekdən cənubdakı bütün Xəzəryanı torpaqları tərk etdi.

1735-ci ilin sonunda Osmanlı Türkiyəsi də öz qoşunlarını Cənubi Qafqazdan tamamilə çıxartdı.

Cəbhədə qazandığı uğurlardan şöhrətlənən Nadir 1736-cı ildə Muğanda qurultay çağırdı və özünü şah elan etdi. Bununla da Səfəvilər xanədanlığına son qoyuldu. Nadirin özünü şah elan etməsinə bəzi tayfa başçıları, bəylərbəyliklər etirazlarını bildirdilər. Ona qarşı çıxan Ziyadoğlu nəslindən olan Qarabağ (Gəncə) bəylərbəyliyi sərt cəzalandırıldı. Qazax və Borçalı, Qarabag bəylərbəyliyin tərkibindən çıxarılıb Kartli hakiminin tabeliyinə verildi. Qarabağ məlikləri (Vərəndə, Çiləbird, Gülüstan, Dizaq, Xaçın) bəylərbəyliyin tabeliyindən çıxarılıb Azərbaycan hakimi təyin edilmiş Nadir şahın qardaşı İbrahimin tabeliyinə verildi. Qarabağdan otuzikilər, Cavanşir, Kəbirli tayfaları ellikcə Xorasana sürgün edildilər. Nadir şah keçmiş bəylərbəylikləri ləğv edərək, Azərbaycan adlı böyük inzibati vahid yaratdı.

Nadir şah böyük İran ərazisi ilə kifayətlənməyərək, yeni ərazilər zəbt etmək üçün çoxminlik ordu yaratmışdı. Ordunu saxlamaq, şah xəzinəsini doldurmaq üçün Nadir şah əhalidən yığılan vergilərin sayını və miqdarını daima artırırdı. Ölkədə insanlara qarşı amansız qəddarlıq əhalininin kütləvi üsyanlara başlamağına səbəb oldu. Şəkidə, Şamaxıda, Astara vilayətində, Təbrizdə, Ərdəbildə şah əleyhinə üsyanlar aramsız baş verirdi. Belə üsyanlar şah tərəfindən amansızlıqla yatırılırdısa da üsyan yenə də genişlənirdi. Nəticədə 1747-ci ilin iyunun 19-da Nadir şah qətlə yetirildi. Nadir şahın qətlindən sonra onun silah gücünə yaratdığı dövlət sürətlə dağıldı.

## Azərbaycan xanlıqları

Nadir şah öldürüldükdən sonra Azərbaycan ərazisində 18 xanlıq, 5 məliklik və 5 sultanlıq yarandı. Məlikliklər, sultanlıqlar yaxın xanlığın tərkibinə daxil idilər. Məsələn, Qarabağ ərazisində məlikliklər Qarabağ xanlığının tərkibində idilər və Qarabağ xanlığına tabe idilər.

Xanlıqların bəziləri (məsələn Şəki) Nadir şahın dövründə formalaşmışdı.

Şimali Azərbaycan xanlıqları içərisində güclü xanlıqlar – Şəki, Qarabağ, Quba, Lənkəran (Talış) xanlığı idi. Cənubi Azərbaycan ərazisində isə Urmiya, Ərdəbil, Təbriz, Maku daha böyük feodal dövlətləri idilər. Xanlıqların hər biri ayrı-ayrı feodal dövlətlər idi. Hər bir xanlığın öz ərazisi, idarəçilik formaları var idi.

***İctimai quruluş.*** Azərbaycan xanlıqları monarxiya tipli suveren feodal dövlətlər idilər. Xanlar sözün əsl mənasında qanunlar vermirdilər. Onlar "Qurani Kərimə" əsasən Məhəmməd peyğəmbər tərəfindən verilmiş qanunlarla fəaliyyət göstərirdilər. Bununla belə, A.Bakıxanovun qeyd etdiyi kimi, hər bir xan öz xanlığında, istər xarici münasibətlər məsələsində, istərsə də daxili idarə məsələlərində tam müstəqil idilər. Hakim feodal sinfinə xan, sultanlar, bəylər, məliklər, ağalar və yüksək rütbəli müsəlman ruhaniləri – şeyxlər, axundlar və qazılar daxil idilər.

Feodal iyerarxiyasına xanlığın ali hakimi olan xan başçılıq edirdi. **Xan** dövlət başçısı kimi ən iri feodal idi. Onun geniş əkin sahələri, saysız-hesabsız mal-qarası, ilxısı, dəyirmanları, karvansarayları, kənd təsərrüfatı alətləri, qoşqu heyvanları və s. var idi. Xandan sonra ikinci hakim silkə **sultanlar** və **məliklər** daxil idilər. Sultan tituluna nisbətən kiçik vilayətlərin hakimləri, o cümlədən Salyanın da hakimi məlik idi. Yuxarı Qarabağın hakimləri məlik titulunu daşıyırdılar.

Hakim silkin əsas hissəsini bəylər və ağalar təşkil edirdilər. Bəylər xanlıqda yüksək vəzifələr tutmaqla, xanlardan imtiyazlar əldə edərək, onlara həvalə edilmiş vəzifədən gəlir götürürdülər. Həmçinin, xan onlara ömürlük sahib olmaq şərti ilə kəndlər bağışlayırdı. Azad zümrə kimi bəylər vergi ödəmədən torpaq əldə edə

bilər, əkinçilik, ticarət və digər sənədlər üzrə məşğul ola bilərdilər. Bununla belə, bəylər həmişə hərbi xidmətə hazır olmalı idilər. Xanın çağırışı ilə onlar qoşunları ilə birlikdə orduda döyüşə çağırılırdılar. Bəylərin mülki hüquqları vərəsəlik üzrə keçirdi. Vilayət və mahalların bəyləri öz rütbələrinə görə hər il novruz bayramında xan üçün peşkəş gətirirdilər. Xan da öz növbəsində qoşunun bütün adlı-sanlı sərkərdələrinə və minbaşılarına xələt, ənam, at və qılınc bağışlayırdı. Xan, səfərdə olduğu və yaxud ordu ilə getdiyi yerlərdə xidmətdə olan minbaşıların, yüzbaşıların, bəylərin, ağaların, həmçinin qoşun mirzələrinin, eşikağaların, keşikçilərin və yasavulların bütün məxarici xanın xəzinəsindən ödənilirdi.

Bəylərin iki qrupu fərqləndirilirdi: irsi və xidmətdə olan bəylər. Birinci qrupa daxil olanlar iri torpaq sahibiliyinə malik olmaqla, vaxtilə Səfəvi şahlarından bəylik titulu alanlar idilər. İkinci qrupu xanın yanında xidmətdə olanlar, tiyuldarlar və hərbi sərkərdələr təşkil edirdilər.

Qazax, Şəmşəddil və Borçalı sultanlıqlarında kəndlərin idarəsinə hüququ olanlar **ağa** adlanırdı. Onlar da bəylərin malik olduqları imtiyazlar kimi vergi və mükəlləfiyyətlərdən azad idilər. Kəndlərdən gələn gəlirin bir hissəsini özləri üçün istifadə etməklə kənd əhalisi ağaların xidmətində durmağa borclu idi. Ağalara kəndlərin idarəsi bəzən ömürlük və vərəsəliklə verilirdi.

Hakim feodallar sinfinə yüksək rütbəli müsəlman ruhaniləri də daxil idilər. Ruhanilər vergi və mükəlləfiyyətlər ödəməkdən azad idilər. Ruhanilərin əsas gəlir mənbəyini vəqf əmlakı və dini rüsumlar-zəkat, xüms, həmçinin təhsil almağa və ziyarətə göndərilənlərdən alınan rüsumlar təşkil edirdi. Bundan başqa, ölkə xanları ali rütbəli ruhanilərə imtiyaz kimi torpaqlar və kəndlər də bağışlayırdılar.

Xanlıqlarda xüsusi imtiyazlı silk olan **maaflar** fərqləndirilirdilər. Maaflar vergi və mükəlləfiyyətlərdən azad edilərək, bunun əvəzində xanın qoşununda xidmət etməli idilər. Onlar xanın qoşununun əsas hissəsini təşkil etməklə, inzibati vəzifələr də daşıyırdılar. Bəzən maaflar öz ictimai vəziyyətlərinə görə bəylərdən sonra aşağı səviyyədə duran kiçik torpaq sahibləri idilər. Maafların üzərinə qoyulan vəzifəni layiqincə yerinə yetirmək üçün xan onlara torpaq sahəsi də bağışlayırdı. Adətən maaflıq da irsi idi.

Azərbaycan xanlıqları dövründə əhali kütləsini bir neçə qrupa bölünən kəndlilər təşkil edirdi. Kəndlilərin əksəriyyəti divan, xassə, sahibkar və vəqf torpaqlarında sakin olan **rəiyyətdən** ibarət idi. Rəiyyətlərin öz təsərrüfatı və torpaq sahəsi, əmək alətləri və iş heyvanları var idi. Lakin onlar feodalın xeyrinə vergi verməli və mükəlləfiyyətlər yerinə yetirməyə borclu idilər. Rəiyyətlərin iki kateqoriyası fərqləndirilirdi. Belə ki, dövlət (xəzinə) torpaqlarında və mülkədar torpaqlarında işləyən rəiyyətlər müxtəlif dərəcədə istismar olunurdular. Mülkədar kəndliləri həm xəzinəyə, həm də torpaq sahibi olan bəylər üçün 35 sayda müxtəlif vergi və mükəlləfiyyətlər verirdilər.

Rəiyyətlərdən fərqli olaraq **rəncbərlər** torpağa deyil, şəxsən feodallara təhkim olunmuşdular. Onların xeyli hissəsi kənd icmalarına daxil deyildi. Daha ağır istismara məruz qalan rəncbərlərin öz torpaq payı, alətləri, təsərrüfatı yox idi. Bəylər rəncbərləri hər cür iş görməyə məcbur edə bilərdilər. Rəncbərlər feodalların təsərrüfatında işləyir, taxıl əkir, ipək və pambıq istehsalı ilə məşğul olurdular. Hətta rəncbərlərə sahib olmaq haqqında bəylərə rəsmi vəsiqə - **təliqə** də verilirdi. 1811-ci ildə tərtib edilmiş Quba bəylərinə aid olan təlimatda deyilirdi ki, ən azı on evdən ibarət olan kəndlərin hər biri bəyə bir nəfər mehtər, bir nəfər nökər və bir nəfər rəncbər təhkim etməlidirlər.

Rəncbərlər ayrı-ayrı xanlıqlarda müxtəlif öhdəlik finksiyalarını yerinə yetirirdilər. Talış xanlığında rəncbər **əkər** adlanırdı. Onların əməyindən əsas etibarilə çəltik becərilməsində istifadə olunurdu. Xanlar mahal naiblərinə, bəylərə, qazılara və hətta kəndxudalara rəncbər paylayırdılar. Əvəzində katibdən tutmuş kəndxudalara qədər inzibati qulluqda olan şəxslərin çoxu öz xidmətinə görə xəzinədən pul almayaraq, rəncbərlərin əməyindən istifadə edirdilər.

Xanların əmri ilə hər bir rəiyyət rəncbərə çevrilə bilərdi ki, bu da rəncbərlərin sıralarının artmasına səbəb olurdu. Quba, Şəki, Qarabağ və başqa yerlərin xanları çoxlu kəndli torpağını tutub rəiyyəti rəncbərlərə çevirirdilər. Quba və Qarabağ xanlarının fərmanları ilə xeyli kəndli rəncbər kimi bəy və məmurların şəxsi ixtiyarına verilmişdi. Quba xanlarının dərc olunmuş 24 fərmanından 10-da belə hallara təsadüf edilir.

Rəncbərlərin sayı təkcə rəsmi yolla deyil, digər formada da artırdı. Belə ki, öz şəxsi təsərrüfatından məhrum olaraq, məhsuldan pay vermək şərti ilə feodalların torpaqlarını icarəyə götürməyə məcbur olan yoxsullaşmış rəiyyətlər rəncbərə çevrilirdi. Belə hallarda feodallar məhsulun altıda iki hissəsindən ikidə bir hissəsinə qədərini rəncbərlərə verirdilər. Başqa xanlıqlardan gələn qaçqınlar və hərbi əsirlər də rəncbərlərin sıralarını artırırdılar. 1758-ci ildə Şirvan əyanları Quba xanlığının Beşbarmaq mahalına basqın edərək, oradan 200 ailə aparmışdı. Əsirlər torpaq alıb rəiyyət kimi işləyir və yaxud rəncbərlərə çevrilirdilər. Xanlar işçi qüvvəsinə ehtiyac hiss edərək, başqa xanlıqlardan gələn qaçqınları rəncbərlərə çevirir və öz topaqlarında yerləşdirirdilər.

Rəncbərlər təhkim olunduqları təsərrüfatı özbaşına tərk etmək hüququndan məhrum idilər. Feodallar isə istədikləri kimi rəncbərləri bir yerdən digər yerə köçürə bilərdilər. Feodallıqlarda rəncbərlər institutunun meydana çıxması Azərbaycan kəndlərinin daha da yoxsullaşması prosesinin nəticəsi idi.

Kənd əhalisinin tərkibinə köçəri elatlar adlanan **maldarlar** daxil idilər. Onlar köçəri tayfa əyanlarından asılı idilər. Elatlar tədricən oturaqlığa keçir, maldarlıqla yanaşı, əkinçiliklə də məşğul olmağa başlayırdılar. Lakin bir sıra vergi və mükəlləfiyyətlərdən azad olduqlarına və əhalinin köçəri hissəsinin vəziyyəti nisbətən yaxşı olduğuna görə bu proses ləng inkişaf edirdi.

XVIII əsrdə **kənd icması** üzvlərinin də vəziyyəti yaxşı deyildi. Bir çox ailələr feodallardan şəxsən asılı idilər. İcmaçıların asılı kəndlilərə çevrilmə prosesi Azərbaycanın, demək olar ki, bütün xanlıqlarında baş verirdi. İcmaçıların nökərlərə çevrilməsi halları da olurdu.

XVIII əsrin ikinci yarsında Azərbaycanda şəhər əhalisinin əsas hissəsini tacirlər, sənətkarlar və şəhər yoxsulları təşkil edirdi. Şəhərlərdə həmçinin xan aristokratiyası xüsusi zümrəyə daxil idi. Ruhanilərin saxlanması da xalq kütlələri üçün ağır bir yük idi.

Səfəvilər dövründə mövcud olmuş feodal torpaq mülkiyyəti formaları Azərbaycan xanlıqlarında daha da inkişaf etmişdi. Xanlığın ərazisində olan bütün torpaqlar xanların mülkiyyəti hesab olunurdu və rəsmi olaraq dövlət torpaqları

xanların şəxsi torpaqlarından ayrılmırdı. Divan torpaqları ilə şəxsi xassə torpaqları arasında formal fərq ləğv olunmuşdu. Hər iki torpaq mülkiyyəti hüquqi cəhətdən xan torpaqları hesab edilirdi.

Xidmət əvəzinə verilən torpaqlar **tiyul** adlanırdı. Xan tiyul paylayarkən xüsusi vəsiqə - təliqə verirdi. Tiyuldarın varislik hüququ xan tərəfindən formal olaraq təsdiq edilirdi. Qarabağ, Naxçıvan, Quba xanları və başqa xanların fərmanlarında tiyul mükafatı renta və ya onun bir hissəsini almaq hüququ ilə bərabər, qışlaqlara və yaylaqlara, habelə qışlaq və yaylaqlarda sakin olan kəndlilərə də aid olurdu.

Quba xanlarının fərmanlarından aydın olur ki, tiyul sahiblərinin – tiyuldarların, onların şəxsi asılılığına verilən adamları öz ixtiyarında saxlamaq hüququ mövcud olmuşdur. Belə hüquqlara başqa dövrlərin tiyul vəsiqələrində də təsadüf edilir; bu hal feodal institutu tiyulun feodal-asılı münasibətlərin dərinləşməsinə doğru təkamülünü aydın sübut edirdi.

Bu dövrdə mülk torpaq sahibliyi olduğu kimi qalmışdır. Mülk sahibləri xana qulluq etməyə borclu deyildilər, lakin əksər hallarda aldıqları gəlirin bir hissəsini vergi olaraq dövlətin xəzinəsinə verməli idilər. Mülk sahiblərinin çox az hissəsi vergi verməkdən azad idi. Mülkədarın bu qrupu mülk **xalisə sahibləri** adlanırdılar. Xanlıqlarda mülk torpaq mülkiyyəti geniş yayılmışdı. Şəriət məhkəmələrinin qərarlarında, bəzən isə xanların fərmanlarında və digər sənədlərdə çoxlu mülk alınıb-satılmasına rast gəlinirdi. Torpaqlarla bərabər, suvarma arxları və kəhrizlər də satılırdı.

Azərbaycan xanlıqlarında vəqf torpaqları və vəqf mülkiyyəti əvvəlki dövrlərdə olduğu kimi qalmaqda davam edirdi. Belə ki, Şuşa məscidlərinin çoxlu torpağı, dükanı və evi var idi. Bakı yaxınlığındakı böyük torpaq sahələri Bibiheybət şeyxlərinin vəqf yerləri sayılırdı.

XVIII əsrdə kənd icmalarına məxsus torpaqlar daha çox **camaat torpaqları** kimi tanınırdı. Məmurlar və adlı-sanlı adamlar, köçəri tayfa başçıları, dövlət vergilərini icarəyə götürənlər, sərmayəçilər və tacirlər tərəfindən camaat torpaqlarının zorla tutulması halları olurdu. Bunun nəticəsində icma torpaqlarının,

habelə ayrı-ayrı kəndlilərin mülkiyyətini təşkil edən torpaqların sahəsi getdikcə azalırdı.

Azərbaycan xanlıqlarında vergi və mükələffiyyətlər, demək olar ki, əvvəlki əsrlərdə olduğu kimi qalırdı. Məhsul rentası ilə yanaşı, mükəlləfiyyətlə və pulla ödənilən vergi formaları da mövcud idi. Azərbaycan xanlarının saray, məmur və başqa ehtiyacları külli miqdarda xərc tələb edirdi ki, bunların əsas ağırlığı rəiyyətin üzərinə düşürdü.

Əsas məhsul vergisi **malcəhət** adlanırdı. Müxtəlif xanlıqlarda malcəhətin miqdarı onda bir hissəsindən üçdə bir hissəsinə qədər idi. Salyana (yəni, "illik", "hər illik") vergisi Qarabağ xanlığında malcəhətin divan xeyrinə yığılan hissəsini təşkil edirdi. Feodallar otlaqlardan istifadə etmək müqabilində rəiyyətdən əlavə vergi – **çöpbaşı** alırdılar. Kəndlilərdən bağ məhsulunun onda bir hissəsinə bərabər **bağbaşı** adı ilə xüsusi vergi toplanırdı. Bayram günlərində rəiyyətlər feodallara – **bayramlıq** gətirməli idilər. Kəndlilərdən həm də toy pulu alınırdı.

Rəiyyət xanlara başqa vergilər verməli və məhsulla ödənilən mükəlləfiyyət yerinə yetirməli idi. O cümlədən darğalıq, töycü, mancanaq pulu, toxucu pulu, dəyirman pulu, dabbaq pulu, duz pulu, qapan pulu, xırdavat pulu, şirəxana pulu, ilxıcı, vəzirlik, at arpası, cizyə, otaq xərci, bağbaşı, dırnaqlıq, cütbaşı, peşkəş, zəkat, xüms, rüsum və s. adlanırdı. Bunlardan başqa şəhər əhalisindən bazar gözətçiləri və vergi yığanlar üçün də müəyyən vergi toplanırdı. Kəndlilər torpaq sahiblərinin xeyrinə ildə üç gündən altı günə qədər **biyar** və iki gün **əvrəz** adlı işləyib ödəmə mükəlləfiyyətlərini də icra edirdilər.

Dövlət və feodallardan torpaq icarə edən kəndlilərin vəziyyəti son dərəcə ağır idi. Belə ki, məhsulun ikidə birindən beşdə üç hissəsinə qədəri, bəzi hallarda isə üçdə iki hissəsinə qədəri torpaq sahibinə verilirdi. İcarənin belə forması **paydarlıq** adlanırdı. İcarə haqqının həcmi müəyyən edildikdə, feodalın icarədarı toxum, inventar və iş heyvanı ilə nə dərəcədə təmin etməsi nəzərə alınırdı. Paydarlığın geniş yayılmış forması məhsulun ikidə birini vermək şərti ilə olan icarə idi. Bu cür icarədarlara **yarıkərlər** deyilirdi.

Azərbaycan xanlıqlarında **elatlar** da müxtəlif vergi ödəyir və mükəlləfiyyətlər yerinə yetirirdilər. Köçərilər bəylərin sürüsünü otarır, qoyunlarını qırxır, feodalın maldarlıq təsərrüfatında müxtəlif iş görürdülər. Otlaqlardan istifadə etmək əvəzində elatlardan xan xəzinəsi xeyrinə vergilər alınırdı. Xanın qoşunu əsas etibarilə köçərilərdən toplanırdı. Lakin ümumiyyətlə götürüldükdə, elatların vəziyyəti rəiyyətin vəziyyətinə nisbətən yüngül idi. Hakim sinfin mühüm təbəqəsini təşkil edən köçəri tayfa əyanları zəhmətkeş elatları bilavasitə istismar etməkdən daha çox, onların ixtiyarına verilmiş rəiyyətlərdən **renta** almaq yolu ilə gəlir əldə edirdilər. Feodal qoşunun əsas qüvvəsini köçərilər təşkil etdiyindən, elatlar üzərinə daha ağır vergilər qoyulması onları bir əsgər kimi etibarsız edə bilərdi. Əsas vergi olan **çobanbəyi** mal-qara, yağ, pendir və yun ilə alınırdı. Çobanbəyinin bir hissəsi pulla ödənilirdi.

***Xanlıqların dövlət quruluşu.*** Azərbaycan xanlıqlarında dövlətə qeyri-məhdud hakimiyyətə malik olan **xan** başçılıq edirdi. Xanların hakimiyyəti irsi xarakter daşıyırdı. Onların daxili və xarici siyasəti hakim feodal-torpaq sahibləri sinfinin mənafeyini müdafiə edirdi. Xan qanunverici, icraedici və məhkəmə hakimiyyətinə malik idi. Onun cinayət işləri üzrə ölüm hökmü çıxartmaq və yaxud əfv etmək hüququ var idi.

Azərbaycan xanlıqlarında məşvərətçi statusuna malik olan **divani-şura** fəaliyyət göstərirdi. Divani-şuranın (dövlət şurası) tərkibi xan tərəfindən müəyyən edilirdi. Dövlət şurası xanın göstərişi ilə toplanırdı. Müzakirə edilən məsələlər – müharibə və sülh, vergilərin bölüşdürülməsi, mühüm cinayət işləri və s. məsələlər barəsində xan divan şurası üzvlərini dinləyirdi. Qərar qəbul edilməsində xanın rəyi əsas götürülürdü. Qarabağ xanlığında divani-şuranın tərkibinə İbrahim Xəlil xanın qohumları və adlı-sanlı bəylər daxil idi. Bunlardan hər biri "öz sərvəti, nökərlərinin sayı və dəstgahı etibarı ilə başqa vilayətlərin xanlarına bərabər idi.

İrəvan xanlığında idarəçilik şərti olaraq dörd hissədən ibarət idi: saray idarəsi, hərbi idarə, maliyyə idarəsi, icra, yaxud polis idarəsi. Belə idarəetmə forması, demək olar ki, bütün xanlıqlarda olmuşdur.

Xanlıqların idarəetmə sistemində saray məmurları geniş yer tuturdu. Onların içərisində vəzir xüsusi mövqeyə malik idi. Xanın ən yaxın köməkçisi olmaqla vəzir, bəzən xan səfərlərdə olarkən onu əvəz edirdi.

Xan sarayında vəzirdən başqa **sərkərəli** (maliyyə işlərinə baxan), **eşikağası** (xanın şəxsi təsərrüfatının idarəçisi), əmiraxur (baş mehtər), **sandıqdar ağası** (xəzinədar), **anbardar ağası** və digər vəzifələr də var idi. Xan eşikağasının vasitəsilə şikayətlərə baxırdı. Naxçıvan xanlığında maliyyə işləri ilə 20 nəfər məmur məşğul olurdu. Əhalinin siyahıya alınması, yasavullar vasitəsilə vergilərin toplanması da maliyyə idarəsinə həvalə edilmişdi. Bu sahədə naiblər, kəndxudalar və xüsusilə xan tərəfindən təyin olunan sərkərdələr əsas rol oynayırdılar. Natural vergilərin yığılması ilə darğalar məşğul olurdular. Onlar polis funksiyasını da icra edirdilər. Yüzbaşılar və kəndxudalar kənd ağsaqqalları hesab olunurdular.

Azərbaycan xanlıqları inzibati cəhətdən mahallara bölünürdü. Mahalları naiblər idarə edirdilər. İrəvan xanlığında 14 (Qırxbulaq, Vedibasar, Şərur, Sürməli, Saatlı, Seyidli, Sərdarabad, Talin, Zəngibasar, Abaçan, Dərəçiçək, Dərəkənd, Gərnibasar, Göyçə), Şəki xanlığında 8, Gəncə xanlığında 5, Qarabağ xanlığında 21, Quba xanlığında 7, Talış xanlığında 6, Naxçıvan xanlığında 5, Xoy xanlığında 11, Urmiya xanlığında 14 mahal var idi. Mahallar öz növbəsində kəndlərə bölünürdü. Kəndlər yüzbaşı və ya kəndxuda, şəhərlər isə **kələntərlər** və yaxud **qalabəyi** tərəfindən idarə olunurdu.

Azərbaycan xanlıqlarının özünün **pul sistemi** mövcud olmuşdur. Onlar zərbxanalar açıb öz adlarından pul buraxırdılar. Naxçıvanda, Təbrizdə, Gəncədə, Pənahabadda, Şəkidə, Şamaxıda, Bakıda və Dərbənddə zərbxanalar var idi. Hər bir xan mis və gümüşdən abbasılar kəsməyə başlamışlar.

Azərbaycan xanlarının hər birinin müstəqil qoşunu var idi. Xanlar muzdlu qoşuna da üstünlük verirdilər. Digər hallarda isə xan qoşunu maaflar və bəylər – tiyuldarlar tərəfindən göndərilən silahlı dəstələrdən toplanırdı. Naxçıvan xanlığında hərbi işlərə şəxsən xan özü nəzarət edirdi. Xanlığın bütün ordusu 1000 nəfər idi. Bunlardan 800 piyada, 200 atlı idi. Bütün bu orduya bir səhəng, 8 sultan, 16 naib və bir neçə yüzbaşı başçılıq edirdi. 800 nəfərlik piyada **sərbaz** adlanırdı.

Orduda möhkəm intizam var idi. Sərbazlar hər hansı bir xəta üstündə dərhal cəzalandırırdılar. Daxili asayişin qorunmasında **tüfəngçilərdən** istifadə edilirdi. Qarabağ xanlığında elatlar süvari qoşuna daxil idilər. Şirvan xanlığında isə köçəri xançobanı tayfası mühüm bir hərbi qüvvə idi. Şirvan qoşunlarının sayı 6 min nəfərə çatırdı. Şəki xanlığında piyadaların sayı 12 min nəfər idi. Xan qoşununda maaflar da mühüm yer tuturdu. Onlar etibarlı hərbi qüvvə sayılırdılar.

## Praktiki məşğələ

### Plan:

1. XVIII əsrin II yarısında Azərbaycanın dövlətçiliyində yeni idarəçilik sistemlərinin yaranmasını şərtləndirən amillər. Xanlıqların yaranması və onların səciyyəvi cəhətləri.
2. Şimali Azərbaycan xanlıqları.
3. Cənubi Azərbaycan xanlıqları.
4. Xanlıqların siyasi quruluşu və idarə aparatı.

### Ədəbiyyat


1. Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları. B., 1996
2. Qarabağnamələr. B., 1989
3. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. B., 1996
4. Əmirbəyova N. Xanlıqlar dövründə Azərbaycanın hərb tarixi məsələləri. B., 2004
5. İsmayılov M., Bağırova M. Şəki xanlığı. B., 1997
6. Mustafayeva N.İ. Cənubi Azərbaycan xanlıqları. B., 1995
7. Mustafazadə T. Quba xanlığı. B., 2005

# IX FƏSİL
# RUSİYA VƏ İRAN ƏSARƏTİ ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA İDARƏÇİLİK (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ)

XVIII əsrin sonu XIX əsrin başlanğıcında Azərbaycanın daxili və beynəlxalq vəziyyəti olduqca mürəkkəb idi. Ölkənin ərazisi xırda feodal dövlətlərinə (xanlıqlara) bölünmüşdü. Ayrı-ayrı xanların (Şəki, Qarabağ, Urmiya və s.) xanlıqları bir mərkəzdə birləşdirmə cəhdləri baş tutmadı. O dövrdə öz coğrafi vəziyyətinə görə Azərbaycan beynəlxalq münasibətlərdə mühüm yer tuturdu. Buna görə də Azərbaycan xanlıqları öz hakimiyyətlərini qorumaq üçün ölkəyə göz tikmiş Rusiya, İran, Osmanlı dövləti, İngiltərə və Fransa arasında manevrlər edirdilər. Bu dövrdə Azərbaycan üçün ən təhlükə şimalda Rusiya idi.

Rusiya çarizmi Cənubi Qafqazı, o cümlədən Azərbaycanı ilhaq etmək üçün təcili planlar hazırlayırdı.

1801-ci ilin sentyabrında Şərqi Gürcüstan Rusiyaya birləşdirildi. Rus çarı Gürcüstanın ardınca Azərbaycanı ələ keçirtmək niyyətində idi. Şərqi Gürcüstanda möhkəmləndikdən sonra Rusiya Azərbaycanın işğalına başladı. İlk zərbə hərbi-strateji əhəmiyyətli Car-Balakənə endirildi. Car-Balakən camaatlığının müqavimətinə baxmayaraq 1803-cü ilin martın 8-də Balakən tutuldu və dağıdıldı.

Rusiya qoşunlarının Qafqaz üzrə komandanı general Sisianovun sonrakı planında Gəncə xanlığı dururdu. Ona görə ki, Gəncə qalası rus qoşunlarının Azərbaycanın içərilərinə irəliləməsi üçün açar idi.

1804-cü il yanvarın ilk günlərində rus qoşunlarına qarşı mərdliklə vuruşan Gəncə xanı Cavad xan son damla qanına kimi vuruşdu. Bu döyüşdə Cavad xan və oğlu Hüseynqulu ağa da həlak oldular. Gəncə xanlığı ləğv olundu və dairəyə çevrildi, şəhər öz qədim adını itirdi, I Aleksandrın arvadının şərəfinə Yelizavetpol adlandırıldı. “Gəncə” adını çəkmək qadağan olundu.

Gəncənin işğalı rus qoşunlarının Azərbaycanın içərilərinə irəliləməsinə şərait yaratdı. Bu isə Cənubi Qafqaza iddia edən İranın kəskin etirazına səbəb oldu. Nəticədə 1804-cü il iyunun 16-da iki dövlət arasında müharibə başlandı.

Rusiya Azərbaycan xanlarını özünə tabe etmək işini sürətləndirdi. Sisianov Qarabağ xanı İbrahimxəlil xana təzyiqi gücləndirdi. Qarabağ xanı Rusiya tabeliyinə üstünlük verdi. 1805-ci il mayın 14-də Sisianovun Gəncə yaxınlığındakı Kürəkçay düşərgəsində Qarabağ xanlığı ilə Rusiya arasında 11 maddədən ibarət müqavilə imzalandı. Beləliklə, Qarabağ xanlığı Rusiyanın vassallığını qəbul etdi. Mayın 21-də şəkili Səlim xan da Rusiya ilə müqavilə imzaladı.

Qarabağla müqavilə Rusiyanın strateji mövqeyini möhkəmləndirdi.

1808-ci ildə Bakı və Quba, 1813-cü il yanvarın 1-də Lənkəran xanlığı rus ordusu tərəfindən alındı. İran Rusiya ilə danışıqlara başlamalı oldu. 1813-cü il oktyabrın 12-də Gülüstanda (Qarabağ) müqavilə imzalandı. Müqaviləyə görə Naxçıvan və İrəvan xanlığı istisna olmaqla bütün Şimali Azərbaycan Rusiyanın hakimiyyəti altına düşdü, Rusiya Xəzər dənizitndə tam hökmranlığına nail oldu.

Rusiyanın 1804-1813-cü illər Rusiya-İran müharibəsindəki qələbəsi, həmçinin Rusiyanın Cənubi Qafqazı zəbt etməsi ilə İran heç cürə barışa bilmirdi. İngiltərə də İranı Rusiya ilə yeni müharibəyə təhrik edirdi.

Şah sarayı ingilislərin köməyi ilə öz ordusunu gücləndirməkdə Türkiyədən də kömək almağa çalışırdı.

1826-cı il mayın 26-da İran qoşunları hücum halına gətirildi. İki aydan sonra isə, iyulun 19-da Abbas Mirzənin 60 minlik ordusu Şimali Azərbaycana girdi. İran qoşunlarının hücumu və bir çox əraziləri zəbt etməsi, keçmiş xanların, bəylərin fəallığını artırdı.

Rus generalı Yermolov keçmiş Azərbaycan xanlarına qarşı sərt tədbirlər görmək qərarına gəldi. Burda bir məsələni vurğulamaq lazımdır ki, İran qoşunları və feodalları Şimali Azərbaycanda olduqca soyğunçu, viranedici hərəkət edirdilər. Ona görə də yerli əhali onlara qarşı çıxırdı.

1827-ci ildən Rus qoşunları cəbhəboyu irəliləməyə başladı. Oktyabrın 13-də rus qoşunu Təbrizə daxil oldu. Təbrizin idarə olunması üçün İ.Q.Burtsev

komendant təyin edildi. Təbrizin ələ keçirilməsi ilə Tehrana yol açıldı. Qorxuya düşən şah hökuməti sülh xahiş etdi. Rusiya hökuməti razılaşdı. Müqavilə 1828-ci il fevralın 10-da (22-də) bağlandı.

Tarixə "Türkmənçay müqaviləsi" kimi daxil olmuş müqaviləyə əsasən İrəvan və Naxçıvan xanlığı ilə birlikdə Şimali Azərbaycan Rusiyanın tabeliyinə verildi. Cənubi Azərbaycan isə İranın tərkibində qaldı. Beləliklə, yadellilər tərəfindən zorla iki yerə ayrıldı.

Türkmənçay müqaviləsinə görə ermənilərin maneəsiz olaraq İran ərazisindən Rusiya ərazisinə keçməsinə imkan verildi. Nəticədə İrandan, Suriyadan, Türkiyədən ermənilərin Zaqafqaziyaya kütləvi axını başladı. Az bir vaxtda İrandan 40, Türkiyədən 84 min erməni Zaqafqaziyaya köçürüldü. Yelizavetpol (Gəncə) və İrəvan quberniyasından 200.000 min desyatin torpaq gəlmə ermənilərə verildi. Yerli azərbaycanlılar bundan çox narahat olmuşdu. Ancaq yerli əhalini inandırırdılar ki, güya ermənilər bu yerlərə müvəqqəti köçürülür.

Ermənilərin Qarabağa kütləvi köçürülməsi əhalinin milli tərkibində xeyli dəyişiklik yaratdı. Belə ki, 1832-ci ildə Qarabağ əhalisinin 91%-ni azərbaycanlılar, 8,4 %-ni ermənilər təşkil edirdi. Köçürmə siyasəti nəticəsində bir neçə il ərzində azərbaycanlıların faizi 64,8%-ə, ermənilərin faizi isə 34,8%-ə qalxdı.

İkinci Rusiya-İran müharibəsindən sonra Rusiya ilə Türkiyə arasında münasibətlər gərginləşdi. Xəzər dənizinə sahib olmuş Rusiya Qara dəniz və onun boğazlarını ələ keçirtmək istəyirdi.

1828-ci ilin aprelində Rusiya Türkiyəyə müharibə elan etdi. Bu müharibədə də Rusiya üstünlük qazandı. 1829-cu il sentyabrın 2-də (14-də) Ədirnədə sülh müqaviləsi bağlandı.

Ədirnə sülhü Şimali Azərbaycanın və eləcə də bütün Cənubi Qafqazın Rusiya tərəfindən zəbt olunmasını təsbit etdi.

***İctimai quruluş.*** Gülüstan müqaviləsindən sonra tarixi Azərbaycan ərazisi və Azərbaycan xalqı yadellilər tərəfindən zorla iki yerə parçalandı. Tarix ədəbiyyatına "Şimali Azərbaycan" və "Cənubi Azərbaycan" məfhumu yazıldı. Bununla da

Şimali Azərbaycan bütün iqtisadi siyasi cəhətdən Rusiyaya, Cənubi Azərbaycan isə İrana bağlandı. Beləliklə Azərbaycanın həm Şimal, həm də Cənub ərazilərində dövlətçilik itirilmiş oldu.

İlk gündən Rusiya çarizmi Zaqafqaziya ölkələrinə, o cümlədən Azərbaycana özünün müstəmləkəsi kimi baxmağa başladı. Beləliklə çarizm bu yerləri öz sənayesini sənaye-texniki xammal təchizatçısına və satış bazarına çevirmək siyasətini elan etdi.

Çar hökuməti öz iqtisadi siyasətini həyata keçirtmək üçün Azərbaycanın təbii zənginliklərinə maraq göstərdi. Ən əvvəl çarizm Azərbaycan xanlarının, həmçinin Türkiyə və İrana qaçmış feodalların, iri torpaq sahiblərinin torpaq və əmlaklarına sahib oldu. Bu torpaqlarda yaşayan və işləyən kəndlilər dövlət xəzinəsinin ixtiyarına keçirildi. Belə kəndliləri dövlət kəndliləri adlandırırdılar. Dövlət torpaqları ilə yanaşı Azərbaycanda mülk sahibi olan feodal və bəy torpaqları da var idi. Torpaq sahiblərindən asılı olan və həmin torpaqları becərən kəndlilər sahibkar kəndliləri adlanırdı. Torpaqların əksəriyyəti dövlətin əlində olduğundan, say etibarı ilə dövlət kəndliləri sahibkar kəndlilərdən təxminən üç dəfə çox idi. Bütövlükdə kəndlilər iki qrupa: rəiyyətlərə və rəncbərlərə bölünürdülər. Rəiyyətlər keçmişdə olduğu kimi çarizm dövründə də öz əmək alətləri ilə torpağı becərir, götürdükləri məhsulun müəyyən hissəsini xəzinəyə, yaxud da sahibkara verirdilər. Rəncbərlər isə tamam asılı vəziyyətdə olan təbəqə idilər. Onların nə torpağı, nə də əmək alətləri var idi. Rəncbərlər ağalara xidmət edir, onların torpaqlarında çalışırdılar. İstər dövlət kəndliləri və istərsə də sahibkar kəndliləri torpaqdan elliklə istifadə edirdilər. Belə ki, hər bir kəndin istifadəsində müəyyən qədər torpaq sahəsi olurdu, kəndlilər birgə becərir, vergiləri də birgə ödəyirdilər.

Çarizm Zaqafqaziyanı zəbt etdikdən sonra regionda bir neçə torpaq islahatı keçirdi. 1840-cı il 10 aprel qanununa əsasən çar hökuməti Zaqafqaziyada xan və bəyləri dövlət qulluğundan kənar edərək, demək olar ki, onların bütün imtiyazlarını əllərindən aldı. 1841-ci il qanunu ilə onların tiyul torpaqları da ləğv edildi. Bu isə yerlərdə çox böyük narazılıqla qarşılandı. Narazılıqların qarşısını almaq üçün çar

1846-cı il 6 dekabrda yeni bir qanun imzaladı. Yeni qanuna əsasən tiyul torpaqları feodalların mülkü kimi tanınırdı. Yəni çarizm narazı feodalları öz tərəfinə çəkmək üçün yeni siyaəst yeritdi.

Azərbaycanda yerli şəraiti, buranın istehsal və maliyyə imkanlarını dəqiq öyrənmək üçün xüsusi komissyia yaradıldı. Maliyyə naziri Y.F.Kankin Qafqaza öz məmurlarını göndərdi. Komissiyanın məlumatları əsasında vergi, mükəlləfiyyətlər və onların həcmi müəyyənləşdi. Kəndlilər istifadə etdikləri torpağın müqabilində dövlət xəzinəsinə, bəy və sahibkara vergi verir, müəyyən mükəlləfiyyətlər daşıyırdı. Vergilər əsasən natura ilə ödənilirdi. Bəzi yerlərdə vergi pulla da ödənilirdi. Ən geniş yayılmış **vergi-malcəhət** idi.

**Malcəhət** – torpaq sahəsinin kəndlinin vəsaiti (iş heyvanı, kənd təsərrüfatı alətləri, toxum) hesabına becərilməsi şərti ilə istənilən kənd təsərrüfatı bitkisi məhsulunun sahibkarın xeyrinə ayrılan 1/10 hissəsi əsas məhsulla toplanan mükəlləffiyyət idi. Bu və ya digər mükəlləfiyyətlər Rusiya çarı tərəfindən 1847-ci il 20 aprel “Əsasnaməsi”ndə müəyyənləşdirilmişdi. “Əsasnamə”də o da qeyd olunurdu ki, 15 yaşından yuxarı kişi cinsindən olan hər bir kəndliyə taxılçılıq, maldarlıq və bostançılıq üçün 5 desyatin torpaq ayrılmalı idi.

“Əsasnamə” başdan-başa sahibkarların mənafeyinə xidmət edirdi. “Əsasnamə”yə görə kəndlilər elliklə sahibkar malikanələrində arxlar və yollar çəkməli, köhnə tikililəri təmir etməli idilər və s.

XIX əsrin ikinci yarısında Azərbaycan çar Rusiyasının əsas xammal mərkəzlərindən biri sayılırdı. Burada əkinçilik (buğda, arpa, pambıq), ipəkçilik, tütünçülük, texniki bitkilərdən qızılboya istehsalı, maldarlıq, şərabçılıq və s. xeyli inkişaf etmişdi.

Bununla da XIX əsrin ikinci yarısından Azərbaycanda kənd təsərrüfatı məhsulları əmtəə xarakteri almağa başladı.

***Şəhərlər***. XIX əsrin əvvəllərində Azərbaycanda 9 şəhər var idi. Bunlar: Şamaxı, Bakı, Yelizavetpol, Nuxa, Şuşa, Quba, Lənkəran, Naxçıvan, Ordubad.

Ən böyük şəhər Şamaxı sayılırdı. Şamaxı rəsmi olaraq Şirvan əyalətinin, 1840-cı ildən 1846-cı ilədək Xəzər vilayətinin, 1846-cı ildən 1859-cu ilədək

Şamaxı quberniyasının mərkəzi olmuşdur. 1859-cu ildə baş vermiş ağır zəlzələ Şamaxını demək olar ki, dağıtmışdı. Zəlzələdən sonra şəhər bərpa edilməyə başladı. Nəticədə şəhər əhalisi çoxaldı. Əgər 30-cu illərin əvvəllərində Şamaxıda 10 minə yaxın əhali yaşayırdısa, 1850-ci ilə yaxın artıq 19.733 əhali yaşayırdı.

Azərbaycanın digər şəhərlərində də o dövrdə əhali sürətlə artırdı. Belə ki, Bakıda 10.118-dən 15.191-ə, Yelizavetpolda (Gəncə) 9.164-dən 16.700-ə çatmışdı və s. Azərbaycanın şəhər əhalisinin ümumi sayı müvafiq olaraq 84 mindən 100 min nəfərə çatdı. Şimali Azərbaycanın şəhər əhalisi ümumi əhalinin sayının 10 faizini təşkil edirdi.

Çar hökuməti şəhərlərin idarə olunmasını şəhər polisinə həvalə etmişdi. Şəhər polisinin tərkibinə xüsusi pristavlar, məhəllə nəzarətçiləri, kovxa və mühafizə dəstəsi daxil idi.

Azərbaycan şəhərlərinin iqtisadi həyatının əsasını sənətkarlıq, ticarət və əkinçilik təşkil edirdi. Sənətkarlar əsasən şəhərlərdə olurdu. Bir çox şəhərlərdə sənətkar məhəllələri var idi. Məsələn, qalayçı, dəmirçi, pinəçi məhəlləsi və s.

Sənətkarlar xəzinəyə xeyli vergi ödəyirdi. Şəhər sakinləri əkinçilik, bostançılıqla yanaşı maldarlıqla da məşğul olurdular.

İldən-ilə şəhərlər inkişaf edirdi. Bir çox şəhərlərdə iki mərtəbəli evlər, binalar tikilirdi.

Çar hökuməti 1870-ci il iyun ayının 16-da şəhər əsasnaməsini qəbul etdi. Doğrudur, bu əsasnamə ayrıseçkilik mülahizələrinə görə Zaqafqaziyada gec həyata keçirildi. Çarın bu əsasnaməsi 8 ildən sonra Bakıda tətbiq edildi. O vaxt Bakı neft sənayesi sahəsində öndə gedən və bura xarici sərmayəçilərin axını olan şəhər idi. 1877-ci ilin dekabrında Bakı şəhər dumasına seçkilər keçirildi. Seçkilərdə mövqeyi və var-dövləti olan insanlar əsasən seçir və seçilirdilər. Seçkilərdə xristianlara üstünlük verilirdi. Belə ki, 1886-1889-cu illərin duma seçkilərində 3541 azərbaycanlı və cəmi 732 rus və erməni bərabər sayda qlasnı (deputat) seçməli idilər.

1892-ci ildə çar III Aleksandr yeni şəhər əsasnaməsi imzaladı. Bu əsasnamədə şəhər qubernatorunun səlahiyyətləri xeyli genişləndirildi. Qubernator

şəhər dumasının hər bir hərəkətlərini müzakirə etmək hüququna malik idi. Yeni əsasnamədə seçicilərin sayı daha da məhdudlaşdırıldı. Belə ki, seçki hüququ yalnız hakimiyyət strukturlarında təmsil olunanlara, xeyriyyəçi, maarif, elm sahəsi ilə məşğul olan şəxslərə verilirdi. Bununla belə həmin seçicilərin daşınmaz əmlakı 300-dən 3000 rubla qədər (o vaxt bu çox böyük məbləğ idi) qiymətləndirilməli idi. Yəni, yalnız var-dövlət sahibləri seçkidə iştirak edə bilərdilər. 1897-ci ildə Quba şəhərinin 15363 nəfər sakinindən ancaq 217 nəfər (1,4 %), Şamaxının 20 min sakininin 630 nəfəri (3,1 %) seçkidə iştirak edə bilmişdir.

Yeni şəhər əsasnaməsində milli ayrıseçkilik daha da qanuniləşdirildi, yerli xalqların hüquqları daha çox pozulurdu. Belə ki, Bakı dumasında xristian olmayan qlasnıların (əsasən azərbaycanlıların) sayı bütün deputatların ⅓ hissəsini təşkil edirdi.

XIX əsrin əvvəllərində Rusiya istər iqtisadi, istərsə də siyasi cəhətdən Avropa ölkələrindən xeyli geri qalırdı. Belə ki, Avropa ölkələrinin əksəriyyətində artıq XV-XVI əsrlərdə kapitalist istehsal üsuli bərqərar olmuşdusa, Rusiya hələ də geri qalmış kəndli ölkəsi idi.

XIX əsrdən başlayaraq Rusiya qabaqcıl dünya təcrübəsindən faydalanaraq iqtisadi-sosial və texniki həyatın bütün sahələrində tərəqqiyə nail ola bildi. Belə ki, Rusiyada əvvəlcə manufakturalar, sonra isə fabrik və zavodlar yaranmağa başladı. Əsrin sonlarına yaxın isə Rusiya Avropanın 100 ilə keçdiyi yolu 15-20 ilə keçə bildi.

Nəticədə Rusiyada, o cümlədən onun müstəmləkəsi olan Azərbaycanda kəndli sinfi ilə yanaşı burjuaziya və fəhlə sinfi də meydana gəldi.

***Burjuaziya.***

Azərbaycanda iqtisadiyyat sahəsində baş verən mühüm proseslər sosial həyatda əhəmiyyətli nəticələrə gətirib çıxardı – burjuaziya və fəhlə sinfi meydana çıxdı. Ölkədə neft sənayesi ilə yanaşı digər istehsal sahələri – misəritmə, pambıqtəmizləmə, ipəksarıma və s. də sürətlə inkişaf edir, yeni sənaye mərkəzləri meydana çıxırdı. Bakı nəinki Şimali Azərbaycanın, həm də bütün Qafqazın ən iri sənaye mərkəzinə çevrilmişdi. 1897-ci ildə Bakı quberniyası əhalisinin 20%-i

(təqr. 112 min nəfər) burada cəmləşmişdi. 1889-1902-ci illərdə təkcə gəlmələrin hesabına Bakının əhalisi 21,6 min nəfər artmışdı. Azərbaycanın digər şəhərləri də böyüyürdü. Əsrin sonuna yaxın Quba şəhərində 18 min, Şamaxıda 23 min, Nuxada 26 min, Şuşada 26 min, Yelizavetpolda (Gəncə) 34 min əhali yaşayırdı.

Başlıca olaraq neft sənayeçilərindən, digər fabrik və zavod sahibkarlarından ibarət olan Azərbaycan burjuaziyası ilk vaxtlardan öz tərkibinə görə çoxmillətli idi.

XIX əsrin 70-ci illərinin sonu-80-ci illərin əvvəllərində Azərbaycanlı burjuaziyasının kapitalı neftayırma sahəsində geniş təmsil olunmuşdu. Belə ki, 1883-cü ildə Bakının 100 ağ neft zavodçusundan 40 nəfərdən çoxu azərbaycanlılar (H.Z.Tağıyev, N.Mehdiyev, A.M.Nuriyev, Q.S.Sadıqov, M.S.Səlimxanov və b.) idi. 90-cı illərin əvvəllərində isə sənaye sahəsində beynəlmiləlləşmə meyli digər sahələr kimi neft sənayesində də özünü göstərirdi.

Neft hasilatında Rusiyada külli miqdarda kapital qazanmış İsveç mənşəli kapitalistlər ölkədə inhisara çevrilmiş “Nobel qardaşları”nın şirkəti başçılıq edirdi. 1891-ci ildə Bakıda çıxarılan bütün neftin 13,2 faizi onlara məxsus idi.

Neft sənayesində rus kapitalını V.A.Kokorev, S.M.Şibayev, P.İ.Qubonin və b., erməni kapitalını isə A.İ.Mantaşev, Mirzoyev qardaşları təmsil edirdi.

Neft sənayesi kimi başqa sahələrdə də Azərbaycanın milli burjuaziyası getdikcə daha da genişlənirdi. Neftayırma və onunla əlaqədar olan kimya istehsalı sahəsində milli kapitalı Ş.Əsədullayev, M.Nağıyev, İ.Hacınski, M.Ə.Səlimxanov və b. müəssisələri ilə təmsil olunmuşdu. XX əsrə yaxın və XX əsrin əvvəllərində Azərbaycan kapitalı yüngül, yeyinti və bəzi digər sənaye sahələrində geniş təmsil olunmuşdu. Məsələn, ipək sənayesinin inkişafı başlıca olaraq Azərbaycan milli kapitalı ilə bağlı idi.

Tənbəki fabrikləri də yerli kapitalın nümyaəndələrinə - azərbaycanlı kapitalistlərdən M.Q.Dadaşov, Novruzov, Həsənov, Abdullayev, A.Sultanov və b., rus kapitalisti Pivovarova məxsus idi.

Azərbaycan kapitalı şərabçılıq və araqçəkmə sənayesində təmsil olunmamışdı.

Azərbaycan burjuaziyası Xəzər gəmi sahibləri içərisində mühüm yer tuturdu. Azərbaycanlı kapitalistlər – Hüseynov qardaşları, Dadaşov qardaşları, M.S.Manafov, H.Z.Tağıyev, Q.K.Aşurov, Rəsulovlar öndə gedirdilər.

XIX əsrin sonlarında bütün Xəzər donanmasındakı gəmilərin 44,4 faizi və bütün donanmanın yükgötürmə imkanlarının 42,1 faizi onlara məxsus idi.

Milli kapital Bakı, Şamaxı, Gəncə, Nuxa, Şuşa, Naxçıvan və b. şəhərlərdə ticarət burjuaziyasının əlində cəmləşmişdi.

Ölkədə demək olar ki, bütün taxıl, baqqaliyyə malları, yun, dəri məmulatları, meyvə və topdansatış ticarəti Azərbaycan burjuaziyasının əlində cəmləşmişdi. Ancaq hələ də neft və neft məhsulları, metal və metal məmulatları, meşə materialları və s. ticarətində xarici və rus ticarət kapitallarının əlindəydi.

XIX əsrin sonlarında Bakıda əsasən Rusiyanın kommersiya banklarının şöbələri açılmağa başlayır. 15 bank müəssisəsi və A.Ələskərov, Q.Arakelov, T.Haşımov və H.Z.Tağıyevə məxsus olan 5 bank kontoru fəaliyyət göstərirdi.

Kapitalist münasibətlərinin kənddə inkişafı ilə əlaqədar olaraq kənd burjuaziyası da formalaşırdı. Bu vaxt kəndlərdə ciddi sosial təbəqələşmə prosesi baş verirdi. Bu proses kəndlilər içərisindən kənd varlıları və qolçomaqların ayrılmasına səbəb olurdu.

Beləliklə, XIX əsrin II yarısında Azərbaycanda milli burjuaziya formalaşırdı.

***Fəhlələr.*** Dünyanın hər yerində olduğu kimi Azərbaycanda da meydana gələn kapitalizm özüylə bərabər, burjuaziya ilə yanaşı fəhlə sinfini də doğurdu. Bu proses o dövr Şimali Azərbaycanın sosial-iqtisadi və siyasi həyatında ən mühüm hadisələrdən biri idi.

Ancaq XIX əsrin ikinci yarısının əvvəllərində Şimali Azərbaycanda fəhlə sinfinin formalaşması prosesi hələ ləng gedirdi. Bu proses təbii ki, bu yerlərdə kapitalist sənaye inkişafının sürəti ilə əlaqədar idi. O vaxt fəhlələrin sayı da az idi.

1864-cü ildə neft çıxarılmasında kəndlilərin məcburi əməyinin ləğvindən sonra fəhlələrin muzdla tutulması sisteminə keçid ölkədə fəhlələrin sayının artmasına təkan verdi. 1873-cü ildə neft çıxarılması sahəsində fəhlələrin sayı 700 nəfərdən bir az çox idi. Əlbəttə, bu çox az idi.

XIX əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda fəhlələrin sayı sürətlə artmağa başlayır. Bu, sənaye kapitalizminin yüksək inkişafı ilə bağlı idi. Bu artım əsasən neft sənaye sahəsində daha çox nəzərə çarpırdı. Ona görə ki, inkişaf edən sənaye və nəqliyyatın fəhlə qüvvəsinə ehtiyacı günü-gündən artırdı. Fəhlə kadrlarının formalaşmasının ən mühüm sosial mənbəyi kəndlilər idi.

Azərbaycanda fəhlə kadrlarının sıralarına təkcə yerli kəndlilər deyil, həmçinin Rusiya quberniyalarından, Şimali Qafqazdan, Cənubi Azərbaycandan və s. yerlərdən Bakıya iş dalınca gələnlər də ildən ilə yox, gündən-günə çoxalırdı. Təkcə Cənubi Azərbaycandan gedənlər 1897-ci ildə Bakı və Yelizavetpol (GƏncə) quberniyaları fəhlələrinin 12,1 faizini təşkil edirdi.

1897-ci ildə təkcə Bakı və Yelizavetpol (Gəncə) quberniyalarında fəhlələrin sayı 78 min nəfər olmuşdu. Bunun da 55 min nəfəri Bakı quberniyasının payına düşürdü.

1900-cü ildə isə Şimali Azərbaycanda fəhlələrin sayı (kənd təsərrüfatı fəhlələri istisna edilməklə) 100-110 min nəfərə çatırdı. Bu, isə ölkədə fəhlələrin sayının necə sürətlə artdığını göstərir.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanın qəzalarında kənd təsərrüfatı xammalının emalı müəssisələrində də fəhlə kadrları formalaşırdı.

Bütün istehsal sahələrində qadınların xüsusi çəkisi çox aşağı idi. Fəhlələr içərisində uşaqların xüsusi çəkisi isə imperiya üzrə orta göstəricidən yuxarı idi.

Neft mədənləri, filiz yataqları, zavod və fabriklərin fəhlələri ağır istismara məruz qalırdı. Bir çox fəhlə tez-tez baş verən bədbəxt hadisələrin qurbanı olurdu. Bu cür şəraitdə Azərbaycanda 40 yaşından yuxarı olan fəhlələrin xüsusi çəkisi Rusiya göstəricisindən xeyli aşağı idi.

Azərbaycanda olan fəhlə kadrlar beynəlmiləl idi. Fəhlələr içərisində təkcə Rusiyanın 40-a yaxın millət və xalqının nümayəndələri vardı.

Fəhlələrin əksəriyyəti çox ağır şəraitdə yaşayır və işləyirdilər. Fəhlələrin özləri və uşaqları başdan-başa savadsız idilər.

Müəssisələrdə çalışan fəhlələrin sayı da müxtəlif idi. Elə şirkət, firma vardı ki, onların hər birində 80-100 fəhlə işləyirdi.

Ancaq ildən-ilə sahə müəssisələri genişləndikcə, istehsal gücü artdıqca fəhlələrin təmərküzləşməsi də artırdı. Belə ki, XIX əsrin 80-90-cı illərində Azərbaycanın bir sıra sənaye sahələrində və nəqliyyatında fəhlə kadrları formalaşırdı. Məsələn, 1899-cu ildə keçirilmiş yoxlamanın nəticələrinə görə, Bakının Balaxanı-Sabunçu rayonunda qeydə alınmış 18 min nəfərdən çox fəhlənin 61,2 faizi bir ildən çox, 31 faizi 3 il və daha artıq, 17,4 faizi isə 5 ildən yuxarı mədənlərdə işləyirdi. Bu sahədə də yeni, fəhlə sinfinin formalaşmasında kəndlərdən gələnlər böyük rol oynayırdı.

Beləliklə, XIX əsrin 70-90-cı illərində Azərbaycanda intensiv surətdə fəhlə sinfinin formalaşması prosesi getmişdir.

***Azərbaycan millətinin təşəkkülü.*** Bəşər tarixi göstərir ki, hər bir ictimai-siyasi quruluş, hər bir əsr özündən əvvəlkinə nisbətən daha mütərəqqi, daha sivil olur. Belə ki, kapitalizm də feodalizmə nisbətən ictimai həyatın bütün sahələrində inkişafla xarakterizə olunur.

Şimali Azərbaycanda kapitalizmin inkişafı, iqtisadi və mədəni səviyyənin yüksəlişi, ümumi bazarın yaranması, cəmiyyət strukturunun dəyişməsi, milli burjuaziyanın və fəhlə sinfinin formalaşması – bütün bu proseslər Azərbaycan millətinin təşəkkülünün ilkin obyektiv şərtləri oldu.

Digər millətlər kimi, insanların sabit, tarixi birliyi kimi formalaşmış Azərbaycan milləti də feodal pərakəndəliyinin ləğv edilməsi prosesində, iqtisadi birliklə dil, ərazi, mədəniyyət, şüur və psixoloji birliyin qovuşması əsasında meydana gəlir və inkişaf edirdi.

İqtisadi əlaqələrin möhkəmlənməsinin vacib şərti Azərbaycan millətinin ərazi birliyi idi. Əsrlər boyu Azərbaycan xalqı şimalda Böyük Qafqaz dağlarından, cənubda Qızıl Üzən çayına qədər, şərqdə Xəzər dənizindən, qərbdən Ermənistan və Gürcüstana qədər olan ərazidə məskunlaşmışdır. Zaman-zaman Azərbaycan xalqı qəsbkarlara, işğalçılara qarşı mübarizə aparmış, öz dövlətçiliyini, öz ərazi birliyini qorumuşdur.

Millətin mühüm əlaməti milli mədəniyyətin, adət-ənənənin, şüur və psixologiyanın spesifik, özünəməxsus ümummilliliyi idi. Azərbaycan millətinə əməksevərlik, azadlıqsevərlik, insanpərvərlik, mərdlik irsi olaraq məxsusdur.

XIX əsrin ikinci yarısında Azərbaycan cəmiyyətində baş vermiş dəyişikliklər nəticəsində azərbaycanlıların bir millət kimi formalaşması, bu millətin tərkibinə müxtəlif sosial təbəqələr, ticarət və kənd burjuaziyası, mülkədarlar, fəhlələr, kəndlilər, sənətkarlar, ruhanilər, ziyalılar və b. daxil idi.

Millət sözünü ilk dəfə dilimizə, ictimai fikir sahəsinə böyük mütəfəkkir Mirzə Fətəli Axundzadə (Axundov) gətirmişdir. Bu da həqiqətdir ki, M.F.Axundzadə təkcə Azərbaycanın deyil, bütün Şərqin ictimai fikir və mədəniyyət tarixinə güclü təsir göstərmişdir.

***Dövlət quruluşu.*** Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra buranın dövlət quruluşunda əsaslı dəyişiklik edildi. XIX əsrin əvvəllərindən başlayaraq çarizm sağa-sola yürüş edərək zəbt etdiyi yerlərdə öz idarəçilik formalarını tətbiq etməyə başladı.

Azərbaycanda xanlıqlar bir-bir ləğv edilərək özündə əyalətləri birləşdirən dairələrə çevrildi. Əvvəlcə iki böyük dairə - Müsəlman və Dağıstan dairələri yaradıldı. Birinci dairəyə Talış, Şəki, Qarabağ, Şirvan əyalətləri, ikinci dairəyə isə Bakı, Dərbənd və Quba əyalətləri daxil idi. Hər bir dairəyə Qafqazdakı rus ordusunun baş komandanı tərəfindən mayor və daha yüksək rütbəli rus zabiti komendant təyin olunurdu. Bəzi xanlıqlarda qısa müddətə keçid sistemi yaradılırdı. Ancaq bütün xanlıqlar ləğv edilərək komendant idarə üsulu yaradıldı.

Şimali Azərbaycan ərazisində altı əyalət – Talış, Şirvan, Şəki, Qarabağ, Bakı və Quba əyalətləri, Yelizavetpol (Gəncə) dairəsi, Çar-Balakən vilayəti (1830-cu ildə yaradılmışdı) və iki distansiya: Qazax və Şəmşəddil distansiyaları yaradıldı. Naxçıvan və İrəvan - əzəli Azərbaycan torpaqlarını rus çarizmi “Erməni vilayəti”nin tərkibinə daxil etdi.

Əyalətlər iki dairədə birləşdirildi. Şəki, Şirvan, Qarabağ və Talış əyalətləri Şuşada yerləşən hərbi dairəyə tabe olan, “Müsəlman dairəsi” adlandırılan dairəyə

daxil idilər. Bakı və Quba əyalətləri mərkəzi Dərbənddə yerləşən Dağıstan hərbi dairəsinə daxil idilər.

Əyalətdə bütün hakimiyyət komendantların əlində cəmlənmişdi. Komendant əyalətdəki bütün dövlət əmlakına rəhbərlik edirdi. Xan hakimiyyəti ləğv edildikcə, xanların və yeni hakimiyyətə çıxan bəylərin bütün əmlakı: torpaqlar, otlaqlar, balıq vətəgələri, duz mədənləri, neyt quyuları və s. Rusiya dövlətinin əlinə keçirdi.

Komendantlar Rusiya çarizminin müstəmləkəçilik siyasətinin bilavasitə icraçısı və həyata keçirəni idilər.

Komendant cəza orqanlarının – polisin və məhkəmənin də fəaliyyətinə rəhbərlik edirdi.

Komendant həmçinin hərbi qarnizonun rəisi sayılırdı. Beləliklə, onun əlində - icraedici, məhkəmə və hərbi hakimiyyət toplanmışdı. Rus tarixçisi İ.P.Petruşevskinin yazdığı kimi "Yüz minlərlə əhalinin hüququ, namusu və əmlakı... komendantın özbaşnalığından asılıdır. XIX əsrin 30-cu illərində Cənubi-Qafqaz diyarını təftiş edən senatorlar Meçnikov və Kutaytsev belə nəticəyə gəlmişlər..."

Xanlıqlar dövründə olduğu kimi, əyalətlər naiblər tərəfindən idarə olunan mahallara bölünürdü. Naiblər komendantlar tərəfindən sədaqətlərinə görə təyin olunurdular. Ancaq naiblər də Qafqazın baş komandanı tərəfindən təsdiq olunmalı idilər. Naiblərin vəzifəsi əsasən vergi və mükəlləfiyyətləri kəndlər arasında bölüşdürmək, məhkəmə və polis hakimiyyətini həyata keçirtməkdən ibarət idi. Onların əksəriyyəti məvacib almır, yığılan vergilərin hesabına yaşayırdılar.

Komendant idarəçiliyinin ən aşağı pilləsində kətxudalar və yüzbaşılar dururdular. Bu vəzifə "seçkili" idi. Ancaq çox vaxt kəndə hökumət kətxudası təyin olunurdu.

Tarixi faktlar göstərir ki, komendant idarə sistemi çarizm tərəfindən yaradılmış despotik müstəmləkə rejiminin məhsulu və təzahürü idi. Buna görə də belə bir səlahiyyətlərdə haqsızlıq, pozğunluq baş alıb gedirdi. Cinayətkarlıq hər yerdə hökm sürürdü.

Nəticədə əhali, xüsusən də kəndlilər bu sistemin bütün qulluqçularından sonsuz məhrumiyyətlər görürdü.

Senatorlar Kutaysov, Meçnikov 1831-ci ildə çarın adına göndərdikləri məlumatda bunu da yazırdılar ki, “knyaz Mədətov (erməni Madatyan M.Q.) müsəlman dairəsinin hərbi-dairə rəisi olarkən özgələrin (azərbaycanlıların M.Q.) mülklərini özbaşına ələ keçirmiş, əhalini pulsuz özü üçün işlətmiş, başqalarının adına sənədlər düzəltmişdi... Knyaz Mədətov sağ olsaydı, bu əməllərinə görə məhkəməyə verilməli idi”.

Komendantlar kənd və şəhər əhalisini amansızcasına soyurdular. Talış əyalətinin komendantı polkovnik Korniyenkovun və Quba əyalətinin komendantı Gimbutun özbaşına hərəkətləri, soyğunçuluğu və azğınlığı 1831-ci ildə Talış üsyanının, 1837-ci ildə Quba kəndlilərinin silahlı çıxışlarına əsas səbəb olmuşdur.

Tarixi araşdırmalar göətrir ki, Rusiyaya birləşdirilmiş Şimali Azərbaycanın bütün bölgələrinin əhalisi komendant idarə məmurları tərəfindən amansızcasına soyulur, yerlərdə hər şey talan edilirdi.

Bütün bunlardan əlbəttə ki, mərkəzi hakimiyyətin, çarizmin səhih xəbəri vardı. Çarizmin müstəmləkə siyasəti onun daxili dövlət siyasəti idi. Bu siyasətə qarşı Qafqazın demək olar ki, bütün bölgələrində, o cümlədən də Azərbaycanda kütləvi etiraz çıxışlarına gətirib çıxardırdı.

Çarizmin Cənubi Qafqazdakı komendant idarəçilik sistemi özünü doğrultmadı. Bu idarəçilik üsulu çar məmurlarının öz etiraflarına görə, “dövlət gəlirləri üçün soyğuncu, diyarın rifahı, onun sakinlərinin səadəti və mənəviyyatı üçün məhvedici oldu”.

Komendant idarəçiliyi dövlət xəzinəsinə xeyli ziyan da vururdu. Ona görə ki, komendantlar və başqa məmurlar yığılan vergiləri mənimsəyir, xəzinənin vəsaitini dağıdırdılar. Hər yerdə despotizm, sui-istifadələr hökm sürürdü. Çarizmin Zaqafqaziyadakı siyasətinin yaradıcılarından biri P.Qan I Nikolaya yazdığı raportda yazırdı: “Qubadakı narahatlıqlar (1837-ci il üsyanı M.Q.) xalq üçün əziyyətli olduğu qədər də zəif olan hərbi (komendant) üsul-idarəsinin nəticəsidir”.

Çarizmin Zaqafqaziyada öz hökmranlığını daha da möhkəmləndirmək üçün komendant üsul-idarəsinin ləğvini tələb edirdi.

1840-cı il aprelin 10-da I Nikolay "Zaqafqaziya diyarının idarə olunması üçün müəssisə" adlı yeni islahat imzaladı. 1841-ci ilin yanvarın 1-dən islahat hər yerdə tətbiq olundu.

Bu islahat Zaqafqaziyanın inzibati ərazi bölgüsünə uyğunlaşdırıldı. Zaqafqaziya diyarı mərkəzi Tiflis olan Gürcüstan-İmeretiya quberniyasına və mərkəzi Şamaxı olan Xəzər vilayətinə bölünürdü. Quberniya və vilayət qəzalara (dairələrə), onlar isə öz növbəsində nahiyələrə (sahələrə) bölünürdü.

Yeni bölgüyə əsasən Azərbaycan torpaqlarının əksəriyyəti 7 qəzanı – Şamaxı (keçmiş Şirvan əyaləti), Şuşa (Qarabağ əyaləti), Nuxa (Şəki əyaləti) Lənkəran (Talış əyaləti), Bakı (Bakı əyaləti), Dərbənd (Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətləri) və Quba (Samur dairəsi ilə birlikdə Quba əyaləti) qəzalarını özündə birləşdirən Xəzər vilayətinin tərkibinə daxil oldu.

Çar hökuməti "parçala və hökm et" prinsipini rəhbər tutaraq Azərbaycan torpaqlarının bəzi hissələrini – Qazax və Şəmşəddil distansiyaları ilə birlikdə Yelizavetpol qəzasını Car-Balakən vilayəti və İlisu sultanlığından yaradılmış Balakən qəzasını, İrəvan qəzasını və Ordubad dairəsi ilə birlikdə Naxçıvan qəzasını Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil etdi.

Qəzaların tərkibində nahiyələr yaradıldı. Nahiyələr keçmiş mahalların ərazilərinə müvafiq gəlirdi. Azərbaycan ərazisində 32 nahiyyə yaradılmışdı. Quberniyalara qubernator, qəza idarəsinə qəza rəisi başçılıq edirdi.

Qəzalar da köhnə mahalların sərhədlərinə uyğun olan nahiyələrə bölünürdü.

Quberniya idarə sisteminə mülki qubernator, qubernator idarəsi, xəzinə palatası, dövlət əmlak palatası, ictimai himayə prikazı (xeyriyyəçilik işləri ilə məşğul olan idarə), zadəgan deputat yığıncağı, quruculuq komissiyası, zemstvo mükəlləfiyyət komitəsi, statistika və peyvənd komitəsi (çiçəkdən peyvənd edən komitə) daxil idi. Bunlar o dövrün idarəçilik institutları idi.

Qubernator imperatorun fərmanı ilə təyin edilir və birbaşa Qafqazın baş idarəsi rəhbərinə tabe edilirdi.

***Azərbaycanda 1870-ci və 1892-ci illər şəhər islahatları.*** Təhkimçilik hüququnun ləğv edilməsindən sonra Rusiyada və eləcə də onun ucqarlarında sənaye, nəqliyyat və ticarətin sürətlə inkişafı ilə əlaqədar olaraq şəhərlər də sürətlə böyüdü və inkişaf etməyə başladı. Kəndlərdən şəhərə əhali axını genişləndi. Bütün bunlar şəhərlərin statusunun müəyyənləşdirilməsini tələb edirdi.

1870-ci il iyunun 16-da Rusiyada şəhər əsasnaməsi qəbul edildi. Əsasnamə Rusiyanın daxili quberniya şəhərlərinə şamil edildi. Zaqafqaziya şəhərləri bu əsasnamədə ona görə nəzərə alınmamışdı ki, guya diyarın, o cümlədən Bakı, Yelizavetpol, Nuxa və s. şəhərlərin əhalisi geri qalmışlar.

1892-ci ildə çar III Aleksandr yeni şəhər əsasnaməsini təsdiq etdi. Bu əsasnamə yerlərdə böyük şəhərlərə şamil edilirdi.

Yeni əsasnamədə şəhər özünüidarə orqanları da yaradıldı. Əlbəttə bunlar qubernatorun nəzarəti altında fəaliyyət göstərirdi. Lənkəranda, Nuxada, Qubada, Şamaxıda və başqa qəza şəhərlərində yaradıldı.

## Praktiki məşğələ

### Plan:

1. Azərbaycanda milli dövlətçilik ənənələrinin ləğv olunması, Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsi.
2. XIX əsrin II yarısında Azərbaycan Rusiya idarəçilik sistemində.
3. Cənubi Azərbaycan İran idarə sistemində.
4. XX əsrin əvvəllərində Çar Rusiyasının idarəçilik sistemində dəyişikliklər və Azərbaycan. Azərbaycan vəkilləri Rusiyanın Dövlət Dumalarında.

### Ədəbiyyat


1. Bakıxanov A. Gülüstani-İrəm. B., 2000
2. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). B., 1985
3. Əzizov T. Azərbaycan XX əsrin əvvəllərində. B., 1992
4. Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. I h. B., 2000
5. Məmmədov X.M. Azərbaycan xalqının milli istiqlar mübarizəsi. B., 2005

7. Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası. B., 1993

8. Мильман А.И. Политический строй Азербайджана в XIX-начале XX вв. Б., 1986
9. Musayev İ., Cəfərova T. Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət və milli demokratik fikir. (XIX əsrin sonu-XX əsrin əvvəli). B., 1991
10. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində, müstəqilliyə aparan yollar. B., 2004
11. Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri). B., 1999

# X FƏSİL
# XIX ƏSRİN İKİNCİ - XX ƏSRİN BİRİNCİ YARISINDA CƏNUBİ AZƏRBAYCANDA MİLLİ DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİ

***İctimai quruluş.*** Azərbaycan Rusiya və İran arasında bölüşdürüldükdən sonra (1828-ci il Türkmənçay müqaviləsi) Cənubi Azərbaycan İran dövlətinin bir parçası kimi yaşamalı oldu. Bu dövrdə İranda, o cümlədən onun ən böyük əyalətlərindən biri olan Cənubi Azərbaycanda da feodal münasibətləri hələ də qalmaqda idi. Böyük bir ölkə olan Azərbaycan ikiyə bölündükdən sonra əyalət kimi tanınırdı.

XIX əsrin sonlarında dünyada baş verən inkişaf sənayenin, nəqliyyatın, ticarətin tərəqqisi İranda da özünü göstərməyə başladı. Ancaq Cənubi Azərbaycan əhalisi fars hakimiyyətinin və yerli feodalların ağır istismarına məruz qalırdı. Əhali olduqca yoxsul şəraitdə yaşayırdı. Torpağın əsas hissəsi dövlətin mülkiyyətində idi. Kəndlilərin əksəriyyəti əkin sahələrini torpaq sahibindən – feodallardan paydarlıq əsasında icarəyə götürürdülər. Kəndli torpaqdan əlavə becərmə üçün sahibkardan iş heyvanı, əkin aləti, toxum, suvarma suyu və s. də alırdı. Ona görə də yığılmış məhsulun çox hissəsi feodala çatırdı. Bundan əlavə, kəndli torpaq sahibinə natura şəklində pay verir, biyara gedir və başqa mükəlləfiyyətlər yerinə yetirirdi.

İri feodallar daha böyük qazanc əldə etmək üçün taxıl möhtəkirliyi ilə də məşğul olurdular. Taxıl möhtəkirliyinin amansızlığı 1898-ci ildə Təbriz və başqa yerlərdə əhalinin çıxışlarına səbəb olmuşdu. Cənubi Azərbaycan kəndlisi dövlətə də vergi verirdilər.

Cənubi Azərbaycan kəndinə xarici kapital, ilk növbədə rus kapitalı müxtəlif yollarla daxil olurdu.

Şah hökumətinin 1891-ci ilin martında tütün və tənbəki istehsalını ingilis kapitalisti Talbotun inhisarına verməsi kəndlilərin mənafeyinə tamamilə zidd idi.

XIX əsrin sonlarında Cənubi Azərbaycan şəhərlərində ictimai münasibətlərdə əsas rolu formalaşmaqda olan burjuaziya və fəhləəp oynayırdılar.

Ancaq burada sənaye burjuaziyası ləng inkişaf edirdi. Ona görə ki, xarici kapital axını yerli sahibkarlığa mane olurdu, yeni sənaye müəssisələrinin yaranmasına imkan vermirdilər. Cənubi Azərbaycanın sənaye ticarətində bəhs edilən dövrdə Rusiya əsas rol oynayırdı.

XIX əsrin sonlarında Cənubi Azərbaycan əhalisinin əksəriyyətini kəndlilər təşkil edirdi. Vilayətdə əkinçiliklə bərabər maldarlıq və bağçılıq da inkişaf edirdi. Kəndlilər bir neçə qrupa bölünürdü.  Əmək alətləri, iş heyvanları olan kəndlilər "hampa" adlanırdı. Onlar da istismar olunan zümrəyə daxil idilər.

Heç bir əmək aləti olmayan, yalnız öz iş qüvvəsini satmağa məcbur olan insanlar "qara", bəzi yerlərdə "əkərlər" adlanırdı.

Kəndlilərdən çox az miqdarı varlı təbəqəni təşkil edirdi. Bu təbəqəyə mülkədar tərəfindən təyin edilən **kəndxuda**, əkin sularının bölgüsünü aparan **mirab**, sahibkarların fikir və sözlərini kəndlilərə çatdıran **carçı** daxil idi. Kəndxudalar kənddə əsas sima sayılırdı. Onlar dövlətdən məvacib almır, toplanan verginin bir hissəsini özlərinə saxlayırdılar.

Kəndlilər istifadə etdikləri su üçün miraba "şahanəruz" adlanan ödənc ödəyirdilər.

***İdarəçilik sistemi.*** O dövrdə İran dövləti 29 əyalətə bölünürdü. Hər bir əyalətə şah tərəfindən təyin edilən **hakim** başçılıq edirdi.

Cənubi Azərbaycan öz təbii sərvəti, coğrafi mövqeyinə görə ölkənin əsas strateji əyalətlərindən biri sayılırdı. Bu əyalətə tarixən şahın vəliəhdi rəhbərlik etmişdir. Uzun bir dövr İran səltənətinə azərbaycanlılar başçılıq etmişlər. Ancaq, onlar çox təəssüflər olsun ki, fars hakimləri kimi fəaliyyət göstərmişlər.

Məhz ona görə də fars hakim dairələri Cənubi Azərbaycana öz  mülkləri kimi baxırdılar. Şah xəzinəsi əhalidən toplanan vergi hesabına doldurulurdu. Vergi sisetmi əhalini qarət edən bir sistem idi və ildən ilə də artırılırdı. Belə ki, XIX əsrin birinci yarısında əhalidən alınan pul vergisi 550 min tümən idisə, əsrin ikinci yarısında 620 min tümən olmuşdu. O vaxt da İranın taxıl ambarı Cənubi Azərbaycan sayılırdı. Hər il şah xəzinəsinə Cənubi Azərbaycandan 1.173.275 pud buğda və arpa yığılırda.

Azərbaycan vəliəhdi Təbrizdə otururdu. XIX əsrin ortalarından başlayaraq Cənubi Azərbaycanda şah rejiminə, şah istibdadına qarşı aramsız çıxışlar baş vermişdir. 1847-ci ildə Zəncan şəhərinin sənətkarları oranın hakimi Əşrəfin vəzifəsindən sui-istifadəsinə qarşı ayağa qalxdı. O, xalq tərəfindən döyülərək, bütün şəhərdə gəzdirildi. Bir qədər sonra burada **babilər** hərəkatı başladı. 1850-ci ildə Zəncan əhalisinin etiraz çıxışları 6 ay davam etdi.

Əsrin 70-ci illərində Təbriz qarnizonu polkunun əsgərləri (sərbazlar) üsyan edərək öz komandirlərini qovub hökumətə tabe olmadıqlarını bildirdilər. 80-cı illərdə yenidən Təbriz əhalisi vergilərin artırılmasına etiraz olaraq ayağa qalxdı. Ancaq Cənubi Azərbaycanda baş vermiş bütün çıxış və üsyanlar şah hakimiyyəti tərəfindən həmişə amansızlıqla yatırılmışdır.

Şimali Azərbaycan Rusiyanın aqrar xammal bazası əlavəsi olduğu kimi Cənubi Azərbaycan da İranın aqrar xammal bazası sayılırdı.

XX əsrin əvvəllərində İranda şah rejimi nəticəsində Cənubi Azərbaycanın kənd və icma torpaqlarının böyük hissəsi fars məmurlarının, iri mülkədarların və ali ruhanilərin gəlir mənbəyi idi. Fars hakimləri, yerli mülkədar-ərbabların əlində yüzlərlə kənd cəmləşmişdi.

Cənubi Azərbaycan kəndlisi, demək olar ki, tam hüquqsuz haldaydı. Ərbablar kəndlini döyə bilər, qova bilər, hətta həbs etdirə bilərdi. Ona görə də kəndlilər kütləvi surətdə evini-ailəsini atıb kasıbkarlıq üçün hara gəldi, ən çox da Bakıya gəlirdilər. Bakının neft sənayesində çalışan işçilərin 22%-ini Cənubi Azərbaycandan gələnlər təşkil edirdi.

1905-ci ildə xalq şah rejiminə, qacarlar sülaləsinin zülmünə qarşı mübarizəyə qalxdı. Əlbəttə İran inqilabına Rusiya inqilabının təsiri danılmazdır. Az bir vaxtda Təbriz İran inqilabının mərkəzinə çevrildi. Çox keçmədi ki, üsyanlar bütün İranı bürüdü. Bunu görən şah bir çox güzəştlər verməyə məcbur oldu, məclisin çağrılması və konstitusiyanın qəbul edilməsi haqqında qanun verdi.

Cənubi Azərbaycandan olan deputatlar məclisdə demokratik təsisatlar tələb edirdilər.

1906-cı ilin sentyabrında Təbrizdə Azərbaycan dövlətçilik tarixində yeni idarəetmə orqanı - əncümənlər yaranırdı. Təbrizdən sonra Xoy, Salmas, Sərab, Culfa, Mərənd və digər şəhərlərdə (təşkilatlar) əncümənlər hakimiyyəti ələ aldılar. Təbriz mərkəz rolunu oynayır, bütün əncümənlərə nəzarət edirdi.

Əncümənlərdən başqa milli-azadlıq hərəkatının inqilabı orqanı – mücahidlərin mübariz dəstəsi yaradılmışdı.

1906-cı ilin sonlarında Müzəffərəddin şah vəfat etdi, yerinə oğlu Məhəmmədəli şah elan olundu. Yeni şah atasının qəbul etdiyi bir çox demokratik islahatların həyata keçməsinə mane oldu. Nəticədə xalq narazılığı yenidən artdı, 1907-ci ilin fevralında Təbrizdə tətil başladı.

Cənubi Azərbaycanda demokratik hərəkata Səttərxan rəhbərlik edirdi. Təbrizdə könüllü fədai dəstələri yaradılır.

1906-cı ilin oktyabrında Təbrizdə "Əncümən" adlı qəzet və "Azərbaycan" jurnalı nəşr edilir.

1905-ci ildə başlayan Təbriz üsyanı 1911-ci ilin sonuna kimi davam etmişdir. 1912-ci ilin yanvarında xarici qüvvələrə arxalanan şah qoşunları fədailərin müqavimətini qıra bildi.

1905-1911-ci illər inqilabı Cənubi Azərbaycan xalqına milli azadlığın nə olduğunu aşılaya bildi.

1917-ci ildə Rusiyada oktyabr çevrilişi Cənubi Azərbaycanda milli- azadlıq hərəkatının yenidən yüksəlişinə güclü təkan verdi. Təbrizdə demokratik ideyalı mətbuat canlandı.

İyun ayında Təbrizdə geniş nümayiş oldu. Nümayişdə 1905-1911-ci illər azadlıq hərəkatında həlak olanlar yad edildi. Nümayişçilər "Azad Azərbaycan", "Azad İran" şüarları səsləndirdi.

Milli-azadlıq hərəkatına görkəmli inqilabçı, yenilməz vətənpərvər Şeyx Məhəmməd Xiyabani rəhbərlik edirdi. O, dini təhsil alsa da, müctəhid tituluna yiyələnsə də başdan-ayağa milli ruhlu adam idi. Fransız, rus dillərini yaxşı bilirdi. Zəkalı bir şəxs kimi fəlsəfə, riyaziyyat və astronomiya elmlərini mükəmməl bilirdi.

Şeyx Məhəmməd Xiyabani 1905-1911-ci illər inqilabının fəal iştirakçısı, 1909-1911-ci illərdə İran məclisinin deputatı olmuşdur.

1917-ci ilin may ayında Xiyabani Tiflisdə Cənubi Qafqazın bir sıra şəhərlərinə gələrək, inqilabi hadisələrlə yaxından tanış olmuşdur.

Təbrizdə iyunun ortalarından başlanan çıxışları görən qubernator Tehrana qaçır.

1917-ci ilin avqustunda Xiyabaninin başçılığı ilə Azərbaycan Demokratik Partiyası yaradıldı. "Təcəddüd" (Yeniləşmə) qəzeti partiyanın orqanı oldu.

Partiyanın qarşıya qoyduğu məqsəd Cənubi Azərbaycanı azad etmək idi. Cənubdakı milli-azadlıq hərəkatına kömək məqsədilə Bakıda "Ədalət" təşkitlatı yaradıldı.

1918-1919-cu illərdə İngiltərə öz mövqeyini xeyli möhkəmləndirə bilmişdi. İranda Vüsuquddövlə hökuməti İngiltərəyə bir arxa kimi baxır və ona güvənirdi.

1919-cu ilin oktyabr-dekabr aylarında ingilislərə qarşı çıxışlar çox geniş vüsət aldı. Təbrizdə və başqa yerlərdə şah məmurları xalq tərəfindən qovuldu.

1920-ci il aprelin ilk günlərində Təbrizdə yenidən üsyanlar başladı. Təbrizdə başlanan üsyan tədricən Cənubi Azərbaycanın digər mahal və şəhərlərini də əhatə edirdi. Tehranda yaşayan azərbaycanlılar üsyanı dəstəkləyirdilər.

Gilanda da iyunun ilk günlərində güclü üsyan başladı və nəticədə burada respublika elan edildi. Bu, İran hökumətində çaşqınlıq yaratdı.

1920-ci il iyunun 23-də Təbrizdə Milli hökumət yaradıldı. Milli hökumətin qərarı ilə vali Eynüddövlə və onun məmurları Təbrizdən qovuldular. Milli hökumətin tərkibinə Azərbaycan Demokratik Firqəsindən 20 nəfər daxil edildi.

Milli hökumət ticarət burjuaziyasının aşağı və orta təbəqələrinin xüsusi mülkiyyətinin toxunulmazlığına təminat verdi. Milli hökumət ingilis imperialistlərinə və onların ölkədəki əlaltılarına qarşı kəskin mübarizə elan etdi. İqtisadiyyatı bu ünsürlərdən təmizləmək əsas işlərdən sayılırdı. Məqsəd yaradılacaq demokratik İranın tərkibində Azərbaycana muxtariyyət verilməsi idi.

Şeyx M.Xiyabani deyirdi: "Təbriz İrana Nicat verəcəkdir". Hərəkat rəhbərləri İranda şahlığın ləğvinə və respublika yaradılmasına çalışırdı. Milli

hökumət kənd təsərrüfatı, maarif, səhiyyə, maliyyə, ədliyyə və s. sahələrdə islahatlar həyata keçirməyə başladı.

Şeyx Məhəmməd Xiyabani və demokratik qüvvələr yaratdıqları dövləti "Azadistan" adlandırırdılar.

Cənubi Azərbaycanda baş verən hadisələr İranın mərkəzi hökuməti ilə yanaşı ingilisləri də bərk narahat edirdi. Onlar özləri üçün "təhlükəli" hesab etdikləri Cənubi Azərbaycandakı hadisələrə qarşı yeni planlar cızmağa başladılar. 1920-ci ilin sentyabrın əvvəllərində İran hökuməti danışıqlar aparmaq məqsədilə hiylə işlətdi və hər tərəfdən Təbrizə hücum təşkil edildi. Sentyabrın 14-də Xiyabani öldürüldü. Beləliklə, azərbaycanlıların yaratdıqları "Azadistan" beşikdəcə yenidən boğuldu.

Ancaq Şeyx Məhəmməd Xiyabaninin yaratdığı milli-azadlıq hərəkatı xalqımızın tarixində parlaq səhifə olaraq qalacaqdır.

## Praktiki məşğələ

### Plan:

1. Azərbaycanda milli dövlətçilik ənənələrinin ləğv olunması. Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsi.
2. XIX əsrin II yarısında Şimali Azərbaycan Rusiya idarəçilik sistemində. Çarizmin müstəmləkəçilik siyasəti.
3. Cənubi Azərbaycan İran idarə sisteminin tərkibində.

## Ədəbiyyat


1. Bakıxanov A. Gülüstani İrəm. B., 2000
2. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). B., 1985
3. Əzizov T. Azərbaycan XX əsrin əvvəllərində. B., 1992
4. Qasımlı M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. B., 2000
5. Məmmədov X.M. Azərbaycan xalqının milli istiqlal mübarizəsi. B., 2005

6. Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası. B., 1993
7. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində, müstəqilliyə aparan yollar. B., 2004
8. Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri). B., 1999

## XX əsrin əvvəllərində Azərbaycanda dövlət idarəçiliyi (1900-1917-ci illər)

XX əsr bəşər tarixinə təkcə elm-texnika əsri kimi yox, həm də xalqların öz müqəddaratlarını təyin etmək üçün mübarizə aparmaları, müstəmləkəçilik buxovlarından qurtulmaları və milli dövlətlərinin yaranması əsri kimi daxil olmuşdur. Bu dövrdə dünyanın inkişaf etmiş ölkələrində kapitalizm daha da inkişaf edərək, özünün son mərhələsi olan imperializm mərhələsinə keçmişdir.

XX əsrin əvvəllərindən Azərbaycanda kapitalist münasibətləri daha sürətlə inkişaf edirdi. Az bir vaxt ərzində Bakı neftinin şöhrəti bütün dünyaya yayılmış, nəticədə bura rus və xarici kapitalistlərinin sərmayəsi gəlməyə başlamışdı. Eyni zamanda Azərbaycanda milli burjuaziya da təşəkkül tapırdı. Bakı nefti həm ixrac olunur, həm də burda yaradılmış sənaye obyektlərində neft məhsulları əldə olunurdu. Bakı beynəlmiləl şəhərə çevrilmişdi. Qazanc üçün bura Rusiyadan, İrandan, Qafqazdan, Orta Asiyadan çoxlu işçi qüvvəsi axıb gəlirdi.

1900-1903-cü illərdə dünya iqtisadi böhranı baş verdi. Böhran neft sənayesini də əhatə etdi.

Birinci dünya müharibəsi (1914-1918-ci illər) ərəfəsində neft daha çox əhəmiyyət kəsb edirdi. Neft və neft məhsullarının qiyməti yenidən artdı.

Neft sənayesi ilə yanaşı digər sənaye sahələri də inkişaf edirdi. Bakıda 13 iri maşınqayırma zavodu fəaliyyət göstərirdi ki, burada da fəhlələrin sayı 1400-1850-ə çatırdı.

Milli burjuaziyanın öndə gedən nümayəndələrindən Hacı Zeynalabdin Tağıyevin, Şəmsi Əsədullayevin, Murtuza Muxtarovun iri zavod və müəssisələri vardı. Bakı neft istehsalı sahəsində 60 azərbaycanlı sahibkar fəaliyyət göstərirdi. 1913-1914-cü illərdə neft istehsalı ilə məşğul olan 165 neft firmasından 48-i, yəni 30 faizi azərbaycanlılara məxsus idi.

Azərbaycanlı sahibkarlar neftdən əldə etdikləri vəsait hesabına yerli istehsalın başqa sahələrinə də yiyələnirdilər. Bakıda H.Z.Tağıyevin bütün Rusiya imperiyasında ən iri fabriklərdən biri sayılan "Lifli məmulatlar hazırlayan Qafqaz səhmdar cəmiyyəti" fəaliyyət göstərirdi. Murtaza Muxtarovun Bakıda iki mexaniki zavodu vardı.

Azərbaycan qəzalarında da sənayenin müxtəlif sahələri inkişaf edirdi. 1906-cı ildə Gədəbəy mis mədənlərinin hasilatı Rusiyada hasil olunan misin faizinin ¼-faizini, bir ildən sonra isə ⅓-ini təşkil edirdi. Gədəbəy misəritmə zavodunu Qalakəndlə əlaqələndirən dəmir yol xətti çəkilmişdi.

XX əsrin əvvəllərində Azərbaycanda pambıqçılığın, ipəkçiliyin, şərabçılığın, balıqçılığın və s. inkişafı sürətlə gedirdi.

Azərbaycan şəhərlərində şəhər tipli ticarət-sənaye mərkəzləri yaranmışdı. Gədəbəy, Salyan, Ağdam, Bərdə, Göycayda belə mərkəzlər fəaliyyət göstərirdi.

Şəhərlərin özünüidarə orqanları 1892-ci ildə qəbul olunmuş "Şəhər əsasnaməsi"nə uyğun işləyirdi. "Əsasnamə"nin 44-cü maddəsində müsəlmanların özünüidarə orqanlarında iştirakı məhdudlaşdırılırdı. Azərbaycanın görkəmli ictimai xadimlərinin etirazları nəticəsində 1900-cü il fərmanı ilə müsəlman deputatların sayı 50% nəzərdə tutulsa da, əslində buna riayət olunmurdu. Yalnız 1905-1907-ci illərin inqilabi hadisələrindən sonra Bakı şəhər dumasında deputatların 57,7%-ni azərbaycanlılar təşkil etdi. Bakı şəhər dumasının ilk deputatları Həsən bəy Məlikov (Zərdabi), İsmayıl bəy və İbrahim bəy Səfərəliyevlər, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Nəcəf bəy Vəzirov, H.Z.Tağıyev, Ağa Axundov, Mirzə Əsədullayev, Əjdər bəy və İsa bəy Aşurbəyovlar, Ə.Aşurov, Məmmədrza Vəkilov, Məmmədhəsən Hacınski, İsrafil Hacıyev olmuşlar.

Gəncədə şəhər dumasında "qlasnıların" əksəriyyəti azərbaycanlılardan ibarət idi. Onların arasında Həsən bəy Ağayev, Nəsib bəy və Yusif bəy Yusifbəylilər, Rəfibəyov qardaşları və b. var idi.

***Azərbaycanın ictimai-siyasi həyatı.*** XX əsrin əvvəllərində baş vermiş iqtisadi-siyasi hadisələr fəhlələrin kütləvi çıxışlarına səbəb oldu. 1901-ci ilin yazında RSDFP-nin (Rusiya Sosial-Demokrat Fəhlə Partiyası) Bakı Komitəsi yaradıldı. 1903-cü ildə RSDFP-nin 2-ci qurultayında sosial-demokratlar partiyası 2 yerə - bolşeviklərə və menşevkilərə parçalandı. RSDF(b)P-nın proqramı qəbul olundu. Proqramda əks olunan müddəalar fəhlələrin və zəhmətkeşlərin xeyrinə idi.

Tarixi həqiqətdir ki, Azərbaycan xalqı həmişə yeniliyə can atıb, yaxında-uzaqda baş vermiş müsbət hadisələrə dəstək olub və onlardan bəhrələnib. Bəhs olunan əsrin əvvəllərində Azərbaycanın qabaqcıl ziyalıları, xüsusən də xaricdə və Rusiyada təhsil almış insanlar ətrafda baş verən hadisələrə biganə qalmadılar. 1902-ci ildə M.Ə.Rəsulzadənin rəhbərliyi altında "Müsəlman gənclik təşkilatı" yaradıldı. 1904-cü ilin oktyabrında "Hümmət" təşkilatı və eyni adda qəzet fəaliyyətə başlayır. Təşkilatın yaranması təşəbbüsü bir qrup azərbaycanlı sosial-demokratlara məxsus idi. Onların sırasında Nəriman Nərimanov, Məşədi Əzizbəyov, M.Ə.Rəsulzadə, Qara bəy Qarabəyov, Məmmədhəsən Hacınski, Mir Həsən Mövsumov və b. var idi. "Hümmət" təşkilatı müsəlman fəhlələr arasında sosial-demokrat təbliğatı aparırdı.

1906-1907-ci illərdə təşkilat "Dəvət-Qoç ("Çağırış"), "Təkamül" və "İrşad", "Yoldaş" qəzetləri nəşr etdirir.

Qəzetlərdə xalqın maariflənməsi, insanların ağır vəziyyəti haqqında məqalələr dərc olunurdu.

1906-cı ildə Bakıda və Tiflisdə İran inqilabçılarına yardım komitəsi yaradılmışdı. Bakı komitəsinə Məşədi Əzizbəyov, Tiflis komitəsinə Nəriman Nərimanov rəhbərlik edirdi.

1905-1907-ci illər Rusiya inqilabı imperiyanı kökünədək sirkələdi.

Bu vaxta kimi 100-dən çox xalqı özündə birləşdirən Rusiya dövləti bütün milli azlıqların sıxışdırılmasını dövlət siyasətinə çevirmişdi. Milli ayrı-seçkilik

müsəlman xalqlarına qarşı daha sərt aparılırdı. Onların nə ana dilində oxumaq, nə hakimiyyət orqanlarında işləmək, nə də orduda xidmət etmək hüququ vardı.

Xalqın zəkalı nümayəndələri bunu görür və etirazlarını bütün zümrələrdə bildirirdilər. Bu prosesə 1905-ci il 17 oktyabr Manifesti təkan verdi.

Əlimərdan bəy Topçubaşov tərəfindən imperiyanın yüksək dairələrinə ünvanlanmış petisiyada (kollektiv yazılı müraciət) Azərbaycan əhalisinin taleyüklü məsələləri öz əksini tapmışdı.

1905-ci ilin avqustunda Nijni Novqorodda Rusiya müsəlmanlarını birləşdirən "İttifaqi müslimin" partiyası yaradıldı. Partiyanın qurultayında Ə.Topçubaşovun yazdığı proqram və nizamnamə qəbul edildi. Topşubaşov ittifaqın mərkəzi komitəsinin sədri seçildi.

1906-cı ildə Rusiya dövlət dumasına Bakı şəhərinə ayrılmış bir yerə Ə.Topşubaşov seçildi.

1914-cü ildə başlanan Birinci dünya müharibəsi Azərbaycana da təsirsiz qalmadı. Cənubi Qafqazın cəbhəyanı bölgəyə çevrilməsi Azərbaycanın siyasi və iqtisadi vəziyyətinə xeyli ziyan vurdu. Belə ki, osmanlı dövlətinin ermənilər yaşayan vilayətlərdəki hərbi əməliyyatlar nəticəsində minlərlə erməni rusların himayəsi altında İrəvan, Yelizavetpol və Bakı quberniyaları ərazilərinə köçürüldü.

Müharibə Rusiyanın onsuz da çətin olan vəziyyətini daha da ağırlaşdırdı. Nəticədə ölkədə inqilabi vəziyyət yarandı. 1917-ci il fevralın 27-dən 28-nə keçən gecə Petroqradda burjua-demokratik inqilab baş verdi. Martın 2-də II Nikolay taxt-tacdan imtina etməsi haqqında manifesti imzaladı. Bununla da 300 illik Romanovlar sülaləsinə son qoyuldu.

***İctimai quruluş. Fəhlələr.*** XX əsrin əvvəllərində Rusiya çarizmi Azərbaycanda öz mənfur müstəmləkəçilik siyasətini davam etdirməkdə idi. Rusiya inqilabı (1905-1907-ci illər) ərəfəsində Azərbaycanda sosial-iqtisadi vəziyyət daha dözülməz idi. Torpağın ¾ hissəsi, dəmir yolları, neft kəmərləri və s. imperiyaya məxsus idi. Əsrin əvvəllərində baş vermiş iqtisadi böhran fəhlələrin vəziyyətini daha da ağırlaşdırdı. Neft çıxaran və neft emal edən müəssisələrinin xeyli hissəsinin bağlanması nəticəsində minlərlə fəhlə küçəyə atıldı. Ancaq iqtisadi

böhran ən çox zəhmətkeşlərə təsir etdi. Sahibkarlar burada da çıxış yolu tapdılar. Onlar ucuz əmək haqqı ilə insanları 10,5-11 saat işlətməklə qazanclarını azaltmamağa çalışırdılar.

Xarici sahibkarlar yerli azərbaycanlı fəhlələrə xarici fəhlələrə nisbətən çox az məvacib verirdilər.

Müəssisələrdə qadın, yeniyetmə və uşaq əməyindən geniş istifadə olunurdu. İnqilab illərində iş şəraiti də işçilər üçün olduqca ağır idi.

Fəhlələrin bir hissəsi mövsümü işlərdə çalışırdı.

Fəhlələrin sayına görə Bakı Rusiya imperiyasında Moskva, Peterburq və Vladimir quberniyasından sonra dördüncü yeri tuturdu. Bakı sənaye rayonu Azərbaycanın ümumi gəlirinin yarısını, sənaye məhsulunun isə 71%-ni verirdi. Azərbaycan fəhlələri Rusiya fəhlələrinin ümumi sayının 41%-ni təşkil ediridi. Səbəb, təbii ki, Bakının neft sənayesi mərkəzi olmasıydı.

***Kəndlilər.*** Ötən əsrin əvvəllərində Azərbaycan kəndinin vəziyyəti daha ağır olmuşdur. Kənd adamları torpaqsızlıqdan və torpaq azlığından əziyyət çəkirdilər. Bakıda əhalinin sürətlə artmasına baxmayaraq, Azərbaycan əhalisinin 80%-i kəndlərdə yaşayırdı. Kəndlilərin 70%-i xəzinə torpaqlarında yaşayırdı. Onlar dövlət kəndliləri adlanırdılar.

Kəndlilərin ikinci qrupu bəy, mülkədar və yaranmaqda olan qolçomaq torpaqlarında yaşayıb, işləyənlər idi. Bunlar da sahibkar kəndliləri adlanırdılar.

1901-ci il yanvarın 1-dən qüvvəyə minən yeni torpaq qanununa əsasən dövlət kəndliləri istifadə etdikləri pay torpaqlarına görə xəzinəyə evbaşı (tüstü), gəlirin 10-12%-n dövlət töycüsünü verməliydi. İstifadə etdikləri əlavə torpaq üçün zemski rüsumu ödəməliydi. Zemski rüsumu yerli xərclərin – təhsil, səhiyyə, baytarlıq və s. üçün alınırdı.

Sahibkar kəndliləri öz ağaları üçün müəyyən mükəlləfiyyətlər yerinə yetirməli və çoxlu ödənişlər etməliydilər.

Bu vaxt çarizm Rusiyanın içərilərindən Azərbaycanın ən yaxşı ərazilərinə köçürmə siyasətini sürətlə aparırdı.

***Milli burjuaziya.*** Azərbaycan milli burjuaziyası XIX əsrin axırlarından meydana gəlməyə başlamış, XX əsrin əvvəllərindən isə özünə mövqe qazanmış, formalaşmışdır. XIX əsrin ikinci yarsısından başlayan xarici sərmayədar XX əsrdən Azərbaycana daha çox yatırımlar qoymağa başladılar.

Milli burjuaziyanın ildən-ilə iqtisadi cəhətdən qüvvətlənməsi xarici burjuaziyaya qarşı güclü rəqabət yaratmağa imkan verirdi.

Milli burjuaziya hər şeydən əvvəl öz fəhlələrini, işçilərini yerli azərbaycanlılardan götürürdü. Bununla bərabər Azərbaycanın sahibkar insanları başqa millətlərə, xüsusən də rus millətindən olanlara loyal münasibət göstərirdilər. Bu, bəlkə də imperiyanın xofundan irəli gəlirdi.

Milli burjuaziyanın, milli sahibkarların siyasi yetkinliyi də çox aşağı idi. Belə ki, xalqın və milli kapitalın qorunmasında səylərini birləşdirmək baxımından bir iş görməmişlər. Bir sözlə, çox vaxt hərə öz mənafeyini güdür, bir çox sahələrdə birlik yaradılmasında gecikirdilər.

Milli sahibkarlar Bakı Neft Sənayeçiləri Qurultayı Şurası (BNSQŞ) və birinci Dünya müharibəsi dövründə yaradılmış Bakı Hərbi-Sənaye Komitəsi (BHSK) tərkibinə daxil edilməmişlər.

Azərbaycanda fəaliyyət göstərən bankların demək olar ki, hamısının sahibi qeyri-azərbaycanlılar idi. Yalnız 1914-cü ildə Bakıda H.Z.Tağıyev və M.Nağıyev tərəfindən milli bank ("Tacir" bank) təsis edilmişdir.

Çarizm yerli sahibkarların fəaliyyət dairəsini genişləndirməsinə həmişə maneçilik göstərirdi.

Dövrünün məşhur xeyriyyəçisi H.Z.Tağıyev özünün çox böyük ad-sanına, şöhrətinə baxmayaraq xalqı üçün tutarlı bir iş görmək istədikdə çox böyük çətinliklə üzləşirdi. Məsələn, o, Bakıda toxuçuluq fabrikini və azərbaycanlı qızlar üçün gimnaziya açmaq üçün imperiyanın ən yuxarı dairələrinə "hədiyyələr" verməyə məcbur olmuşdu.

XX əsrin əvvəllərində Azərbaycanda RSDFP-nin təşkilatları ilə yanaşı milli azadlıq hərəkatına rəhbərlik etmək üçün keçmiş hümmətçilərdən ibarət qrup 1911-ci il oktyabrın 11-də "Müsavat partiyası"nı (bərabərlik) yaratdılar.

***Dövlət quruluşu.*** XX əsrin əvvəllərində Azərbaycan Rusiyanın tərkibinə daxil olunduğundan imperiya qanunları ilə idarə olunurdu. İmperiyanın qəbul editlmiş qərar və qanunları ucqarlarda da qəbul edilməli və riayət olunmalıydı. İmperiyanın qəbul etdiyi bütün qərar, əsasnamələr bir mənalı olaraq çarizmin və hakim rus millətinin marağını əks etdirməliydi.

Rusiyanın Dövlət Dumasına seçkilərdə qeyri millətlərə yerlərin az verilməsi də həmin siyasətdən doğurdu.

1905-ci il avqustun 6-da çar Dövlət Dumasının təsis edilməsi haqqında sərəncam verərək, əsasnamə imzaladı.

Əsasnamədə göstərilirdi ki, Dövlət Duması məşvərətçi orqan kimi yaradılır. Duma Dövlət Şurasından asılı olduğundan Dumanın qəbul etdiyi qərarların imperator üçün heç bir əhəmiyyəti yox idi. Yəni, çar Dumanın qərarlarını istədiyi vaxt imzalamaya bilərdi.

Dumada deputatların əksəriyyəti mülkədar və burjua nümayəndələrindən ibarət olmalıydı. Seçicilər əmlak və silki vəziyyətdən asılı olaraq seçilirdilər. Belə ki, mülkədarlardan 2 min nəfərə, burjuaziyadan 4 min nəfərə, kəndlilərdən 30 min nəfərə, fəhlələrdən 90 min nəfərə bir seçici seçilirdi. Seçki qanununa görə qadınlar, 25 yaşına çatmayan şəxslər, orduda qulluq edənlər və köçəri həyat keçirən kiçik xalqlar seçki hüququndan məhrum edilirdi.

1906-cı il mayın 16-31-də keçirilmiş seçkilərdə I Dumada Bakı və Yelizavetpol quberniyalarından təmsil olunan Əlimərdan bəy Topçubaşov, İsmayıl Ziyadxanov, M.Əliyev, Ə.Muradxanov, Əbdulrəhim Haqverdiyev və b. müsəlman fraksiyasını yaratmışdılar.

1907-ci ildə III Duma və 1912-ci ilin payızında keçirilmiş IV Duma seçkilərində dövlət müəyyən dəyişikliklər etmişdi. Bu seçkilərdə sağ oktyabristlər 284 yer, kadetlər isə 258 yer almışdılar. III Dumada Azərbaycanlı əhalini deputatlar - X.Xasməmmədov və IV Dumada M.Y.Cəfərov təmsil etmişlər.

***Rusiyada çarizmin devrilməsi.*** 1917-ci il fevralın 27-dən 28-nə keçən gecə Petroqradda burjua-demokratik inqilabı baş verdi. Çar II Nikolay devrildi. Martın

2-də başda menşevik və eserlər olmaqla Müvəqqəti burjua hökuməti yaradıldı. Yeni hökumətin başında knyaz Lvov dayandı.

Müvəqqəti hökumət Rusiya imperiyasını saxlamağa çalışırdı. Bunun üçün yeni hökumət yerlərdə öz hakimiyyət orqanlarını yaradır, öz kadrlarını hakimiyyətə gətirirdi. Martın 9-da Qafqaz canişinliyi Xüsusi Zaqafqaziya Komitəsi ilə, qubernatorlar isə quberniya komissarları ilə əvəz olundu.

Belə bir şəraitdə Azərbaycanın milli qüvvələri martın 29-da Bakıda "Müsəlman Milli Şurası"nı təşkil etdilər. Şuranın müvəqqəti icraiyyə komitəsi yaradıldı. M.Hacınski komitənin sədri , M.Ə.Rəsulzadə müavin seçildi.

1917-ci il aprelin 15-dən 20-dək Bakıda Qafqaz müsəlmanlarının qurultayı keçirildi. Qurultayda ilk dəfə milli ərazi muxtariyyəti ideyası irəli sürüldü. Bu ideya bir hadisə kimi qiymətləndirilməlidir. O vaxt Rusiya müsəlmanları içərisində iki cərəyan – unitaristlər və federalistlər mövcud idi. Unitaristlər Rusiya dövləti tərkibində müsəlmanlara milli-mədəni muxtariyyət, federalistlər isə Rusiya federativ burjua respublikası daxilində müsəlmanlara ərazi muxtariyyəti verilməsi ideyasını irəli sürürdülər.

May ayının əvvəllərində (1-dən 11-dək) Moskvada Ümumrusiya müsəlmanları qurultayı çağırıldı. Qurultayda federalistlər 271 səsə qarşı 446 səs çoxluğu ilə qətnamə qəbul etdilər.

Sentyabr ayında Azərbaycanda yeni siyasi cərəyan, əvvəlcə "Rusiyada müsəlmanlıq", sonralar isə "İttihad" adlanan partiya yaradıldı. Müsəlman Milli Şurasında "Müsavat", sosialist "Hümmət" və "Ədalət" təşkilatları ilə yanaşı "İttihad"da fəal iştirak edirdi.

Oktyabrın 22-də Bakı Sovetinə seçkilərdə "Müsavat" partiyası qələbə çaldı. Bu həm də bolşeviklər üzərində qələbə idi. Ancaq "Müsavat" çox böyük taktiki səhv etdi – Bakı Sovetinə və onun İcraiyyə Komitəsinə daxil olmadı. Bundan istifadə edən Stepan Şaumyan Bakı Sovetində öz mövqeyini möhkəmləndirdi.

1917-ci ilin martından başlayaraq bütün Rusiya ərazisində siyasi partiyalar və cərəyanlar arasında kəskin mübarizə gedirdi. Hər bir partiya xalq kütlələrini öz

tərəfinə çəkmək üçün geniş təbliğat-təşviqat aparırdılar. Müvəqqəti hökumət deмək olar ki, heç bir fəaliyyət göstərə bilmirdi.

Xalq kütlələri içərisində bolşeviklər daha çevik, proqramlı və məqsədyönlü iş aparırdılar. Nəticədə, 1917-ci il oktyabrın 25-də (noyabrın 7-də) Petroqradda bolşevik silahlı çevrilişi edildi, başda V.İ.Lenin olmaqla Rusiya Sovet Respublikası elan edildi. Noyabrın 2-də (14-də) Bakı Soveti İcraiyyə Komitəsi Bakı şəhərində və Bakı rayonunda ali hakimiyyət orqanı elan edildi.

1918-ci il yanvarın 5-də Müəssislər Məclisi Sovet hökuməti tərəfindən buraxıldı.

Müəssislər məclisində Cənubi Qafqazdan seçilmiş nümayəndələr fevralın 23-də Tiflisdə toplanaraq özlərinin qanunverici orqanını – Zaqafqaziya Seymini (parlamenti) yaratdılar. Azərbaycan fraksiyası seymdə 44 nümayəndə ilə təmsil olunmuşdu. Hər fraksiyadan bir nəfər olmaqla idarə heyəti yaradıldı.

1918-ci il martın 31-də ermənilər Bakıda dəhşətli qırğın törətdilər.

1918-ci il aprelin 25-də S.Şaumyan başda olmaqla Bakı Xalq Komissarlar Soveti yaradıldı. BXKS-da 10 nəfər üzvdən cəmi 3 nəfər azərbaycanlı N.Nərimanov, M.Vəzirov və M.Əzizbəyov təmsil olunurdular. Komissarların yarısını ermənilər təşkil edirdilər.

BXKS ilk gündən Sovet Rusiyası ilə bütün sahələrdə əlaqə saxlayacağını, onun qəbul etdiyi bütün dekret və qərarların özü üçün əsas olacağını bildirdi.

Antiazərbaycan qurumu kimi tarixə daxil olmuş BXKS çox uzun çəkmədi, 1918-ci il iyulun 31-də istefa verməyə məcbur oldu.

# XI F Ə S İ L
# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (I RESPUBLİKA) (1918-1920-Cİ İLLƏR)

1918-ci il fevralın 23-də Cənubi Qafqazın ali orqanı – Zaqafqaziya Seymi yaradıldı. Ancaq Seymin tərkibinə daxil olan Azərbaycan, gürcü və erməni fraksiyaları arasında daxili və xarici siyasətin əsas məsələlərinə münasibətdə ciddi fikir ayrılığının olduğu aşkara çıxdı. Aprelin 22-də Zaqafqaziyanın müstəqil federativ respublika elan edilməsi bu zidddiyyətləri aradan qaldırmadı. Fraksiyalar arasında getdikcə güclənən çəkişmələr son nəticədə Seymin fəaliyyətini iflic vəziyyətinə saldı. Belə bir şəraitdə gürcülər Zaqafqaziya Seyminin tərkibindən çıxıb Gürcüstanın dövlət müstəqilliyini elan etmək qərarına gəldilər. 1918-ci il mayın 26-da Zaqafqaziya Seymi özünün buraxıldığını elan etdi və həmin gün Gürcüstanın müstəqilliyi bəyan edildi. Mayın 27-də Seymin müsəlman fraksiyası Azərbaycan Milli Şurasını yaratdı. Milli Şuranın sədri M.Rəsulzadə seçildi.

Azərbaycanın milli dövlətçilik tarixində 27 may 1918-ci il günü böyük hadisə sayılmalıdır.

O vaxt zaman məsələni belə qoymuşdu: ya sən öz dövlətinin müstəqilliyini elan etməlisən, ya da vətəninin parçalanıb qonşu dövlətlərin əlavəsinə çevrilməsini gözləməlisən. O vaxt bir tərəfdən İran, bir tərəfdən Türkiyə, şimaldan Rusiya, Gürcüstan, hətta heç bir dövlət ərazisi olmayan ermənilər də Azərbaycandan torpaq "payı" umurdular. Sovet Rusiyası keçmiş Rusiya imperiyasının tərkibində olan xalqlara"öz müqəddaratlarını təyin etmək hüququ haqqında" bəyannamə versə də Bakını əldən vermək istəmirdi. 1918-ci il aprelin 25-də Bakı Xalq Komissarlar Sovetinin yaradılması və Komunnaya bolşevik-daşnak S.Şaumyanın rəhbərlik etməsi, Bakının istənilən an Sovet Rusiyasına təhvil verilməsini çox asanlaşdırmışdı.

İran ta qədimdən bu ərazilərin onun olmasını deyir, Azərbaycana sahib durmağa can atırdı.

Ermənilər 1918-ci ildə Qərb ölkələrində yaymışdılar ki, Birinci Dünya müharibəsi illərində guya onlar Bakını savaşaraq almışlar. Bakı onlarındır. Haylar bir qədər də irəli gedərək, yalanlarını daha da böyüdərək onu da uydurmuşdular ki, Azərbaycan deyilən bir ərazi Böyük Ermənistanın bir hissəsidir...

Qeyri dövlətlər də Azərbaycanın hansısa ərazisini götürməyə planlar cızmışdılar. Bakı nefti dünya ölkələrinin gözlərini yaman qamaşdırmışdı...

Belə şəraitdə Azərbaycanın 44 nəfər vətənpərvər övladları xalqın şərəf və ləyaqətini qoruyub saxlaya bildilər. Mayın 27-də Seymin Müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan etdi. Azərbaycanın dövlət müstəqilliyinin elan olunması haqqında qərar qəbul edildi.

1918-ci il mayın 28-də Milli Şuranın sədr müavini Həsən bəy Ağayev tərəfindən oxunan bəyannamədə deyilirdi:

1. Azərbaycan tam hüquqlu və müstəqil dövlətdir. Zaqafqaziyanın cənub və şərq hissəsindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur.
2. Müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir.
3. Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvləri, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələri yaradacaq.
4. AXC öz sərhədləri daxilində millətindən, dinindən, ictimai vəziyyət və cinsindən asılı olmayaraq bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir.
5. AXC onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaq.
6. Müəssislər məclisi çağrılana kimi bütün Azərbaycanın idarəsi başında xalq səsverməsi yolu ilə seçilmiş Milli Şura və onun qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.

Milli Şura AXC-nin ilk hökumətini təşkil etməyi F.Xoyskiyə tapşırdı. Müstəqil Azərbaycanın birinci hökumətinin tərkibi belə seçildi: Nazirlər Şurasının sədri və daxili işlər naziri F.Xoyski; Hərbi nazir – X.P.Sultanov; maliyyə və xalq maarifi naziri – N.Yusifbəyli; xarici işlər naziri – M.Hacınski, yollar, poçt və

teleqraf naziri – X.Məlikaslanov; ədliyyə naziri - X.Xasməmmədov; Əkinçilik və əmək naziri – Ə.Şeyxülislamov; ticarət və sənaye naziri – M.Cəfərov; dövlət nəzarəti naziri – C.Hacınski.

Beləliklə, ilk Azərbaycan Xalq Cümhuriyyətinin (I Respublika) yaranması Azərbaycan xalqının çoxdan arzuladığı müstəqillik arzularının həyata keçməsi idi. 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin varisliyi (I Respublika), 1920-ci ildə ictimai quruluşu və dövlət idarəçilik formasının dəyişdirilməsi ilə yeni Azərbaycan Sovet Sosialist Respublikası (II Respublika) və 1991-ci ildə isə müstəqil Azərbaycan Respublikasının (III Respublika) meydana gəlməsi ilə tamamlanır.

Yeni yaradılmış Azərbaycan dövlətinin ilk addımlarından biri 1918-ci il iyun ayının 4-də Batumda Osmanlı dövləti ilə sülh və dostluq müqaviləsinin imzalanması oldu.

1918-ci il iyun ayının 16-da Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçdü. Burada Milli Şura güclü müxalifətlə qarşılaşdı. Azərbaycan burjuaziyası və mülkədarlarının müəyyən dairələrin fikrincə, Milli Şura və onun yaratdığı hökumət həddən artıq sol və inqilabi mövqelərdə dururdu. “İttihad”ın Azərbaycanın Türkiyəyə birləşdirilməsinin tərəfdarları olan bu dairələr Milli Şuraya qarşı mübarizəyə başladılar. Türkiyə qoşunlarının Gəncədə olan komandanı Nuru Paşa Milli Şura üzvlərini qəbul etməkdən imtina etdi.

Milli Şuraya etimadsızlıq hökumət böhranına səbəb oldu.

İyunun 17-də Milli Şuranın iclasında sədrlik edən M.Ə.Rəsulzadə öz çıxışında yaranmış vəziyyətdə Şuranın buraxılmasını təklif etdi. Həmin gün F.Xoyskinin rəhbərlik etdiyi 2-ci hökumət kabineti yaradıldı. Yeni kabinədə altı keçmiş və altı yeni üzv yer aldı. İyunun 23-də  yaranmış gərgin vəziyyəti nəzərə alaraq yeni hökumət bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi.

Mart hadisələrindən sonra Bakıda siyasi vəziyyət bolşeviklərin xeyrinə dəyişməyə başladı.

1918-ci il iyunun 12-də S.Şaumyanın  əmri ilə Bakı Sovetinin hərbi qüvvələri Gəncə üzərinə hücuma başladı. Daşnak Şaumyan Azərbaycan Xalq

Cümhuriyyətini yer üzərindən silməyə çalışırdı. Ancaq onun arzuları ürəyində qaldı. Azərbaycan və Osmanlı hökumətləri arasında bağlanmış müqaviləyə (1918-ci il 4 iyun) əsasən Türkiyənin göstərdiyi hərbi yardım sayəsində bu təhlükənin qarşısı alındı. İyunun 27-dən iyulun 1-dək Göyçay ətrafında gedən ağır döyüşlərdə bolşevik-erməni qüvvələri darmadağın edilərək Gəncə üzərinə hücumun qarşısı alındı.

Azərbaycan hökumətinin qarşısında duran əsas vəzifə Bakını azad etmək idi.

1918-ci il iyulun 31-də Azərbaycanda heç bir sosial dayağı olmayan Bakı XKS istefa verməyə məcbur oldu. Hakimiyyət "Sentrokaspi diktaturası və fəhlə və əskər deputatların" Müvəqqəti İcra Komitəsinin Rəyasət Heyəti"nin əlinə keçdi. Bu oyuncaq diktaturanın əsas məqsədi isə Ənzəlidə olan ingilisləri Bakıya gətirmək idi. Bakıya gələn ingilis generalı Denstervilə də aydın oldu ki, onlar şəhəri müdafiə edə bilməzlər.

1918-ci il sentyabrın 15-də Azərbaycan və türk qoşunları Bakını eser və daşnaklardan azad etdilər. İki gün sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdü.

Azərbaycan dövlətçiliyi xalq cümhuriyyəti formasında təşəkkül tapdı. Azərbaycan hökumətinin 1918-ci il 24 iyun tarixli qərarına əsasən üzərində ağ rəngli aypara və səkkizgüşəli ulduzun təsviri olan qırmızı bayraq dövlət bayrağı kimi qəbul edildi. Noyabrın 9-da isə həmin bayraq ağ aypara və səkkizgüşəli ulduzun təsvir olunduğu üç rəngli yaşıl, qırmızı və mavi zolaqlardan ibarət yeni bayraqla əvəz olundu. İyunun 27-də Azərbaycan (türk) dilinin dövlət dili elan edilməsi barədə qərar qəbul edildi.

1918-ci ilin payızında beynəlxalq aləmdə baş vermiş hadisələr Azərbaycanı çox çətin vəziyyətə saldı. Birinci Dünya müharibəsində məğlub olmuş Osmanlı dövləti ilə Müttəfiq dövlətlər arasında Mudros barışığı (1918-ci il 30 oktyabr) imzalandı. Barışığa əsasən Osmanlı dövləti Cənubi Qafqazdan, o cümlədən, Azərbaycandan hərbi hissələrini çıxarmalı idi. Cənubi Qafqaz regionu Müttəfiq dövlətlərin nəzarətinə keçdi, Azərbaycana ingilis qoşunları yeridildi.

1918-ci il noyabrın 17-də ingilis qoşunları başda general Tomson olmaqla Bakıya gəldi. Şəhərdə hərbi vəziyyət elan edildi.

Burada bir məsələni xüsusi olaraq vurğulamaq lazımdır. Belə ki, ermənilər və ruslar ingilis komandanlığını belə bir ağ yalana inandırmağa səy göstərmişdilər ki, guya Azərbaycanda milli hökumət deyilən bir şey yoxdur. Bu, osmanlıların dövlətidir. Yerli əhalinin dövlət rəhbərliyi ilə heç bir əlaqəsi yoxdur. Məhz bu yalanlara görə idi ki, ingilis generalı Bakıda ilk günlər özünü çox amiranə aparırdı. Bir qədər sonra general Tomson və onun əhatəsində olanlar gördülər ki, Azərbaycan hökuməti milli hökumətdir, bu hökumətin arxasında xalqın əksəriyyəti dayanıbdır və hökuməti təmsil edən şəxslər Rusiyada, Avropada yüksək təhsil görmüş intellekt insanlarıdır.

General Tomson AXC hökuməti ilə əməkdaşlıq etməyə başladı.

Sonralar general Tomson öz memuarlarında qeyd edirdi ki, "Fətəli xan Xoyski nəinki kiçik bir Azərbaycan dövlətini, hətta Britaniya kimi böyük bir dövləti idarə etmək qabiliyyətinə malik şəxsiyyətdir..."

1918-ci il noyabrın 16-da Azərbaycan Milli Şurası beş aylıq fasilədən sonra yenidən fəaliyyətə başlayaraq həmin ayın 19-da "Azərbaycan Parlamentinin yaradılması haqqında" qanun qəbul etdi.

***AXC-in ali və yerli hakimiyyət və idarəetmə orqanları.*** Azərbaycan Milli Şurası Azərbaycan xalqının iradəsini ifadə edən ali orqan idi. Milli Şuranın dövlət qanunvericilik orqanına – Azərbaycan Parlamentinə çevrilməsi qərara alındı. Qanunda ölkə əhalisinin milli tərkibinə müvafiq olaraq Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələrinin parlamentdə təmsil olunması qərarlaşdı. Parlamentə 120 nəfər seçilməliydi. Onların 80 nəfəri azərbaycanlı, 21 nəfəri-erməni; 10 nəfəri-rus olmalı idi; qalan milli azlıqlara 4 yer ayrılırdı.

1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin ilk iclası oldu. Parlamentin səlahiyyətlərinə qanunvericilik fəaliyyəti məzmununda Azərbaycan dövlətinin müstəqilliyini möhkəmləndirmək, demokratik quruluşu inkişaf etdirmək, beynəlxalq aləmdə Azərbaycanın tanınmasına nail olmaq kimi məsələlər daxil idi.

Azərbaycan parlamenti bir palatalı idi. Parlamentdə 11 komissiya fəaliyyət göstərirdi. “Müsavat” partiyası parlamentdə ən böyük partiya kimi təmsil olunurdu.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə beş hökumət təşkil edilmişdi. İcraedici hakimiyyət olan Nazirlər Şurası hökumətin fəaliyyətini istiqamətləndirirdi. Nazirlər Şurası fəaliyyəti dövründə müxtəlif sahələr üzrə 636 qərar və sərəncam vermişdi.

İlk müvəqqəti hökumətə başçılıq etmiş F.Xoyski, ikinci və üçüncü hökuməti də təşkil etmişdi. 1919-cu ilin martında istefa vermiş Xoyskinin əvəzinə aprelin 14-də N.Yusifbəyli hökumətə başçı seçilmişdir. Həmin ilin dekabrında beşinci hökuməti də N.Yusifbəyli təşkil edir.

1920-ci il aprelin 1-də Yusifbəyli hökuməti istefa verir. Altıncı hökuməti yaratma M.H.Hacınskiyə təklif olunsa da Hacınski hökuməti təşkil etməyə tələsmədi.

Azərbaycan Cümhuriyyəti hökuməti son dərəcə mürəkkəb bir şəraitdə çox vacib, taleyüklü məsələlər həll etmişdir. İlk növbədə daxili asayişi yarada bildi. Yerli orqanların fəaliyyəti üçün şərait təmin etdi. Dağılmış təsərrüfat qaldırıldı, poçt, rabitə, maliyyə işləri sahmana salındı. Əhalinin yoxsul təbəqəsinə, işsizlərə, eləcə də erməni-daşnak zülmündən xilas olanlara yardım edildi.

Nazirlər Kabinetinin 1918-ci il 27 iyun tarixli qərarı ilə “Hökumət Xəbərləri” məcmuəsi nəşr olunur.

1919-cu il yanvarın 18-də Nazirlər Şurası parlamentə göndərilən qanun layihələrinin təslim edilməsi qaydasını təsdiq etdi. Qaydalara görə heç bir iş Nazirlər Şurasında müzakirə edilmədən parlamentin müzakirəsinə göndərilə bilməzdi.

Nazirlər Kabineti maliyyə vəziyyətini möhkəmləndirmək məqsədi ilə 1918-ci il sentyabrın 22-də Bakı Soveti dövründə buraxılmış bonların dövlət pulları ilə bərabər olması barədə qərar verdi.

1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı təsdiq edildi.

Azərbaycan Xalq Cümhuriyyəti
Nazirlər Şurasının
Milli bayraq haqqında
Q ə r a r ı

9 noyabr 1918-ci il Bakı şəhəri

Milli bayraq kimi, yaşıl, qırmızı, mavi rənglərdən və ağ aypara və səkkizgüşəli ulduzdan ibarət olan bayraq qəbul edilsin.

1919-cu il martın 3-də Azərbaycan teleqraf agentliyinin yaradılması barədə sərəncam verildi.

Sentyabr ayında Azərbaycan Dövlət Bankının yaradılması haqqında qərar verildi. Azərbaycan Cümhuriyyətinin pul və poçt markaları dövriyəyə buraxıldı.

Milli hökumətin Bakının azad edilməsinin ildönümü münasibətilə 1919-cu il sentyabrın 12-də xüsusi qərarı ilə 15 sentyabr bayram günü elan edildi.

Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi təxminən 114 min kv.km olmuşdur. Cümhuriyyətin ərazi-inzibati quruluşu - çar Rusiyası dövründə mövcud olmuş ərazi vahidləri saxlanıldı: quberniya, qəza, dairə və nahiyə. Bakı, Gəncə və İrəvan quberniyaları, Zaqatala dairəsi ən iri inzibati vahidlər idi.

Quberniyalara hökumət tərəfindən təyin edilən general-qubernator başçılıq edirdi. 1919-cu il 5 fevral tarixli hökumət qərarı ilə R.Axundzadə Bakı qubernatoru təyin edildi. Digər fərmanla Quda Quduyev Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzaları üzrə general-qubernator müavini vəzifəsinə göndərildi.

Nazirlər Kabinetinin 1918-ci il 30 iyun tarixli qərarı və yerli əhalinin istəyi ilə Zaqatala Azərbaycana birləşdirildi.

1919-cu ilin əvvəllərinə qədər tarixən Azərbaycan şəhəri Dərbənd və ətraf rayonları Azərbaycan hökumətinin qərar və sərəncamları ilə işləyirdi. Ancaq bir qədər sonra Dərbənd əyaləti Denikinin qoşunları tərəfindən işğal edildi. O vaxtdan Dərbənd Rusiyanın ərazisinə qatıldı...

Quberniyalar qəzalara, qəzalar nahiyələrə, nahiyələr isə kəndlərə bölünürdü. Yerli sahə polismeystri vəzifələrinə təyinatı general-qubernator verirdi.

1919-cu il fevralın 28-də Nazirlər Şurası yerli idarəçilikdə çox mühüm bir tədbir həyata keçirdi. Hökumətin qərarı ilə Cənub-Qərbi Azərbaycanda general-qubernatorluq idarə sistemi yaradıldı. Fərmana görə Naxçıvan, Ordubad, Culfa qəzası və İrəvan quberniyasının azərbaycanlılar yaşayan ərazilərini əhatə edən qubernatorluq erməni daşnaklar tərəfindən törədilən ardıcıl cinayətlərin və soyqırımın qarşısını almalı idi. Bəhram xan Naxçıvanski Cənub-Qərbi Azərbaycanın general-qubernatoru, Kərim xan İrəvanski hərbi məsələlər, Hacı Mehdi Bağırov isə mülki işlər üzrə müavin təyin edildi. Milli hökumət yerli hakimiyyətin dərhal işə başlaması üçün 500 min manat vəsait ayırdı.

General-qubernatora 4 min 500, müavinlərə 3 min 500 manat, şura üzvlərinə isə 3 min manat həcmində məvacib müəyyən edildi.

Cənub-Qərbi Azərbaycan qubernatorluğunun ərazisi keçmiş çar inzibati ərazi bölgüsünə görə İrəvan quberniyasına daxil edilmişdi.

1918-ci il noyabrın sonlarında müvəqqəti müstəqilliyini elan etmiş Araz Respublikası (paytaxtı Kəmərli, sonra isə Naxçıvan olmuşdur) yaradıldı. Onun ərazisinə Cənub-Qərbi Azərbaycanın müsəlmanlar yaşayan Naxçıvan, Şərur, Dərələyəz, Sərdarabad, Vedibasar, Mehri, Kəmərli və s. bölgələri daxil edilmişdi. Naxçıvan şəhəri müvəqqəti Respublikanın paytaxtı idi. 1918-ci ilin dekabrında daha bir yeni Respublika Cənub-Qərbi Qafqaz Demokratik Respublikası (paytaxtı Qars şəhəri) yaradıldıqdan sonra Araz Respublikası yeni qurumun tərkibinə daxil olur.

Azərbaycan hökumətinin 1919-cu il 28 fevral tarixli fərmanı dövlətçiliyi və yerli idarəçiliyi möhkəmləndirmək, hərc-mərcliyin qarşısını almaq, qaçqınlara kömək etmək, yeni Respublikanı daxili ziddiyyətlərdən qurtarmaq, vahid dövlət kimi Azərbaycanın təmsil olunmasına nail olmaq, Qafqazdakı mübahisəli ərazilərin AXC-nə birləşməsini təmin etmək məqsədini güdürdü. Məhz Azərbaycan hökuməti Naxçıvan və İrəvan quberniyası əhalisinin Azərbaycan

Respublikasına birləşmək arzusunu nəzərə alaraq, Naxçıvana və bütövlükdə Cənub-Qərbi Azərbaycana general-qubernator təyin etmişdi.

Azərbaycan hökuməti Cənub-Qərbi Azərbaycan əhalisinin iradəsinə uyğun olaraq, bu ərazilərin Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bildirdi.

Cənub-Qərbi Qafqaz Respublikasının yaranması zərurəti Türkiyənin müharibədə məğlub tərəf kimi Azərbaycandan və Qafqazın digər ərazilərindən öz qoşunlarını çıxarması ilə bağlı idi. 1919-cu il yanvarın 16-dan türk qoşunları tamamilə Cənub-Qərbi Azərbaycanı tərk etdi.

Beləliklə, Britaniyanın dəstəyinə arxalanan erməni daşnaklarının Naxçıvan torpaqlarını Azərbaycandan ayırmaq cəhdləri milli hökumətin iradəsi nəticəsində boşa çıxdı.

AXC-nin ərazi bütövlüyü üçün digər bir təhlükə Rusiyanın və ermənilərin Muğanda (Lənkəran qəzası) Sovet hakimiyyəti qurmağa cəhd göstərmələri idi.

1919-cu il mayın 15-də Lənkəranda kəndli deputatları sovetinin qurultayı Sovet hakimiyyətini elan etdi. Azərbaycan xalqının qatı düşmənlərindən biri daşnak A.Mikoyan RK(B)P MK-ya dərhal məktub göndərərək, "qurultayın bizim yoldaşların (bolşeviklərin) rəhbərliyi altında keçdiyini" bildirmiş və mərkəzin kömək göstərməyini xahiş etmişdi. Lənkəranda qurulan oyuncaq sovet hakimiyyətinə Rusiyadan və İrandan xeyli maddi və silah kömətkliyi göstərilməsinə baxmayaraq iyulun 16-da Azərbaycan hökuməti öz ərazi bütövlüyünü qorumaq üçün tədbirlər gördü. Polkovnik İlyişeviçin əsasən ermənilərdən ibarət 400 nəfərlik dəstəsi tərk-silah edildi. Yerli əhaliyə kömək göstərildi. Astara və Lənkəran kömrük idarələrinin fəaliyyəti bərpa edildi.

Beləliklə, Muğanda milli hökumətin gördüyü mühüm və tarixi əhəmiyyətli işlər AXC-nin daha da möhkəmlənməsinə səbəb oldu.

Azərbaycan Xalq Cümhuriyyəti xalqın, millətin, dövlətin taleyüklü məsələlərindən biri olan ordu quruculuğuna ilk gündən xüsusi diqqət vermişdir.

1918-ci il iyunun 26-da keçmiş müsəlman korpusu "Əlahiddə Azərbaycan "korpusu"na çevrildi.

1918-ci il noyabrın 1-də hərbi nazirlik yaradıldı. Hökumət qərarında noyabrın 1-dən baş nazir eyni zamanda Hərbi Nazirliyə də rəhbərlik edirdi. General Səməd bəy Mehmandarov nazir müavini təyin olundu. Dekabrın axırlarında S.Mehmandarov hərbi nazir, general Əliağa Şıxlinski onun müavini, general Süleyman Sulkeviç gərargah rəisi təyin edildi.

1920-ci ilin əvvəllərində ölkənin daxili siyasi həyatı xeyli sabitləşdi. Qısa müddətdə normal fəaliyyət göstərən dövlət aparatı, mütəşəkkil ordu yaradıldı.

1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası Azərbaycanın müstəqilliyini de-fakto tanıdı. Bakıda xarici ölkələrin, o cümlədən Belçika, İsveç, Hollandiya, Finlandiya və s. nümayəndəlikləri açıldı. AXC beynəlxalq aləmdə tanınmağa başladı.

Lakin Azərbaycanın sabitliyi uzun sürmədi. Ölkənin başının üstünü bolşevik təhlükəsi aldı. 1920-ci il fevralın 11-də Azərbaycan K(b)P-in birinci qurultayı dövlət çevrilişi xəttini əsas götürdü. Azərbaycan bolşevikləri Rusiyaya arxalanırdılar.

1920-ci il martın 17-də V.İ.Lenin İ.T.Smilqa və Q.K.Orconikidzeyə göndərdiyi teleqramda göstərirdi: “Bakını tutmaq olduqca zəruridir. Bütün qüvvələri buna yönəldin...”

1920-ci il aprelin 28-də bolşevik Rusiyasının təcavüzü nəticəsində, beynəlxalq münasibətlərə və beynəlxalq hüquqa zidd olaraq Azərbaycan dövləti süqut etdi.

Bütün müsəlman Şərqində parlamentli demokratik respublika tipində ilk dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti bu gün də demokratik normalar kimi qiymətləndirilən xalq hakimiyyəti, insan hüquqları, millətlərin bərabərlik hüququ və s. elan etmiş və fəaliyyəti dövründə həyata keçirmişdir. Cəmi 23 ay ərzində dövlət strukturları və ordu yaradıldı, Bakı Dövlət Universiteti təsis edildi, Azərbaycan dili (türk)  dövlət dili elan edildi, təhsil sistemi milliləşdirildi, 8 saatlıq iş gününə keçildi, dövlətin ərazi bütövlüyü qorunub saxlanıldı və s. və i...

**Praktiki məşğələ**

**Plan:**

1. 1917-1918-ci ilin əvvəllərində Azərbaycanda siyasi vəziyyət. Azərbaycanlıların soyqırımı.
2. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması.
3. Azərbaycan Parlamentinin formalaşdırılması və onun fəaliyyəti.
4. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruluşu, idarə sistemi. Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi sahəsində həyata keçirilən tədbirlər.
5. Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik ənənələrinin tarixi əhəmiyyəti.

**Ədəbiyyat**


1. Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası. I, II c. B., 2004, 2005
2. İsgəndərov A. Azərbaycan Xalq Cümhuriyyəti. 1918-1920. B., 2007
3. Məmmədov Ç. Birinci Azərbaycan Respublikası. B., 2003
4. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. B., 1990
5. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. B., 1990

# XII F Ə S İ L
# AZƏRBAYCANDA SOVET DÖVLƏT İDARƏ SİSTEMİ
# (II RESPUBLİKA)
# (1920-1991-Cİ İLLƏR)

Müstəqil Azərbaycan Respublikasının memarı Heydər Əliyev "Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət"ində XX əsr Azərbaycan dövlətçilik tarixini 4 əsas dövrə bölmüşdür.

**Birinci dövr,** XIX əsrin sonundan başlayıb 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinə qədər davam etmişdir. Bu dövrdə Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklər baş vermiş, ilk növbədə milli oyanış, milli dirçəlişin, milli ruhun yüksəlməsi isə müstəqil dövlət qurmaq üçün münbit zəmin yaradılması ilə səciyyələnir.

**İkinci dövr,** çar Rusiyası dağıldıqdan sonra ölkəmizin ilk dəfə dövlət müstəqilliyi əldə etdiyi, yəni Azərbaycan Xalq Cümhuriyyəti dövrüdür (28 may 1918-28 aprel 1920).

**Üçüncü dövr,** 1920-1991-ci illəri əhatə edən sovet hakimiyyəti dövrüdür.

**Dördüncü dövr,** SSRİ-nin süqutu, Azərbaycan Respublikasının yaranması və bu günə kimi uğurla davam edən dövrdür.

Dövlətçiliyimizdə üçüncü dövr ötən əsrin çox hissəsini – 71 illik bir dövrünü əhatə edir.

Ümummilli lider Heydər Əliyev Azərbaycanda sovet dövrünü belə səciyyələndirir:"...bu dövr çox mürəkkəb, ziddiyyətli dövr – bir tərəfdən hakim rejimin repressiyaları, xalqımızın ənənələrinə, mənəviyyatına göstərilən təzyiqlər, məhrumiyyətlər və məhdudiyyətlər, ikinci tərəfdən isə eyni zamanda xalqımızın böyük inkişaf yolu olmuşdur".

Heydər Əliyev öz nitq və çıxışlarında dəfələrlə qeyd etmişdir ki, əgər Azərbaycanın milli dövlətçiliyi işğala məruz qalmasaydı Azərbaycanın uğurları daha çox olardı.

O dövrdə bolşevik Rusiyası neft səltənəti olan Bakını heç vaxt əldən vermək istəmədi.

1920-ci il aprelin 27-də bolşevik hərbi qoşunları bütün beynəlxalq hüquq normalarını pozaraq, Azərbaycanda milli hökuməti – Azərbaycan Xalq Cümhuriyyətini zorla devirərək burada sovet hakimiyyətini qurdular.

1920-ci il aprelin 27-də Nəriman Nərimanov başda olmaqla Azərbaycan Müvəqqəti İnqilabi Komitə yaradılır. N.Nərimanov o vaxt Moskvada idi. Tarixi həqiqət naminə demək lazımdır ki, N.Nərimanovun Azərbaycana rəhbərliyə göndərilməsi V.İ.Leninin göstərişi ilə olmuşdur. V.İ.Lenin N.Nərimanovu Şərq dünyasının ən böyük şəxsiyyətlərindən biri kimi tanıyır və qiymətləndirirdi.

Bu təyinatı çoxları istəmirdi. Belə ki, hələ N.Nərimanov Bakıda olmadığı vaxtda, mayın 2-də Q.K.Orconikidze və S.M.Kirov V.İ.Leninə şifrəli göndərdikləri teleqramda Azərbaycanda ali səlahiyyətlərin N.Nərimanova deyil, onlara verilməsini məsləhət görürdülər.

Azərbaycanda xalqın sevdiyi və inandığı, hamının hörmətlə "doktor" çağırdığı Nərimanov mayın 16-da Moskvadan xüsusi qatarla Bakıya gəldi. Əhali öz yeni rəhbərini çox hərarətlə qarşıladı. Nəriman Nərimanov Azərbaycan Xalq Komissarlar Sovetinin sədri kimi fəaliyyətə başladı.

Azərbaycanı müstəqil respublika kimi çoxları qəbul etmək istəmirdilər. İ.V.Stalin də "Azərbaycanın müstəqilliyinə tərəfdar deyiləm" deyirdi.

Azərbaycanın müstəqilliyi tanınsa da idarəçiliyin bütün sahələrinə Rusiyalı nümayəndələrinin yerləşdirilməsi Moskvanın əsas siyasəti idi. Daşnak A.İ.Mikoyan o vaxt belə demişdi: "Biz Nərimanovu İnqilab Komitəsinin sədri secərik və onu elə mühasirəyə alarıq ki, o çox da öz nüfuzundan istifadə edə bilməsin..."

Böyük xalq adamı N.Nərimanov belə şəraitdə işləməli oldu.

Moskvanın bu strateji siyasətinə əsasən AK(b)P MK-nın və AK(b)P Bakı Komitəsinin nəinki katibləri, eləcə də partiya aparatının məsul işçiləri belə qeyri-azərbaycanlılardan təyin olunurdular.

N.Nərimanov Bakıya gələn kimi milli hökumət yaratmağa başlayır. Azərbaycan SSR Xalq Komissarlar Sovetinin ilk tərkibi belə idi: Hökumətin sədri və xarici işlər naziri N.Nərimanov, daxili işlər komissarı H.Sultanov, ədliyyə və

əmək komissarı Ə.H.Qarayev, həmçinin Q.Musabəyov, M.D.Hüseynov, Ç.İldırım, D.Bünyadzadə, C.Vəzirov və A.Əlimov.

1920-ci il sentyabrın 30-da Moskvada RSFSR və Azərbaycan SSR arasında hərbi-iqtisadi ittifaq haqqında müqavilə bağlandı. Müqavilədə göstərilirdi:

1) Rusiya və Azərbaycan bir-biri ilə sıx hərbi və maliyyə-iqtisadi ittifaq bağlayırlar;
2) RSFSR hökuməti ilə Azərbaycan Respublikası arasında ən qısa müddətdə aşağıdakıları birləşdirirlər: a) hərbi təşkilatı və hərbi komandanlığı; b) xalq təsərrüfatı və xarici ticarəti idarə edən orqanları; ç) təchizat orqanları; c) dəmiryolu nəqliyyatını və su nəqliyyatını, habelə poçt və teleqraf idarəsini; d) maliyyə işini.

Bu sazişdən bir daha görünür ki, Rusiya Azərbaycanın, demək olar ki, bütün xalq təsərrüfatını öz əlində cəmləşdirirdi.

RSFSR ilə Azərbaycan arasında ərzaq siyasətinin birləşdirilməsi haqqında da saziş imzalanmışdı. Sazişə əsasən RSFSR Azərbaycan SSR-ni ərzaqla təmin etməyi öz üzərinə götürürdü. Təbii olaraq Azərbaycan nefti də təmənnasız Həştərxana daşınırdı. Təkcə 1920-ci ilin iyun ayında Rusiyaya 21.2 milyon pud neft daşınmışdı.

Sazişin bütün sahələri üzrə Azərbaycanda Rusiyanın nümayəndəliyi fəaliyyət göstərirdi.

Bu bir daha onu göstərir ki, RSFSR Azərbaycana suveren müttəfiq kimi deyil, özünün ərazisi kimi baxırdı.

***Yeni dövlət aparatının yaradılması.*** 1920-ci il 27 aprel bolşevik çevrilişindən sonra Azərbaycanın ictimai və dövlət quruluşunda Azərbaycan Xalq Cümhuriyyəti dövründə mövcud olmuş qaydalar ləğv edilir və yeni sovet rejimi formalaşdırılırdı.

Bir qədər sonra isə Moskvada qəbul edilən qərar və göstərişlər bütünlüklə Azərbaycan SSR-yə də tətbiq olunurdu.

Azərbaycan İnqilab Komitəsinin 12 may dekreti ilə silk və mülkü rütbələr ləğv edildi. Dekretdə göstərilirdi ki, bütün adlar – zadəgan, tacir, meşşan, kəndli,

həmçinin titullar – bəy, xan, knyaz, qraf və mülkü rütbələr – gizli müşavirlər, mülkü müşavirlər və s. ləğv edilir və bütün əhaliyə Azərbaycan SSR-nin vətəndaşı adı verilir. Vətəndaşlar arasında müraciət forması "yoldaş" ifadəsi ilə müəyyən edilirdi.

Dini imtiyazlar ləğv edilir, məscid və kilsə dövlətdən ayrılırdı. Mayın 15-də Azərbaycan SSR Xalq Maarif Komissarlığının dekretinə əsasən vicdan azadlığı elan edildi. Dini etiqadı seçmək könüllü sayılırdı. Dövlət məktəblərində şəriət dərsləri qadağan edildi. Hər cür dini təbliğat qadağan sayıldı.

Azərbaycan SSR-də ilk dövlət hakimiyyət aparatı Müvəqqəti Hərbi İnqilab Komitəsi olmuşdur. Komitə Fəhlə, Kəndli və Əskər Deputatları Sovetləri çağrılana kimi ali hakimiyyət funksiyasını yerinə yetirməli idi. Komitə eyni zamanda ali icraedici hakimiyyəti özündə birləşdirirdi. Komitənin fəaliyyətində sovet quruculuğu, mərkəz və yerli idarəetmə orqanlarının təşkili əsas yer tuturdu. Belə ki, təsərrüfatın, mədəniyyətin və inzibati-siyasi hakimiyyətin müxtəlif sahələri üzrə ***icraedici orqanlar*** – xalq komissarlıqları yaradılırdı.

Dövlət Nəzarət Komissarlığı iyunun 9-dan Fəhlə-kəndli müfəttişliyinə çevrildi. Milliləşdirilmiş sənaye və iqtisadiyyatın digər sahələri üzrə respublikada adi idarəçilik orqanı olan Xalq Təsərrüfatı Şurası yaradıldı. Neft sənayesi müəssisələrini idarə etmək üçün Azərbaycan Neft Komitəsi təşkil edildi.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra hakimiyyətin yerli orqanları kənd, nahiyə və qəza inqilab komitələri oldu. Yerli orqanlar yuxarı hakimiyyət orqanlarının qərar və göstərişlərini yerinə yetirir, kənddə sovetləşməni təşkil edirdi.

1920-ci il sentyabrın 23-də kənd yoxsul komitələri təsis edildi. Bu idarəetmə orqanı sədr və 4 üzvdən ibarət olurdu. Bunlar yerli inqilab komitələrinin ləğvi nəticəsində meydana gəldi.

***Azərbaycan SSR-in ilk Konstitusiyası***. 1921-ci il mayın 6-da Bakıda Azərbaycan SSR-in Fəhlə, Kəndli, Əskər və Matros Deputatları Sovetinin birinci qurultayı keçirildi. Nümayəndələrin 321 nəfərini azərbaycanlı, 75 nəfərini rus, 21

nəfərini erməni və gidər millətlər təşkil edirdi. Qurultay zəhmətkeşlərin tam səlahiyyətli orqanı sayılırdı.

1921-ci il mayın 19-da I Sovetlər qurultayı Azərbaycan SSR-in ilk Konstitusiyasını təsdiq etdi. Sovet dövründə qəbul olunmasına baxmayaraq ilk konstitusiyanın qəbulu həm tarixi, həm də əlamətdar hadisə idi. Konstitusiya 5 bölmədən, 15 fəsildən və 104 maddədən ibarət idi. Konstitusiyanın XV fəslində Azərbaycan SSR-in gerbi və bayrağından bəhs edilirdi.

Konstitusiyaya görə ləğv edilmiş Azərbaycan Hərbi İnqilab Komitəsi əvəzinə yeni hakimiyyət strukturu yaradılırdı. Azərbaycan SSR-də ali qanunverici orqan Fəhlə, Kəndli, Əskər və Matros Deputatları Sovetinin qurultayı idi. Qurultaylar arası dövrdə qurultay tərəfindən seçilmiş Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi ali qanunverici və nəzarət orqanı kimi fəaliyyət göstərirdi.

Azərbaycan MİK 73 nəfər üzvdən və 26 nəfər namizəddən təşkil edilmişdi.

I Azərbaycan Sovetlər Qurultayında Mərkəzi İcraiyyə Komitəsi (MİK) sədri M.Hacıyev, müavin isə S.Ağamalıoğlu seçildi. MİK-nin tərkibinə N.Nərimanov, M.Hacıyev, S.Ağamalıoğlu, Ə.H.Qarayev, İ.Konuskin və b. daxil oldu.

Azərbaycan SSR-in Konstitusiyasına görə ali icraedici hakimiyyət orqanı Xalq Komissarları Soveti idi. XKS Sovetlər qurultayı və Azərbaycan MİK qarşısında məsul olmaqla ona hesabat verirdi. XKS-nin tərkibinə 17 nəfər xalq komissarı daxil idi.

Azərbaycan Xalq Komissarlar Sovetinin ilk sədri Nəriman Nərimanov olmuşdur. 1922-1928-ci illərdə Q.Musabəyov bu vəzifəni daşımışdır.

RSFSR-nin dövlət başçısı V.İ.Lenin 1921-ci il aprelin 9-da Zaqafqaziyanın – Azərbaycanın, Gürcüstanın və Ermənistanın vahid təsərrüfat orqanının yaradılması haqqında direktiv verdi.

1921-ci il noyabrın 3-də RK(b)P MK Qafqaz bürosunun plenumunda Azərbaycan, Gürcüstan və Ermənistan sovet sosialist respublikaları arasında federasiya ittifaqı bağlandı. Noyabrın 29-da RK(b)P MK Siyasi bürosu Zaqafqaziya Federasiyası yaradılması haqqında qətnamə qəbul etdi.

1922-ci il dekabrın 10-da Bakıda Zaqafqaziyanın I Sovetlər qurultayı keçirildi. Qurultay Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsini seçdi. Dekabrın 13-də ZSFSR birinci Konstitusiyası qəbul edildi. 1923-cü il yanvarın 10-da Zaqafqaziya pul nişanı haqqında ZSFSR hökumətinin dekreti verildi. ZSFSR-in yaradılması SSRİ-nin yaradılmasında mühüm rol oynadı.

1922-ci il dekabrın 30-da Moskvada SSRİ-nin I Sovetlər qurultayı keçirildi. Qurultayda RSFSR-dən, Ukrayna, ZSFSR və Belarusiyadan nümayəndə heyəti iştirak edirdi.

Sovetlər qurultayınadək Moskva tərəfindən Sovet respublikalarına məktub göndərilərək onların ittifaq halında birləşməsi üçün razılıqları öyrənildi. İ.Stalinin hazırladığı layihəyə görə bütün respublikalar RSFSR-in tərkibinə muxtar respublika kimi daxil olmalı idilər. Layihəni müzakirə üçün respublikalara göndərirlər. Stalinin layihəsini Azərbaycan qəbul etdi. Ona görə ki, S.M.Kirov-erməni birləşmələri Bakıda çox güclü idi. Ukrayna layihəyə öz etirazını bildirir. Gürcüstan isə heç layihəni müzakirə etmədi. Siyasi gedişlərdə çox ayıq olan Lenin Stalini "tələsdiyinə görə" tənqid edir və göstərir ki, respublikalar könüllülük prinsipi və bərabərlik əsasında birləşərək Sovet Sosialist Respublikaları İttifaqını yaratmalıdırlar.

Leninin bu düzəlişindən sonra respublikalar birləşməyə tərəfdar olurlar.

1922-ci il dekabrın 30-da I Sovetlər qurultayı SSRİ-nin təşkili haqqında müqaviləni təsdiq etdi.

1924-cü il yanvarın 31-də II Ümumittifaq Sovetlər qurultayında SSRİ-nin birinci Konstitusiyası qəbul edildi.

SSRİ təşkil olunduqda SSRİ Mərkəzi İcraiyyə Komitəsi də təsis olunur. Dörd respublikanın hər birindən bir sədr seçilir. Zaqafqaziya Federasiyasından N.Nərimanov SSRİ MİK-nin sədri seçilir.

***Azərbaycan SSR tərkibində DQMV və Naxçıvan MSSR-ın yaradılması***. SSRİ yaradıldıqdan sonra da Moskva Azərbaycanın konstitusion hüquqlarını daima pozaraq respublikanın milli mənafeyi əleyhinə məcburi tədbirlər keçirirdi. Sovet hakimiyyəti illərində respublikanın inzibati-ərazi bölgüsündə aparılan

dəyişikliklər əslində siyasi məqsəd daşıyırdı. Əsas məqsəd Azərbaycanın müstəqil dövlət kimi inkişafına imkan verməmək idi.

Mərkəzin Azərbaycanda həyata keçirdiyi siyasət əsasən qeyri-azərbaycanlı kommunistlər tərəfindən istiqamətləndirilirdi.

N.Nərimanov 1923-cü ildə RK(b)P MK-ya göndərdiyi məktubunda yazırdı: "Azərbaycanda daşnak siyasəti tam gücü ilə işləyir. Mənim zərrə qədər də şübhəm yoxdur ki, RK(b)P MK Serqo (Orconikidze Q.K.) və Stalinin simasında biz türklərə inanmır və Azərbaycanın taleyini erməni daşnaklarına həvalə edir".

Respublikanın inzibati-ərazi strukturunda Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) Azərbaycan SSR MİK-in 1923-cü il 7 iyul tarixli dekreti əsasında yaradılsa da, bu faktiki olaraq RK(b)P MK-nın bilavasitə göstərişi idi.

1924-cü il fevralın 9-da Zaqafqaziya MİK-in və Azərbaycan MİK-in qərarı ilə Naxçıvan Muxtar Vilayəti Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR-ə çevrildi.

1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər qurultayı Azərbaycan SSR Konstitusiyasında edilmiş düzəlişləri təsdiq etdi. Konstitusiyanın ikinci maddəsi Naxçıvan MSSR-in və DQMV-nin Azərbaycanın tərkibinə daxil edilməsini təsbit etdi.

1924-cü il oktyabrın 25-də Azərbaycan SSR MİK-in qərarı respublikanın gerb və bayrağı barədə 1921-ci il Konstitusiyasında olan boşluqlara dair məsələləri aydınlaşdırdı. Azərbaycan SSR-in 1924-cü il iyulun 1-dən latın qrafikasına keçməsi ilə əlaqədar olaraq dövlət gerbi və bayrağının da yeni qrafika ilə yazılması qanuniləşdirildi. 1925-ci il Konstitusiyasının 104-cü maddəsində gerb və bayrağı müəyyən edən normalar təsbit edilmişdi.

1927-ci il martın 26-da V Ümumazərbaycan Sovetlər qurultayı Azərbaycan SSR-in yeni Konstitusiyasını (dəyişikliklərlə) təsbit etdi.

Əvvəlkilərdə olduğu kimi Azərbaycan SSR-in 1927-ci il Konstitusiyası RSFSR-in 1925-ci il Konstitusiyası əsasında qurulmuşdu.

***Yerli idarəçilik.*** Konstitusiya qanunlar toplusudur. Həmin qanunlar cəmiyyətin bütün sahələrini əhatə edir və konstitusiya qanunları ilə də dövlət və cəmiyyət yaşayır, fəaliyyət göstərir.

1928-ci ilin oktyabr ayında Azərbaycan SSR XKS qəzaların ləğv edilməsi və okruqların yaradılmasına tərəfdar oldu. Bu qərara əsasən respublikada okruq, rayon və kənd sovetləri bölgüsü yaradılması nəzərdə tutulurdu.

1929-cu il aprelin 8-də IV Ümumazərbaycan Sovetlər qurultayı Azərbaycan SSR-in yeni inzibati-təsərrüfat bölgüsü haqqında qərar qəbul etdi.

1929-cu ilin birinci yarısında 13 qəza ləğv olundu və (Naxçıvan MSSR-dən başqa) 8 okruq: Bakı, Quba, Lənkəran, Şirvan, Muğan (Salyan), Zaqatala-Nuxa, Gəncə və Qarabağ okruqları təşkil edildi.

1930-cu il martın 14-də MİK dövlət gerbinin yeni təsvirini təsdiq etdi. Konstitusiyanın 39-cu maddəsində gerbin təsviri, 100-cü maddəsində isə dövlət bayrağı latın qrafikasında verilirdi.

Sovet ideoloqlarının fikrinə görə 1917-1936-cı illər sosializmə keçid mərhələsidir. Ölkədə sosializm qurmaq üçün üç əsas məsələ həll olunmalıydı. Bunlar: ölkədə sosialist sənayeləşməsini yaratmaq; kənd təsərrüfatının elliklə kollektivləşməsinə nail olmaq və mədəni inqilabın həyata keçirilməsi.

1936-cı il noyabrın 25-də Moskvada SSRİ-nin Fövqəladə Sovetlər qurultayı açıldı. ÜİK(b)P MK-nın Baş katibi İ.V.Stalinin rəhbərliyi ilə SSRİ Konstitusiyası müzakirə edilərək qəbul edildi. Konstitusiyada göstərilirdi ki, artıq SSRİ-də sosializm tam qələbə çalmışdır. Ölkədə elə bir siyasi qüvvə yoxdur ki, o, sosializmi dağıda bilsin.

Yeni Sovet Konstitusiyasına görə SSRİ-nin siyasi əsasını Xalq Deputatları Soveti, SSRİ-nin iqtisadi əsasını isə istehsal vasitələri üzərində sosialist mülkiyyəti təşkil edirdi. SSRİ-də sosialist mülkiyyəti dövlət mülkiyyəti (ümumxalq) və kooperativ–kolxoz mülkiyyəti (kolxozların, kooperativlərin mülkiyyəti) formaları müəyyən edildi.

1936-cı il 5 dekabr-SSRİ Konstitusiyasının (Stalin Konstitusiyası adlandırılırdı) qəbul edildiyi gün ümumxalq bayramı elan edildi.

Ali dövlət hakimiyyəti iki palatadan – İttifaq Soveti və Millətlər Sovetindən ibarət olan və 4 il müddətinə seçilən SSRİ Ali Sovetinə həvalə edildi.

1937-ci il martın 14-də IX Fövqəladə Azərbaycan Sovetlər qurultayı Azərbaycan SSR-nin yeni Konstitusiyasını qəbul etdi. Konstitusiya 14 fəsildən, 155 maddədən ibarət idi. Azərbaycanın yeni Konstitusiyası SSRİ-nin 1936-cı il 5 dekabr Konstitusiyası əsasında təşkil edilmişdi. Planlı təsərrüfat sistemi Azərbaycan Konstitusiyası ilə də müəyyən edilirdi.

Naxçıvan MSSR-də ali dövlət hakimiyyəti Ali Sovetə və Ali Sovetin Rəyasət Heyətinə məxsus idi.

Naxçıvan MSSR-in ali icraedici və sərəncam verici orqanı Xalq Komissarları Soveti idi.

Sovet hökuməti 1936-cı il 5 dekabrda qəbul edilmiş Konstitusiyadan sonra dünyaya bəyan etdi ki, SSRİ-də demokratiya genişlənir, vətəndaşların hüquqları, azadlıqları tam təmin olunur. İnsanlar dəmir dəbilqənin qaldırılmasını güman edərək, çox məmnun olduqlarını bildirirdilər. Ancaq belə olmadı.

Bunlar kağızda qaldı. Sosializmin tam qələbəsindən sonra bütün SSRİ miqyasında dəhşətli Stalin repressiyası tuğyan etməyə başladı. Milyonlarla günahsız insanlar Stalin şəxsiyyətinə pərəstişin qurbanı oldu. Təkcə Azərbaycandan 70 mindən artıq insan repressiyaya uğrayaraq məhv edildi.

***II Dünya müharibəsinin başlanması və Azərbaycan SSR-in müharibədə iştirakı.*** 1939-cu il sentyabrın ilk günündə Almaniyanın Polşaya hücumu ilə II Dünya müharibəsi başladı. 1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə hücum etdi. SSRİ-nin tərkibində olan Azərbaycan da dəhşətli müharibəyə cəlb edildi.

Almanların "Barbarossa" – ildırım sürətli müharibə planına görə 7 noyabrda Moskvada paradı Hitler qəbul etməliydi. Ancaq müharibə çox uzandı.

Almaniyanın işğalçılıq planında Azərbaycan və Bakı nefti əsas yer tuturdu. SSRİ-nin hər yerində olduğu kimi Azərbaycan da hərbi, iqtisadi və mənəvi səfərbərliyə cəlb edildi. Dövlət aparatı yenidən quruldu.

1941-ci il iyunun 30-da İ.V.Stalin başda olmaqla Dövlət Müdafiə Komitəsi yaradıldı. Ölkədə bütün dövlət aparatından tutmuş ictimai-siyasi həyat DMK-nin

səlahiyyətlərinə tabe edildi. Stalin həm də Ali Baş Komandan təyin edildi. Müdafiə Komitəsi 1941-ci il oktyabrın 1-dən etibarən SSRİ-nin 16 yaşdan 50 yaşa qədər kişi cinsindən olan vətəndaşları üçün məcburi hərbi təlimə cəlb olunması barədə əmr verdi.

Müharibədə Azərbaycandan 640 min nəfərədək adam faşistlərə qarşı ölüm-dirim döyüşlərində iştirak etmişdir. Azərbaycandan olan milli diviziyalar – 402-ci, 223-cü, 416-cı və 271-ci diviziyalar cəbhələrdə əsl rəşadət göstərmişlər. 1942-ci ildə 77-ci Azərbaycan diviziyası da yaradıldı.

Müharibə illərində Bakı neftçiləri gecə-gündüz çalışaraq Sovet ordusunu neft məhsulları ilə təmin etmişlər. Neft emalı zavodlarında 22 milyon ton benzin və digər neft məhsulları istehsal edilmişdir. Sovet hərbi texnikasının 70-80%-i Bakı nefti ilə işləmişdir.

***Cənubi Azərbaycan XX əsrin 20-50-ci illərində.*** Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə 1920-ci il iyunun 23-də yaradılmış "Azadistan" adlanan Milli Hökumət (MH) çox az yaşadı. Həmin ilin sentyabrın 14-də xarici qüvvələrin köməyilə şah qoşunları Təbrizi ələ keçirtdi, Xiyabani öldürüldü. Rza şah Pəhləvinin sərt mərkəzləşdirmə siyasəti nəticəsində ölkədə totalitar hərbi-polis rejimi yaradıldı. Şah hökumətinin təqibləri nəticəsində həmkarlar təşkilatlarının fəaliyyəti dayandırıldı. Onun bir sıra fəalları, o cümlədən S.C.Pişəvəri həbsə alındı. O illərdə Rza şah belə bir sərəncam vermişdi: "Soyu türk olan və türkcə danışan şəxsləri dövlət idarələrində məsul vəzifələrə təyin etməmək, mövcud olanları da bəhanə tapıb xaric etmək lazımdır...".

Ötən əsrin 20-30-cu illərində İranın apardığı islahatlar nəticəsində iqtisadi sahədə inkişaf olsa da Cənubi Azərbaycanda bu tərəqqi çox az hiss olunurdu. Beləki, həmin illərdə Cənubi Azərbaycanın ictimai-tqtisadi və siyasi həyatında müsbət dəyişikliklər baş versə də, bunlar bütövlükdə xalq kütlələrinə aid deyildi. Dövlət səviyyəsində aparılan ayrı-seçkilik və farslaşdırma siyasəti Cənubi Azərbaycanda geniş əks-səda doğururdu.

II Dünya müharibəsi başlananda, Almaniya SSRİ-yə hücum edəndən sonra İran müharibədə bitərəf qalacağına bəyanat versə də, Almaniya ilə strateji

əməkdaşlıq xəttini davam etdirirdi. 1941-ci il iyun-iyul aylarında Sovet İttifaqı İrana üç dəfə xəbərdarlıq notası versə də İran bu notalara məhəl qoymadığından 1941-ci il avqustun 25-də Sovet qoşunları İran sərhədlərini keçərək Ərdəbil və Təbriz istiqamətində irəlilədilər.

Cənubi Azərbaycanda sovet sisteminin təsirini yaymaq məqsədilə Sovet Azərbaycanından oraya çoxlu ziyalı, elm-mədəniyyət işçisi göndərildi.

SSRİ XKS 1944-cü il martın 6-da "Cənubi Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımın gücləndirilməsi tədbirləri haqqında" məsələ müzakirə edərək, əhəmiyyətli qərar qəbul etdi.

Cənubi Azərbaycanın hər tərəfində milli oyanış yenidən gücləndi. Azərbaycan dilində qəzetlər çıxdı, məktəblər açıldı.

1944-cü ilin oktyabrında İran Xalq Partiyası yaradıldı. İXP Cənubi Azərbaycanda yerli təşkilatlar yaratmağa başladı. Sovet qoşunlarının Cənubi Azərbaycana daxil olmasından sonra "Zidd-faşist" adlı antifaşist təşkilatı yaradıldı. Təbrizdə Azərbaycan dilində "Azərbaycan", "Ədəbiyyat səhifəsi" və s. qəzetlər nəşr olunmağa başladı.

On ildən artıq İran həbsxanasında yatan S.C.Pişəvəri 1941-ci ildə həbsdən azad edildi. Cənubi Azərbaycan demokratik hərəkatının görkəmli xadimi olan Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə 1945-ci ilin sentyabrında Azərbaycan Demokratik Partiyası (ADP) yaradıldı. ADP öz sıralarında müxtəlif təbəqələrin nümayəndələrini təmsil edirdi. Partiya Cənubda ictimai-siyasi hərəkata başçılıq edirdi.

ADP-nin qarşıya qoyduğu əsas tələb milli muxtariyyət, aqrar islahat, xalq maarifinin inkişafı və s. idi.

1945-ci ilin oktyabrında ADP-nin qurultayı çağırıldı, partiyanın proqram və nizamnaməsi qəbul edildi. Qurultay həmçinin demokratik hakimiyyətin özəyi kimi əyalət və vilayətlərdə əncümələrin yaradılması barədə qərar çıxarır.

1945-ci ilin 20-21 noyabrında Təbrizdə Milli konqres çağrıldı. Onun işində xalq tərəfindən seçilmiş 744 nümayəndə iştirak edirdi. Konqresin iclasını Səttərxanın qardaşı Hacı Əzimxan aparırdı. ADP-nin təklifi ilə Milli konqres

özünü Müəssislər Məclisi elan etdi. Məclis Cənubi Azərbaycan Milli Məclisinə seçkilər keçirmək üçün Milli Komitə yaratdı. 1945-ci ilin noyabr-dekabr aylarında Milli Məclisə seçkilər keçirildi. Seçkilərdə ilk dəfə olaraq qadınlar da iştirak edirdi.

1945-ci il dekabrın 11-12-də Təbrizdə Milli Məclis toplandı. Məclisdə S.C.Pişəvərinin başçılığı ilə Milli hökumət yaradlıdı. Dekabrın 13-də İran valisi general-qubernator Bayat Təbrizi tərk etdi. Milli hökumət dərhal aqrar islahatlar keçirməyə başladı. Kəndlilər mülkədarlara ödədikləri rentadan azad edildi, fəhlələr üçün 8 saatlıq iş günü müəyyənləşdi. Şəhərlərdə yeni müəssisələr, mədəniyyət ocaqları açıldı. Milli banklar yaradıldı. Təbriz Dövlət Universiteti açıldı.

İran şovinistləri Azərbaycanda Milli hökuməti məhv etmək üçün məkrli planlar hazırlayırdı. Milli hökumətlə danışıqlar aparan şah rejimi 1946-cı il iyunun 13-də razılıq sazişi imzaladı. Sazişə görə Cənubi Azərbaycana daxili ildarəçilikdə sərbəstlik verilirdi. Cənubi Azərbaycan əldə etdiyi gəlirin 75 %-ni öz daxili tələbatına, qalan 25 %-ni İran dövlət xəzinəsinə verməliydi.

Bütün bunlara baxmayaraq İranın şah rejimi Cənubi Azərbaycanın Milli hökumətini yıxmaq üçün yollar arayırdı.

1946-cı il 4 apreldə Tehranda Sovet-İran sazişi imzalandı. Sazişin 3-cü maddəsində deyilirdi: "Azərbaycan (Cənubi Azərbaycan nəzərdə tutulurdu) məsələsi İranın daxili işi"dir.

Beləliklə "Azərbaycan məsələsi İranın daxili işi olduğundan" artıq onun taleyi həll edilmişdi.

1946-cı il sentyabrın 1-də Cənubi Azərbaycanın Xalq hakimiyyəti üzərinə silahlı hücuma başlayan İran hökuməti 1946-cı il dekabrın 20-də onun fəaliyyətinə son qoydu.

***Azərbaycan SSR II Dünya müharibəsindən sonra***. Müharibə sovet ölkəsinə çox ağır zərbə vurdu. 1941-1945-ci illərdə SSRİ milli sərvətinin üçdə bir hissəsini itirdi. On milyonlarla insan həyatı bahasına qələbə əldə olunsa da ictimai həyatın bütün sahələri iflic vəziyyətinə düşmüşdü. Müharibədən sonra ölkədə bərpa işləri başladı.

Azərbaycan bilavasitə alman-faşist ordusunun hücumuna məruz qalmasa da, bununla belə respublika zəhmətkeşləri müharibənin bütün ağırlığını çəkmişdilər. Müharibə sənaye və kənd təsərrüfatına çox böyük ziyan vurmuşdu. Belə ki, sənayenin ümumi məhsulu 1940-cı illə müqayisədə 22 faiz, kənd təsərrüfatı iki dəfəyə yaxın zəifləmişdi.

Müharibədən sonra müəssisələr plana uyğun olaraq məhsul istehsalına başladı. Fəhlələrin iş günü 8 saata endirildi. Fəhlə və qulluqçulara əvəzi ödənilməklə məzuniyyətlər bərpa olundu.

1946-cı il fevralın 10-da SSRİ Ali Sovetinə seçkilər keçirildi. 1947-ci il fevralın 9-da Azərbaycan SSR Ali Sovetinə də seçkilər keçirildi.

1945-ci ildə Dövlət Müdafiə Komitəsi ləğv edildi. 1946-cı ilin iyulunda amnisiya verildi. Üç ildən çox olmayaraq məhkum edilən şəxslər azadlığa buraxıldılar.

Müharibədən sonra müttəfiq respublikaların yerli, milli dəyərlər nəzərə alınmaqla hüquqları genişləndirildi.

İkinci dünya müharibəsindən sonra dünyanın ictimai-siyasi həyatında köklü dəyişikliklər baş verdi. Müharibəni qələbə ilə başa çatdıran Sovet İttifaqının beynəlxalq nüfuzu daha da artdı. Sosializm bir ölkə çərçivəsindən çıxıb dünya sisteminə çevrildi.

Sovet dövlətində İ.V.Stalinin hegemonluğu daha da artdı. 1946-cı ilin martında SSRİ Ali Soveti Xalq Komissarlar Sovetlərini nazirlər sovetlərinə çevirmək haqqında qərar qəbul etdi. İ.V.Stalin SSRİ Nazirlər Sovetinin sədri təsdiq edildi. Əslində siyasi hakimiyyət yenə ÜİK(b)P MK Siyasi Bürosunun əlində idi.

Ölkədə Stalinin şəxsiyyətinə pərəstiş özünün son həddinə çatdı. Bu isə totalitar rejimi daha da qabartdı. Totalitar üsul-idarə özünü bütün sahələrdə - elmdə, ədəbiyyat və incəsənətdə, fəlsəfə, biologiya, fiziologiya, siyasi, iqtisadi, dilçilik və s. sahələrdə göstərdi, hakimi mütləq “marksist” libası geymiş ehkamçılıq hökm edirdi.

İş o yerə çatmışdı ki, Azərbaycan xalqının dastanları feodal münasibətləri təbliğ etməkdə, qeyri-xəlqilikdə ittiham olunurdu. Türk dünyasının möhtəşəm orta

əsr abidəsi "Kitabi-Dədə Qorqud" "irticaçı feodal-xan eposu" adı ilə damğalanmışdı. Böyük filosof, tarixçi və şair A.A.Bakıxanov idealizmdə, fanatizmdə, xan və bəyləri müdafiə etməkdə, M.M.Kazım bəy "çarizmin sadiq qulu" və s. olmaqda günahlandırılırdı.

İkinci dünya müharibəsindən sonra azərbaycanlıların Ermənistan Respublikasından - tarixi-etnik torpaqlarından elliklə köçürülməsi böyük tarixi ədalətsizlik sayılmalıdır.

Erməni daşnakları və onların Moskvada, Kremldəki havadarları Böyük Ermənistan yaratmaq üçün həmişə bütün vasitələrdən istifadə etmişlər. A.Mikoyanın təşəbbüsü ilə 1945-ci il 28 noyabr tarixində ÜİK(b)P MK katibi K.M.Malenkov Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə Azərbaycan KP MK-nın birinci katibi M.C.Bağırova məktub göndərir və onun rəyini soruşur. M.C.Bağırov 10 dekabr 1945-ci il tarixində ona cavab məktubu göndərir. Məktubda Ermənistanın Dağlıq Qarabağla bağlı irəli sürdüyü bütün iddiaların heç bir elmi, tarixi əsası olmadığı və Dağlıq Qarabağın tarixən Azərbaycan ərazisi olduğu tutarlı faktlarla sübut edilirdi.

Ancaq bütün bunlara baxmayaraq azərbaycanlıların Ermənistan ərazisindən Azərbaycan SSR-in Kür-Araz ovalığına deportasiyası 1948-ci ildən 1953-cü ilə qədər davam etmişdir. Bu illərdə 100 mindən artıq azərbaycanlı öz ata yurdundan deportasiyaya məruz qalmışdır.

1953-cü il martın 5-də avtoritar sovet sisteminə uzun illər başçılıq etmiş İ.V.Stalin vəfat etdi. Hakimiyyət uğrunda gərgin mübarizə başladı. Həmin ilin sentyabrında N.S.Xruşşov Beriyanı hakimiyyətdən kənarlaşdıra bildi. O, Sov. İKP MK-nın birinci katibi seçildi.

N.S.Xruşşov Stalinə, Beriyaya yaxın olan şəxslərə qarşı tədbirlər gördü. Azərbaycan KP MK-nın birinci katibi M.C.Bağırov 1953-cü il iyulun 12-13-də çağırılmış MK və Bakı Komitəsinin plenumunda ziyankarlıqda, güsurlu rəhbərlik metodlarında və s. əməllərdə təqsirkar bilinib vəzifəsindən kənar edildi. M.C.Bağırov 1956-cı ilin 12-26 aprel tarixində SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası tərəfindən xalq düşməni kimi ölüm cəzasına məhkum olundu.

1954-cü ilin fevral ayında akademik İmam Daşdəmir oğlu Mustafayev Azərbaycan KP MK-nın birinci katibi seçildi. Ötən əsrin 50-ci illərində Bakıya çoxlu azərbaycanlı gənclər gəlməyə başladı. Beynəlmiləl şəhər olan Bakı azərbaycanlaşmağa doğru tərəqqi yoluna düşdü.

İctimai-siyasi həyatın mülayimləşməsi şəraitində respublikada Azərbaycan dilinin rəsmi dövlət dili statusu almasına təşəbbüs edildi. 1956-cı ildə Azərbaycan SSR Ali Soveti 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya respublikada dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə etdi.

Rəsmi sənədlərin, kargüzarlıq işlərinin Azərbaycan dilində aparılması üçün tədbirlər görüldü.

Bundan narahat olan Moskva tərəfindən milli oyanış əlamətləri hiss edilən respublikaların, o cümlədən Azərbaycanın rəhbərliyinə qarşı təqiblər başlandı.

Heç bir tutarlı əsas olmasa da İ.D.Mustafayev 1959-cu il iyul ayında vəzifəsindən azad edildi. Vəli Yusif oğlu Axundov Azərbaycan KP MK-nın birinci katibi seçildi.

N.S.Xruşşov İ.V.Stalini şəxsiyyətə pərəstişdə ittiham etsə də, çox keçmədi özü bu xəstəliyin quluna çevrildi. Uğursuz islahatlar, Sov.İKP XXII (1961, oktyabr) qurultayında elan etdiyi yaxın gələcəkdə SSRİ-də kommunizmin qurulacağı haqqında utopik fikirlər N.S.Xruşşovu cəmiyyətdə və partiyada hörmətdən salmışdı.

Çox keçmədi Sovet ölkəsində ərzaq qıtlığı başladı. İnsanlar çörək almaq üçün gecədən növbədə dayanmalı oldular.

Sov.İKP MK-nın 1964-cü il 14 oktyabr plenumunda N.S.Xruşşov vəzifəsindən azad edildi. L.İ.Brejnev Sov.İKP MK-nın birinci (1966-cı ildən baş katib) katibi seçildi.

Azərbaycanda milli dəyərlərə diqqət artdı. Bu işdə 1966-1967-ci illərdə AKP MK katibi işləmiş Şixəli Qurbanovun və onun həmfikirlərinin önəmli xidmətləri olmuşdur. Novruz bayramı “Bahar bayramı” adı ilə rəsmi şəkildə qeyd edildi. Ədəbiyyatda yeni milli motivlər, tənqidi ruh artdı. Milli azadlıq uğrunda gənclik yetişməkdə idi.

***Azərbaycanın inkişafında dönüş mərhələsi***. N.S.Xruşşovun hakimiyyəti dövründə Sovet dövləti iqtisadi, siyasi və mənəvi cəhətdən çox zəiflədi. Qərb ölkələri, xüsusən də ABŞ İkinci Dünya müharibəsindən sonra çox geniş inkişaf yoluna çıxmışdı. 1964-cü ilin oktyabr ayından N.S.Xruşşovu əvəz edən L.İ.Brejnev 18 il Sovetlər ölkəsinə rəhbərlik etdi.

Ötən əsrin 60-cı illərindən başlayaraq Azərbaycan SSR-in iqtisadi göstəriciləri ilbəil geriləməkdə davam edirdi. Demək olar ki, müttəfiq respublikalar içərisində bütün sahələr üzrə axırıncı yerlərdən birini Azərbaycan SSR tuturdu. Bu geriliyə Azərbaycan KP MK-nın 1969-cu il iyulun 14-də keçirilən plenumu son qoydu. Həmin plenumda Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçildi. Avqustun 5-də H.Ə.Əliyev Azərbaycan KP MK-nın plenumunda çıxış edərək, respublikanın siyasi, sosial-iqtisadi və mədəni həyatını dərindən təhlil etdi və ciddi nöqsanları göstərməklə yanaşı, onların aradan qaldırılması yollarını da göstərdi, ölkədə mənəvi-psixoloji iqlimin sağlamlaşdırılması və əmək intizamının möhkəmləndirilməsi zərurətini irəli sürdü.

Heydər Əliyev qısa müddətdə respublikada idarəçilik sistemini xeyli möhkəmləndirdi. Kadrlara qarşı tələbkarlıq, tapşırılan iş üçün məsuliyyət artırıldı. Respublikada rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizə başlandı.

Az müddət ərzində Heydər Əliyevin müdrikliyi və əzmkarlığının nəticəsində Azərbaycanın yüksəlişi təkcə respublikada deyil, ümumittifaqda göründü və qiymətləndirildi. Azərbaycan SSR-in sosial-iqtisadi və mədəni inkişafı SSRİ rəhbərliyində Heydər Əliyevə böyük nüfuz qazandırdı.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illəri Azərbaycanın sosial-iqtisadi və mədəni yüksəliş dövrü kimi qiymətləndirilir. Bu dövrdə respublikada 250-dən çox zavod, fabrik istifadəyə verildi, 630 min nəfərlik yeni iş yerləri açıldı.

Respublikada 1969-1982-ci illərdə kənd təsərrüfatının dinamik inkişafı yarandı, geniş sosial-mədəni quruculuq həyata keçirilirdi. Elm, təhsil, ədəbiyyat, incəsənət və memarlığın inkişafına ardıcıl diqqət yetirilirdi. 17.000-dən çox azərbaycanlı oğlan və qız SSRİ-nin 170 aparıcı ali təhsil ocağına göndərildi.

Azərbaycanda onlarla yeni elmi tədqiqat müəssisələri yaradıldı. Xalqın mənəvi dəyərlərinə diqqət artırıldı. Nizami, Əcəmi, Nəsimi, Nəsrəddin Tusi, Vaqif, Aşıq Ələskər, Üzeyir Hacıbəyov, Hüseyn Cavid, Səməd Vurğun kimi görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərinin yubileyləri keçirildi, onlara heykəllər ucaldıldı.

Heydər Əliyevin rəhbərliyi dövründə erməni daşnaklarının separatçı çıxışlarının qarşısı qətiyyətlə alınırdı. 1977-ci ilin noyabrında onların Dağlıq Qarabağ məsələsini növbəti dəfə qaldırmaq istəmələri baş tutmadı.

Heydər Əliyev böyük dövlət xadimi olmaqla bərabər, öz xalqını, öz dilini, mənəvi dəyərlərini ürəkdən sevən bir şəxsiyyət idi. Heydər Əliyev ağır sovet rejiminə baxmayaraq hər yerdə və həmişə milli dəyərlərini qoruyub saxlayır, Azərbaycan övladı olduğunu fəxrlə bildirirdi.

***Azərbaycan SSR-in 1978-ci il Konstitusiyası.*** 1977-ci il oktyabrın 7-də SSRİ-nin ikinci və sonuncu Konstitusiyası qəbul edildi. Konstitusiyada qeyd olunurdu ki, yeni konstitusiya geniş kommunizm quruculuğunu Sovet cəmiyyətinin qarşısına qoyur. Konstitusiyada Kommunist Partiyasının cəmiyyətdəki rolu (maddə 6) qanun kimi təsbit olunurdu.

1978-ci il aprelin 21-də Azərbaycan SSR Ali Sovetinin yeddinci sessiyasında Azərbaycan SSR-in yeni Konstitusiyası (Əsas qanun) qəbul edildi. Azərbaycan SSR-in bu yeni Konstitusiyası yenə də İttifaq Konstitusiyasının əsas prinsiplərini özündə əks etdirirdi. Konstitusiya 11 bölmə, 22 fəsil, 185 maddədən ibarət idi.

Siyasi sistem adlanan birinci fəslin birinci maddəsində göstərilirdi ki, Azərbaycan Sovet Sosialist Respublikası fəhlələrin, kəndlilərin və ziyalıların, respublikanın bütün millətlərindən olan zəhmətkeşlərin iradə və mənafeyini ifadə edən sosialist ümumxalq dövlətidir. Respublikada bütün hakimiyyət xalqa məxsusdur.

Azərbaycan SSR-in yeni Konstitusiyasının 6-cı maddəsində göstərilirdi ki, Azərbaycan Kommunist Partiyası cəmiyyətin rəhbər istiqamətverici qüvvəsidir.

Siyasi sistem, konstitusiyada göstərildiyi kimi, partiya-dövlət aparatının təkmilləşdirilməsini özündə birləşdirmişdi. Totalitar rejim şəraitində siyasi rəhbərliyi həyata keçirən partiya, demək olar ki, dövlət orqanlarını əvəz edirdi.

Azərbaycanın yeni konstitusiyasında Azərbaycan SSR-in ali dövlət hakimiyyəti orqanı Azərbaycan SSR Ali Sovetinin olması təsbit edildi.

Konstitusiyanın 122-ci maddəsində göstərilirdi ki, Azərbaycan SSR Nazirlər Soveti – Azərbaycan SSR hökuməti ali icra və sərəncam orqandır.

1978-ci il Azərbaycan SSR-in Konstitusiyasının 137-ci maddəsinə görə dövlət hakimiyyətinin yerli orqanları muxtar vilayət, şəhər, rayon, şəhərlərdəki rayon, qəsəbə, kənd xalq deputatları sovetləri idilər.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasının zamanına görə ən böyük qiyməti Konstitusiyada (maddə 21) dövlət dilinin Azərbaycan dili olmasının təsbit edilməsi idi. Əlbəttə bu, totalitar sovet rejimində çox çətin bir iş idi. Ancaq Heydər Əliyev qətiyyəti çox böyük sipərləri keçərək Azərbaycanda dövlət dilini Azərbaycan dilini konstitusiya səviyyəsində elan edə bildi. Türkdilli respublikalar içərisində ancaq Azərbaycan respublikasında milli dil dövlət dili statusu almışdı...

Heydər Əliyevdə tarixdə çox az dövlət başçılarına məxsus olan dövlətçilik məharəti, fenomen idarəçilik bacarığı vardı. O, rəhbərlik istedadı ilə ümumittifaqda böyük nüfuz sahibi idi. Ona qarşı olan yüksək elitanın qısqanclığına, onun milliliyinə, müsəlman olmasına baxmayaraq 1982-ci ilin noyabrında Heydər Əliyev SSRİ Nazirlər Sovetinin birinci müavini, Sovet İttifaqı Kommunist Partiyası MK-nın Siyasi bürosunun üzvü seçildi. 1987-ci ilə kimi vəzifəsini ləyaqətlə, yüksək siyasi-mənəvi mədəniyyətlə yerinə yetirdi. 1987-ci ilin oktyabrında M.Qorbaçovun təzyiqilə Heydər Əliyev istefaya göndərildi.

**Praktiki məşğələ**

**Plan:**

1. Azərbaycanda sovet idarəçiliyi sisteminin yaradılması. Formal müstəqilliyin ləğvi. İnzibati-amirlik idarə sisteminin yaradılması və onun acı nəticələri.
2. Müharibədən sonrakı dövrdə Azərbaycanda idarə sistemi.
3. Sovet İttifaqının inzibati bürokratik idarə sistemi dövründə Azərbaycan idarəçiliyində yeni mərhələ.

**Ədəbiyyat**


1. Bayramova R. Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr (1920-1925-ci illər). B., 2007
2. Bünyadov Z. Qırmızı terror. B., 1993
3. Qasımlı M. Azərbaycan türklərinin milli mücadele tarihi (1920-1945). İstanbul, 2006
4. Qasımlı M. Heydər Əliyev-istiqlala gedən yol. 1969-1987-ci illər. B., 2006
5. Qəndilov S. Coşqun yüksəliş illəri. B., 1984
6. Quliyev M. Azərbaycanda dövlət və din münasibətləri (1920-1980-ci illər). B., 2002
7. Məmmədov İ., Məmmədov Ç. Təlatümlü illər. Azərbaycan XX əsrin 20-30-cu illərində. B., 2003
8. Köçərli X. Azərbaycan 1920-1940-cı illərdə. B., 2003

# XIII F Ə S İ L
# MİLLİ DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN ÇAĞDAŞ MƏRHƏLƏSİ. MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI (III RESPUBLİKA)

## *“Yenidənqurma” və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi.*

Ötən əsrin 80-ci illərinin ortalarında Sovetlər ölkəsinin ictimai-siyasi həyatında böhran yaranmışdı. Təbii ki, SSRİ-nin böhranı bir neçə ilin yox, onilliklərin yaratdığı geriliyin nəticəsiydi. Ölkədə bürokratik idarəçilik, avtoritar rəhbərliyin nəticəsində elmi-texniki tərəqqi ləngiyirdi, infrastrukturun Qərb ölkələrindən ildən-ilə geri qalması, təbii ehtiyatlar hasilatının durmadan azalması və bahalaşması, maddi ehtiyatlar qıtlığının meydana gəlməsi təzahür edirdi.

Əmək məhsuldarlığının orta illik artımı 1965-1970-ci illərdəki 5,2 faizə qarşı 1981-1985-ci illərdə cəmi 3 faiz təşkil edirdi.

Hər bir dövlətin, hər bir ölkənin rəvan inkişafı üçün bacarıqlı, güclü rəhbərin olması əsas şərtlərdən biridir. Sovet cəmiyyətinin uzun illər, xüsusən 70-ci illərdən ölkəni layiqincə idarə edə biləcək, xüsusi keyfiyyətlərə, qüdrətli, parlaq dövlət idarəçiliyinə malik liderin olmaması idi.

1985-ci ilin aprel ayında Sovet İttifaqına rəhbərliyə M.S.Qorbaçov gəldi. Qorbaçov ölkənin nəinki qüdrətini artıra bildi, tezliklə o, ölkəni dağıtmağa, xalqları qarşı-qarşıya qoymaqla məşğul oldu. Sonralar, o Amerika Universitetindəki çıxışında etiraf etmişdi: “Həyatımın məqsədi kommunizmi məhv etmək olub”. Onun irəli sürdüyü “yenidənqurma” iqtisadiyyata ciddi zərbə vurdu, cəmiyyəti parçaladı. Kommunist partiyasının nüfuzunu sarsıtdı, bununla da dünyanın yarısına hökmranlıq edən imperiyanı daha dərin böhrana saldı. Mərkəzdənqaçma qüvvələri meydana gəldi. Moskva müxtəlif məkrli tədbirlərə əl atdı.

M.Qorbaçovun “yenidənqurma”sından ən çox erməni şovinistləri yararlandılar. Böyük Ermənistan ideyası gücləndi. M.Qorbaçov və onun xanımı ermənilərin təsiri altına düşmüşdülər. Erməni millətçiləri 1987-ci ilin oktyabrında Heydər Əliyev SSRİ rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra baş qaldırdılar.

Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini həll etmək üçün ermənilərin “Qarabağ” komitəsi geniş fəaliyyətə başladı.

1987-ci ilin noyabrında Qorbaçovun ən yaxın adamlarından olan akademik Abel Ağanbekyan Parisdə “Humanite” qəzetinə verdiyi müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğun olmasını və bu barədə dövlət başçısına təklif verdiyini demişdi.

O dövrdə Azərbaycana rəhbərlik edən şəxslər ətrafda baş verən hadisələri düzgün qiymətləndirə bilmədi. Onlar vahid milli platforma yaratmaq əvəzinə passivlik, laqeydlik, mərkəzdən hələ də nəsə gözləmək, istəmək mövqeyində dayanırdılar. Bir növ xalq başsız qalmışdı.

Bundan isə ermənilər istifadə edirdilər.

1988-ci il fevralın 12-də Yerevanda böyük antitürk, antiazərbaycanlı mitinqi keçirildi. “Ermənistanı türklərdən (azərbaycanlılardan) təmizləməli”, “Ermənistanda ermənilər yaşamalıdır” və b. belə millətçi şüarlar səslənirdi. Yerevanda azərbaycanlılara aid nə vardısa vandal ermənilər dağıtdılar. Az bir vaxtda 250.000-dən çox azərbaycanlı öz ata-baba ocaqlarından qovuldular. Qaçqınlar Azərbaycana üz tutdular.

Ermənistan SSR Ali Sovetinin 15 iyun 1988-ci il qərarı Azərbaycan SSR daxili işlərinə kobudcasına müdaxilə edərək DQMV-ni Ermənistanın tərkibinə daxil etdi. Buna cavab olaraq Azərbaycan SSR Ali Soveti 17 iyun 1988-ci il tarixli qərarı ilə DQMV-nin erməni deputatlarının 20 fevral tarixli qərarını qeyri-qanuni akt kimi ləğv etdi.

Ermənilər 1988-ci il fevralın 27-28-də Sumqayıt hadisələrini törətdilər.

1988-ci ilin əvvəllərindən başlayaraq mərkəzin ermənipərəst siyasətinə etiraz əlaməti olaraq Azərbaycanda meydan hərəkatı başlandı. Bütün xalq ayağa qalxmışdı. Xalqın bu hərəkatının ən yüksək mərhələsi 1988-ci il noyabrın 17-dən dekabrın 5-dək Bakıda Azadlıq meydanında davam etdi. Dekabrın 5-də şəhərə silahlı ordu yeridildi və mitinq dağıdıldı. Bakıda komendant saatı elan edildi. Ancaq 17 noyabr xalqımızın tarixinə “Milli dirçəliş günü” kimi daxil oldu.

SSRİ Ali Soveti Azərbaycanın hüquqlarını pozaraq 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-in DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi. Xüsusi İdarə Komitəsinə başçı ermənipərəst A.Volski təyin edildi. XİK Azərbaycanın vilayətdəki bütün iqtisadi-siyasi əlaqələrinə, demək olar ki, son qoydu.

Azərbaycan xalqının təkidli tələbi ilə SSRİ Ali Soveti 1989-cu il noyabrın 28-də Dağlıq Qarabağda XİK-nı ləğv etdi. Bu qərardan sonra Ermənistan rəhbərliyi 1989-cu il dekabrın 1-də "Ermənistan SSR-ə Dağlıq Qarabağı birləşdirmək haqqında" qərar qəbul etdi. Bununla da Ermənistanın Azərbaycana qarşı təcavüzünün faktiki siyasi və hərbi əsası qoyuldu.

1989-cu il iyunun 16-da Azərbaycan Xalq Cəbhəsi təsis edildi və Əbülfəz Elçibəy (Əliyev) onun sədri seçildi. Azərbaycan SSR Nazirlər Soveti rəsmən AXC-ni qeydiyyata aldı. O zaman Xalq Cəbhəsi xalq içərisində geniş sosial bazaya malik idi. Bununla belə, onun rəhbərliyində lovğa, səriştəsiz adamlar çox idi.

Həm mərkəzə, həm də yerli rəhbərlərə qarşı xalqda çox böyük qəzəb yaranmışdı. Bir neçə rayonda hakimiyyət çevrilişi edilmişdi.

Belə bir şəraitdə Heydər Əliyevin təbirincə desək, "SSRİ rəhbərliyi respublikada haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini qaldıran xalqa açıq divan tutmaq yolunu seçdi".

1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti DQMV və qonşu rayonlarda fövqəladə vəziyyət elan etdi. Bakıya və Naxçıvana qoşun hissələri yeridilməsi planlaşdırıldı. Naxçıvan MSSR Ali Soveti muxtar respublikanın SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etdi və bununla da baş verəcək qırğının qarşısı alındı.

Azərbaycan xalqının gözünü qorxutmaq üçün 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə Sovet ordusunun hərbi hissələri xəbərdarlıq etmədən Bakıya yeridildi. "Bakı əməliyyatına" SSRİ müdafiə naziri D.Yazov şəxsən rəhbərlik etmişdi. Sovet ordusunun ağır, zirehli texnikasının əliyalın insanlara hücumu nəticəsində 131 dinc sakin öldürüldü, 744 nəfər yaralandı, 400 nəfər həbs olundu.

Ancaq Sovet ordusunun dəhşətli qırğını da Azərbaycan xalqının iradəsini qıra bilmədi. Bu hadisəni Heydər Əliyev belə xarakterizə etmişdi: "...20 yanvar

faciəsi totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti idi”.

Lakin respublika rəhbərliyi yenə də xalqla bir olmadı. Ə.Vəzirov gizlicə Moskvaya qaçdı.

Yanvarın 21-də Ali Sovetin bir neçə deputatı, başda xalq şairi B.Vahabzadənin tələbi ilə fövqəladə sessiyası çağrıldı.

Həmin gün Moskvada Heydər Əliyev öz həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı səfirliyinə gedərək bu təcavüzü ifşa etdi.

Sovet imperiyası özünün bu çirkin əməlləri ilə dünya ictimaiyyəti qarşısında biabır hala düşdü.

“Qanlı yanvar” göstərdi ki, artıq ittifaqın tərkibində qalmaq olmaz. Yeganə yol respublikanın dövlət müstəqilliyinin elan olunmasıdır.

1990-cı ilin fevralında Ayaz Mütəllibov Azərbaycan KP MK-nın birinci katibi seçildi. Mart ayında SSRİ-nin saxlanılması üçün ümumxalq referendumu keçirildi. Azərbaycanın o vaxtkı rəhbərləri SSRİ-nin saxlanmasına tərəfdar çıxdılar. Yalnız Heydər Əliyev referendumun əleyhinə çıxdı.

1991-ci il sentyabrın 8-də alternativsiz seçkilər nəticəsində A.Mütəllibov Azərbaycan Respublikasının prezidenti seçildi. Sentyabrın 14-də Azərbaycan KP 33-cü fövqəladə qurultayında öz fəaliyyətinə xitam verdi.

1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında “Konstitusiya Aktı” qəbul olundu.

1991-ci ilin dekabrında SSRİ-nin dağılması rəsmiləşdirildikdən sonra Azərbaycanın dövlət müstəqilliyi tam hüquqi təsdiqini tapdı.

Azərbaycanda 1991-ci il dekabrın 29-da ümumxalq səsverməsi keçirildi. Referendum bülleteninə bir sual yazılmışdı: “Siz “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı?”

Səs verənlərin 95 faizdən çoxu ümumxalq sesverməsində iştirak etdi. Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar oldu.

1992-ci ilin mayında Milli Məclis Azərbaycan Respublikasının Dövlət himnini (musiqisi Üzeyir Hacıbəylinin, sözləri Əhməd Cavadın), az sonra üçrəngli bayraq içərisində alov olan səkkizgüşəli ulduz təsvirli Dövlət gerbini təsdiq etdi.

Zamanın tələbi, xalqın iradəsi ilə müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çox mürəkkəb şəraitdə fəaliyyət göstərməyə başladı.

Azərbaycan Respublikasının müstəqilliyini çox tezliklə dünya dövlətləri tanıdı. Müstəqilliyimizi ilk olaraq Türkiyə (1991-ci il noyabrın 9-da), Rumıniya (11 dekabr 1991-ci il), Pakistan (13 dekabr 1991-ci il), İran (25 dekabr 1991-ci il), ABŞ (23 yanvar 1992-ci il), Rusiya (10 aprel 1992-ci il) və başqa dövlətlər də tanıdı. 1993-cü ilin əvvəllərində Azərbaycan Respublikasını 116 dövlət tanıdı. 70 xarici dövlət ilə diplomatik əlaqə yaradıldı. Azərbaycan 14 beynəlxalq təşkilata üzv qəbul edildi. O, 1991-ci ilin dekabrında İslam Konfransı Təşkilatına, 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına üzv qəbul edildi.

Azərbaycanın dünyanın onlarla ölkəsində səfirlikləri açıldı.

***Ermənistan-Azərbaycan müharibəsi.*** İlk öncə sovet, sonra isə Rusiya hərbi qüvvələrinin köməyi ilə ermənilər 1988-ci ildən başlayaraq Dağlıq Qarabağda irimiqyaslı hərbi əməliyyatlar keçirmiş, bir sıra əlverişli strateji mövqelər tutmuş, azərbaycanlıları buradan qovub çıxarmağa başlamışlar. Nəticədə 1991-ci ilin sentyabrında Yuxarı Qarabağda qeyri-qanuni bir qurum, oyuncaq Dağlıq Qarabağ Respublikası yaradıldı. Həmin il noyabrın 26-da Azərbaycan Respublikası Ali Soveti DQMV statusunu ləğv edən qərar qəbul etdi.

Rusiya ermənilərin azğınlaşmasına hər tərəfli şərait yaradırdı. Beynəlxalq ictimayyət isə susurdu. 1991-ci ilin axırında Rusiya ilə Ermənistan arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" bağlandı. Bir qədər sonra isə Rusiyaya rəhbərlik edən B.Yeltsinin köməyi ilə Ermənistana bir milyard dollarlıq qiymətində silah bağışlandı.

Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 9-da "Azərbaycanın milli özünümüdafiə qüvvələri haqqında" qanun qəbul etdi.

Azərbaycan xalqında, xüsusən gənclərdə o dövrdə çox böyük vətənpərvərlik duyğusu var idi. Ancaq, müharibə sənətdir, strategiyası, taktikası var. Orduda milli

komandirlər çatışmırdı. Orduya rəhbərliyi də səriştəsiz adamlara tapşırmışdılar. Hakimiyyətdə yaranmış boşluq bütün sahələri zəiflətmişdi.

1992-ci il fevralın 26-da ermənilər rus ordusunun köməyi ilə XX əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımını törətdilər. Xocalı faciəsində 613 nəfər öldürüldü, 478 nəfər yaralandı, 1275 nəfər əsir götürüldü. Yaranmış vəziyyətlə əlaqədar martın 6-da prezident A.Mütəllibov istefa verməyə məcbur edildi.

Mayın 8-də Şuşa ermənilərin əlinə keçdi. Belə ağır vaxtda da vəzifə hərisliyi yuxarı dairələri tərk etməmişdi. Mayın 14-də A.Müiəllibov tərəfdarlarının köməyi ilə parlament sessiyasında yenidən vəzifəsinə qaytarıldı.

Azərbaycanın demokratik qüvvələri parlamentin 14 may tarixli qərarını konstitusiyaya zidd hesab edərək, A.Mütəllibovu hakimiyyətə yenidən buraxmadılar.

Azərbaycan Xalq Cəbhəsinə ordunun və əhalinin çox hissəsi inanır və onun ardınca gedirdilər. Parlamentin 18 may tarixli sessiyasında Xalq Cəbhəsi liderlərindən biri olan İsa Qənbər Respublika Ali Sovetinin sədri seçildi.

1992-ci il iyunun 7-də Azərbaycan Respublikası Prezidentliyinə seçkilər keçirildi. Respublikanın prezidenti Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Əliyev (Elçibəy) seçildi.

***Siyasi böhranın dərinləşməsi.*** Vaxtı ilə mütəfəkkir şəxslərdən biri qeyd edir ki, inqilablar dahilər tərəfindən nəzəri olaraq kəşf edilir, fanatiklər tərəfindən həyata keçirilir, hakimiyyətə isə ən çox küçədən, yəni kütlə içərisindən çıxmış insanlar gəlirlər. Azərbaycanda da eynən belə oldu. AXC-nin hakimiyyətə gəlməsiylə də onun daxilində parçalanma baş verdi. Dövlət idarəçiliyində heç bir təcrübəsi olmayan populistlər meydana atıldılar. Millətin uzaqgörən siyasətçiləri, ziyalıları kənarda qaldı.

Bu zaman, az bir vaxt içərisində onlarla yeni partiya və təşkilatlar meydana gəldi.

1993-cü ilin ortalarında respublikada 30-a qədər siyasi partiya və hərəkat fəaliyyət göstərirdi.

Az bir vaxtda məlum oldu ki, AXC-Müsavat birliyi respublikanı idarə edə bilmirlər. Daxildə ümumxalq narazılığı artır, hərc-mərclik, xaos baş alıb gedirdi. Ermənistanın təcavüzü nəticəsində Dağlıq Qarabağ və onun ətrafında altı rayon işğala məruz qaldı. Müxalifət-iqtidar qarşıdurması siyasiləşmiş orduya, cəbhədəki vəziyyətə mənfi təsir edirdi.

Gəncədə 1993-cü il iyun qiyamı vəziyyəti daha da ağırlaşdırdı.

O vaxt böyük həyat təcrübəsinə, siyasi bacarığa malik, dövlət idarəçiliyinə mükəmməl bələd olan Heydər Əliyev Naxçıvandaydı. Naxçıvan əhalisi onu MR Ali Sovetinin sədri seçmişdi. Tarixi həqiqət naminə demək lazımdır ki, o vaxt Heydər Əliyevin Naxçıvanda olması region əhalisini aclıq və səfalətdən, ən ümdəsi erməni təcavüzündən qoruyub saxladı...

Xalq Cəbhəsi yaranmış vəziyyətdən çıxmaq üçün bütün xalqın istəyini, tələbini yerinə yetirərək Heydər Əliyevi Bakıya dəvət etdi. İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi. 1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı Heydər Əliyevi prezident seçdi.

Xalqın tələbi ilə yenidən hakimiyyətə gələn Heydər Əliyev respublikada dövlətçiliyi möhkəmləndirmək üçün mühüm tədbirlər həyata keçirməyə başladı.

Ən əvvəl daxildə sabitlik yaratdı, xaosa son qoydu. Respublikanı parçalamaq istəyənlərə, dövlət çevrilişi edənlərə qarşı xalqla birlikdə çox uğurlu addımlar atdı. Azərbaycan iqtisadiyyatını yüksəltmək üçün 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi” imzalandı.

Ancaq hələ də Azərbaycanın dövlət müstəqilliyini istəməyən daxili və xarici qüvvələr var idi. Məhz onların dəstəyi ilə 1994-cü ilin oktyabrında dövlət çevrilişinə cəhd oldu. Oktyabrın 4-də Prezident sarayı qarşısına toplaşan əhali öz qanuni hökumətini müdafiə etdi. 1995-ci ilin martında da dövlət çevrilişi cəhdi Azərbaycan siyasi rəhbərliyinin qəti iradəsi ilə dəf edildi.

1995-ci ilin ortalarında Azərbaycan dövləti keyfiyyətcə yeni mərhələyə daxil oldu. Dövlət quruculuğu, iqtisadi, sosial və mədəni tərəqqi, demokratiyanın, qanunçuluğun inkişafı üçün geniş imkanlar açıldı.

Respublikada azad siyasi fəaliyyət, plüralizm təmin edildi. 2001-ci ildə rəsmi qeydə alınmış 39 siyasi partiya, 30-a yaxın hüquq-müdafiə təşkilatı fəaliyyət göstərirdi. Bu təşkilatlarda yarım milyondan çox üzv birləşmişdi. Demokratiya inkişaf etdikcə, cəmiyyət yetkinləşdikcə onun bütün üzvlərinin ümummilli məsələlərdə iştirakı formalaşırdı. Milli Məclisin deputatı İlham Əliyevin başçılığı ilə iqtidar və müxalifət mənsublarından ibarət nümayəndə heyətinin 2001-ci ildən Avropa Şurasında fəaliyyəti bu sahədə mühüm addım oldu.

Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) Azərbaycan nümayəndə heyətinin başçısı İlham Əliyev 2003-cü ilin əvvəllərində AŞPA-nın vitse-prezidenti seçildi. Azərbaycan Respublikası prezidentinin təqdimatı əsasında Milli Məclisdə 2003-cü il avqustun 4-də İlham Əliyev Baş nazir təyin edildi.

# AZƏRBAYCANDA İQTİSADİ VƏ SOSİAL İNKİŞAFIN BAŞLANMASI

## § 1. Yeni iqtisadi sistemə keçid: iqtisadi siyasətin formalaşması

Azərbaycan dövlətçiliyinin bərpa və inkişafı respublikada müasir iqtisadi dəyişiklikləri tələb edirdi. 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamalıydı. Lakin müstəqilliyin ilk günlərindən başlayaraq ölkədə yaranmış hərc-mərclik, hakimiyyət uğrunda çəkişmələr və səriştəsiz rəhbərlik bu istiqamətdə dönüş yaratmağa imkan vermədi. Nəticədə, 1991—1993-cü illərdə ölkədə müəssisələrin böyük əksəriyyətində istehsal prosesi dayandırılmış və ya müəssisələr öz gücünün cəmi 15-20 faizi səviyyəsində fəaliyyət göstərmişdi. Həmin illərdə sənayedə illik geriləmə 20-30 faizə, kənd təsərrüfatında – 16-24 faizə, kapital qoyuluşunda 40 faizə çatmışdı. Bunlar isə xalqın sosial vəziyyətinə kəskin təsir göstərmişdir.

1993-cü ilin yayında xalqın arzu və tələbi ilə Azərbaycan Respublikasının rəhbərliyinə gələn Heydər Əliyev qarşıda duran bu çətin məsələləri həll etməliydi və etdi də. O, 1993-1995-ci illərdə ən əvvəl ictimai-siyasi vəziyyəti normal məcraya yönəldə bildi. Bu məqsədlə həyata keçirilən xəttin əsasını aşağıdakı prinsiplər təşkil etmişdir:

- müxtəlif mülkiyyət növlərinə əsaslanan iqtisadi sistemin yaradılması;
- azad sahibkarlığın inkişafına dövlət təminatının verilməsi;
- iqtisadiyyatın sağlam rəqabət prinsipləri əsasında inkişaf etdirilməsi;
- iqtisadi münasibətlərdə inhisarçılığın qarşısının alınması və haqsız rəqabətə yol verilməməsi;
- əhalinin rifahının yaxşılaşdırılması və onun sosial müdafiəsinin təmin olunması.

Həmin dövrdə bir çox orta və iri müəssisələr özəlləşdirməyə verilmiş və səhmdar cəmiyyətlərinə çevrilmişdi.

Aqrar bölmədə aparılan islahatlar ölkədə özəl mülkiyyətin formalaşmasında və sahibkarlığın inkişafında xüsusi rol oynadı.

İslahatlar ərəfəsində həyata keçirilən ən mühüm tədbirlərdən biri Azərbaycanın milli valyutasının – manatın dövriyyəyə buraxılması idi. 1994-cü ilin əvvəlindən manatın ölkədə yeganə ödəniş vasitəsi kimi istifadəsinə başlanması maliyyə və bank sisteminin möhkəmlənməsinə şərait yaratdı.

Respublikada aparılan məqsədyönlü islahatlar tezliklə öz nəticəsini verdi. 1997-ci ildən başlayaraq bütün sahələrdə artım yarandı.

İqtisadi inkişafı təmin edən əsas amillərdən biri kapital qoyuluşunun dinamikasıdır. Kapital qoyuluşuna yönəldilən investisiya istehsalın artması ilə yanaşı yeni müəssisələrin, təhsil, səhiyyə, yaşayış və digər sosial obyektlərin yaradılmasına xidmət edir. Belə ki, 1995-2000-ci illərdə ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 33,6 trilyon manat (pul islahatından əvvəlki dəyərlə - M.Q.) investisiya yönəldilmişdir. Həmin dövrdə xarici investisiyaların həcmi 5,8 milyard dollar olmuşdur ki, bu da ümumi investisiyaların 71 faizini təşkil etmişdir.

İqtisadiyyatın bütün sahələrində aparılan islahatlar qısa bir zaman kəsiyində özünün müsbət nəticələrini verdi.

## § 2. Ölkədə neft strategiyası

Azərbaycanın təbii sərvətlərindən biri neftdir. Tarixən neft Azərbaycan xalqının həyatında mühüm rol oynamışdır. Neft təkcə azərbaycanlıların deyil, bir çox dünya xalqlarının iqtisadiyyatında əhəmiyyət kəsb etmişdir. Bu mənada neftin dünya iqtisadiyyatının inkişafında oynadığı böyük rol onu ayrı-ayrı ölkələrin daxili və xarici siyasətinin, beynəlxalq siyasətin həllində təsirli amillərdən birinə çevirmişdir.

Tarixə nəzər yetirsək görərik ki, Azərbaycan neftindən özgələr, gəlmələr, müstəmləkəçilər daha çox varlanmış, yarınmışlar.

Azərbaycan müstəqillik əldə etdikdən, xüsusən də Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra iqtisadiyyatın bu mühüm sahəsinə xüsusi diqqət verilmişdi. Xalq öz torpağının yeraltı və yerüstü sərvətlərindən ilk dəfə olaraq, azad, müstəqil surətdə istifadə etmək hüququnu qazandı.

Müstəqillikdən sonra səmərəli tədbirlər nəticəsində neft və qaz yataqlarında qazma işləri vüsət aldı. Yeni neft məhsullarının istehsalına başlandı.

Müstəqil Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış 20 sentyabr 1994-cü il bugünkü və gələcək nəsillərin yaddaşında əbədi yaşayacaqdır. Məhz bu tarixdə Azərbaycanla Amerikanın "AMOKO", "Yunokul", "Penzoyl", "Makdermot", Böyük Britaniyanın "Britiş Petroleum" və "Remko", Norveçin "Statoyl", Rusiyanın "Lukoyl", Türkiyənin "Türk petrolları", Səudiyyə Ərəbistanının "Delta" şirkətlərinin yaratdığı konsorsium arasında tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft müqaviləsi imzalandı. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya olunduqdan sonra neft-qaz əməliyyatlarının aparılması və əlaqələndirilməsi məqsədilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradıldı.

"Əsrin müqaviləsi" Azərbaycanın neft strategiyasının parlaq nümunəsidir.

1999-cu il aprelin 17-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevarnadze aə Ukrayna prezidenti Leonid Kuçmanın iştirakı ilə uzunluğu 850 kilometr və illik buraxılış qabiliyyəti 5 milyon ton olan Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahillərindəki Supsa ixrac terminalı istismara verildi. 1997-ci ildə istismara verilmiş "Çıraq-1" yatağından hasil olan neftin "Azəri-Layt" adı altında Supsa limanından dünya bazarlarına ixrac edilməsinə başlandı.

Beləliklə, 1994-cü il sentyabrın 20-də imzalanmış beynəlxalq neft sazişi ölkə iqtisadiyyatının dinamik inkişafının əsasını qoydu.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası ilə bağlanan bütün sazişlər prezident Heydər Əliyevin iştirakı ilə təkcə Bakıda deyil, dünyanın ən

böyük dövlətlərinin paytaxtları – Vaşinqton, Moskva, London, Parisin möhtəşəm saraylarında imzalanmışdır.

Ölkəmizin neft strategiyasının ən əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarlarına nəql edilməsindən ibarətdir. Bu mənada buraxılış imkanı ildə 50 milyon ton neft, uzunluğu 1730 kilometr olan yeni – Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinin qəbul edilməsi və həyata keçirilməsi uğurla nəticələndi.

Hər bir ölkənin neft siyasətini müəyyənləşdirən əsas amillərdən biri neft və qaz ehtiyatlarıdır. Bu gün Azərbaycanda bütün kateqoriyalar üzrə karbohidrogen ehtiyatları 4 milyard tondan çoxdur ki, bu da Azərbaycanı dünyanın ən iri neft regionları sırasına çıxarır. Buna baxmayaraq dövlət siyasətimiz neft-qaz ehtiyatlarından səmərəli və qənaətlə istifadə etməkdir.

## § 3. İnvestisiya siyasəti

Müstəqil Azərbaycan Respublikasının apardığı məqsədyönlü tədbirlər sırasında investisiya siyasəti də mühüm yer tutur. Bazar iqtisadiyyatı daxili və xarici rəqabətə davam gətirə bilən məhsul istehsalı üçün daxili maliyyə imkanlarından səmərəli istifadə etməklə xarici investisiyaları cəlb etmək də iqtisadiyyatı dircəltməkdə əsas vasitələrdən sayılır.

İnvestisiya siyasətinin həyata keçirilməsində ölkə başçısı Heydər Əliyevin müstəsna əməyi olmuşdur. Belə ki, Azərbaycan prezidentinin xarici ölkələrə səfərləri zamanı yerli iş adamları ilə çoxsaylı görüşlərində Azərbaycanın iqtisadi potensialı barədə verilən geniş məlumatlar və onlara dövlətin adından verilən təminatlar investisiya prosesini sürətləndirmişdir. Nəticədə 1995-1996-cı illərdən başlayaraq Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşu əhəmiyyətli dərəcədə artmışdır. 1995-2000-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların 71,4 faizi xarici investisiyalar təşkil etmişdir. Bu vəsaitdən 3,3 milyard dolları neft və qazçıxarma sənayesinin, 2,5 milyard dolları isə digər sahələrin inkişafına qoyulmuşdur.

Müstəqilliyin ilk illərindən ölkədə neft sənayesindən sonra ən çox xarici investisiya qoyulan sahə energetika kompleksidir. 1995-ci ildən başlayaraq Yenikənd və Mingəçevir su elektrik stansiyalarının tikintisinə, Bakı 1 saylı İstilik Elektrik Mərkəzinin birinci və ikinci bloklarının, "Şimal" DRES-nin yenidən qurulmasına və s. işlərə 600 milyon dolları dək vəsait cəlb edilmişdir.

Azərbaycan Respublikasının investisiya siyasətində kənd təsərrüfatının inkişaf etdirilməsi xüsusi yer tutur. Bu məqsədlə rayonlarda fermer təsərrüfatlarının inkişafı üçün 100 milyon dollar vəsait xərclənmişdir.

Azərbaycana cəlb olunmuş investisiyanın bir hissəsi erməni işğalından azad olunmuş ərazilərin həyatı bərpası üçün sərf edilmişdir. Bu yerlərdə yeni məktəblərin, səhiyyə obyektlərinin, kommunikasiya sistemlərinin qurulması vacib məsələlərdən idi.

Xarici investisiya ilə yanaşı 1995-2001-ci illərdə ölkə iqtisadiyyatına xeyli daxili investisiya qoyulmuşdur. Bütövlükdə müstəqilliyin birinci on illiyində Azərbaycan dövlətinin həyata keçirdiyi investisiya siyasəti iqtisadi potensialı artırmaqla əhalinin rifah halının yaxşılaşdırılmasına, maliyyə bazarının formalaşmasına, ən ümdəsi isə Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirmişdir.

## § 4. Dövlət əmlakının özəlləşdirilməsi və sahibkarlığın inkişafı

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra dövlət sosialist təsərrüfat sistemindən bazar iqtisadiyyatına keçməli oldu. Dövlətin bu yöndə apardığı islahatlar içərisində dövlət əmlakının özəlləşdirilməsi mühüm yer tutur. Bu proses Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş iqtisadiyyatın müxtəlif mülkiyyət formalarına əsaslanaraq inkişaf etdirilməsi və onun dövlət tərəfindən dəstəklənməsi prinsipinə uyğun həyata keçirilmişdir.

Azərbaycanda özəlləşdirmənin ilk addımları 1992-ci ildə Naxçıvanda atılmışdır. O vaxt Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

sədri idi. Həmin il Muxtar Respublikanın kolxoz və sovxozlarının çox hissəsi ləğv edildi və onların əmlakı təsərrüfat üzvləri arasında paylandı.

Özəlləşmənin əsas məqsədi səmərəli fəaliyyət göstərən iqtisadi sistemin formalaşmasıdır.

Azərbaycanda kütləvi özəlləşməyə 1993-cü ilin yanvarında "Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Qanun qəbul edildikdən sonra başlanmışdır. Lakin o dövrdə ölkədə gedən proseslər, Ermənistanın Azərbaycana təcavüzü və hakimiyyət uğrunda gedən mübarizə özəlləşməyə başlamağa tam imkan verməmişdi. Yalnız 1995-ci ildə ölkədə sabitlik yaradıldıqdan sonra prezident Heydər Əliyev tərəfindən imzalanan "Dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməli tədbirlər haqqında" fərman bu prosesə təkan verdi. Bunun üçün 1995-1998-ci illərdə dövlət proqramı və çoxsaylı normativ-hüquqi sənədlər hazırlanıb qəbul edildi. Respublikada bütün vətəndaşlara – 7,5 milyona yaxın özəlləşmə payı verildi.

Birinci mərhələdə ticarət, iaşə obyektləri, xidmət və kiçik müəssisələr hərraca qoyularaq satıldı. On minə yaxın orta və iri müəssisə səhmdar cəmiyyətinə çevrildi.

2000-ci ildə qəbul olunmuş II Dövlət Özəlləşdirməsi ölkədə daha geniş miqyaslı aparıldı. Aprtıq 2009-cu ildə özəlləşmə demək olar ki, bütün sahələrdə başa çatdı.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası dünyaya sürətlə inteqrasiya etməyə başladı. Nəticədə ölkədə azad iqtisadi model formalaşdı. Bu prosesdə neft və qaz gəlirlərinin köməyi çox oldu. Bunu xüsusilə vurğulamaq lazımdır ki, 2010-cu ilə kimi ölkə iqtisadiyyatı əsasən neft və təbii qaz gəlirlərindən asılı olmuş və qeyri-neft sektoru neft sektoru ilə müqayisədə elə də inkişaf etməmişdir. 2010-cu ildən başlayaraq ölkənin qeyri-neft sektorunda canlanma müşahidə edilməyə başladı.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramı (2004-2008-ci illər) müvəffəqiyyətlə yerinə yetirilmiş, 2-ci Dövlət Proqramı (2009-2013-cü illər) uğurla başa çatmışdır.

Bütün bunların nəticəsində Respublikamızın həyatının bütün sahələrində köklü dəyişikliklər baş vermiş, ən əsası isə keçid dövrü başa çatmışdır. Bu o deməkdir ki, artıq Azərbaycanda demokratik cəmiyyətin maddi-texniki bazası yaradılmış, iqtisadiyyatın bütün sahələrinin bazar münasibətlərinə keçidi təmin edilmişdir.

Azərbaycan dövlətinin keçid dövründə yeritdiyi sosial-iqtisadi inkişaf siyasəti bir tərəfdən Azərbaycanın mövcud milli maraqlarına xidmət etmiş, digər tərəfdən demokratik cəmiyyətin inkişafı və təkmilləşməsi üçün real zəmin yaratmışdır. Keçid dövrünün başa çatması ilə Azərbaycan 2009-2010-cu illərdən başlayaraq sosial-iqtisadi inkişafın yeni mərhələsinə daxil olmuşdur.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 26 aprel 2011-ci ildə AMEA-nın illik hesabatı zamanı söylədiyi nitqdə Azərbaycanın uzun sosial-iqtisadi inkişaf strategiyasından danışarkən demişdir: "Biz nəinki beşillik proqramı icra edərkən bu məsələlərlə məşğul olmalıyıq, uzaq gələcəyə baxmalıyıq – 20 ildən, 30 ildən sonra Azərbaycan hansı imkanlar hesabına inkişaf edəcəkdir".

Bu dövrün əsas strateji inkişaf xətti Azərbaycanın hərtərəfli inkişafı, müasirləşməsi, zəngin və iqtsadi cəhətdən qüdrətli dövlətə çevrilməsinə yönəlmişdir. Bu əsasda ölkəmizdə yüksək rifah cəmiyyətinin qurulması, insan potensialının bütün keyfiyyət göstəricilərinin yüksəlməsi, nəticədə əmək fəallığının artmasına, əhalinin yüksək həyat və mədəni səviyyəsinə nail olması təmin ediləcəkdir.

Qarşıya qoyulan məqsədlərə çatmaq üçün 2010-cu ildən başlayaraq respublikamız hər il bir sahənin inkişafını həll etməyi irəli sürmüşdür.

Belə ki, 2010-cu il ölkəmizin tarixinə Ekologiya ili; 2011-ci il Turizm ili; 2012-ci il Gənclər ili; 2013-cü il Texnologiya-kommunikasiya ili; 2014-cü il Sənaye ili; 2015-ci il Kənd təsərrüfatı ili kimi daxıil olmuşdur.

## § 5. Aqrar və torpaq islahatları

Kənd təsərrüfatı bütün dövrlərdə Azərbaycan xalqının bağlı olduğu sahə olmuşdur. Tarix boyu insanları qida məhsulları, geyim, yaşayış vasitəsi kimi təmin edən torpaq əvəzsiz olmuşdur. İctimai-siyasi formasiyalar bir-birini əvəz etsə də kənd təsərrüfatı insanların istehlakı üçün əvəzedilməz sahə olmuşdur. Sovet hakimiyyəti dövründə kolxoz, sovxoz mülkiyyəti var idi. Bazar iqtisadiyyatına keçid zamanı Azərbaycan Respublikası rəhbərliyi qarşısında başqa sahələrdə olduğu kimi, kənd təsərrüfatının da yeni iqtisadi inkişafı üçün müasir islahatların aparılması dururdu.

1995-1996-cı illərdə "Aqrar islahatların əsasları", "Sovxoz və kolxozların islahatı", "Torpaq islahatı", "Torpaq bazarı" haqqında qanunlar qəbul edildi. Qısa müddət ərzində torpağın özəlləşdirilməsi, onun mülkiyyətçisinin adına rəsmiləşdirilməsi mexanizminin hazırlanıb qəbul edilməsi, iki milyon hektara yaxın torpağın əvəzsiz olaraq vətəndaşlara verilməsi başa çatdırıldı. Bu proses 870 min ailənin torpaq sahibi olmasını təmin etdi.

Respublikada aqrar bölmənin inkişafını təmin etmək üçün Azərbaycan beynəlxalq maliyyə qurumları və iqtisadi təşkilatları ilə geniş əlaqə yaratmışdır. Dünya bankı, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafına əsaslı köməklik göstərmişdir. Aparılan mütərəqqi tədbirlər nəticəsində 1995-2000-ci illərdə ölkədə kənd təsərrüfatı məhsulları 23 faiz artmışdır.

Azərbaycan Respublikasında 1995-ci ildə ictimai-siyasi sabitlik bərpa edildikdən sonra bütün ölkələrlə qarşılıqlı əməkdaşlıq nəticəsində xarici iqtisadi siyasət formalaşmışdı. Bu gün Azərbaycan dünyanın 150-dən çox ölkəsi ilə iqtisadiyyatın bütün sahələri üzrə əlaqə yaratmışdır.

Azərbaycan müstəqilliyi möhkəmləndikcə, ölkədə davamlı iqtisadi inkişaf və maliyyə sabitliyi əhalinin həyat səviyyəsinin dinamik inkişafı üçün şərait yaratmışdır.

Əhalinin rifahının yaxşılaşmasını səciyyələndirən əsas göstəricilərdən biri onların pul gəlirlərinin dinamikasıdır. 1995-2000-ci illərdə ölkə üzrə əhalinin pul gəlirləri 2,6 dəfə artmış, inflasiya isə əhalinin pul gəlirlərindən 2,6 dəfə aşağı olmuşdur.

Azərbaycan Respublikasında həyata keçirilən uğurlu inkişaf strategiyası ölkədə iqtisadi durumu durmadan artırır. Son on ildə Azərbaycanda Ümumdaxili Məhsulun (ÜDM) üç dəfədən çox artması bunun bariz təzahürüdür. Yaxşı haldır ki, məqsədini inkişaf və sabitlik, yolunu isə demokratiya və qanunçuluq prinsipləri əsasında müəyyənləşdirən Azərbaycanda bütün sahələrdə kəmiyyət artımı keyfiyyət artımı ilə müşayət olunur. Ölkəmizin inkişafında sosial siyasət əsas prioritetdir.

Dövlətimizin öz inkişafında sosial yönümə üstünlük verməsinin nəticəsidir ki, ölkəmizdə yoxsulluq son illərdə dəfələrlə azalmışdır. Belə ki, əgər 2001-ci ildə yoxsulluq 49 faiz idisə, 2012-ci ildə bu rəqər 6 faizə endi və ildən-ilə yoxsulluq faizi azalmağa doğru gedir. Baxmayaraq ki, ölkə əhalisinin 13 faizindən çoxu qaçqın və köçkün həyatı yaşayır.

Bu uğurları təmin edən Azərbaycan prezidenti İlham Əliyevin "qara qızılın" "insan potensialına" çevrilməsinə hesablanmış innovativ idarə üsuludur.

Ölkəmizin son illərdə davamlı inkişaf sahəsində qazandığı uğurların əsasında müasir və innovativ idarəetmə texnologiyalarının tətbiqi durur. Davamlı inkişaf ölkəmizin və xalqımızın gələcək uğurlarının təminatçısıdır. Ölkə prezidenti İlham Əliyevin təşəbbüsü ilə qəbul edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" proqramı davamlı inkişafın təmin edilməsində yeni mərhələdir.

## AZƏRBAYCANDA VƏTƏNDAŞ CƏMİYYƏTİ QURUCULUĞU

1991-ci ildə totalitar sovet rejiminin buxovlarından azad olan Azərbaycan Respublikası müstəqil dövlət quruculuğu yoluna qədəm qoydu. Yeni Azərbaycan dövləti kommunist ideologiyasından və sovet siyasi-iqtisadi sistemindən tam imtina edərək, milli və ümumbəşəri dəyərlərə söykənən demokratik, hüquqi və dünyəvi dövlət yaratmaq istiqamətində qətiyyətli addımlar atmağa başladı.

Qanunun aliliyinə və cəmiyyətin bütün üzvlərinin azad və sərbəst fəaliyyətinə təminat verən vətəndaş cəmiyyətinin bərqərar edilməsini özünün əsas məqsədlərindən biri kimi bəyan edən Azərbaycan xalqı 1995-ci ildə qəbul etdiyi Konstitusiyada həmin prinsipləri qanunvericilik yolu ilə təsbit etdi.

İnsanların ictimai-siyasi şüur və özünüdərkinin yetkinləşməsi sayəsində cəmiyyətdəki ictimai-siyasi və sosial-iqtisadi proseslərin tənzimlənməsində vətəndaşların müxtəlif təbəqələrini və kateqoriyalarını təmsil edən ictimai qurumların fəal rol oynaması vətəndaş cəmiyyətini səciyyələndirən əsas amillərdəndir.

Yalnız yetkin cəmiyyət və güclü dövlət öz vətəndaşlarının hüquq və azadlıqlarının qorunmasına, insanların rifah halının yüksəlməsinə təminat verə bilər. Azərbaycan Respublikasının siyasi müstəqillik əldə etməsi bu istiqamətdə əməli addımlar atmağa imkan yaratdı.

Müstəqilliyin ilk illərində Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması böyük çətinliklərlə üzləşdi. Bir tərəfdən Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan çox insanın köçkün və qaçqın vəziyyətə düşməsi, bir tərəfdən hakimiyyət uğrunda aparılan mübarizə bu çətinliklərin səbəblərindən idi.

Vətəndaş cəmiyyətinin qurulmasında hakimiyyət orqanları ilə cəmiyyət, yəni konkret fərdlər arasında qarşılıqlı əlaqənin xüsusi əhəmiyyəti vardır. Vətəndaş cəmiyyətinin əsasını təşkil edən seçki qanunvericiliyi demokratikləşdirilib və beynəlxalq standartlara uyğunlaşdırılıb. Xalq hakimiyyətinin əsasında duran konstitusiya prinsiplərinin reallaşması, məhz seçki qanunvericiliyindən asılıdır. Ona görə də Azərbaycan dövləti onun demokratik prinsiplər əsasında təkmilləşməsinə xüsusi diqqət yetirib. 1998-ci ildə prezident seçkiləri haqqında,

1999-cu ildə bələdiyyə orqanlarına, 2000-ci ildə isə Milli Məclisə seçkilər haqqında qanunlar parlamentdə müzakirə olunmuş, ictimai-siyasi qurumların, o cümlədən, müxalifət partiyaların təklif və qeydləri nəzərə alınmış, sonra isə həmin sənədlər beynəlxalq təşkilatların ekspertizasının rəyi verildikdən sonra qəbul edilmişdir.

Azərbaycan Konstitusiyası hər kəsin istənilən birlik, siyasi partiya, həmkarlar ittifaqı yaratmaq və ya hər hansı təşkilata daxil olmaq hüququnu təsbit etmişdir. Hazırda respublikamızda fəaliyyət göstərən onlarca siyasi partiya və yüzlərlə ictimai qurumlar fəaliyyət göstərir. Bütün bunlar isə müvafiq qanunlara əsasən yaradılır.

***Ordu quruculuğu.*** Uzun bir dövr – Azərbaycan SSRİ adlanan imperiyanın tərkibində olduğu zaman bütün sahələrdə olduğu kimi ordu quruculuğu da Mərkəzin səlahiyyətlərindəydi. Azərbaycan müstəqillik əldə etdikdən sonra ordu quruculuğu sahəsində də sərbəst və öz maraqları çərçivəsində ordu quruculuğuna yanaşmağa başladı. 1991-ci il oktyabrın 9-da "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun qəbul olundu. Lakin əvvəlki iqtidarlar milli ordu yaradılması ilə ciddi məşğul olmadılar. O vaxt Azərbaycanda hələ də sovet ordusuna arxalanırdılar. AXC və Müsavat hakimiyyəti dövründə bir çox hərbi hissələr müxtəlif ambisiyalı siyasi qüvvələrin təsiri altına düşmüşdü.

1993-cü ilin yayında hakimiyyətə qayıdan Heydər Əliyev orduda ciddi və məqsədyönlü islahatlar keçirtdi. Belə ki, 33 köhnə hərbi hissələr ləğv olundu.

Prezident Fərmanı ilə 1993-cü il noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı. Həmin ayın 23-də "Müdafiə haqqında" Qanun qəbul edildi. Milli Ordunun formalaşdırılması, bütün siyasi və diplomatik vasitələrin işə salınması nəticəsində 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan müharibəsində atəşkəs əldə olundu. O dövr üçün bu mühüm məsələ idi.

Ordunun möhkəmliyi hərbi kadrlardan çox asılıdır. Bu məqsədlə prezidentin 2001-ci il 20 avqust tarixli fərmanı ilə Respublika Müdafiə Nazirliyi sistemində Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və

Azərbaycan Ali Təyyarəçilik Məktəbi yaradıldı. Silahlı Qüvvələrin şəxsi heyətinin sosial müdafiəsinin yaxşılaşdırılması üçün tədbirlər görüldü.

***Xarici siyasət.*** Sovet dönəmində hər bir respublikanın daxili və xarici siyasəti Moskvada müəyyənləşdirilirdi. Respublikalar müstəqil olaraq hər hansı xarici dövlətlə Mərkəzin razılığı olmadan əlaqə yarada bilməz, münasibət qura bilməz, heç bir beynəlxalq təşkilata üzv ola bilməzdi. Azərbaycan müstəqillik əldə etdikdən sonra xarici siyasət məsələlərini müstəqil və milli maraqları nəzərə alaraq həll etməyə başladı. 1991-1992-ci illərdə gənc Azərbaycan Respublikası bir çox beynəlxalq qurumlara, məsələn İslam Konfransı Təşkilatına, İqtisadi Əməkdaşlıq təşkilatına (EKO), Birləşmiş Millətlər Təşkilatına (BMT), habelə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT), Qara Dəniz İqtisadi Əməkdaşlıq Birliyinə daxil olmuş, 1975-ci il Helsinki Yekun Aktına qoşulmuşdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün ATƏT-in Minsk qrupu təşkil edilmişdir.

1993-cü ilin ikinci yarısından Azərbaycan Respublikasının xarici siyasəti daha məqsədyönlü və dinamik olmuşdur. Heydər Əliyev xalqın maraqlarını, dünyada baş verən ciddi dəyişiklikləri, beynəlxalq sistemin sürətlə qloballaşması ilə əlaqədar olaraq praqmatik addımlar atıldı. Qonşu dövlətlərlə əlaqələr nizama salındı. Azərbaycan 1993-cü il sentyabrın 24-də Müstəqil Dövlətlər Birliyinə, dekabrın 20-də Paris Xartiyasına, 1994-cü il mayın 4-də NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu. 1997-ci ilin sentyabrında Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova GUAM təşkilatı yaratdılar. Sonralar bu birliyə Özbəkistan da qoşuldu. 2001-ci il iyunun 6-7-də Yaltada GUÖAM ölkə başçılarının görüşündə qəbul olunmuş "Yalta xartiyası"nda bu təşkilatın iqtisadi sahələrdə əməkdaşlığına üstünlük veriləcəyi elan edildi.

Ölkədə aparılan müstəqil "açıq qapı" siyasəti nəticəsində Azərbaycan beynəlxalq aləmdə geniş nüfuz qazanmış oldu. Azərbaycan prezidenti Heydər Əliyevin ardıcıl olaraq Rusiya, ABŞ, Fransa, Yaponiya, Türkiyə, İran və b. ölkələrə rəsmi səfərləri, eləcə də xarici ölkə başçılarının ölkəmizə işgüzar gəlişləri qarşılıqlı əlaqələrin inkişafı ilə xarakterizə olunurdu.

1995-ci il noyabrın 12-də yeni Konstitusiya qəbul olundu. Bu konstitusiya müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası idi. Həmin vaxt Azərbaycan Milli Məclisinə seçkilər keçirildi.

Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış Konstitusiya Azərbaycan Respublikasının dövlət qanunvericiliyin əsaslarını qoydu. Azərbaycan demokratik, hüquqi, dünyəvi bir dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Konstitusiyada göstərilir ki, Azərbaycanda hakimiyyətin yeganə mənbəyi xalqdır. Azərbaycan xalqını yalnız onun demokratik surətdə seçdiyi səlahiyyətli nümayəndəsi təmsil edə bilər.

Ənənəvi hakimiyyətlər bölgüsü konsepsiyasına uyğun olaraq Konstitusiya müəyyən edir ki, icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə məxsusdur, qanunverici hakimiyyətini Azərbaycan Parlamenti – Azərbaycan Respublikasının Milli Məclisi, məhkəmə hakimiyyətini isə müstəqil məhkəmələr həyata keçirirlər. Azərbaycan Prezidentinin ikili hüquqi təbiəti vardır. Ali icra hakimiyyətinin ona məxsus olması ilə yanaşı, o, həm də ilk növbədə Azərbaycan dövlətinin başçısıdır, xalqın qarantıdır və Azərbaycan xalqının vahidliyinin rəmzidir.

Yeni Konstitusiyaya görə Naxçıvan Respublikasının muxtar dövlət kimi quruluşu bütövlükdə Azərbaycan Respublikasının dövlət quruluşundan seçilir. Azərbaycan Respublikası prezidentli respublikadırsa, Naxçıvan Muxtar Respublikasında dövlət idarəetməsi parlament hakimiyyət üsulu ilə həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Parlamentinin – Ali Məclisinin sədri Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsidir. Muxtar respublikanın Nazirlər Kabineti Ali Məclis tərəfindən formalaşdırılır. Azərbaycan Respublikasının Konstitusiyasına görə Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına görə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında fəaliyyət göstərir.

Müstəqil Azərbaycan Respublikası ilk gündən demokratiya yolu ilə gedir. Azərbaycan demokratiyasının iki özünəməxsus xüsusiyyəti vardır. Birinci

xüsusiyyət ondan ibarətdir ki, Qərb ölkələrindən fərqli olaraq, Azərbaycanda demokratikləşmə aşağıdan yuxarıya deyil, əks istiqamətdə, yəni yuxarıdan aşağıya doğru gedir. İkinci xüsusiyyət ondan ibarətdir ki, Qərb ölkələri demokratiyaya doğru uzun bir yol keçdiyi halda, təbii ki, bu yolda çatışmamazlıqlar da olmuşdur, Azərbaycan mənfilikləri nəzərə alaraq irəliləyir.

1995-ci ilin əvvəllərindən başlayaraq ölkədə demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatının keçid kursu müəyyənləşdirilmiş və onun ardıcıl həyata keçirilməsinə başlanmışdır. Burada strateji istiqamət yeni iqtisadi sistemə keçmək idi. Bunun üçün iqtisadiyyatın liberallaşdırılması ilə yanaşı keçid dövründə əhalinin sosial müdafiəsinin təmini ən ümdə vəzifə sayılırdı. Bu məqsədlə həyata keçirilən xəttin əsasını aşağıdakı prinsiplər təşkil etmişdir:

- müxtəlif mülkiyyət növlərinə əsaslanan iqtisadi sistemin yaradılması;
- azad sahibkarlığın inkişafına dövlət təminatının verilməsi;
- iqtisadiyyatın sağlam rəqabət prinsipləri əsasında inkişaf etdirilməsi;
- iqtisadi münasibətlərdə inhisarçılığın qarşısının alınması;
- əhalinin rifahının yaxşılaşdırılması və onun sosial müdafiəsinin təmin olunması.

Azərbaycanda aparılan aqrar, iqtisadi islahatlar dinamik inkişafın səbəbləri sayıla bilər. 1994-cü ilin əvvəllərindən manatın ölkədə yeganə ödəniş vasitəsi kimi istifadəsinə başlandı.

Müstəqil Azərbaycan Respublikasının neft strategiyası ölkəmizin dinamik inkişafının əsas göstəricilərindən biridir. Heydər Əliyev bu barədə demişdir: “1994-cü ildən Azərbaycan özünün yeni neft strategiyasını həyata keçirir... Neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir”.

Xarici neft şirkətləri ilə bağlanmış sazişlər Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə kömək etmişdir.

Azərbaycanda Böyük Britaniyanın, ABŞ-ın, Norveçin, Fransanın, İtaliyanın, Almaniyanın, Yaponiyanın, Rusiyanın və digər ölkələrin çoxsaylı şirkətləri fəaliyyət göstərirlər. İldə 50 milyon ton neft ötürmək imkanı, uzunluğu 1730 km

olan Bakı-Tibilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilməsinə başlanması və onun başa çatması çox böyük hadisədir.

1998-ci il oktyabrın 11-də alternativ əsasdə keçirilən prezident seçkilərində Heydər Əliyev qələbə çalaraq yenidən 5 il müddətinə Azərbaycan Respublikasının prezidenti seçildi. Ölkədə onun rəhbərliyi altında hüquqi, iqtisadi və demokratik islahatlar durmadan davam etdirildi. 2000-ci il noyabrın 5-də çoxpartiyalı sistem əsasında Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirildi. Bu seçkilərdə Heydər Əliyevin rəhbərlik etdiyi "Yeni Azərbaycan Partiyası" qələbə qazandı.

Azərbaycan prezidentinin 16 iyun 1999-cu il fərmanı ilə "Yerli icra hakimiyyəti haqqında" əsasnamə təsdiq edildi. Bu illər ölkə quruculuğu sahəsində ardıcıl olaraq zəruri tədbirlər həyata keçirilirdi. Gənc respublikanın inkişafında dünya ölkələrinin təcrübəsi öyrənilir və həyata keçirilirdi. Əlbəttə hər bir təcrübə yerli şəraiti, milli dəyərləri nəzərə almaqla aparılırdı. Azərbaycan Respublikasının şəhər və rayon icra hakimiyyəti başçısı aparatı, rayon tabeliyində olan şəhərlərdə, qəsəbə və kəndlərdə icra nümayəndəlikləri strukturu müəyyən edilirdi. Azərbaycan Respublikasının Konstitusiyasının 124-cü maddəsinin 2-ci hissəsinə uyğun olaraq icra hakimiyyəti başçılarını Azərbaycan Respublikasının prezidenti təyin və vəzifədən azad edir. Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyətinin başçılarını Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikası prezidenti təyin edir.

Yerli icra hakimiyyəti başçıları səlahiyyətləri daxilində müvafiq ərazinin sosial-iqtisadi məsələlərini həll edir. "Əsasnamə"də yerli icra hakimiyyəti başçısı yanında daimi məşvərətçi orqan olan Şura yaradılması nəzərdə tutulurdu. Şuranın tərkibi 15 nəfər müəyyən edildi. Şurada yerli məsələlər müzakirə edilir və baxılması üçün icra hakimiyyətinə təqdim olunur. Şuranın iclasları ayda iki dəfədən az olmayaraq keçirilir.

Azərbaycan Respublikasının Konstitusiyasının IX fəsli yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin hüquqlarını müəyyən edir. Konstitusiyanın 142-ci maddəsinə görə yerli özünüidarəni bələdiyyələr həyata keçirir.

Azərbaycan prezidentinin 27 iyul 1999-cu il fərmanı ilə "Bələdiyyələrin statusu haqqında" qanun qüvvəyə minmişdir.

Bələdiyyələr öz nizamnamələri əsasında fəaliyyət göstərirlər. Nizamnamələr bələdiyyələrin iclaslarında və ya yerli əhalinin yığıncıqlarında qəbul edilir. Hər bir bələdiyyənin möhürü, ştampı və bankda hesabı olur.

Bələdiyyələrin icra orqanı onun icra aparatıdır. İcra aparatı bələdiyyənin sədrindən, müavinlərindən və struktur bölmələrindən ibarətdir.

İyulun 27-də həm də "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" Azərbaycan Respublikası Qanunu qüvvəyə mindi. Qanuna görə 21 yaşı tamam olan vətəndaşlar bələdiyyələrə üzv seçilə bilərlər. Onların səlahiyyəti 5 il müəyyən edilir. İcra orqanlarında işləyənlər, hakimlər, hüquq-mühafizə orqan işçiləri bələdiyyə üzvü seçilə bilməz.

1999-cu il dekabrın 12-də bələdiyyələrə seçkilər keçirildi.

Müstəqil Azərbaycan dövlətinin daha da möhkəmləndirilməsi keçid dövründə bəzi islahatların aparılmasını zəruri edirdi. 24 avqust 2002-ci ildə "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasında referendum aktının keçirilməsi barədə prezident Heydər Əliyev 22 iyun 2002-ci il tarixdə 722 saylı fərman imzaladı. Konstitusiyanın 24 maddəsi üzrə əlavələr və dəyişikliklər edildi. Səsvermədə iştirak edənlərin 96%-i referenduma səs verdi.

Konstitusiyada 105-ci maddəyə edilən dəyişiklik dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Beynəlxalq təcrübəyə əsaslanaraq Nazirlər Kabinetinin statusu artırılır. Nazirlər Kabineti hökumətlə dövlətin vəhdətini təşkil edir. Belə ki, Nazirlər Kabineti respublikanın dövlət büdcəsinin layihəsini hazırlayıb prezidentə təqdim edir; Azərbaycan Respublikasının dövlət büdcəsinin icrasını təmin edir; dövlət iqtisadi proqnozlarının həyata keçirilməsini təmin edir; nazirliklər və digər icra hakimiyyəti orqanlarına rəhbərlik edir, dövlət sosial proqramını həyata keçirir. Ona görə də lazım gələndə ölkə prezidentinin səlahiyyətlərinin müvəqqəti olaraq Milli

Məclisin sədrinə deyil, Nazirlər Kabinetinin rəhbərliyinə verilməsi məqsədəuyğun sayıldı.

1998-ci il iyunun 30-da Azərbaycan Respublikası prezidenti "Naxçıvan Muxtar Respublikasının Konstitusiyası haqqında" Qanunu təsdiq etdi. Naxçıvan MR-in dördüncü Konstitusiyası 5 fəsildən və 50 maddədən ibarətdir. Muxtar Respublikanın Konstitusiyasının əsasını Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda qəbul edilmiş Konstitusiyası təşkil edir.

Azərbaycan Respublikasının tərkibində Naxçıvan muxtariyyətinin əsaslarının yaranması tarixi hazırda qüvvədə olan 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələrində təsdiq edilirdi. Həmin beynəlxalq müqavilələrdə Naxçıvan Azərbaycanın tərkib hissəsi olmaqla onun sərhədləri müəyyən edilmişdi.

1926-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ilk, 1937-ci ildə ikinci və 1978-ci ildə üçüncü Konstitusiyası qəbul edilmişdir.

1999-cu il martın 17-də "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə prezident fərmanı qüvvəyə mindi. 5 fəsil, 31 maddədən ibarət olan qanun Azərbaycan Respublikasında dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqların icarəyə verilməsinin və icarə münasibətlərinin hüquqi əsaslarını müəyyən edir.

Torpağın alqı-satqısını nəzərdə tutan "Torpaq bazarı haqqında" Azərbaycan Respublikası Qanunu 11 iyul 1999-cu ildə mətbuatda dərc edildi. Qanunda torpaq bazarında aşağıdakı əqdlər nəzərdə tutulur: torpaq sahələrinin aldı-satqısı; torpaq sahəsinin nizamnamə (pay) fonduna verilməsi; torpaq sahəsinin girovu (ipotekası); torpaq sahəsinin dəyişdirilməsi; torpaq sahəsinin bağışlanması; torpaq sahəsinin vərəsəlik qaydasında başqasına keçməsi; torpaq sahəsi üzərində istifadə və icarə hüquqlarının başqasına keçməsi.

***Müstəqillik yolunun uğurları.*** Azərbaycanın böyük dövlət xadimi, görkəmli siyasətçi, yeni dövlət idarəçiliyinin banisi Heydər Əliyev bütün şüurlu həyatını, bacarıq və istedadını müstəqil Azərbaycan Respublikasının inkişafına, dünyanın qabaqcıl demokratik dövlətlərindən birinə çevrilməsinə sərf etmişdir. 2003-cü il

dekabrın 12-də Azərbaycan xalqının dahi oğlunun ürəyi döyünməkdən qaldı. Bu böyük itki bütün Azərbaycan xalqını sarsıtdı. Ancaq respublika əhalisi xalqın əbədiyaşar liderinin vəsiyyətlərini, tövsiyələrini, onun hazırladığı ictimai-siyasi kursunu davam etdirmək üçün özündə təpər tapa bildi.

Böyük Heydər Əliyev yolunun layiqli davamçısı İlham Heydər oğlu Əliyev "Azərbaycan Respublikası" adlanan sükanın arxasında inamla dayandı və əzmlə özünün dahi sələfinin işlərini davam etdirdi.

İlham Əliyev təsadüfən dövlət kürsüsünə gəlməmişdir. İlham Əliyev cənabları peşəkar siyasətçidir, Heydər Əliyev məktəbinin yetirməsidir. O, yetkin bir həyat yolu keçmişdir.

1982-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirən İlham Əliyev təhsil aldığı institutda aspirant, müəllim olmuşdur. 1985-ci ildə tarix elmləri namizədi adını almışdı. 1991-ci ildən Moskvada "Oriyent" şirkətinin baş direktoru işləmişdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra 1994-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici əlaqələr üzrə vitse-prezidenti, 1997-ci ildən isə Neft Şirkətinin vitse-prezidenti olmuşdur. 2003-cü ildə Azərbaycan Respublikasının Baş Naziri vəzifəsini daşımışdır. Bu vəzifələrdə İlham Əliyev müəllifi Heydər Əliyev olan respublikada neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya miqyasında uğur qazanmasında, bu sahədə çox çətin diplomatik tapşırıqların yerinə yetirlməsində fəal çalışmış, ölkəyə investisiyaların gəlməsində mühüm rol oynamışdır.

Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən İlham Əliyev həm də ölkədə aparıcı partiya olan Yeni Azərbaycan Partiyasının (YAP) lideridir. Belə ki, YAP-ın I qurultayında (1999-cu il) partiya sədrinin müavini, II qurultayında (2001-ci il) birinci müavini seçilmişdir. 2000-ci ildə Milli Məclisə üzv seçilmişdir. Milli Məclisin üzvü kimi İlham Əliyev geniş fəaliyyət göstərmiş, mütəmadi seçicilərinin arasında olmuşdur.

İlham Əliyev Avropa Şurasının Parlament Assambleyasında (AŞPA) Azərbaycan parlamentinin daimi nümayəndə heyətinin rəhbəri olmuşdur. AŞPA-dakı fəaliyyəti onu populyarlaşdırmışdır. 2003-cü ilin yanvarında AŞPA-nın vitse-

prezidenti və Büro üzvü seçilmişdir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini olduğu kimi Avropa Şurasına çatdırmaqda İlham Əliyevin rolu əvəzsizdir.

2003-cü ilin prezident seçkilərində qələbə qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

İlham Əliyev 2008 və 2013-cü illərdə də prezident seçkilərində xalqın ümumi dəstəyi ilə yüksək səslə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Prezident seçildiyi ilk gündən İlham Əliyev Heydər Əliyevin ictimai-siyasi, iqtisadi və mənəvi idarəçilik kursunu inamla davam etdirir.

**Praktiki məşğələ**

**Plan:**

1. Azərbaycanda milli dövlətçilik ənənələrinin bərpa olunması. Müstəqil idarəçilik sisteminin yaradılması.
2. Ermənistanın Azərbaycana təcavüzü, Azərbaycanın suveren hüquqlarının pozulması.
3. Azərbaycanın idarəçilik sistemində sabitliyin yaradılması və möhkəmləndirilməsi uğrunda mübarizə.
4. Azərbaycanda hüquqi, demokratik dövlət yaratmaq yolunda uğurlu addımlar.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikası 1991-2001. B., 2001
2. Əliyev H. Müstəqillik yollarında. I-IV cildlər. B., 1997
3. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B., 2005
4. Qəndilov S. Müstəqillik illərinin düşüncələri. B., 2006
5. Qəndilov S. Dövlətçilik təfəkkürü, idarəetmə məharəti. B., 2009
6. Qəndilov S., Əhmədov E., Nəsirov E. Dövlət idarəçiliyində varislik, novatorluq və dinamizm. I-II c. B., 2007-2009
7. Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası. B., 2000
8. Mehdiyev R. Keçmişin işığında. Demokratiyaya gedən yol. B., 2008
9. Nəsirov E. Azərbaycan nefti və beynəlxalq münasibətlər. 1991-1999-cu illər. B., 1999
10. Ronald Yanq. Azadov Eldar. Dövlət idarəetməsində islahatlar: nailiyyətlər, problemlər, perspektivlər.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. Bakı, 1997
2. Heydər Əliyev və Şərq. Altı cilddə. Birinci kitab. Bakı, 2002
3. Heydər Əliyev və Şərq. Altı cilddə. İkinci kitab. Bakı, 2002
4. Azərbaycan 1994. Milli dövlətçilik sınaq qarşısında. Birinci hissə. Bakı, 2002
5. Nərimanov N. Məqalələr, nitqlər, cild I. Bakı, 1971
6. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciətinə həsr olunmuş elmi-praktik konfransın materialları. Bakı, 2001
7. Azərbaycan tarixi.Yeddi cilddə. Birinci cild. (məsul redaktor İ.H.Əliyev). Bakı, 1998
8. Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar. 1918-1920-ci illər. Bakı, 1998
9. Azərbaycan Respublikası. 1991-2001. Bakı, 2001
10. Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti 1918-1920. Bakı, 1990
11. Azərbaycanda dövlətçilik və onun rəmzləri: Tərtib edəni və mətnin müəllifi Nailə Vəlixanlı. Bakı, 2000
12. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989
13. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990
14. Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 1951
15. Bünyadov T. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, 1960
16. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti. Bakı, 1985
17. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989
18. Bünyadov Z. Qırmızı terror. Bakı, 1993
19. Cəfərov Ə. İnsanlığın səhəri. Bakı, 1994
20. Cənubi Azərbaycan tarixinin oçerkləri (1828-1917). Bakı, 1985
21. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası (Şeyx Məhəmməd Xiyabaninin məqalə və nitqləri) II cild. Bakı, 1983
22. Cəmənzəminli Y.V. Xarici siyasətimiz. Bakı, 1993
23. Cəmənzəminli Y.V. Tarixi, coğrafi və iqtisadi Azərbaycan. Bakı, 1993
24. Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları. Bakı, 1982
25. Dünya Azərbaycanlılarının I Qurultayı (9-10 noyabr 2001-ci il). Bakı: 2002
26. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993
27. Əliyev K., Əliyeva F. Azərbaycan antik dövrdə. Bakı, 1997

28.Fazili A. Atropatena e.ə. IV – er. VII əsri. Bakı, 1992
29.Fərzəliyev Ş.F. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə). Bakı, 1983
30.Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər) Bakı, 1995
31.Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. Bakı, 1993
32.Həsənli C. Güney Azərbaycan Tehran-Bakı-Moskva arasında (1939-1945) Bakı, 1998
33.Həsənov Əli. Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991-avqust 1997). Bakı, 1997
34.Həsənov Əli. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, 1998
35.Həsənov Əli. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı, 2000
36.Xiyabani Ş.M. Azərbaycan və Azərbaycan demokratiyası. Bakı, 1961
37.İbrahimov C.M. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı, 1958
38.İsgəndərov A. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı, 1999
39.İsmayılov E. Azərbaycan SSR-in sosial strukturu. Bakı, 1990
40.Qarabağnamələr. I c. Bakı, 1989
41.Qarabağnamələr. II c. Bakı, 1992
42.Qaffarov T. Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001
43.Qasımov M. Xarici dövlətlər və Azərbaycan. Bakı, 1998
44.Qaşqay S. Manna dövləti. Bakı, 1992
45.Qazıyev S.M. Qədim Mingəçevir. Bakı, 1952
46.Qeybullayev Q. Qarabağ: etnik və siyasi tarixinə dair. Bakı, 1990
47.Quliyev Ə.N. Azərbaycan-Rusiya münasibətləri tarixindən (XV-XVIII əsrlər). Bakı, 1958
48.Mahmudov Y.M. Öyrənilməmiş səhifələr. Bakı, 1972
49.Mahmudov Y.M. Səyyahlar Azərbaycana gəlir. Bakı, 1977
50.Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı, 1980
51.Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan, Bakı, 1985
52.Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri (XV əsrin II yarısı). Bakı, 1986
53.Mahmudov Y.M. Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: Ən qədim zamanlardan islam dininin qəbuluna qədərki dövrdə Azərbaycan dövlətçiliyi. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. № 1, 2001 (s.57-65)
54.Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, 2002

55. Məmmədova F. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993
56. Məmmədov R.A. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, 1977
57. Məmmədzadə M.V. Milli Azərbaycan hərəkatı. Bakı,1992
58. Musayev İ. Azərbaycan-Türkiyə ilişkiləri (1917-1922 yıllar). Bakü, 1998
59. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1998
60. Musayev İ. Böyük dövlətlər və "erməni məsələsi" (XIX əsr). Bakı, 2002
61. Mustafazadə T.T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı, 2002
62. Mustafayeva N. Cənubi Azərbaycan xalqları. Bakı, 1995
63. Müstəqil dövlətimiz və Parlamentimiz. Azərbaycan Respublikası Milli Məclisinin nəşri. Bakı, 2001
64. Nemətova M.X. Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair. Bakı, 1959
65. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990
66. Paşayev A. Köçürülmə. Bakı, 1995
67. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001
68. Piriyev V. Azərbaycan tarixi coğrafiyası. Bakı, 2002
69. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990
70. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Bakı,1990
71. Rəsulzadə M.Ə. Azərbaycan davası. Bakı, 1998
72. Şüküroğlu L. Cümhuriyyət hökuməti repressiya məngənəsində. Bakı, 2000
73. Tariximizin faciəli səhifələri. SOYQIRIM. Bakı, 2000
74. Tağıyeva Ş. 1920-ci il Təbriz üsyanı. Bakı, 1990
75. Vahidov R.M. Mingəçevir III-VII əsrlərdə. Bakı, 1965
76. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, 1974
77. Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993
78. Алиев И.Г. Каспийская нефть Азербайджана. Москва, 2003
79. Нариманов Н. Избранные произведения (в трех томах). Баку, 1989
80. Аббасбейли Агалар, Гасанов Али. Азербайджан в системе международных и региональных организаций. Баку, 1999
81. Аббасбейли А. Политика России на Кавказе на пороге XXI века. Баку, 1999
82. Алиев И.Г. История Мидии. Баку, 1960
83. Алиев И.Г. Нагорный Карабах: история, факты, события. Баку, 1989
84. Алиев К.Г. Писатели античности об Азербайджане. Баку, 2001
85. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991

86. Асадов С. Миф о “великой Армении”. Баку,1999
87. Ашурбейли С.Б. Государство Ширваншахов. Баку, 1983
88. Бабаев И.А. Города Кавказской Албании в IV в до н.э.- в III в н.э. Баку, 1990
89. Бакиханов А. Гюлистани-Ирам. Баку, 1991
90. Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира. Баку, 1925
91. Бушев П.П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1586-1612 гг. Москва, 1976
92. Бушев П.П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1613-1621 гг. Москва, 1987
93. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Баку, 1982
94. Джафарзаде И.М. Гобустан. Баку, 1973
95. Дъяконов И.М. История Мидии. Москва-Ленинград, 1956
96. Зевакин Е.С. Азербайджан в начале XVII века. Баку, 1929
97. Иванов М.Н. Национально-освободительное движение в Иране 1918-1922 гг. Москва, 1961
98. Кашкай С.М. Из истории Маннейского царства. Баку, 2000
99. Минорский В.Ф. История Ширвана и Дербенда. М: 1963
100. Мустафаев Дж.М. Северные ханства Азербайджана и Россия (конец XVIII-начало XIX в.) Баку, 1989
101. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку, 1993
102. Петрушевский И.П. Государства Азербайджана в XV веке. - Сборник статей по истории Азербайджана, вып. I. Баку, 1949
103. Петрушевский И.П. Азербайджан в XVI-XVII вв. - Сборник статей по истории Азербайджана, вып. I, Баку, 1949
104. Петрушевский И.П. Ислам в Иране в VII-XV вв. Ленинград, 1966
105. Рахмани А.А. “Тари-и алам арай-и Аббаси” как источник по истории Азербайджана. Баку, 1960
106. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700 годы) Баку, 1981
107. Тагиева Ш.А. Национально-освободительное движение в Иранском Азербайджане в 1917-1920 гг. Баку, 1956
108. Черный Январь. Документы и материалы. Баку, 1990
109. Эфендиев О.А. Образование азербайджанского государства Сефевидов в начале XVI века. Баку, 1961

110. Эфендиев О.А. Азербайджанское государство Сефевидов XVI веке. Баку, 1981

**M Ü N D Ə R İ C A T**

**Səh.**

**GİRİŞ**..........................................................................................................6
**Azərbaycanın dövlətçilik tarixinin predmeti** ..................................................9
**Azərbaycanın dövlətçilik tarixinin metodu** ....................................................10
**Dövlətçilik tariximizin mərhələləri**..................................................................12
**Dövlətin meydana gəlməsi. Dövlət nədir?**.........................................................17
**Qədim Şərq dövlətləri** ......................................................................................25

**I FƏSİL. QƏDİM AZƏRBAYCANDA İLK DÖVLƏT QURUMLARI**..........................................................................31

**II FƏSİL. AZƏRBAYCAN ƏRAZİSİNDƏ QƏDİM DÖVLƏTLƏR** .......33
**Manna dövləti** ..........................................................................33
**Midiya dövləti** .........................................................................38
**Atropatena dövləti** ...................................................................41
**Albaniya**....................................................................................44

**III FƏSİL. ERKƏN ORTA ƏSRLƏR DÖVRÜNDƏ AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ (III-VIII ƏSRLƏR)** ....................................47
**Atropatena və Albaniyada feodal münasibətlərin təşəkkülü**...47
**Azərbaycan III-VIII əsrlərdə**....................................................53

**IV FƏSİL. AZƏRBAYCANDA DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN BƏRPASI. IX-XI ƏSRLƏR MÜSTƏQİL FEODAL DÖVLƏTLƏRİ**.......................................................................59
**Azərbaycan ərəb xilafətinin hakimiyyəti altında**.......................59
**Xilafətin torpaq və vergi siyasəti**................................................62
**Şirvanşahlar dövləti**.................................................................65
**Sacilər dövləti**...........................................................................67

Salarilər dövləti.......................................................................67
Rəvvadilər dövləti....................................................................68
Şəddadilər dövləti....................................................................69
Azərbaycan Atabəylər dövləti (1136-1225)...............................71

V FƏSİL. XIII-XIV ƏSRLƏRDƏ AZƏRBAYCANDA
MONQOL İDARƏÇİLİYİ..........................................................80
Azərbaycanın monqollar tərəfindən işğalı. Hülakülər dövləti....80

VI FƏSİL. XV ƏSRDƏ AZƏRBAYCANDA DÖVLƏTLƏR –
ŞİRVANŞAHLAR, QARAQOYUNLU VƏ AĞQOYUNLU
DÖVLƏTLƏRİ..........................................................................86
Şirvanşahlar dövləti..................................................................86
Qaraqoyunlu dövləti..................................................................87
Ağqoyunlu dövləti.....................................................................89

VII FƏSİL. AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ...............................98

VIII FƏSİL. AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNDƏ XANLIQLAR
DÖVRÜ..........................................................................................131
Azərbaycan XVII əsrin birinci yarısında. Səfəvilər dövlətinin
tənəzzülü. Azərbaycanın Xəzərsahilli ərazilərinin Rusiya
tərəfindən işğalı.........................................................................131
Azərbaycan xanlıqları..........................................................135

IX FƏSİL. RUSİYA VƏ İRAN ƏSARƏTİ ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA
İDARƏÇİLİK (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ).....................144

**X FƏSİL. XIX ƏSRİN İKİNCİ – XX ƏSRİN BİRİNCİ YARISINDA CƏNUBİ AZƏRBAYCANDA MİLLİ DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİ**.......................................................................161

**XI FƏSİL. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (I RESPUBLİKA). (1918-1920-Cİ İLLƏR)**............................................................177

**XII FƏSİL. AZƏRBAYCANDA SOVET DÖVLƏT İDARƏÇİLİYİ SİSTEMİ (II RESPUBLİKA) (1920-1991-Cİ İLLƏR)** ...........188

**XIII FƏSİL. MİLLİ DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN CAĞDAŞ MƏRHƏLƏSİ. MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI (III RESPUBLİKA)**.....................................207

**İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT**..............................................................234